AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

MƏHƏBBƏT PAŞAYEVA

# AZƏRBAYCANLILARIN AILƏ MƏRASİMLƏRİNDƏ ETNİK ƏNƏNƏLƏR

*(XIX–XX əsrin əvvəlləri.
Şəki-Zaqatala bölgəsinin materialları üzrə)*

Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – 2008

BBK 55
P-26

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının 31.03.2008-ci il tarixli qərarı ilə nəşr olunur.*

Ön sözün müəllifi:
filologiya elmləri doktoru, professor **Qəzənfər Paşayev**

Elmi redaktor:
tarix elmləri doktoru **Nərgiz Quliyeva**

Nəşriyyat redaktoru **İslam Sadıq**

Rəyçilər:
tarix elmləri doktoru **G.Məmmədli**
tarix elmləri namizədi **V.Mahmudova**

P-26 **Məhəbbət Paşayeva. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr** (XIX–XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialları üzrə). Azərnəşr. Baki, 2008, 308 səh+24 səh. rəngli.
(E-mail: mehebbetpashayeva@yahoo.com)

Tarix elmləri namizədi, dosent Məhəbbət Paşayeva uzun illərdir ki, xalqımızın etnoqrafiyası ilə məşğul olur. Onun Xınalıq haqqındakı tədqiqatları elmi ictimaiyyət arasında maraq doğurmuşdur.

Müəllifin bu kitabında Şəki-Zaqatala bölgəsinin etnik mənzərəsi haqqında geniş bilgilər verilmiş, Azərbaycan türklərinin, avar, saxur, rutul, ləzgi, udi və ingiloyların evlilik, doğum, yas mərasimləri tədqiq olunmuş, dini-mifoloji inanclarına da xeyli yer ayrılmışdır.

Kitab əsasən tarixçilər, etnoqraflar və filoloqlar üçün nəzərdə tutulmuşdur. Sadə və anlaqlı bir dildə yazılmış bu kitabdan bütün oxucular istifadə edə bilərlər.

$\frac{0505000000}{M-651(07)2008}$ qrifli nəşr

© Məhəbbət Paşayeva, 2008



# KİTABIN İCİNDƏKİLƏR

**ÖN SÖZ** .......... 5

**GİRİŞ** .......... 8

**I FƏSİL**
**Şəki-Zaqatala bölgəsinin etnik mənzərəsi. Qədim etnogenetik əlaqələr** .......... 13
1. Bölgə haqqında qısa məlumat .......... 13
2. Bölgə əhalisinin etnik tərkibi və etnik tarixi .......... 15

**II FƏSİL**
**Evlilik mərasimləri** .......... 64
1. Azərbaycan türkləri .......... 67
2. Avarlarda evlilik mərasimləri .......... 112
3. Saxurlar və rutullarda evlilik mərasimləri .......... 124
4. Ləzgilərdə toy mərasimləri .......... 136
5. Udilərin evlilik mərasimləri .......... 138
6. İngiloyların evlilik mərasimləri .......... 156

**III FƏSİL**
**Doğum mərasimləri** .......... 172
1. Azərbaycan türkləri .......... 172
2. Avarlarda, saxurlarda və rutullarda doğum adətləri .......... 183
3. Udilərdə doğum adətləri .......... 186
4. İngiloyların doğum adətləri .......... 191

**IV FƏSİL**
**Qədim dəfn-yas mərasimləri** .......... 205
1. Azərbaycan türklərinin yas mərasimləri .......... 205
2. Avarların, saxurların və rutulların yas mərasimləri .......... 225

3. Udilərin yas mərasimi ................................ 228
4. İngiloyların yas mərasimləri ........................ 237

**V FƏSİL**
**Ailə mərasimlərində inancların yeri**
Azərbaycan xalq inanclarının qədim kökləri ..... 243
1. Toy mərasimlərində inancların yeri ............. 245
2. Doğum adətlərində xalq inancları ................ 260
3. Dəfn və yas məriasimləri ilə bağlı inanclar .... 279

**Məlumatçıların siyahısı** ................................ 290

**Qaynaqlar** ................................................ 294

**İxtisarlar** ................................................ 307

**Şəkillər (rəngli, 24 səh.)** ..........................................



## BƏNZƏRSİZ ETNOSLAR HAQQINDA BƏNZƏRSİZ ƏSƏR

Möcüzəyə bənzər, əslində bənzərsiz Xınalıq və xınalıqlar, onların bənzərsiz dili, adət-ənənələri, məişəti haqqında tarix elmləri namizədi, dosent Məhəbbət Paşayevanın "Azərbaycanın qədim diyarı Xınalıq" (Bakı, 2006) əsərini böyük maraqla, müəllifə qədirşünaslıqla oxumuşam. Odur ki, alim Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türkləri və avar, saxur, rutul, udin və ingiloyların doğum, nişan, toy, yas və s. mərasimlərinə, adət-ənənələrinə, məişətinə, dillərinə, bu etnosların keçmişinə və müasir durumuna həsr olunmuş yeni əsərinə ön söz yazmağımı təmanna edəndə, bir yandan mövzunun aktuallığına, digər tərəfdən də tədqiqatçının qələminə və təfəkkürünə artıq bələd olduğuma görə məmnuniyyətlə razılıq verdim.

Hər şeydən əvvəl onu deyim ki, alimin söz açdığı bu etnosların başqa azsaylı xalqlar və etnik qruplar kimi Azərbaycanın maddi və mənəvi mədəniyyətinin təşəkkülü və inkişafında məxsusi yeri vardır. Bununla belə, bu etnik qruplar Azərbaycan türkləri ilə ümumi mənəvi dəyərlərə malik olsalar da, bu etnosların hər birinin özünəməxsus xüsusiyyətləri, əsrlərlə öncə olduğu kimi qalmış və Azərbaycanın mənəvi mədəniyyətini zənginləşdirmişdir. Təsadüfi deyildir, XX əsrini əvvəllərində ölkəmiz "Etnoqrafik xəzinələr muzeyi" kimi dəyərləndirilmişdir.

Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin kəlamı çox mətləblərdən söz açır: "Respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən insanlardır".

Azərbaycan tarixində, xalqın yaddaşında qurub-yaradan prezident kimi əbədi yaşayacaq İlham Əliyev cənab-

larının mədəniyyətin ən ümdə nişanəsi olan yolların çəkilməsinə – Xınalıq şosse yolu ilə başlaması etnik qruplara qayğıdan, onların Azərbaycanın tamhüquqlu vətəndaşları olduğundan xəbər verir.

Doğrudur, Azərbaycanın canlı tarixini göz önünə gətirən bu etnik qruplar, onların tarixi keçmişi və bu günü barədə Q.Qeybullayev, Q.Voroşil, Q.Cavadov, Z.Gülər, V.Buduqlu-Piriyev, R.Tahirov kimi tədqiqatçılar sanballı əsərlər yazmışlar. Məhəbbət Paşayeva isə bu etnosların məişətini, həyat tərzini, adət-ənənənəsini tədqiq etmişdir. Tədqiqatçı qarşıya məqsəd kimi Şəki-Zaqatala bölgəsində məskunlaşan azsaylı: avar, saxur, rutul, udin, ingiloy kimi etnik qrupların doğum, ölüm və toy mərasimlərinin Azərbaycan türklərinin mərasimləri ilə qarşılıqlı-müqayisəli, tarixi-etnoqrafik təhlilini qoymuş və məqsədinə çatmışdır. Eləcə də tədqiqatçı Şəki-Zaqatala bölgəsinin etnik mənzərəsini, qədim etnogenetik əlaqələri, bölgə əhalisinin etnik tərkibini və etnik tarixini də əsaslı surətdə araşdırmış, ortaya bu bənzərsiz etnoslar haqqında dəyərli bir əsər qoymuşdur.

Araşdırmanın bu səpkidə aparılması mənəvi mədəniyyət tariximizin ümumi dəyərlərinin öyrənilməsi ilə bərabər, etnosların etnik xüsusiyyətlərinin üzə çıxarılmasına imkan vermiş və tədqiqatçı istəyinə nail olmuşdur.

Bizim fikrimizcə, tədqiqatçının bu əsərdə uğuru bir də ondan ibarətdir ki, o, bu etnlsların Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi olduğunu inkaredilməz faktlarla isbatlamış, adət-ənənələrimizin oxşar cəhətlərini göstərməklə bərabər, bu etnik qrupların özünəməxsus xüsusiyyətlərini açıb göstərə bilmişdir. Bu özünəməxsusluq, əsərdən göründüyü kimi, həm doğum, həm toy, həm də yas mərasimlərində özünü göstərir.

Xüsusi vurğulamaq lazımdır ki, belə bir mövzuya təpədən-dırnağa kim milli, lakin millətçilikdən kənar olan,



ürəyi bütün insanlara məhəbbətlə, bəşəri hisslərlə döyünən tədqiqatçı müraciət edə bilərdi.

Əsərin hər səhifəsində Məhəbbət Paşayevanın bu etnoslara, onların adət-ənənəsinə, məişətinə, həyat tərzinə sayğısı, ehtiramı və məhəbbəti açıq-aşkar görünür.

Kitabın elmi dəyərini etnoqraflar qiymətləndirəcəklər. Biz isə bir folklorşünas kimi bu başdan onu deyə bilərik ki, ağır zəhmətin səmərəli nəticəsi olan bu əsər bir çoxlarının stolüstü kitabına çevriləcək, tədqiqata cəlb olunan etnosların qızları gəlin gedəndə onların cehizlərində şərəfli yer tutacaq.

**Qəzənfər Paşayev,**
*filologiya elmləri doktoru, professor*

**Toplumun üç təməl daşı var:**
**Ailə, dövlət, millət.**

***Ziya Gökalp***

## GİRİŞ

Mənəvi dəyərlər və adət-ənənələr əsasında qurulan ailə cəmiyyətin təməl daşıdır. Köklü, milli və mənəvi dəyərlərlə dolu olan, sağlam təməllər üstündə qurulan ailə cəmiyyətin və dövlətin ən böyük gücüdür. Bütün tarixi inkişaf mərhələlərində cəmiyyətdə, eyni zamanda xalqın mədəni səviyyəsində baş verən dəyişikliklər ilk növbədə ailədə öz əksini tapır. Məhz ailə məişəti minilliklər boyu mövcud olan əxlaq normalarını, adət-ənənələr və mərasimləri müəyyən dərəcədə özündə qoruyub saxlaya bilir. Bu baxımdan Azərbaycan xalqının sahib olduğu milli dəyərləri mühafizə etmək və yaşatmaq üçün ailənin milli-mənəvi dəyərlərinin qorunması mühüm rol oynayır. İnsanın mənəvi keyfiyyətləri, milli dəyərləri, davranışının əsas prinsipi və normaları məhz ailədə formalaşır və onun mənəvi simasını müəyyənləşdirir. Azərbaycan mərasimlərinin və onların mənşəyinin araşdırılması xalqın mənəvi həyatının öyrənilib araşdırılması deməkdir. Xalqın zəngin həyat təcrübəsini, yaşayış tərzini nəsildən-nəsilə keçən adət və ənənələrində, ağızdan-ağıza yayılan zəngin folklor nümunələrində tapmaq mümkündür. Xalqın maddi və mənəvi həyatının etnoqrafik səpkidə öyrənilməsində ailə məişətinin və ailə mərasimlərinin tədqiq edilib araşdırılması zəruri şərtlərdən biridir.



Müasir dövrdə Azərbaycan etnoqrafiya elminin qarşısında duran vəzifələrdən biri də azərbaycanlıların ailə mərasimlərini, onların mənşəyini, tarixi köklərini üzə çıxarmaqdır. Qeyd etmək lazımdır ki, bu gün azərbaycanlılar dedikdə, Azərbaycan türkləri ilə bərabər Azərbaycanda yaşayan və Azərbaycanı onlar qədər doğma vətəni sayan avarlar, rutullar, saxurlar, ingiloylar, ləzgilər, udilər, talışlar, xınalıqlar, buduqlar kimi bir çox etnos və etnik qruplar da nəzərdə tutulur. Azərbaycanlıların ailə mərasimlərinin araşdırılmasının məhz bu səpgidə aparılması mənəvi mədəniyyət tariximizin umumi dəyərlərinin öyrənilməsi ilə bərabər, ailə mərasimlərinin spesifik etnik xüsusiyyətlərinin də üzə çıxarılmasına imkan verir.

Bu gün Azərbaycan xalqının xarici düşmənləri, xüsusilə, hər zaman Rusiyaya arxalanaraq torpaqlarımızı işğal etməkdən gözü doymayan erməni şovinistləri respublikamızda yaşayan azsaylı xalqları və etnik qrupları Azərbaycan dövlətinə qarşı qaldırmaq, qarşıdurma yaratmaq, Azərbaycanı bölgələrə ayırmaqla parçalamaq üçün dəridən-qabıqdan çıxırlar. Xalqlar arasında etnik qarşıdurmaya səy göstərən qüvvələrə qarşı tarixi həqiqətləri ortaya çıxaran və tutarlı elmi dəlillərə söykənən tarixi-etnoqrafik tədqiqatlara ehtiyac vardır. Bu baxımdan Azərbaycan xalqının mənəvi dəyərlərinin mühüm bir parçası olan ailə mərasimlərinin Azərbaycan türkləri ilə bərabər özünü vahid Azərbaycan xalqının ayrılmaz bir hissəsi sayan udi, ingiloy, saxur, rutul, xınalıq, qrız, haput kimi Azərbaycanda yaşayan bir çox etnik qrupların da qədim mərasimlərinin qarşılıqlı-müqayisəli şəkildə tarixi-etnoqrafik tədqiqini qarşımıza məqsəd qoyduq.

Azərbaycanın Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala kimi tarixi-etnoqrafik bölgələri, yəni Azərbaycan türkləri ilə bərabər azsaylı xalqların və etnik qrupların da kompakt şəkildə yaşadığı bu bölgələr hər zaman

etnoqrafların diqqət mərkəzində olmuşdur. Məlumdur ki, əlverişli təbii-coğrafi şəraiti nəticəsində hələ çox qədim dövrlərdən bəri Azərbaycan ərazisinə axışan müxtəlif tayfalar müasir Azərbaycan xalqının etnik təşəkkülündə özünəməxsus rol oynamışlar. Nəticədə Azərbaycan ərazisində minilliklər boyu formalaşan spesifik, rəngarəng və bu gün azərbaycanlıların zəngin mənəvi irsini təşkil edən ənənəvi mədəniyyət formalaşmışdır. Təsadüfi deyil ki, qədim etnik ənənələrini qoruyub saxlayan Azərbaycan "etnoqrafik xəzinələr muzeyi" kimi dəyərləndirilmişdir (bax: 114, 19).

Əsrlər boyu birgə yaşayan həm Azərbaycan türkləri, həm də tarixin müəyyən dövrlərindən Azərbaycanı özlərinə məskən seçmiş avarlar, saxurlar, rutullar, ingiloylar, udilər, talışlar, xınalıqlar, harıtlar, buduqlar kimi etnoslar zaman keçdikcə Azərbaycan türkləri ilə ümumi, vahid mənəvi dəyərlərə sahib olsalar da, bu etnosların hər biri öz etnik spesifikliyini də müəyyən dərəcədə qoruyub saxlamaqla bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə özünəməxsus rəng qatmışlar. Qeyd etmək lazımdır ki, bu spesifiklik özünü daha çox toy, doğum, yas kimi ailə mərasimlərində büruzə verir.

Ailə-məişəti və onunla bağlı mərasim və ənənələrin araşdırılması tarixən qarışıq və qonşuluq şəraitində məskunlaşmış xalqların etnik ənənə və spesifik xüsusuyyətlərinin öyrənilməsi ilə bərabər, etnogenez, etnogenetik əlaqələr, bir ərazidə yaşayan xalqların etno-mədəni münasibətlərinin də aşkara çıxarılmasında həlledici rol oynayır.

Bu gün Azərbaycanda türkdilli azərbaycanlılarla yanaşı özlərini onlar qədər azərbaycanlı sayan tatlar, ləzqilər, talışlar, avarlar, saxurlar, udilər, ingiloylar, xınalıqlar, qrızlar, hapıtlar, buduqlar kimi bir çox azsaylı xalqlar və etnoslar Azərbaycan türkləri kimi Azərbaycan dövlətinin bərabər hüquqlu vətəndaşıdırlar. Dünyanın etnik xəritəsində yalnız Azərbaycanda qeydə alınan və nadir etnoslardan sayılan udilər, ingiloylar, qrızlar, buduqlar, xınalıqlar, haputlar bu gün də Azərbaycanda öz etnik kimliyini qoruyub saxlamaqdadırlar. Məhz buna görə də çoxsaylı Azərbaycan turkləri ilə yanaşı bu ərazidə məskunlaşan hər bir etnosun və etnik qrupların mənəvi mədəniyyətinin, ailə məişəti ilə bağlı adət və ənənələrinin qarşılıqlı-müqayisli şəkildə öyrənilməsi vahid, ümummilli mənəvi dəyərlərimizin qorunub saxlanması baxımından mühüm əhəmiyyət kəsb edir.



Azərbaycanın nadir etnoqrafik xəzinələrindən sayılan Şəki-Zaqatala bölgəsinin materialları əsasında tədqiqata cəlb edib oxuculara təqdim etdiyimiz bu monoqrafiyada əsas məqsəd azərbaycanlıların, yəni həm Azərbaycan türklərinin, həm də bölgədə məskun olan avar, udi, ingiloy, saxur, rutul kimi etnosların qədim ailə-məişət ənənələrinin tarixi-etnoqrafik baxımdan təhlil edilməsi və minilliklər boyu formalaşan qədim ailə mərasimlərinin reqional xüsusiyyətlərinin üzə çıxarılmasıdır. Qeyd etmək lazımdır ki, təqdim olunan əsərdə ilk dəfə olaraq bölgə əhalisinin ailə məişəti qarşılıqlı, müqayisəli şəkildə təhlil və tədqiq edilmişdir. Tarix boyu bir ərazidə qarışıq şəkildə yaşayan bu etnosların ailə məişətinin müqayisəli təhlili etnogenetik bağları üzə cıxaran xüsusiyyətlərin araşdırılmasını asanlaşdırır.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalı başa çatdırıldıqdan sonra Rusiya imperiyası Azərbaycan türkləri ilə bərabər avarlar, ingiloylar, udilər kimi müxtəlif etnik qrupların da yaşadığı Azərbaycanın şimal-qərb ərazilərində daha fəal dini-milli siyasət aparırdı. İmperiya tarixçiləri Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türklərini "tatar", "muğal", "padar", "tərəkəmə" kimi müxtəlif adlarla bölməklə, xalqı parçalamağa çalışırdı. Rusiya imperiyası öz məkrli siyasəti nəticəsində

bölgədə məskun olan ingiloyları isə dini zəmində parçalamağa nail oldu. XIX əsrdə rus məmurları siyahıyaalma sənədlərində ingiloyları qəsdən "gürcü" və "məhəmmədi gürcü" kimi qondarma adlarla bölərək onların etnik mənşəyini unutdurmağa çalışırdılar. Bölgədə məskun olan avar, rutul, saxurlar da eyni məqsədlə imperiya tarixşünaslığında ümumiləşdirərək "Car-Balakən ləzgiləri" adlandırılırdı.

Beləliklə Rusiya imperiyası və imperiyanın mənafeyinə xidmət edən XIX əsrin rus tarixşünaslığında azərbaycanlıların qədim mədəni irsini saxtalaşdıraraq minilliklərlə davam etmiş Azərbaycan tarixini unutdurmaq siyasəti yürüdülürdü.

Azərbaycanın Şəki-Zaqatala bölgəsinin əhalisinin ailə-məişəti ilə bağlı ilk təsvirlər əsas etibarilə XIX əsrin II yarısına aiddir. Lakin bu məlumatlar səthi və təhriflərlə dolu olduğu üçün ərazidəki etnik mənzərə haqqında aydın və dolğun təsəvvür yaratmaqda çətinlik törədir. Odur ki, monoqrafiyada əsas etibarilə 1990–1993 və 2000-ci, 2007–2008-ci illərdə Şəki-Zaqatala bölgəsində yaşlı nəslin nümayəndələrindən topladığımız etnoqrafik çol materiallarına, eyni zamanda Strabon, Plutarx, Ptolomey, Kalankatlı kimi qədim və antik dövr müəlliflərinə istinad etməklə bərabər, müxtəlif səciyyəli elmi-nəzəri, etnoqrafik səpgidə yazılmış tədqiqatçıların əsərlərinə də müraciət edərək araşdırma aparmağa səy etmişik.



# I FƏSİL

## ŞƏKİ-ZAQATALA BÖLGƏSININ ETNİK MƏNZƏRƏSİ. QƏDİM ETNOQENETİK ƏLAQƏLƏR

**Bölgə haqqında ümumi məlumat.** Müasir dövrdə Azərbaycan Respublikasının şimal-qərbini əhatə edən Şəki-Zaqatala bölgəsinə Qax, Balakən, Zaqatala, Şəki, Oğuz, Qəbələ rayonları daxildir. Nadir və zəngin tarix xəzinəsi sayılan şimal-qərbi Azərbaycan ərazisi haqqında dolğun məlumat əldə etmək üçün onun tarixi keçmişini gözdən keçirmək lazımdır. Azərbaycanın bu bölgəsində ən qədim və qüdrətli dövlətlərindən biri olan **Qafqaz Albaniyasının**[1] ən mühüm və mərkəzi vilayətləri yerləşirdi. Şəki, Kambisena, Qəbələ kimi tarixi Albanya vilayətləri məhz bu günkü şimal-qərbi Azərbaycan ərazisini əhatə edirdi. Albaniya dövlətinin süqutundan sonra da bu ərazidə Şəki xanlığı, Ilisu sultanlığı və Car-Balakən camaatları kimi qurumlar fəaliyyət göstərirdi.

XIX əsrin əvvəllərindən etibarən Rusiya imperiyası Azərbaycanı işğal edərək qədim dövlətçilik ənənələrimizi məhv etdi, Azərbaycan ərazisində – öz mənafeyinə uyğun inzibati ərazi islahatları apardı. Müstəmləkəçi Rusiyanın apardığı inzibati-ərazi islahatları nəticəsində Azərbaycanın şimal-qərb torpaqlarının bir hissəsi-Samur ətrafındakı ərazilər (Saxur, Gelmes, Söyüd, Qurdul, Xiyağ, Muslax, Mikik kəndləri) Samur dairəsinə qatıldı. Bölgənin qalan

[1] *E. ə. IV əsrdən eranın VIII əsrinə qədər böyük bir tarixi dövrü əhatə edən qədim Alban dövləti qərbdə Alban, şərqdə Aran, el arasında isə çox zaman Oğuz ölkəsi kimi tanınırdı. Alban-Aran dövlətini 26 iri və onlarla kiçik etnoslar təmsil edirdilər. Onların əksəriyyəti türkmənşəli tayfalar idilər və bu tayfaların kökü eradan əvvəlki minilliklərə gedib çıxır. VII əsrə aid ərəb mənbələrində də Albaniyanın türk torpağı olduğu və burada türklərin cəmləşərək bir-birilə qarışdığı yazılırdı (11, 57).*

ərazisi isə 1859–60-cı ilədək Car-Balakən, daha sonra isə Zaqatala dairəsinə daxil edildi. Zaqatala dairəsinə müasir Balakən, Zaqatala, Qax rayonlarının ərazisi, həmçinin Alazan çayının sağ sahillərində yerləşən Qambor dağlarının şimal-şərq yamacları daxil idi (34, 8). XIX əsrdə Zaqatala dairəsi inzibati cəhətdən 4 hissəyə bölünürdü. Əliabad, Qax, Balakən, Car-Muxax (110). 1886-cı il siyahıyaalınmasına görə Zaqatala dairəsində 40225 Car ləzgiləri (21090 tatar (bölgəki azəri türklərini ruslar tatar, bu ərazidə yaşayan digər etnoslar isə muğol, tərəkəmə, padar adlandırırdılar – M. P.), 8727 ingiloy yaşayırdı (124, 55). XIX əsr rus müəlliflərinin verdiyi məlumata görə, bölgənin dağlıq ərazilərində əsasən "Car ləzgiləri" adı altında ümumiləşdirilən avar, saxur və rutullar, Alazan ətrafında isə mugollar (azəri türkləri – M. P.) və ingiloylar yaşayırdı (110). 1929-cu ildən etibarən isə, sovet hakimiyyəti dövründə, Zaqatala dairəsi ərazisində Balakən, Zaqatala Qax inzibati rayonları yaradıldı.

**Bölgənin arxeoloji tədqiqi.** Şəki-Zaqatala bölgəsinin qədim abidələrinin arxeoloji tədqiqinə əsasən XX əsrin əvvəllərindən başlanmışdır. Nic kəndində və Qəbələ şəhərinin xarabalıqları yaxınlığında Daşlıtəpə adlı yerdə bir neçə daş kurqanlar aşkar edildi (49, 235-251). Bölgənin arxeoloji cəhətdən əsaslı tədqiqi 80-cı illərdən aparılmağa başlamışdır. Qəbələ rayonu ərazisində bu illərdə aparılan arxeoloji qazıntılar zamanı Qafqaz Albaniyasının antik dövrünə aid materiallar aşkar edilmişdir. Əldə olunan materiallar qədim alban tayfalarının antik dövrdə dini təsəvvürlərini aydınlaşdırmağa imkan verir (25, 20).

Yevlax–Balakən yolunda, Ağrıçay yaxınlığındakı Cüməkənd kurqanı, Yenqiyan kəndindən cənubda, Qanıx (Alazan) çayının sol sahilində Qanıx çayının qollarından biri olan Qaraçayla hüdudlaşan, əhalinin Padarçöl adlandırdığı ərazini əhatə edən Padar və Muraddayı yaşayış



məskənlərinin aşkar edilmişdi. Şəki-Zaqatala bölgəsində hələ e. ə. IV-III minilliklərdə özünəməxsus mədəni prosesler getdiyini təsdiq etdi. Cüməkənd, Ağrıçayın sol sahilində yerləşən Salmandərə, Padar və Muraddayı kimi qədim yaşayış məskənlərinin arxeoloji materialları bu ərazidə hələ erkən və orta tunc dövründən (e. ə. IV–III minilliklərdə) yaşayış olduğunu təsdiq etdi. Muraddayı və Minbərək (Sarıca düzənliyinin qərbində yerləşir) yaşayış məskənindən aşkar edilmiş materiallar bu bölgənin artıq son eniolit dövründən məskunlaşdığını söyləməyə əsas verir (93).

Şəki ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində 1980–1981-ci illərdə Şəki rayonunun Kudurlu kəndində də 7 kurqan, 1988-ci ildə isə rayonun Daşüz kəndi yaxınlığında iki kurqan aşkar edildi. Bu kurqanların tədqiqi bütövlükdə Cənubi Qafqazda yeni arxeoloji mədəniyyəti ortaya çıxardı (93, 13).

**Bölgə əhalisinin etnik tərkibi və etnik tarixi.** Azərbaycanlıların etnik tarixində mühüm rol oynamış skif, sak, hun, xəzər, bulqar, savir, eyni zamanda gel, leq, uti, hər, qat, kimi qədim alban tayfalarının izlərinə Azərbaycanın Şəki-Zaqatala bölgəsində də rast gəlinir. Müasir Şəki-Zaqatala bölgəsinin ərazisi tarixi Qafqaz Albaniyasının şimal-qərb vilayətləri ilə üst-üstə düşür. Antik mənbələrdə Alazan (Qanıx) və İori çaylarının axarlarından Kür çayınadək uzanan qədim alban vilayətlərində, yəni müasir Şəki-Zaqatala bölgəsində hələ eramızın əvvəllərində albanlar, skiflər, saklar, savirlər, utilər, qetlər, xəzərlər, bulqarlar, qellər kimi bir çox tayfaların məskun olduğu barədə məlumat verilir (57, 86.). Bu qədim tayfaların varisləri sayılan müasir Azərbaycan türkləri, həmçinin udilər, ingiloylar kimi etnik qruplar bu gün də Azərbaycanın şimal qərb torpaqlarında – Şəki-Zaqatala bölgəsində yaşamaqdadırlar. Bölgədə əhalinin böyük əksəriyyətini

təşkil edən Azərbaycan türkləri ilə bərabər tarixin müxtəlif mərhələlərində bu ərazidə məskunlaşan avarlar, ingiloylar, ləzgilər, udilər, saxurlar, rutullar da yaşayırlar. Bu etnoslar öz etnik adlarını qorumaqla bərabər Azərbaycan ərazisində məskun olduqlarına görə özlərini həm də azərbaycanlı hesab edirlər.

Şəki-Zaqatala bölgəsində avarlar 51 kənddə, ingiloylar 26 kənddə, saxurlar 16 kənddə, udilər isə əsasən Qəbələ rayonunun Nic və Mirzəbəyli kəndlərində (197, 9–10) məskundurlar.

**Azərbaycan türkləri.** XIX əsr rus imperiya tarixşünaslığında Azərbaycan türklərinin Şəki-Zaqatala bölgəsinə çox yaxınlarda gəldiyini sübut etmək konsepsiyası mövcud idi. Rusiya imperiyasının milli müstəmləkə siyasətinə xidmət edən Qan, Bakradze, Esadze, fon-Plotto kimi müəlliflər Azərbaycan türklərinin bu bölgədə məskunlaşmasının XIV–XVII əsrlərdən başlanması ideyasını hər vasitə ilə əsaslandırmağa çalışırdılar (124; 106; 210; 174). Bu müəlliflər Azərbaycanın şimal-qərb bölgəsində yaşayan və çoxluq təşkil edən Azərbaycan türklərini "tatar", "muğal", "tərəkəmə"[1] və "türkmən" kimi adlar altında bölməyə cəhd göstərirdilər (125, 60–61). İmperiya tarixçiləri Azərbaycan türklərini qəsdən tatar, muğol, padar, tərəkəmə kimi adlarla parçalayaraq onların sayını az göstərməyə çalışır və bu əraziyə "gəlmə" kimi təqdim edirdilər. Bu müəlliflər Azərbaycan türklərinin bölgədə Teymur işqalları dövründən etibarən yerləşdiyini yazaraq burada məskun olan türk tayfalarının monqolların əcdadları olduğunu sübut etməyə çalışırdılar. Azərbaycan türklərinin bu ərazilərə "gəlmə" olması konsepsiyasının fəal nümaydələrindən olan Bakradze yazırdı ki, muğal adlı türk tayfaları XVII əsrdən etibarən bu bölgəyə gələrək buradakı tatar əhalisinin özəyini təşkil etmişlər (106, 252).

[1] Köçəri maldarlıqla məşğul olan türk tayfaları.



Azəri türklərini rusların tatar adlandırmasına gəldikdə isə, qeyd etmək lazımdır ki, türk torpaqlarında qurduğu imperiyada türk adını unutdurmaq üçün Rusiya XIX əsrin əvvəllərindən etibarən "tatar xalqı" terminini ortaya atmışdı. Lakin rus tarixçilərinin özlərinin də etiraf etdiyi kimi, o dövrdə "tatar" adlandırılan heç bir xalq özünü tatar adlandırmırdı. XIX əsr rus tarixçisi yazırdı ki, bizə tatar adı ilə məlum olan xalq türk tayfalarına məxsusdur. (164, 226–231). Bu mülliflər Rusiya imperiyasının milli siyasətinə xidmət edərək yerli əhalinin qədim köklərini unutdurmaq niyyətilə hər vasitə ilə onları parçalamağa və qarışıqlıq salmaq məqsədilə qədim ad və tarixlərini saxtalaşdırmağa çalışırdılar.

XIX əsr rus tarixşünaslığında bölgədə məskun olan avarları, saxurları, rutulların "Car Balakən ləzgiləri" adı altında ümumiləşdirilməsi, ingiloyların "gürcü", "məhəmmədi gürçü" kimi adlarla təhrif edilməsi bölgədəki etnik qrupların da sayının müəyyənləşdirilməsində dolaşıqlıq yaratmışdı. Tarixin belə təhrif edilməsi bölgədə əsrlər boyu birgə və mehriban yaşayan, eyni zamanda qohum olan xalqları parçalamaq, onların arasında nifaq salmaq məqsədini güdürdü.

Mövcud mənbələr, yəni həm arxeoloji, tarixi-etnoqrafik materiallar və antik qaynaqlar, həm də bölgə üzrə apardığımız etnoqrafik və toponimik tədqiqatlar Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Şəki-Zaqatala bölgəsində türk tayfalarının çox qədim dövrlərdən bəri məskun olduğunu söyləməyə əsas verir.

Şəki-Zaqatala bölgəsi Azərbaycanın eniolit tayfalarının məskunlaşdığı qədim ərazilərdən biridir. Bölgədə aparılan arxeoloji tədqiqatlar bu ərazidə məskun olan Azərbaycan tayfalarının hələ eniolit və tunc dövrlərindən şumer-türk mənşəli tayfalarla etno-mədəni əlaqələrinin olduğunu söyləməyə əsas verir.

Şəki ərazisindəki Daşüz, Küdurlu kurqanlarında aparılan arxeoloji tədqiqatlar nəticəsində bu ərazidəki qədim qəbilələrin qenetik köklərinin Kür-Araz mədəniyyətinin daşıyıcıları olduğunu müəyyənləşdirmişdir. Kurqanların birindən aşkar edilmiş diametri 30 metrə catan dairəvi formalı qəbir örtüyü onlarla eyni kökdən olan Kür-Araz tayfalarına xas olan yaşayış tikililərini eynilə təkrar edir (93, 87).

Hələ XIX əsrdə Rəşid bəy Əfəndiyev Qəbələ ərazisinin qədim yaşayış məntəqəsi olduğunu qeyd edərək burada köhnə qəbiristanlığın xarabalıqları və qədim bir tikilinin qalıqları barədə məlumat verirdi; Bu qəbiristanlıqdan axan Qara çay qəbirləri yuyaraq iri insan sümüklərini üzə çıxarmışdı. Yerli əhali bu sümüklərin onların əcdadları olan nəhəng oğuzlara aid olduğunu söyləyirdi (211, 140). XX əsrdə görkəmli arxeoloq Saleh Qazıyevin rəhbərliyi ilə Qəbələ ərazisində aparılan arxeoloji qazıntılar zamanı Bozdərə və Qarabulaq qəbir abidələrindən də uzun qəbirlərin (49, 235–251), Şəki ərazisindəki Kiş məbədindəki alban qəbirlərindən uzunluğu 2m, –2m 20 sm olan skeletlerin aşkar edilməsi bölgədə oğuz tayfalarına xas olan hündürboy, cüssəli insanların yaşadığını təsdiq edir. Bölgədə yayılmış bir mifoloji rəvayətdə də söylənildiyiə görə "Qavaxlar (qabaqlar – M. P.) insanların boyu 10 metrə imiş... " (3, 181). Göründüyü kimi, yerli əhalinin qədim əcdadları ilə bağlı təsəvürlərində də onların ululları hündür və cüssəli idilər. Bu təsvirlər qədim şumer dastanı "Gilqamış" və ortaq türk eposları olan "Dədə Qorqud və "Manas" dastanlarının qəhrəmanlarını xatırladır. Məlimdur ki, "Manasın boyu 5 metr, Gilqamışın boyu 10 metrəyə yaxın, kürəyinin eni 9 qarış idi (90, 39). Maraqlıdır ki, Qafqaz Albaniyasının mərkəzi sayılan Qəbələ vilayətinin arxiyepiskoplarından birinin adı da məhz Manas olmuşdur (57, 85; 11, 54).



Eniolit və tunc dövrünə aid olan bu abidələrdən şimal-qərbi Azərbaycanın qədim əhalisinin məişəti, inancları ilə bağlı bir çox maraqlı faktlar da aşkar edilmişdir. Aparılan arxeoloji tədqiqatlar bu bölgədə hələ e. ə. IV-III minilliklərdə özünəməxsus bir sivilizasiyanın olduğunu göstərir.

Arxeloji qazıntılar zamanı Kudurlu kurqanlarından (93, 89–99) mürəkkəb konstruksiyaya malik, müxtəlif fiqurlu daş qəbir örtükləri da aşkar edilmişdir. Kurqanlardan birində çay daşları dairəvi formada birqat, eninə isə 1-4 sıra çay daşları ilə döşənmişdir. Örtüyün ortasında mərkəzə doğru topalaşan 5 müxtəlif formalı daş koması mövcud idi. Örtüyün mərkəzi rənginə, ölçüsünə, formasına görə seçilmiş 3 sıra dairə şəklində çay daşları ilə döşənmiş və bu dairələrin hər biri 4 kəsiyə (şüaya) ayrılmışdı (şəkil 1). Bu fiqur qədim qəbilələrin inanclarını əks etdirən günəşin təsviri idi. Bu kurqanlardan aşkar edilmiş qoyun, keçi, öküz sümükləri də astral inamlarla bağlıdır. Kiş məbədində tunc dövrünə aid keçi qəbrinin aşkar edilməsi onun qədim Azərbaycan qəbilələrinin inanaclar sistemində özünəməxsus yer tutduğunu göstərir.

Kudurlu kurqanından aypara formalı örtük də aşkar edilmişdir (93, 94). Aypara fiqurunun əhatə dairəsində mərkəzi hissədə yerləşmiş kiçik bir kurqanın altında isə qürub edən günəşi xatırladan üzərində şüa formasında daş və çınqıldan 4 kəsiyin olduğu dairəvi formada örtük aşkar edilmişdir (şəkil 3). Məlumdur ki, günəşin qürub çağı xalq arasında şər vaxtı adlanır və şər vaxtı inancı bütün türk xalqları üçün xarakterikdir. Xalq arasında mövcud olan qədim ənənələrə görə bu zaman qəbiristana gedilməz, dəfn mərasimi icra edilməz, bu saatlarda yatmaq da olmaz. Bir çox türk xalqlarında günəşin qürub çağı üçün "Yer bağlanır" və ya "dar vaxt" kimi ifadələr işlənir (226). Görünür, qədim inanclar sistemində günəşin qürub çağı

ölümlə eyniləşdirilirdi və xalq arasında bu vaxtın şər vaxtı adlanması da bununla bağlıdır. Maraqlıdır ki, Kudurlu kurqanlarında aşkar edilmiş şüa formalı fiqurlara Qafqazın heç bir yerində rast gəlinməsə də, çox uzaqlarda olsa da, türk coğrafiyasına aid olan Tuvada e. ə. V–III əsr abidəsi Uluq-Xorum kurqanında 32 şüalı nəhəng günəş təsviri aşkar edilmişdir. Bu, bölgədə məskunlaşan qədim tayfaların türk coğrafiyası qəbilələri ilə etnoqenettik əlaqəlindən xəbər verir.

Daşüz kurqanlarından da diametri 30 metrə catan, açıq-sarı gil təbəqəli, çay daşı və çınqıldan dairəvi formalı bir neçə halqadan ibarət günəş formalı qəbir örtüyü aşkar edilmişdir (şəkil 2). Məlumdur ki, dairəvi halqalar qədim inanclar sistemində günəşin simvolik işarəsidir. Eyni zamanda dairəvi formalı qəbir örtüyünün altında mərkəzdə 3 qəbir aşkar edilmişdir. Görünür, 3 rəqəmi də qədim astral inamlarla bağlıdır və ayın ilk 3 gününün yerə təsir qüvvəsinə inamla əlaqədar idi. Göründüyü kimi, bu arxeoloji tapıntılar da qədim Azərbaycan qəbilələrinin inanclarını əks etdirirdi.

Daşüz kurqanındakı qəbir çalalarının içərisindən bir böyük aypara fiquru və iri bir ayparanın içərisində 3 kiçik aypara fiquru da açkar edilmişdir. Bu tapıntılar Şəki-Zaqatala bölgəsində məskunlaşmış qədim Azərbaycan sakinlərinin zəngin astral dünyagörüşlərinin olduğunu göstərir. Şəki kurqanlarından aşkar edilmiş aypara fiquruna Şimali Qafqazın Kabardin-Balkar bölgəsində də rast gəlinmişdir.

Kudurlu və Daşüz kurqanlarından aşkar edilmiş arxeoloji materialların türk coğrafiyasına məxsus Kabardin-Balkar, Tuva kimi bölgələrdə aşkar edilməsi və bu mədəniyyətin Maykop mədəniyyəti ilə oxşarlığı Şəki-Zaqatala bölgəsində məskunlaşan qədim Azərbaycan tayfalarının Mesopotamiya-şumer mədəniyyəti daşıyıcıları ilə,



şumer-türk mənşəli qəbilələrlə etnoqenetik bağlarının olduğunu göstərir. Bu mədəniyyət türk-şumer ideologiyasının dərin qatlarından xəbər verməklə yanaşı Yaxın Şərq və Şərqi Avropa etno-mədəni münasibətlərin qaynayıb qarışdığı özünəməxsus bir mədəniyyətin izlərindən xəbər verir.

Göründüyü kimi, Şərq və qərb dünyasının qovşağında yerləşən Azərbaycan və xüsusilə də onun şimal-qərb bölgəsi müxtəlif etnomədəni proseslərdən təsirləndiyi üçün bu ərazidə zəngin mədəniyyət formalaşmışdır. Şimal-qərbi Azərbaycan ərazisində aşkar edilmiş Daşüz, Kudurlu, Qəbələ[1], Cüməkənd və s. arxeoloji abidələrdən aşkar edilmiş materiallar eniolit və tunc dövründə Azərbaycanın şimal-qərbində yaşanmış qəbilələrin mənşəyi, qədim inancları və etno-mədəni əlaqələri və digər tarixi prosesləri müəyyən etməyə imkan verir. Göründüyü kimi, Azərbaycanın Şəki-Zaqatala bölgəsi ümumtürk tarixinin, azərbaycan-şumer-türk köklərinin daha dərin qatlarını öyrənmək üçün misilsiz xəzinədir.

Antik mənbələr və toponimik məlumatlar da Şəki Zaqatala bölgəsində türkmənşəli tayfaların çox qədim dövrlərdən bu zəngin və coğrafi cəhətdən əlverişli ərazidə yurd saldığını və bu ərazinin ən qədim sakinləri olduğunu söyləməyə əsas verir. Məlumdur ki, e. ə. VIII–VII əsrlərdən başlayaraq mənbələrdə skif-sak-işquz. kimmer-kəmər adlanan tayfaların gəlişi ilə türkmənşəli tayfaların Azərbaycan ərazisinə ilk böyük axını baş vermişdi. Azərbaycanlıların etnik tarixində mühüm rol oynamış skif-sak, kimmer tayfaları, daha sonra eramızın ilk əsrlərindən etibarən hun, bulqar, xəzər, qıpçaq kimi qədim türk tayfaları Azərbaycan ərazisinə Dəryal, Dərbənd keçidləri vasitəsilə yayılmışlar. Maraqlıdır ki, eramızın III əsrində

---

[1] *Qədim Qəbələ şəhərinin xarabalıqları yaxınlığında Daşlıtəpə adlanan ərazidə yerləşirdi.*

tərtib olunmuş Avropa və Asiyanın qədim xəritəsində bu keçidlərdən başqa "Alban keçidi" adlanan daha bir keçid haqqında məlumat verilir və bu kecidin məhz Şimal-qərbi Albaniya bölgəsində olduğu ehtimal edilir (127, 174–175). Görünür, skif, sak, kəmər, hun və bir çox başqa türkmənşəli tayfalar Azərbaycana Dərbənd və Dəryal keçidlərindən başqa, həm də Azərbaycanın şimal-qərbinə aparan Alban kecidi vasitəsilə yayılmışlar. Böyük Qafqaz dağlarından Şəki-Zaqatala bölgəsinə doğru uzanan saysız-hesabsız keçid və dağ aşırımlarından birinin bu günədək yerli əhalinin yaddaşında "Hun beli" kimi qorunub qalması hun tayfalarının bölgə əhalisinin etnik tarixində özünəməxsus yeri olduğunu göstərir. Görünür, hunlar məhz bu keçid vasitəsilə Şəki-Zaqatala bölgəsinə axışmışlar.

Bölgə əhalisi arasında yayılmış qədim bir əfsanə də Qax ərazisinin türkmənşəli tayfaların çox qədim məskəni olduğunu təsdiq edir. XIX əsr rus müəlliflərindən Lineviçin qeydə aldığı bir əfsanəyə görə Qax ərazisi vaxtilə (XVII əsrə qədər) Torağay adlanırmış (158, 15). Toruğ kəlməsi isə qədim türk dillərində dağlar arasındakı yüksəklikdə daldalanmaq üçün yer kimi izah edilir (123, 373). Qax ərazisinin coğrafi yerləşməsi də bu təsvirə uyğun gəlir. Görünür, qədim türk tayfaları Böyük Qafqaz aşırımlarının ağzında və dağların arasında yerləşən Qax ərazisinə, yuxarıda qeyd etdiyimiz kimi, saysız-hesabsız dağ aşırımlarından biri ilə, bəlkə də elə "Hun beli" aşırımı ilə keçərək məskən salmışlar və bu yeri dağlar arasında daldalanacaq anlamına gələn "Torağay" adlandırmışlar.

Göründüyü kimi, hələ eradan əvvəl Azərbaycanın hər yerinə yayılan türkmənşəli skif-sak tayfalarının ardınca hunlar Qafqaz dağlarındakı keçidlər vasitəsilə Azərbaycanın şimal-qərb bölgəsinə də yayılmışdılar və bölgənin toponimikasında da bu qədim türkmənşəli tayfaların izləri qorunub saxlanmışdır.



**Saklar**. Qeyd etmək lazımdır ki, antik müəlliflər bir çox tayfaları, o cümlədən sakları da skif adı altında ümumiləşdirirdilər. Skiflər yazılı mənbələrdə iskit, sak, işquz, turan, qoq və maqoq kimi müxtəlif adlarla tanınmışlar. Türk tarixşünaslığında iskit adlandırılan skiflərin "əski-türk" mənasında olması və bura bir çox türk xalqlarının əcdadlarının (xəzərlər, avarlar və s.) aid olması fikri də mövcuddur (114, 28).

Azərbaycanlıların etnogenezində mühüm rol oynamış sak tayfalarının adı ilə bağlı toponimlər Azərbaycanın həm şimalında-Qafqaz Albaniyası ərazisində, həm də cənubunda – Atropatena ərazisində mövcud olmuşdur (bax **Strabon.** II, 1, 14; XI, 7, 2; XI, 8, 4; XI, 14, 4). Antik dövrdə Şəki-Zaqatala bölgəsində albanlarla və utilərlə yanaşı skif və ya sak qəbilələrinin nəsilləri də yaşamış, bu da yerli toponimlərdə öz əksini tapmışdır (57, 86) Sak etnonimi ilə bağlı Şəki, Səkandərə, Zaqatala, Saqa-tör kimi toponimlər bu bölgədə sak tayfalarının geniş yayıldığını göstərir. Antik mənbələr bunu təsdiq edir. 293-cü ilə aid Paykuli yazılarında İberiya çarlığının yanında yerləşən Səkan çarlığının adı çəkilir (127). Antik müəlliflərdən Ptolomey isə Albaniyanın şimal-qərbində, Gürcüstandan şərqdə səkan tayfalarının yaşamasını qeyd edirdi (22. **Ptolomey** V. 8, 16). XIX əsrin sonlarına qədər müasir Qax rayonu ərazisində, Qaxın təqribən 3,5 km-liyində Kürmük çayının sol sahilində qeydə alınmış Səkan adlı yaşayış məntəqəsi də (160, XII) görünür, mənbələrdə adı çəkilən qədim Səkan çarlığının izlərini daşıyırdı. Hazırda da Qax rayonu ərazisində yerləşən Qax-ingiloy kəndində Səkandərə və Zaqatala rayonu ərazisində Sakantala toponimləri mövcuddur. Mənbələrdə Albaniyada yerləşən Şəki olduğu ehtimal edilən Osika şəhərinin adı çəkilir (**Ptolomey**. V, XI, 4). Eyni zamanda Məsudi, əl-Balazuri, əl-İstəxri kimi bir çox ərəb müəllifləri də Albani-

yada yerləşən Şekin ölkəsinin adını çəkirdilər. Göründyü kimi Şəki-Zaqatala bölgəsinin bir çox toponimləri sak etnonimi ilə bağlı idi.

Sakların mənşəyinə gəldikdə isə, aparılan araşdırmalar sak tayfalarının qədim türk tayfaları olduğunu təsdiq etmişdir (127, 90; 160, 28; 73). Qeyd etmək lazımdır ki, Zaqatala (Saqa-tala; sak talası), Saqa-Tör kimi (tör qədim türk dillərində yaylaq anlamına gəlir, yəni Sak yaylağı) toponimlər də qədim türk tayfalarının adları ilə bağlıdır. Göründüyu kimi, həm yazılı mənbələr, həm də bölgənin toponimikası Sak tayfalarının Şəki-Zaqatala bölgəsində geniş yayıldığını təsdiq edir.

Azərbaycanın qədim tayfalarından biri də öz adını Azərbaycanın ən qədim dövlətlərindən biri olan Qafqaz Albaniyasına verən albanlar olmuşlar. Mənbələr albanların öz mənşəyini skif və saklardan götürdüklərini yazırdılar. Antik mənbələrdə skif və sak tayfalarının varisləri sayılan alban tayfalarının Kürün hər iki sahilində, o cümlədən İori və Alazan ətrafında da yerləşdiyi barədə məlumatar var (198, 49). Albaniyada daim türkdilli tayfalar yaşamışdır (57, 34). Alban tarixçisi Musa Kalankatuklu da albanların "şimal xalqlarından" olduğunu yazırdı. Albanlar Qafqaza xalqların böyük köçü zamanı Altaydan gəlmişər. Onların bir hissəsi indiyədək Qazaxıstanda qalmaqdadır və bu əraziyə e. ə. II–I əsrlərdə gəlmişlər (164, 256). XIX əsrə aid mənbədə də Qafqaz Ağvanının türk albanlarının məskəni olduğu yazılırdı (125, 192–193) XIX əsr müəliflərindən Q. Savelyev qafqazlıların mənşəyi haqqında yazırdı ki, türk albanlar özlərini skipitar (skif), vətənlərini isə Skiperi (Skifiya)adlandırır. Bu Skifiya isə Qafqazda yerləşir (125, 192–193).

Ərəb qaynaqlarında da ərəblərdən qabaqkı Azərbaycanın türk torpağı olduğu və türk tayfalarının burada cəmləşərək bir-birilə qarışıb təkmilləşdiyi yazılır (11,57).



Göründüyü kimi, mənbələr Şimali Azərbaycan ərazisində qurulmuş ən qədim dövlətlərdən biri olan Qafqaz Albaniyasının türklərinin vətəni olduğunu və alban türklərinin öz mənşəyini skiflərdən götürdüyünü təsdiq edir.

**Hunlar.** Məlumdur ki, hunlar bir çox türk xalqlarında olduğu kimi, Azərbaycan türklərinin də etnoqenezində mühüm rol oynamışlar. Antik mənbələrdə eranın ilk əsrlərindən hunların və onların tərkibində avar, bulqar, xəzər, suvar, katak kimi bir çox türkmənşəli tayfaların Şimali Qafqazda məskun olması və həmçinin Albaniya ərazisində yerləşməsi barədə məlumatlar var (161, 240; 51). Lakin bu antik müəlliflər hunların artıq eranın əvvəllərində şimal-qərbi Albaniya ərazisində yaşadığını qeyd edirlər (161, 240). Bunu nəzərə alsaq hunların Qafqazda, o cümlədən Azərbaycanda daha erkən dövrlərdən məskunlaşması ehtimalı mümkündür. Hunlar skif-sak tayfalarından sonra Azərbaycanda məskunlaşan türkmənşəli tayfaların ikinci böyük dalğası idi. Ümumiyyətlə, Dionisi, Periqet, Ptolomey kimi antik müəlliflər hunların da skif və kaspi xalqı olduğunu qeyd edirdilər (161, 240). Tədqiqatçılar hələ e. ə. VI–IV əsrlərdə Azərbaycan ərazisində "buntürklər" adı ilə tanınan hunların həmin dövrdə Kür çayının sahillərində məskun olduqlarını yazırdılar (35, 299).

Çox qədim dövrlərdən bəri şımal-qərbi Azərbaycanda məskunlaşan qədim hun tayfaları da bolgənin toponomikasında öz izlərini qoymuşlar. Böyük Qafqaz dağlarının şimal-qərbi Azərbaycana doğru uzanan dağ aşırımlarından birinin yerli əhali arasında Hun beli adlandığını yuxarıda qeyd etmişdik. Bundan başqa Şəki rayonu ərazisində Xonaşen adlı dağın olduğu məlumdur. Keçmişdə bu ərazidə Xonaşen adlı kənd də mövcud olmuşdur (127, 26). Bu ad xon-hun və şen söz birləşməsindən ibarətdir. Şen komponenti də türkmənşəli olub bu günədək azər-

baycan dilində rast gəlinməkdədir. Daha çox Azərbaycanın dağ rayonları üçün xarakterik şen kəlməsi "şennik", "Evin şen olsun" kimi ifadələrdə işlənərək abadlıq, yaşayış olan yer mənasındadır. Günümüzdə Türkiyədə də "şen" kəlməsi eyni mənanı ifadə etməkdədir. Hun etnoniminin izləri bölgədə Hun-kuşan tayfalarını əks etdirən Quşencə yer adında və "Quş uşağı", "Quşlar" kimi nəsil adlarında da qorunub saxlanmışdır.

Hun tayfalarından olan bulqarlar, xəzərlər, savirlər də eranın ilk əsrlərində şımal-qərbi Azərbaycan ərazisində məskun idilər. Bu qədim türk tayfaları şimal-qərbi Albaniyada ilk köçdən bəri məskunlaşmışdı (bax: 94; 95, 118; 149, 295).

Məlumdur ki, hun tayfaları ilə birlikdə Azərbaycana katak, avar və b. tayfalar da gələrək Azərbaycanın bir çox ərazilərində olduğu kimi Şəki-Zaqatala bölgəsində də məskunlaşmışdılar. XIX əsrdə Nuxa[1] qəzasında qeydə alınan Kötüklü toponimi məhz bu qədim türkmənşəli tayfalardan biri olan **katak** tayfasının adını əks etdirir (20, 289). Hunların tərkibində Qafqaza gələn türkmənşəli avarlar haqqında isə aşağıda avarlar bölümündə ayrıca məlumat veriləcəkdir.

Azərbaycanın şimal-qərb ərazilərinin toponimikasında VI–VIII əsrlərdə mövcud olan qüdrətli Türk Xaqanlığına daxil olan tele, dulu, turkeş kimi qədim türk tayfalarının da izlərinə rast gəlinir. Balakən rayonu ərazisindəki Tulu, Oğuz rayonu ərazisindəki Tekeş belə etnotoponimlərdəndir.

**Oğuzlar.** Yerli əhalinin öz mənşəyi ilə bağlı qədim mifik rəvayətləri, inancları, toponimikası bu torpaqların çox qədim dövrlərdən bəri oğuzların məskəni olduğunu göstərir. XIX əsrdə yerli əhali öz əcdadlarının "nəhəng cüssəli *uğuzlar*" (oğuzlar – M. P.) olduğunu söyləyirdilər

[1] Şəki.



(211, 140). Bölgə əhalisi arasında yayılmış ilkin əcdadla bağlı mifoloji rəvayətlərdə də yerli əhalinin öz mənşəyini oğuzlarla bağladığı ortaya çıxır. Məsələn, regionda yayılmış "Oğuzlar haqda" mifik əfsanə bu qəbildəndir: Rəvayətə görə əvvəllər burada yaşayan insanlar çox uzun olublar (5). Bölgədə vaxtilə uzun boylu insanların yaşamasını Qəbələ və Oğuz rayonları ərazisindəki Bozdərə və Qarabulaq qəbir abidələrindən uzun qəbirlərin aşkar edilməsi də təsdiq edir (49, 235–251). Belə uzun qəbirlər və boyu 2,5 m olan skeletlər Şəki rayonu ərazisində yerləşən Kiş məbədinin həyətində də aşkar edilmişdir.

Oğuz etnoniminə bölgənin toponimikasında da rast gəlinir. Qədim oğuz tayfalarının tarixini yaşadan Dədə Qorqud boylarında adı keçən Dış oğuzlar Şəki rayonu ərazisindəki Daşüz toponimində öz izlərini qoymuşlar. Umumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən bir çox yer adlarının, cümlədən Dış Oğuz tayfalarının məskəninin məhz Azərbaycanın şimal-qərb bölgəsində olduğu ehtimal edilir (35, 78).

Tarixçi-professor Yaqub Mahmudovun qeyd etdiyi kimi, bu gün də Şəki-Qax-Zaqatala-Balakən bölgəsinin dağ kəndlərində şirin Dədə Qorqud ləhcəsi qorunub saxlanmaqdadır (58). Azərbaycanın şimal-qərb bölgəsinə xas olan bu gözəl azərbaycan şivəsinə hətta XIX əsr rus müəllifləri də biganə qala bilməmişdilər. Şəki–Zaqatala bölgəsinə səyahət edən bir rus müəllifi yazırdı ki, bu ərazidə muğol adlandırılan tatarlar (Azərbaycan türkləri – M. P) gözəl azərbaycan şivəsilə danışırlar (124, 55). Bu gün də həmin gözəl şivəni qoruyub saxlamış bölgə əhalisi arasında Dədə Qorqud boylarından bizə tanış olan "güyəgü"* (kürəkən) (bölgədə "**güyə**"şəklində ifadə edilir), "şülən" (qonaqlıq), "yəxni"[1] (soyutma ət), "şiləxup"[2] (ət

[1,2] şiləxup və yəxni Şəki-Zaqatala bölgəsində ənənəvi mərasim yeməkləridir.

suyunda bişirilən düyü) "adaqlu" (adaxlı) kimi bir çox qədim türk məişət kəlmələri işlənməkdədir.

Şəki-Zaqatala bölgəsində qədim oğuz tayfalarının izlərinə bu tayfanın ən mühüm və qədim qollarından olan qınıq tayfasının adını daşıyan Baş Göynük, Aşağı Göynük (Şəki r-nu) kəndlərinin, Qanıx çayı[1] və Qanux dağı kimi etnotoponimlərdə, eyni zamanda Qax rayonunun İlisu kəndində bu gün də mövcud olan Qanuqlar nəslinin adında da rast gəlinir.

Məlumdur ki, oğuzların bir hissəsi islam qaynaqlarında "türkmən" adı ilə də xatırlanmışdır (47, 3). XIX əsrə aid rus mənbələrində də bölgənin türk əhalisinin bir hissəsinin türkmən adlandığı qeyd olunur. "Tatar (azərbaycan – M. P) dilində bütün köçəri türk tayfaları "tərəkəmə" və ya "türkmən" adlanırdı (125, 60). Maraqlıdır ki, bu gün türkmənlər arasında mövcud olan qırqıl etnonimi[2] bögədəki Qırqılı oba kəndinin adında öz əksini tapmışdır.

Bölgədəki Danaçı kəndi də oğuz tayfaları ilə bağlı toponimdir. Oğuz tayfaları arasında Dana tayfasının da olduğu məlumdur (127, 322). IV–V əsrlərdən etibarən Azərbaycan ərazisində yayılan qıpçaq tayfalarının adı isə bölgənin Qıpçaq, Oncalı, Bucaq (onca, bucaq qıpçaq tayfasının qollarından sayılırlar) kimi kənd adlarında qorunub saxlanmışdır.

Şəki-Zaqatala bölgəsindəki Göyqoşun dağı, Dardoqqaz kimi yer adları da qədim türk boylarının izlərini daşıyır. Məlumdur ki, Göytürk xaqanlığında birləşmiş

---

[1] *Bölgədə yaşayan Azərbaycan türkləri Alazan çayını Qanıx adlandırırlar. Ptolomeyin xəritəsində bu çay Xanes kimi qeydə alınmışdır. Görünür, Xanes, bəlkə də Hunus kimi sələnən bu hidronim də bölgədəki bir çox yer adları kimi hunların adı ilə bağlıdır. Keçmişdə saxurlar bu çayı Dur adlandırırdılar (14, 196). Bu toponimin Saxur dilinin Sabunçu dialektində "duran" (sulu) sözündən və su sözündən yarandığı da ehtimal edilir (14, 96).*

[2] *Bu türk etnonimi "kırk"-qırx və "il"-tayfa sözbirləşməsindən ibarətdir.*



türk qəbilələrinin bir qismi ayrılaraq "Doqquz Oğuz" xaqanlığını yaratmışdılar (47, 3). Göyqoşun sözbirləşməsindəki qoşun komponenti qədim türk dillərində köç anlamına gəlirdi. Bu ad, görünür, dağ kultu ilə bağlı olub "Göy köçü", yəni göydən gəlmiş mənasındadır.

Beləlikə, Şəki-Zaqatala bölgəsi hələ enioit, tunc dövrlərində qədim Azərbaycan tayfarının yaşayış məskəni olmuşdur. Bu tayfalar Azərbaycan üçün xarakterik olan Kür-Araz mədəniyyətinin daşıyıcıları olmaqla bərabər şumerlərlə etnoqenetik əlaqələri olmuş və tarixin sonrakı mərhələlərində bu bölgəyə axışıb gələn sak, savir, hun, xəzər, katak, oğuz, qıpşaq kimi qədim türk tayfaları ilə qaynayıb qarışmış və müasir Azərbaycan türklərinin soykökünün əsasını təşkil etmişlər.

**Muğollar**. Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türklərini (əsasən Qax-Muğal, Qaxbaş, Gülüzənbinə və b. Kəndlərdə yaşayan) bölgədə yaşayan etnik qruplar muğollar adlandırır.

XIX əsrin Qan, Pascrbeki, Fon-Plotto, Bakradze kimi bir çox imperiya tarixçiləri bölgədə Azərbaycan türklərinin muğol adlandırılmasını onların türk tayfaları olan monqolların varisləri olması və Teymurləngin işğallarından sonra moğolların bu torpaqda məskunlaşması ilə izah etmyə çalışırdılar. Cünki bu müəlliflər Azərbacanın şimal-qərb torpaqlarının vaxtilə Gürcüstana aid olduğunu və türk tayfalarının bu bölgədə yalnız XIII–XIV əsrlərdən etibarən məskunlaşmağa başladığını iddia edərək, Rusiyanın bu bölgədəki işğalçı yürüşlərinə haqq qazandırmağa səy göstərirdilər və Azərbaycan türklərinin Azərbaycanın şimal-qərb torpaqlarına yaxın zamanlarda gəlməsi konsepsiyasını hər vasitə ilə sübut etməyə çalışırlar.

Əslində isə bölgədə yaşayan türkdilli azərbaycanlıların böyük əksəriyyətinin "muğal" adlandırılması XIII əsrə aid mənbələrin də təsdiq etdiyi kimi (177, 77) monqol tayfaları-

nın üstünlük təşkil etməsi nəticəsində bölgənin bütün türk etnoslarının da bu ad altında ümumiləşdirilməsi ilə bağlıdır.

Məlumdur ki, XIII əsrdə monqol axını bütün türk torpaqlarında yayılmışdı. Uzun illər hökmran olan monqol tayfaları getdikcə daha çox şaxələnərək say etibarilə digər türkmənşəli xalqları üstələdikləri üçün, onların qüdrətinin təsiri altında digər türk tayfaları da monqol adı altında tanınmağa başlamışdı. Bununla bağlı mənbələrdə də yazılırdı ki, türklərin böyük hissəsi bu dövrdə monqol adlandırılırdı (177, 77). Görünür, Şəki-Zaqatala bölgəsində yaşayan türkdilli azərbaycanlıların da bölgənin digər azsaylı xalqları və etnik qrupları tərəfindən muğol adlandırırması bununla bağlıdır. Qeyd etmək lazımdır ki, Orta Asiyanın türk xalqları da monqol sözünü "muğol" kimi tələffüz etmişlər (184, 79). XIX əsrə aid rus mənbələrində də Şəki-Zaqatala bölgəsindəki moğol adlandırılan əhalinin tam olaraq monqol olmadığı, görünüşcə də monqollara bənzəmədiyi qeyd edilir, hətta "muğolların "muğanlı" adlı türk tayfalarının varisləri olduğu da ehtimal edilir (125, 60). Rus müəllifləri eyni zamanda "muğol adlandırılan tatarların gözəl azərbaycan şivəsilə danışdıqlarını da qeyd edirdilər (124, 55).

Monqol tayfalarının tərkibində gələn cəlair, qurkan, tanqıt, tamğalıq, əlcikin kimi türk tayfalarının adı Azərbaycanın bir sıra bölgələrində olduğu kimi şimal-qərb bölgəsinin də toponimikasında öz əksini tapmışdır. Şəki-Zaqatala bölgəsində məskunlaşan kinqut, elcikin, tanqut, cəlair, qurqan, onqut, tamğalıq kimi türk-monqol tayfalarının izləri bölgənin Şəki rayonu ərazisindəki Küngütlü, Qax rayonu ərazisindəki Əlcikincay, Tanqıt, Cəlair, Damğalı[1] kimi toponimlərdə qorunub saxlanmışdır.

---

[1] *Hazırda Damğalı kəndi mövcud deyil. Vaxtilə Cəlair kəndinin qonşuluğunda yerləşən Damğalı kəndi tədricən onun ərazisinə qarışaraq sıradan çıxmışdır (160, 33)*



Qeyd etmək lazımdır ki, bölgədəki azsaylı xalqlar yaxın keçmişə qədər azəri türklərinin bir qismini də "padar" adlandırırdılar. Padarlar da köçəri maldarlıqla məşğul olan oğuz tayfaları olmuşlar. XVI-XVII əsrlərdə Səfəvi hakimiyyəti dövründə padar maldar türk tayfaları Azərbaycanın şimal və şimal-qərb bölgəsinə köçürülmüşlər (4, 426).

Çox qədim dövrlərdən türkmənşəli tayfaların məskun olduğu bu ərazidə türk etnotoponimlərdən başqa təbii-cörafi ərazi ilə də bağlı saysız-hesabsız türk toponimləri mövcuddur. Məsələn, bu ərazidəki Balakən toponimi türkmənşəli olub "meşə ilə örtülmüş dağlar silsiləsi" anlamındadır və bu toponim həqiqətən də ərazinin təbii-coğrafi vəziyyətinə uyğundur (164, 29). Bundan başqa bölgədə qədim türk dili ilə izah edilən İlisu – "ulu su", Ulubaş – "ulu zirvə", Sarıbaş – "sarı zirvə", Keşqutan (Qax r-nu) – "köç yeri", Qudula (Şəki r-nu) – "əkilməmiş ərazi" vəya "tərk edilmiş yer", Qudurdağ (Zaqatala r-nu) – "enişyoxuşlu dağ silsiləsi", Sırtyurtdağ (Şəki r-nu), Qaşqaçay (Qax r-nu) – "saf, təmiz çay" (127, 441-479), Ərgürgəc (Qax rayonu) kimi saysız-hesabsız toponimlər bu günədək qorunub saxlanmışdır.

Göründüyü kimi, Azərbaycanın şimal-qərb bölgəsində türk qatı çox qədim, zəngin və çoxtəbəqəlidir. Qədim yazılı mənbələr, tarixin və xalqın silinməz yaddaşı olan toponimik məlumatlar və tarixi tədqiqatlar Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türklərinin etnik kökünün çox qədimlərə gedib çıxdığını, bu ərazinin ən qədim etnoslarının türkmənşəli olduğunu söyləməyə əsas verir. Bölgədəki türk etnoslarının kökü minilliklərin dərinliklərinə doğru uzanaraq zaman-zaman müxtəlif türkmənşəli tayfaların gəlişi ilə – iskit sak dövründən başlayaraq, daha sonra, hun, savir, katak, qıpçaq, oğuz kimi bir çox türk tayfaları, nəhayət monqol axınları ilə daha da zənginləşmişdir.

**Avarlar.** Şəki-Zaqatala bölgəsində Azərbaycan türkləri ilə birgə yaşayan və say etibarilə nisbətən böyük etnoslardan biri avarlardır. Onlar əsasən bölgənin Zaqatala, Balakən rayonları ərazisində, Tala, Abalı, Yuxarı Çardaqlar, Aşağı Çardaqlar, Nuxbadə, Qırqılı oba (son illərdə dağılıb) Yolayrıc, Solban, Meşə-Şambul, Cincartala, Oytala, Paşanoba, Beretbinə, Çiçibinə, Məzimçay, Qoçəhməd, Çədərovtala, Kilsəbuqov, Kebeloba, Axaxdərə, Zilbal, Mazıx, Qobizdərərə, Maqov, Uzuntala, Danaçı, Hotavar, Katex, Qabaqçöl, Mahamalar, Binə, Sarıbulaq və həmçinin Car, Yuxarı Tala, Dardoqqaz, Göyəmtala və başqa kəndlərində yaşayrlar. Bölgədə yaşayan avarlar Qafqaz dillərinin Dağıstan qrupuna daxil olan avar dilinin Zaqatala şıvəsində danışırlar. Siyahıyaalınma materiallarına görə, 1886-ci ildə Azərbaycanda avarların sayı 40225 (124, 55), 1897-ci ildə 35 min; 1926-ci ildə 19.1 min nəfər, 1959-cu ildə 17. 3 min; 1970-ci ildə 30. 7 min nəfər, 1959-cu ildə 36 min nəfər; 1989-cu ildə isə 44.1 min nəfər olmuşdur (171, 4–5). Lakin qeyd etdiyimiz kimi, bu siyahıyaalmalarda avarlar, saxurlar, rutullar "Car ləzgiləri" adı altında ümumiləşdirilmişdir. Avarların bir hissəsi Dağıstanın cənubunda, əsasən Axvax, Botlix, Qerqebil, Qunib, Qumbetov, Kazbek, Xunzax, Suxul, Tilyarat rayonlarında yaşayırlar.

Yuxarıda qeyd etdiyimiz kimi XIX əsr rus tarixşünaslığında bütün dağıstanlıların, o cümlədən avar və saxurların "ləzqi" adlandırılması konsepsiyası mövcud idi. Bu baxımdan XIX əsr rus imperiya tarixçilərinin əsərlərində bu etnos haqda məlumatlar qeyri-dəqiq və səthidir. Bu məlumatlarda Şəki-Zaqatala bölgəsində məskunlaşmış avarlar, saxurlar, rutullar əsasən "Car-Balakən ləzgiləri" adı ümumiləşdirilmişdir. Bu səbəbdən XIX əsrdə onların bölgədə dəqiq sayının müəyyənləşdirilməsi mümkün deyil.

Cənubi Dağıstan ərazisindən avarların və saxurların



ümumiləşdirilmiş "ləzgi" adı ilə Şəki-Zaqatala bölgəsinə köçməsi tarixi barədə ilk dəfə XIX əsr müəllifi A. İ. Fon-Plotto məlumat vermişdir. O yazır ki, "ləzgilər dağlardan Car dairəsinə enərək... Car əyalətində Car, Balakən, Tala, Muxax, Cinix icmalarını təşkil etdilər (174, 6–7). Tarixi ədəbiyyatda bu icmalar Car-Balakən icmaları adlanırdı. Baharlı da Azərbaycan avarlarının Avarıstandan (Dağıstan əraizisi) gldiyini qeyd edərək onların XV əsrdən etibarən Azərbaycanda məskunlaşması barədə məlumat verir (114, 23). XIX əsr rus müəlliflərinin verdiyi məlumata görə, bu ərazidə yerləşən ləzgilər (Burada da "ləzgi" avar, saxur, rutulların ümumiləşdirilmiş adı kimi qeyd olunub – M. P.) ittifaq yaratdılar: 1. Car ittifaqı-Car-Balakən müstəqil icmalarını özündə birləşdirirdi; 2. Tala ittifaqı Tala, Muxax və Cınix müstəqil icmalarından ibarət idi; 3. İlisu ittifaqına İlisu sultanlığının tərkibində olan İlisu, Qaradolaq, Baş Suvaqil və Saxur daxil idi və Sultan tərəfindən idarə olunurdu (153). XVII əsrin sonu üçün bu avar-saxur azad icmaları İlisu sultanlığı da daxil olmaqla Car ittifaqına tabe idi (172, 33).

Azərbaycan tarixşünaslığında avarların etnik tarixinin araşdırılması işində müxtəlif istiqamətli tədqiqatlar mövcuddur. Bu problemlə bağlı bir cox tədqiqatlarda Qafqaz avarları ilə türk avarların bir-birindən tamamilə fərqli etnos olduğu konsepsiyası mövcuddur. Bu konsepsiyaya görə Qafqaz avarları qədim mənbələrdə lbin, silv adları ilə məlum olan və Albaniyanın Lpina vilayətində məskun olmuş etnosların varisləridir və Dağıstan avarları türk avarlara ilə qarışdırılmamalıdır (bax: 127, 151–152, 154; 186, 82; 26, 16).

Lakin bir çox tədqiqatçılar Qafqazda yaşayan avarların məhz türk avarların varisi olmasını və Qafqaza tez-tez yürüşlər edən zaman onların bir hissəsinin buradakı ləzgilər arasında qalaraq zaman keçdikcə öz dilini və etnik

mənsubiyyətini itirə biləcəyini də ehtimal edirlər (bax: 114, 23; 58a, XII) Məsələn, Baharlı avarların tez-tez Qafqaza yürüşlər edərək bu ərazidə, qafqaz dilli etnoslar arasında onların bir hissəsinin həmişəlik məskunlaşaraq tədricən öz dillərini itirən türk tayfası olduğunu ehtimal edir. Tarixçi-prof. Yaqub Mahmudov da bu ehtimalın mümkünlüyünü qəbul edərək haqlı olaraq qeyd edir ki, Qafqaz avarlarını türk avarlardan, saxurları saklardan, balkarları bulqarlardan ayırmağa, bunların bir-birindən tamamilə fərqli etnoslar olduğunu təsdiq etməyə tələsməməliyik (58a, XII). Bu konsepsiya avarların tarixinin daha dərindən və fərqli istiqamətdə tədqiq olunması zərurətini ortaya çıxarır. Belə baxış, eyni zamanda Azərbaycanın saxurlar, udilər, ingiloylar kimi digər etnik qruplarının da tarixinin daha fərqli istiqamətdə tədqiqinə yol açmış olur.

Fikrimizcə, bir sıra tarixi faktlar və etnoqrafik məlumatlar müasir avarların Altay türk xalqlarından ayrılıb Qafqaz dağlarının xarici aləmdən təcrid olunmuş mühitinə – iberoqafqaz xalqlarının əhatəsinə düşərək tədricən assimilyasiyaya uğrayaraq əvvəlki etnik mənsubiyyətlərini itirmiş türk avarların varisləri olduğunu söləməyə əsas verir. Görünür, hun birliyinə daxil olan bulqar türkləri, macarlar kimi bir sıra türk tayfaları doğma Altay mühitindən ayrı düşdükdən sonra assimilyasiyaya uğrayaraq əvvəlki etnik mənsubiyyətlərini itirdikləri kimi, avarlar da Baş Qafqazın xarici aləmdən təcrid olunmuş mühitinə – iberqafqaz xalqlarının əhatəsinə düşərək assimilyasiyaya uğramışlar.

Ümumiyyətlə, Qafqazda hun ittifaqına daxil olan avarların məskunlaşma tarixi ilə bağlı mənbələrdə verilən məlumatlara daha diqqətlə nəzər saldıqda aydın olur ki, avarların Qafqaza nə zaman gəldikləri barədə mənbələrdə dəqiq məlumat verilmir. Belə ki, mənbələr V əsrin sonu –



VI əsrin əvvəllərində Dərbənd yaxınlığında 13 türkdilli tayfa, o cümlədən savirlər, avarlar... və s. yaşaması barədə məlumat versələr də (173, 9–10) avarların Qafqaz ərazisində nə zamandan bəri məskun olması haqda dəqiq bir söz deyilmir. Bunu nəzərə alsaq hunlar kimi avarların da Qafqaz ərazisində məskunlaşma dövrünün daha erkən mərhələlərdən başladığını, eranın ilk əsrlərindən bəri Qafqazda yaşayan hunlarla bərabər bu bölgədə tədricən məskunlaşmağa başladığını, bəlkə də bir qisminin daha erkən dövrlərdə bu ərazilərdə yaşadığınını ehtimal etmək olar. Maraqlıdır ki, hələ II əsrdə yunan müəllifi Bizanslı Stefan avarların adını çəkərək onların udilərlə qonşuluqda yaşadığını qeyd edirdi (161, 146). Bu məlumat avarların Qafqazda daha erkən dövrdə də yaşaması ehtimalını gücləndirir. Görünür, onların Qafqazda məskunlaşması erkən dövrlərdən etibarən mərhələlələrlə davam etmış, orta əsrlərdə isə bu proses bir sıra tarixi hadisələrlə əlaqədar daha da güclənərək kütləvi hal almışdır.

Məlumdur ki, V əsrdə Avropada Hun imperiyası dağıldıqdan sonra Mərkəzi Asiyadan Şərqi Avropaya tərəf hərəkət bir çox türk boyları 558-ci ildə qüdrətli türk dövlətini – Avar İttifaqını yaratmışdılar. Avar ittifaqının yaranması ilə avarların Qafqaza axını daha da güclənərək kütləvi hal almışdı. Qədim mənbələr də bir cox türk tayfalarının, o cümlədən avarların V–VI əsrlərdə Azərbaycan ərazisinə tez-tez yürüşlər edərək getdikcə daha böyük kütlələrlə Azərbaycana axışaraq burada məskunlaşdığını yazırdılar (186, 82). Mənbələrin də yazdığı kimi, 568-ci ildə avarların hakimiyyəti Elbrusdan Volqayadək uzanırdı (112, 23).Lakin VII əsrdən etibarən avarlar müxtəlif xalqlarla müharibə apararaq tədricən zəifləməyə və qüdrətlərini itirməyə başladılar. Nəticədə bu dövlət 805-ci ildə franklar tərəfindən dağıdıldıqdan sonra, görünür, avarların bir qismi Qafqazda həmişəlik məskunlaşdı.

XIX əsrdə Bakıxanov yazırdı ki, qüdrətli avar xalqının bir tayfası indi də Qafqaz dağlarında yaşayır və öz dilinə, adət-ənənəsinə, hökmdarına malikdir. Qafqaz avarlarının xanı avar usmisi adlanırdı (112, 24). Avarların Dağıstan bölgəsində XII–XIX əsrlər boyu mövcud olan Avar xanlığını yaratdıqları məlumdur və 1803-cü ildə bu xanlıq Qafqazın bütün bölgələri kimi işğal edilərək Rusiyaya qatılmışdı (43, 15). Görünür, Avar ittifaqının qüdrətinin azaldığı bu mərhələdə ayrı-ayrı tayfaların ondan ayrılması nəticəsində parçalanan avarlar tamamilə dağılaraq Qafqaz dağlıları arasında tədricən öz dillərini itirmişlər.

Avarların Azərbaycanın şimal-qərb bölgəsində məskunlaşması V–VI əsrlər, daha sonra XV–XVI əsrlər boyu mərhələrlə davam etmişdir. Mənbələrdə V-VI əsrlərdə Dərbənd yaxınlığında məskunlaşan və hunların ardınca Azərbaycan ərazisinə yürüşlər edən türk tayfaları arasında avarların da adı çəkilir (186, 82). Məlumdur ki, avarlar yaxşı döyüşməyi bacardıqları üçün vaxtaşırı olaraq müxtəlif müharibələrə cəlb edilirdilər. Məsələn, hələ erkən orta əsrlərdə Qafqaz uğrunda gedən Bizans–İran müharibələrinə cəlb edilmişdilər. V–VI əsrlərdə olduğu kimi XV–XVI əsrlərdə də Azərbaycanın şimal-qərb bölgəsində gedən bir sıra hərbi əməliyyatlara cəlb edilən, məsələn, XV əsrdə kaxetiyalılarm onları düşmən basqınlarından qorumaq üçün dəvəti, daha sonra XVI əsrdə (1616) Səfəvi hökmdarı I Şah Abbasın dəvətilə avarlar tədricən bölgədə kütləvi şəkildə məskunlaşmağa başlamışdılar. I Şah Abbasın Azərbaycanın şimal-qərb torpaqlarında apardığı siyasət nəticəsində isə avarlar bu ərazilərdə birdəfəlik məskunlaşmışlar. XIX əsr rus tarixşünaslığında avarların Azərbaycanın şimal-qərbində məskunlaşmasının yalnız sonuncu mərhələsi öz əksini tapdığı üçün avarların Azərbaycanın şimal-qərb bölgəsində yerləşməsi dövrü XV–XVI əsrə aid edilmişdir (153; 174).



Yazılı mənbələrin araşdırılması ilə bərabər avar etnoniminin türk dilləri ilə izah olunması da bizə bu gün Şimali Qafqazda, həmçinin Azərbaycanda yaşayan avarların qədim türk tayfalarının, qudrətli avarların varisləri olduğunu söyləməyə əsas verir. Tədqiatçılar "avar" sözünü türk dillərindəki "avara" və ya "ayara" sözündən olub "çılğın, dikbaş, döyüşkən, dalaşqan" və ya "dirənən, qarşı gələn" kimi izah edirlər (114, 30). Görünür, yuxarıda da qeyd etdiyimiz kimi, tarixin bütün mərhələlərindən döyüşkən xalq kimi tanınan avarların tez-tez müharibələrə cəlb edilməsi də məhz bu xüsusiyyətləri ilə bağlı idi və bu xüsusiyyətlər onlara verilən etnik adda da öz əksini tapmışdı.

Avarların etnik ozünüadlandırması isə "maurlal" vəya "marulan" şəklindədir. Ədəbiyyatlarda avarların etnik özlərini adlandırmasının "baqualal" "maarulal", "marulan" şəklində olduğu barədə məlumatlar var (205, 347; 26).

Yuxarıda qeyd etdiyimiz kimi, qədim avarlar türk tayfalarının mühüm rol oynadığı böyük tayfa ittifqı yaratmışdılar. Avarlar qərbə doğru hərəkət etdikləri zaman müxtəlif tayfalar onlara qoşulduqları üçün Avar tayfa ittiaqının etnik tərkibi müxtəlif olmuşdur. Görünür, bu tayfalardan birinin etnik özünü adlandırması məhz "baqualal"və ya "marulan" şəklində olmuşdur. Avarların bu etnik özünü adlandırmasının mənası dəqiq məlum olmasa da, tədqiqatçılar bunun, əsasən... çiy ət yeyənlər" (114, 23) və ya dağlarda gəzən, dağ adamı (205) kimi izah edirlər. "Bats" kəlməsi avar dilində qurd mənasında işlənir. Qədim türk dillərində də qurd börü, buri kimi ifadə edilmişdir. Bu baxımdan "baqaulal" sözünə aid edilən xüsusiyyətlərin məhz qurda xas olduğunu (dağlarda gəzən, çiy ət yeyən) nəzərə alsaq bu kəlmənin baqa-börü və ulal-ulan-oğlan (Hazırda Türkiyənin Qara dəniz bölgəsinin dialektlərində də oğlan sözü "ulan" şəkliə ifadə edil-

məkdədir) sözbirləşməsinin fonetik dəyişikliyə uğramış forması olub "qurd oğlan" anlamına gəldiyini ehtimal etmək olar. Ümumiyyətlə, avarların dilində bir çox qədim türkmənşəli kəlmələr (məsələn, "kibil"-qəbilə, nəsil mənasında, "raxat" - rahat, rəvan mənasında, "pax"- paxır, "koy"- qoyun (127, 456) qorunub saxlanmışdır. Keçmişdə avarların Qanıq çayını da *Raxat* adlandırdıqları məlumdur (114).

Bölgədə yaşayan avarların başlanğıc, ulu ədadala bağlı mifik rəvayətlərində də türk xalq inanclarının izləri özünü göstərir. Avarların qeneologiyası ilə bağlı əfsanələrində qədim türk inanclar sisteminin əsasını təşkil edən qurd mifinə rast gəlinir. Zaqatala rayonunun Car kəndinin avarları öz əcdadlarının ağ qurddan (*avarca* batsa-kakov) törədiklərini söyləyirdilər (150, 30). Məlumdur ki, həm yazılı abidələrdə, həm də dastanlarda türklər öz əcdadlarını qurda bağamışlar və bu inam, xüsusilə hunlar arasında daha geniş yayılmışdır. Türk tayfaları üçün hər zaman əcdad – xilaskar olan boz qurdun funksiyasını Hun dövləti dövründə məhz "Ak Tuğan" (ağ qurd – M. P.) yerinə yetirmişdir (85, 103). Türk xalqlarından buryatlar da ağ qurdi müqəddəsləşdirərək onu göy-səma iti adlandırırdılar (128, 36). Göründüyü kimi, qədim türk tayfalarında əcdad kimi çıxış edən qurd, ağ qurd avar xalqının da qeneoloji miflərində mühüm yer tutur. Bu da onların türk avarların nəslindən olduğunu söyləməyə əsas verir.

Qeyd etmək lazımdır ki, hazırda Zaqatala rayonunun Paşan kəndində "*Bats*" (Qurd), və "*Kaxov*" (Ağ kişi") adlı iki toxum-nəsil də mövcuddur (150, 30). Göründüyü kimi, bu toxum (nəsil) adları da qədim türk mifologiyasının izlərini daşıyır. Qədim türk-azərbaycan mifologiyasında qurdla bərabər "Ağ oğlan", "Ağ atlı oğlan" adlı mifik qəhrəman da mövcud olmuşdur (13). Məlumdur ki, qədim türk qəhrəmanlıq dastanları və nağıllarımızda Ağ oğlan



obrazı həm də qurdun simvolu kimi çıxış edir (85, 104).

Kaxov (Ağ kişi) adlanan toxumun kökünün ağ hunlarla əlaqəli olması ehtimalı da mümkündür. Məlumdur ki, hunların bir qismi ağ hunlar adlanırdılar və ti-le adı ilə Qafqazda məskunlaşmışdılar (114, 31). Ptolomey Albaniyada Tilbida adlı yaşayış məntəqəsinin adını çəkir (Ptolomey, V, XI, 7). Hazırda avar kəndləri olan Tsilban (Zaqatala r-nu) və Tsolban-Çolban (Balakən r-nu) toponimlərində ti-le (ağ hunlar) etnonimi öz əksini tapmışdır. Maraqlıdır ki, bu gün Dağıstan ərazisində də avarların kompakt yaşadığı bir bölgə məhz Tilyarat adlanır.

Beləliklə, apardığımız araşdırmalar bu gün Azərbaycanın şimal-qərb bölgəsində, həmçinin Şimali Qafqazda yaşayan müasir avarların qədim hun və ağ hunlarla etnogenetik bağları olduğunu, eyni zamanda hun- türk tayfaları arasında mühüm yeri olan qədim və qüdrətli avarların vürisləri olduğunu söyləməyə əsas verir.

**Saxurlar.** Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan etnik qruplardan biri də saxurlardır. Saxurların bir hissəsi hazırda Dağıstan ərazisinə aid olan Rutul rayonunun Saxur, Keles, Kurdul, Mikik, Mişleş, Xiyax, Söyüd, Muxax, Aqtal, Korş, Cınıx, Baş Kəlal, Baş Muxax kəndlərində, bir hissəsi isə Azərbaycanın Zaqatala və Qax rayonlarında məskundurlar. Hazırda bölgədə Qaraçay və Qum vadisində, Cincimax, Çinarlı, Kats, Ağdam, Kələl, Meşləş, Ləkit, Kötüklü, Ağyazı, Qax-Ingiloy, Muxax kimi 16 saxur kəndi var. Bunların 12-si Zaqatala, 4-ü isə Qax rayonu ərazisindədir. Güllük, Mamrux, İlisu, Cimcimax, Suvagil, Gözparaq, Zərnə, Sarıbaş və başqa kəndlərdə isə saxurlar azərbaycanlılarla qarışıq halda yaşayırlar. 1959-cu ildə respublika əhalisinin siyahıyaalma nəticələrinə görə Şəki–Zaqatala bölgəsində saxurlar 6208 nəfər, 1979-cu ildə, 8500 nəfər, 1989-cu ildə 13,3 min nəfər təşkil edirdi (171). 1982-ci ilin nəticələrinə görə

saxurların ümumi sayı 20 min nəfərə çatır. Onlar Dağıstan dillərinin ləzqi qrupuna daxil olan saxur dilində danışırlar (26, 274).

XIX əsr və XX əsrin əvvəllərindəki siyahıyaalmalarda və digər statistik mənbələrdə Azərbaycanın şimal-qərbində məskun olan avarlar kimi saxurların da sayı və məskun olduğu ərazi haqda məlumatlar Rusiya imperiyasının bölgədə apardığı milli müstəmləkə siyasəti nəticəsində qeyri-dəqiq və səthidir. Əldə olan statistik məlumatlara görə saxurların sayı 1897-ci ildə 7,4 min nəfər, 1926-cı ildə 15,6 min nəfər; 1959-cu ildə 2,9 min nəfər, 1970-ci ildə 6,2 min nəfər, 1979-cu ildə 8,5 min nəfər; 1985-ci ildə 13,3 min nəfər olmuşdur (107, 66–68).

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan tarixinin qədim dövrləri XIX əsr rus tarixçiləri tərəfindən qəsdən saxtalaşdırılırdı. İmperiya tarixçiləri bu ərazilərdə Rusiyanın işğalçılıq siyasətinə haqq qazandırmaq üçün, guya buranın müsəlman əhalisinin bura gəlmə olduğunu sübut etməyə və heç bir elmi əsası olmadan tarixi faktları saxtalaşdırmağa səy göstərirdilər. Bu məqsədlə Azərbaycanın qədim və tarixi torpaqlarında məskun olan və öz etnik adını da XIX əsrədək Azərbaycan ərazisində olan Saxur kəndinin adından götürdükləri saxurları da bütün dağlılar kimi "ləzgi" və ya "Car-Balakən ləzgiləri" adı altında ümumiləşdirir və XVII əsrdə onların dağlardan enərək bu torpaqlara gəldiyini yazırdılar. XIX əsr rus tarixçisi İ. P. Lineviç yazırdı ki, "Car ləzgiləri" XVII əsrin əvvəllərində bu əraziyə gələrək Saxur, İlisu, Qarabulaq, Suvaqil icmalarına ayrıldılar. Saxurlar Azərbaycanda Sarıbaş (149 ev), İlisu (321 ev), Ağçay (35 ev), Qaşqaçay (100 ev), Yuxarı Malax (17 ev), Aşağı Malax (44 ev) və Ambarçay (64 ev) kəndlərini saldılar (26, s. 15). Lakin müəllif, eyni zamanda qeyd edirdi ki, bu ərazi Azərbaycan Rusiyaya birləşdiriləndək Saxur əyaləti və İlisu sul-



tanlığı adı ilə iki hissədən ibarət olmuşdur (158, 8). Bu məlumatın özü saxurların bu bölgədə daha öncə də yaşadıqlarını təsdiq edir. Ümumiyyətlə, saxurların hər hansı bir dövrdə kütləvi şəkildə Qafqaz Albaniyası ərazisində məskunlaşması barədə mənbələrdə heç bir məlumata rast gəlinmir. Əksinə, mənbələr bu ərazidə saxurların XVI əsdən öncə də məskun olması barədə məlumat verir (202, 116–117).

XIX əsrədək, yəni Rusiya imperiyasının Qafqazı işğal etməsinədək saxurlar Azərbaycanın şimal-qərbində Saxur əyalətinin də daxil olduğu İlisu sultanlığında birləşmişdilər. Lineviç Saxur mülkinün də daxil olduğu İlisu sultanlığının Azərbaycan ərazisində olduğunu qeyd edirdi (158, 10–15).

Məlumdur ki, X əsrdən etibarən Azərbaycanda feodal pərakəndəliyindən istifadə edən Kaxetiya çarları tez-tez Albaniyanın şimal-qərb ərazilərinə hücum edərək bu torpaqları ələ keçirməyə çalışırdılar və bir qismini də zəbt etmişdilər. Lakin XVI əsrdən etibarən Səfəvilərin bütün Azərbaycan torpaqlarının vahid Azərbaycan dövlətinin tərkibində birləşdirmək siyasətini aparması bölgədə vəziyyəti dəyişdi. Səfəvi hökmdarları Azərbaycanın ərazi bütövlüyünü təmin etmək uğrunda Kaxetiya çarlığına qarşı apardıqları mübarizəyə Azərbaycanın şimal-qərb bölgəsinin yerli əhalisi də yardım edirdi. Bunun müqabilində Səfəvilər yerli feodallara müəyyən əraziləri hədiyyə edirdi. Saxur mülkü də təxminən 1562-ci ildə bu mübarizədə fəal iştirak edən yerli feodallardan birinə Adil-Kurqulu bəyə irsi iqta torpağı kimi bağışlanmışdı. Daha sonra tədricən Qafqaz dağlarının cənubundakı bütün torpaqlar, o cümlədən Qax, Meşəbaş, Ləkit, Alagöz və b. kəndlərin əraziləri ona və onun varislərinə Səfəvi hökmdarları tərəfindən hədiyyə edilərək Saxur vilayətinin tərkibinə qatılmışdı. Saxur sultanlarından olan, Əli Sultanın nəticəsi Əmir xan

sonralar İlisu kəndini tikdirmişdi. Tədricən Saxur mülkünün mərkəzi coğrafi, iqtisadi və xüsusilə də hərbi-strateji baxımdan daha əlverişli olan İlisu ərazisinə köçürülmüşdü (148, 21). XV–XVI əsrlərdə Səfəvi dövlətinin mərkəzləşdirmə siyasətinin nəticəsində getdikcə Qafqaz dağlarının cənubundakı bütün torpaqlar Saxur vilayətinə qatılmış, XVII əsrdən isə Saxur sultanlığının mərkəzi İlisuya köçürülmüşdü. XIX əsr rus mənbələrinin də verdiyi məlumata görə XVII əsrin əvvəllərində saxurların bu ərazidə yaratdığı Saxur, İlisu, Qarabulaq, və ya Suvagil icmaları İlisu sultanlığının tərkibində idilər (158, 8).

Göründüyü kimi, XIX əsrdə İlisu sultanlığı iki hissədən Samur vadisindəki ətraf mahalları əhatə edən dağlıq mahal Saxur və Saxur mülkündən cənubda yerləşən Qapıçay, Alazan, Əyrişay, Qaşqaçaya qədər uzanan dağətəyi İlisu ərazisindən ibarət idi. Rusiya müstəmləkçiləri Qafqazı işğal etdikdən sonra Azərbaycanda qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yürüdərək İlisu sultanlığını ləğv etdilər. Rusiya imperiyası bölgədə həyata keçirdikləri inzibati-ərazi islahatları bəhanəsilə tarixi Azərbaycan torpaqlarını istədiyi kimi parçalayaraq İlisu sultanlığının bir qismini Zaqatala dairəsində saxladı, Saxur, Söqüd, Qurdul, Xiyağ, Muslax, Mikin kəndlərini isə yeni yaratdığı Samur dairəsinə qatdı. Bunu XIX əsrə aid mənbələr də təsdiq edir. Bu mənbədə İlisu sultanlığına tabe olan 52 kəndin içərisində Saxur, Söqüd, Xiyax, Mikin, Muslax və s. adına rast gəlinir (160, 27). Rusiya imperiyası tərəfindən sərhədlərimizin istənilən şəkildə qayçılanması ilə bərabər, çar müstəmləkəçiləri həm də İlisu sultanlığının dağ kəndlərini dağıdaraq bu kəndlərin əhalisini zorla sultanlığın əsasən türk və ingiloyların yaşadıqları dağ ətəyi və aran yerlərinə köçürməklə əsrlər boyu mehriban qonşuluq münasibəti ilə yaşayan qardaş xalqlar arasına ədavət toxumu səpməyə çalışırlılar.



Beləliklə, XIX əsrdə Rusiyanın müstəmləkəçi siyasəti nəticəsində Azərbaycanın qədim tayfalarından biri olan saxurların ata-baba torpaqları parçalanmış, saxurların yaşadığı ərazinin bir hissəsi Azərbaycan sərhədlərindən kənarda qalmışdı. Buna görə də saxurlar hazırda həm Dağıstanda Samur çayının mənbəyinə yaxın dağ vadilərində əsasən 13 kənddə, həm də Azərbaycanın şimal-qərb bölgəsində isə Ağyazı, Qum, Ləkim, Qax-İngiloy, Muxax, Suvagil kimi kəndlərdə və Qax şəhərində yaşayırlar (87).

Saxurların mənşəyi və saxur sözününü etimologiyası ilə bağlı tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər. Tarixçi-etnoqraf Qiyasədin Qeybullayev saxurları qədim mənbələrdə adı çəkilən şimal-qərbi Albaniyanın qafqazdilli tayfalarından biri olan ciqblərin varisi olduğunu yazırdı (127, 156). Ə. Hüseynzadəyə görə isə Abşerondakı Zuğulba kəndinin adı da "Saxur" etnonimi ilə bağlı olub "saxur" və "oba" sözbirləşməsindən yaranmışdır (127, 101–107). E. M. Lətifova isə "saxur" sözünün etimologiyasını izah edərkən "saxur" kəlməsinin 2 komponentdən ibarət olduğunu (sa-saxur dilində od deməkdir və xür ləzgi dilində kənd mənasındadır) qeyd edərək bu adın Qafqaz Albaniyası ərazisində atəşpərəstliyin geniş yayılması ilə əlaqələndirir. Lakin müəllif daha bir ehtimal da irəli sürərək Saxur toponiminin qədim türk tayfaları olan saklarla bağlı olmasını da söyləyir (160, 27–28). Fikrimizcə, bu mülahizə daha həqiqətə uyğundur. Bəzi ədəbiyyatlarda da saxur sözünün kökünün sax (sak) olduğu qeyd edilir. (Bax: 126)

Qeyd etmək lazımdır ki, əslində saxurların etnik özünü adlandırması "yıxbı" dir. Saxur etnonimi isə onlara qonşu xalqlar tərəfindən Saxur kəndinin adı ilə bağlı - saxurlular mənasında verilmişdir. Belə ki, saxurların əsas və qədim yaşayış məskəni məhz Saxur ərazisi olmuşdur. Saxur toponiminin adı ilk dəfə 293-cü ilə aid Paykuli kitabələrində çəkilir (127, 156). Orta əsr mənbələrində də Əbd Ər-Rəşid

Əl-Bakuvi Saxur toponimi haqqında məlumat verərək, Samur şayı yaxınlığında Zahir adlı böyük şəhərin olduğunu qeyd edirdi (36, 107–108). Mənbələr həmçinin Saxurun XIII əsrdə böyük bir yaşayış məntəqəsi, həm də tanınmış dini və elmi mərkəz olduğunu yazırdılar (203, 178). Sonrakı tarixi mərhələlərdə isə Saxur tədricən İlisu sultanlığının da dini-mədəni mərkəzinə çevrilmişdi.

Toponimlər bu və ya digər qədim tayfaların məskunlaşdığı ərazinin müəyyənləşdirilməsində çox mühüm rol oynayır. Yüxarıda da qeyd etdiyimiz kimi bir çox yazılı mənbələrlə bərabər toponimik məlumatlar da bu ərazidə çox qədim dövrlərdən bəri türk mənşəli hun, oğuz, qıpcaq tayfalarının, o cümlədən sakların da geniş yayıldığını göstərir. Maraqlıdır ki, Saxur toponimi də bölgənin digər saklarla bağlı toponimləri kimi qədim türk dilləri ilə izah olunur. "Xur" qədim türk dillərində meşəlik mənasındadır, (127, 478). Bunu nəzərə alsaq Saxur toponimini Sak-xur – sak meşəliyi kimi izah etmək mümkündür. Bu, Saxurun yerləşdiyi ərazinin təbii-coğrafi vəziyyətinə də uyğun gəlir. Bundan başqa, Strabonun sakları həm də Zaxori adlandırdığı da məlumdur (16, 103). Bu məlumatlara görə sak və saxur (zaxor) etnoniminin eyni tayfanın adını əks etdirdiyini və saxurların sak tayfalarının varisləri olduğunu ehtimal etmək mümkündür. Saxurların özlərini "yıxbi" adlandırmasına gəldikdə isə qeyd etmək lazımdır ki, sak adı bir çox türkmənşəli xalqlar üçün ümumiləşdirici bir ad olmuşdur. Mənbələrdən də saklar, turanlılar ümumiləşdirici adı altında müxtəlif adlı tayfaların birləşdiyi məlumdur (114, 26). Görünür, yıxbi də belə tayfalardan birinin adını əks etdirir.

Xalqın silinməz yaddaşı olan toponimlər hər hansı bir qədim tayfanın məskunlaşma ərazisini müəyyənləşdirməkdə mühüm pol oynayır. Bölgədə sak tayfalarını adı ilə bağlı olan bir çox toponimlər mövcuddur. Bu baxımdan



şimal-qərbi Azərbaycanın toponimikası (Şəki-Sakasena-sakların olduğu yer, Zaqatala-Saka-tela – sak talası, Qax rayonu yaxınlığında Kurmux çayının sol sahilində XIX əsrin sonlarınadək olmuş Səkan adlı yaşayış məntəqəsi – Saklar ölkəsi, Saqa-Tör – sak yaylağı kimi qədim yer adları, o cümlədən Saxur kəndinin adının saxur və ya sax (sak) etnik adında yaşaması göstərir ki, saklar Azərbaycanın şimal-qərb bölgəsində daha geniş yayılmışlar.

Gəldiyimiz nəticə ondan ibarətdir ki, saxurlar da avarlar kimi Baş Qafqazın təcrid olunmuş mühitində-qafqazdilli xalqların əhatəsinə düşdüklərinə görə assimilyasiyaya uğramış ola bilərlər. Görünür, türkmənşəli sak tayfalarının varisləri olan saxurların dili qafqaz dillərinin təsiri altında dəyişmişdir. Dilçi alimlər qeyd edirdilər ki, saxur dili avarların dilinə yaxındır və Qafqaz dillər ailəsində Dağıstan qrupuna aiddir (215, 591). Ümumiyyətlə saxur dili dilçilər tərəfindən saxur-qum, Mişleş, Cınıx, Muxax-Sabunçu, Savigil kimi dialektlərə bölünür. Saxurları etnik qrup kimi qeyd etməyən M. Baharlıya görə isə İlisu əhalisinin bir hissəsi ləzgi dilinin saxur dialektində danışırdılar (114, 28).

Hazırda Saxur dili əsasən dağlıq ərazilərdə yaşayan kəndlərin yaşlı sakinləri arasında qorunub saxlanmışdır. Ləkit, Zərno, Muxax, Tala kəndlərində isə XIX əsrin sonunadək saxur dilindən istifadə edilsə də əhalinin əksəriyyəti Azərbaycan dilində danışırdı (135, 1). XIX əsrdə Samur çayının yuxarılarını əhatə edən Samur dairəsinin Kurdul, Gelmes, Xiyax, Saxur, Muslaq, Mişleş, Cınıx, Muxax, Kələl, Attal, Zaqatala dairəsinin Yeni Kələl, Cimcimax, Allah Əsgər, Sabunçi, Suvagil, Kötüklü, Qum, Tala, Quçbarax, Mamrux kəndlərinin əhalisi saxurca danışırdı. Eyni zamanda İlisu və Sarıbaş kəndlərinin sakinləri də özlərini Saxur əhalisi hesab edirdilər və əvvəllər saxurca danışırdılar (135, 1). Ambarçay, Əmircanlı kənd-

lərinin də əhalisinin Saxur dilində danışdıqları məlumdur (25, 298). Lakin XIX–XX əsrin müəlliflərindən A. Dirrin qeyd etdiyi kimi saxurlar artıq XIX əsrin sonlarından daha çox azərbaycan türkcəsində danışırdılar. Hətta Dağıstan ərazisindəki Qaşqaçay, Aşığı Malıx, Yuxarı Malıx, Ağçay, Ləkit, Zərna kəndlərinin əhalisi də azərbaycan dilində danışırdı. Maraqlıdır ki, Dağıstan ərazisində yaşayan saxur və rutulların şifahi xalq ədəbiyyatı nümunələri təmizliyinə heç bir xələl gtirilmədən məhz azərbaycan ədəbi dilində qoruub saxlanmışdır. Halbuki Dağıstanın Dərbənd şəhərində, Rutul rayonunun Aşağı Katrux kəndində yaşayan azərbaycanlıların şifahi xalq ədəbiyyatı nümunələri azərbaycan dili dialektlərindədir (144, 228). Göründüyü kimi, əslində məntiqə görə azərbaycanlılarla qonşuluqda yaşadıqlarına görə rutul və saxurlar da Dağıstan azərbaycancası dialektini qəbul etməli olduqları halda, öz folklor nümunələrini bu dialektdə deyil, azərbaycan ədəbi dilində qoruyub saxlamışlar. Umumiyyətlə, saxur dilində *ebeçi* (mamaça), *xeyrat* (ehsan), *jiji* (bacı) kimi bir çox qədim türkmənşəli sözlər qorunub saxlanmışdır. Bunlar saxur və rutullarla Azərbaycan türklərinin qədim və sıx etnogenetik bağlarının nişanəsidir.

**Rutullar.** Rutullar hazırda əsasən Dağıstan Respublikasının Rutul rayonunda və Azərbaycanın Şəki-Zaqatala bölgəsində, Şəki rayonunun Şin və Qaynarca kəndlərində yaşayırlar (162, 35). 1992-ci il məlumatına görə sayları 20 mindir. Putulların da saxurlar kimi parçalanmış şəkildə məskun olmasının səbəbi XIX əsrdə Rusiyanin Qafqaz bölgəsində apardığı inzibati-ərazi islahatların – Azərbaycanın Samur ətrafındakı tarixi ərazilərinin qatıldığı Samur dairəsinin yaradılması və Dağıstan ərazisinə birləşdirilməsinin nəticəsi idi.

XIX əsr rus qafqazşünası Dirr rutullar haqqında da məlumat verərək yazırdı ki, Rutul adı Samurun yuxarı



hissəsində yerləşən Rutul kəndinin adından götürülüb. Bu etnik qrupu əsasən azərbaycanlılar Rutul kəndinin adı ilə rutul və ya rutullular adlandırırlar (163, 110). Rutullar bu kəndi meqed (mıxad), özlərini isə mıxaşura adlandırırdılar. Saxurlar isə Rutul kəndini mıxana, rutulları isə muxadali adlandırırdılar (135, 1). Maraqlıdır ki, "Alban tarixi" əsərində də Mxans nəslinin adı çəkilirdi (Kalankatlı, II, 6). Görünür, mənbələrdə utilərlə bərabər Cənubi Azərbaycan ərazisindən şimala – Albaniyaya köç edən türkmənşəli mik-mük-muğ tayfaları ilə özlərini mıxaşura adlandıran rutullar arasında etnik bağlar mövcud olmuşdur. Şəki-Zaqatala bölgəsində yaşayan rutullar özlərini çox zaman Şin kəndinin adı ilə "şenaz" (sinazrabor) da adlandırırlar. Şinoz adı da hazırda Dağıstan ərazisində yerləşən eyni adlı kəndin adı ilə də bağlıdır.

Qeyd etmək lazımdır ki, muğ etnonimi Şəki-Zaqatala bölgəsinin Samux, Qoxmux, Muxas, Muxbulaq, Kürmux, Muxax kimi bir çox toponimlərində öz əksini tapıb. Bu məlumatlar rutulların eranın əvvəllərində Qafqaz Albaniyasının şimal-qərb vilayətlərində məskunlaşmış alban tayfalarından biri – mük tayfalarının varisləri olması ehtimalını doğurur. Maraqlıdır ki, Baharlı ərəblərin skifləri "maqoq" adlandırdığını qeyd etmışdır. Meqed adlanan rutulların qədim skif tayfalarından oduğunu ehtimalına da yer vermək olar.

**Ləzgilər.** Azərbaycanda yaşayan azsaylı xalqlardan biri də ləzqilərdir. Lakin onların böyük əksəriyyəti Azərbaycanın Quba-Xaçmaz bölgəsində məskundurlar. Ləzgilərin çox az hissəsi Şəki-Zaqatala bölgəsində yaşayır. Hazırda ləzgilərin əsas hissəsi Dağıstanın cənub-şərqində (Qasımkənd, Kurax, Axtı. Rutul, Xiv və s.) Azərbaycan ərazisində isə əsas Qusar, Quba, Xaçmaz, İsmayıllı rayonunda məskundurlar. Şəki-Zaqatala bölgəsində isə ləzgilər Qəmərvan, Əmirvan, Küsnət, Hacallı, Topdağ,

Məlikli, Solquca, Sırt Yenicə və b. kəndlərdə azərbaycanlılarla qarışıq yaşayır. XIX əsrə aid mənbələrdə ləzgilərin Şəki-Zaqatala bölgəsinin Qaytar, Qazmalar, Filfili, Qəmərvan, Laza, Mıçıx kəndlərində də yaşadığı göstərilir (123). XIX əsrin 80-cı illərinə aid statistik məlumatına görə Nuxa qəzasında Filfili, Küsnət, Laza, Coruca, və Şin olmaqla beş ləzgi kəndi var idi və bu qəzada ləzgilərin sayı 1973 nəfər idi (187, 22–23).

Məlumdur ki, Qafqaz Albaniyasında yaşayan tayfalardan biri də leqlər olmuşlar. Tədqiqatçılar erkən orta əsrlərdə Albaniyada yaşayan leq tayfalarının müasir ləzgi etnosunun əcdadları olduğunu yazırlar (127, 166). Leq tayfalarının adı qədim mənbələrdə ilk dəfə Strabon, Plutarx kimi antik müəlliflər tərəfindən çəkilmişdir. Antik müəlliflər alban tayfaları içərisində "leq"lərin olmasını qeyd edirdilər. Qədim mənbələrdə leq etnonimi bütün Dağıstan xalqlarının ümumiləşdirici adı kimi qeyd olunur (127, 166).

"Ləzgi" sözünün mənası çox zaman "dağlarda yaşayan adam" kimi izah edilsə də, məşhur qafqazşünas Usların qənaətinə görə ərəblər islamı qəbul etməyə qarşı uzun müddət müqavimət göstərən leq tayfalarını "ləzik", yəni təmiz olmayan, murdar* (ərəblər müsəlman olmayanları çox zaman murdar adlandırırdılar.) adlandırmasilə yaranmışdır (114, 22). Ləzgi adının etmologiyası ilə bağlı olaraq XIX əsrdə Azərbaycanın görkəmli tarixçisi A. Bakıxanov da özünün "Gülüstan-i İrəm" əsərində fikir söyləmişdir. O, ləzgi xalqlnın adının onların lazlarla[1] qaynayıb qarışmasından yarandığını ehtimal edirdi (112, 16). Hazırda Türkiyənin Qara dəniz bölgəsində məskun olan lazlar da özlərini laziq (lezik-lezgi – M. P.) adlandırırlar. Orta əsr mülliflərі Azərbaycanın tarixi vilayəti olan Maskutdan (indiki Müşkür) qərbdə, Samurun yuxarı axarında, yəni ləzgilərin hazırda məskun olduğu ərazidə lakz tayfalarının yaşadığını yazırdılar (166, 108). Mənbələrdə bu bölgə ilə lokalizə edilən Lakzan ölkəsinin də adı çəkilr (36, 107–108).

[1] *Lazlar V əsrdə albanlar və iberlərlə birlikdə Roma-İran müharibələrinə cəlb edilmişdilər*



Əsasən Samur çayı hövzəsində məskun olan qədim leq tayfaları və lazlarla bağlı yer adlarına hazırda da bolgənin toponimikasında rast gəlinməkdədir: Laza, Ləkit, Ləkit-Kötüklü, Ləkit-Malax, Lək (Kurdul) kimi kənd adlarında bu qədim tayfanın izləri qorunub saxlanmışdır. Qeyd etmək lazımdır ki, ləkit toponimini sonuna əlavə edilmiş "t" şəkilcisi əsasən qədim türk dilləri üçün xarakteriktir (96). Bu fakt bölgədə türk tayfalarının və türk dillərinin aparıcı mövqeyini bir daha təsdiq edir. XIX əsrdə rus yazıçısı M. Y. Lermontovun da qeyd etdiyi kimi, türk dili Qafqazda əsas ünsiyyət dili idi (67, 471).

**İngiloylar.** Azərbaycanın şimal-qərb bölgəsində yaşayan etnik qruplardan biri də ingiloylardır. Hazırda ingiloylar bölgənin Zaqatala, Qax və Balakən rayonlarındakı ərazilərdə kompakt və azəri türkləri, avarlar və saxurlarlarla qarışıq şəkildə yaşayırlar. Ingiloyların Zaqatala və Balakən rayonlarında yaşayan böyük əksəriyyəti müsəlman, Qax rayonu ərazisində yaşayan hissəsi isə əsasən xristiandırlar. Hazırda Zaqatala, Qax və Balakəndə 29 ingiloy kəndi var. Bunlardan 5-i Zaqatala, 22-si Qaxda, 1-i isə Balakəndədir. (165a, 84).

XIX əsrdə ingiloylar haqda məlumat verən Fon-Plotto yazır ki, əvvəlcə xristian olmuş ingiloyların islam dininə keçməsi 1616–1617-ci illərə aiddir. (174, 6–10). Müəllif yazır ki, bu dövrdə bütünlüklə islam dinini qəbul etmiş ingiloyların bir hissəsi 1822-ci ildən başlayaraq Gürcüstan arxiyepiskopu İonenun səyi ilə yenidən xristian dininə keçmişdir.

Ingiloyların dini zəmində iki hissəyə parçalanması XIX əsrdə müstəmləkəçi Rusiyanın bu bölgədə apardığı dini

siyasətin nəticəsi idi. XIX əsrin əvvəllərindən Qafqazın işğalına başlayan Rusiya imperiyası Azərbaycanın şimal-qərb bölgəsində də möhkəmlənmək üçün yerli əhali və qonşu xalqlar arasında milli və dini ədavət toxumu səpməyə çalışirdi. Çar Rusiyası əsrlər boyu bu ərazidə mehriban qonşuluq və dostluq şəraitində yaşayan etnoslar arasında nifaq salmaq üçün müxtəlif bəhanələr uydururdu. Bu məqsədlə Rusiya imperiyası Azərbaycanın şimal-qərb bölgəsində məskun olan ingiloylara onların əslində son orta əsrlərdə dini etiqadı zorla dəyişdirilmiş gürcülər olduğunu təlqin etməyə calışırdı. O, Azərbaycanın şimal-qərb bölgəsinin guya vaxtilə Gürcüstan ərazisi olduğunu da iddia edərək Qafqazda xristian mədəniyyətini bərpa etmək və qorumaq pərdəsi altında bölgədə xristianlığı yaymaq siyasəti yüritməyə başlamışdı. Rusiya XIX əsrin əvvəllərində Car-Balakəndə hələ tam olaraq möhkəmlənə bilmədiyi üçün yerli əhaliyə birbaşa təsir göstərə bilmirdi. Ona görə də Rusiya gürçü kilsəsinin nümayəndə heyətini 1822-ci ildə bölgədə xristianlığı təbliğ etmək üçün İlisu sultanlığına göndərsə də, Qax əhalisi buna qətiyyətlə müqavimət göstərərək xristianlığı qəbul etməkdən imtina etmişdi. Lakin XIX əsrin 30-cu illərindən etibarən bölgədə ardıcıl hərbi əməiyyatlar aparan Rusiya Car-Balakən Camaatlığını, xüsusilə də, 1844-cü ildə İlisu sultanlığını ləğv edərək bu ərazidə möhkəmlənməyi bacardı. Bundan sonra özünə möhkəm dayaq yaratmaq və şimal-qərbi Azərbaycan ərazisini tədricən Gürcüstana qatmaq məsədilə fəal xristianlaşdırma siyasətinə başladı.

1849-cu ildən Rusiya bölgədə yaşayan ingiloylara xristianlığı qəbul etdikləri təqdirdə bir sıra güzəştlər verməklə (vergilərdən azad etmək, torpaq verilməsi və s.) onları xristianlığı qəbul etmək üçün şirnikləndirirməyə başladı. Bu güzəştlər sayəsində ilk dövrdə bir çox ingiloy kəndləri – Qax, Əlibəyli, Qorağan, Kötüklü, Meşəbaş, Şotavar,



Tasmalı, Zəyəm, Lələ-Paşa, Marsan, Yengiyan əhalisi xristianlığı qəbul etsə də, islam dininə sadiq qalan ingiloy əhalinin (xüsusilə də Əliabad kəndinin) islam uğrunda mübarizəyə qalxması ilə bu kəndlərin əksəriyyətində kütləvi şəkildə yenidən islama qayıdış başlandı. Bunu görən Rusiya xristianlaşdırma siyasətində daha da irəli gedərək artıq xristianlığı qəbul etmiş ingiloyların yenidən islama qayıtmaması üçün onları hər gün kilsəyə getməyə məcbur edir, hətta öz doğma müsəlman adlarını söyləməyi belə qadağan edirdilər (160, 79). Lakin bütün bu tədbirlərə baxmayaraq ingiloyların böyük bir hissəsi yenə də xristianlıqdan imtina etdilər. Yalnız Qorağan kəndinin bir hissəsində, Qax, Əlibəyli kimi bir neçə kənddə ingiloylar xristianlıqda qaldılar. Çarizmin bölgədə yarım əsr boyu apardığı dini siyasətin öz məkrli məqsədinə çatması üçün elə bu da yetərli idi. Beləliklə. Rusiyanın bölgədə apardığı fəal milli-müstəmləkə siyasəti nəticəsində XIX əsrədək aralarında heç bir nəfər də olsun xristian olmayan ingiloy etnosu dini zəmində iki yerə- xristian və müsəlman ingiloylara parçalandı. Lakin buna baxmayaraq, XIX əsrə aid rus müəlliflərinin də etiraf etdiyi kimi ingiloyların xristian və müsəlman qruplara parçalanmasına baxmayaraq öz aralarında mehriban münasibət saxlayırdılar (124, 55).

XIX əsrin sonlarından etibarən xristian ingiloyar Qax ərazisində, bundan başqa Qax-İngiloy. Keşqutan, Yengiyan, Tasmalı, İngiloy Kötüklü, Zəyəm, Qorağan, Meşəbaş kəndlərində də yaşayırdılar. Müsəlman ingiloylar isə Zaqatalanın Qandax, Əliabad. İlisu naibliyinin Süskənd kəndində, Qarasu naibliyinin Şotavar kəndində məskun idilər. Bölgənin Əlibəyli, Qorağan kimi kəndlərində isə ingiloylar qarışıq yaşayırdılar. 1886-cı il siyahıyalamasına görə Zaqatala dairəsində 8727 ingiloy yaşayırdı (124. 55–56). Mənbələrdə XIX əsrin 90-cı illərində Zaqatala dairə-

sindəki ingiloyların ümumi sayının on mindən artıq olduğu, bunlardan 3094 nəfərinin xristian ingiloy, 7126 nəfərinin isə müsəlman ingiloyların təşkil etdiyi, eyni zamanda Əlibəyli kəndində 286 nəfər xristian ingiloy, 223 nəfər müsəlman ingiloy, Qorağan kəndində isə 268 nəfər xristian ingiloy, 708 nəfər müsəlman ingiloyun qarışıq yaşadığı da qeyd edilmişdir (106, 259).

Göründüyü kimi, Rusiya imperiyası özünün "parçala, hökm sür!" milli müstəmləkə siyasətini həyata keçirərək ingiloyları iki hissəyə parçalamağı bacardı və bundan sonra ingiloy etnonimini tamamilə unutdurmaq yolunda tədbirlər görməyə başladı. Bu məqsədlə bölgə əhalisinin demoqrafiyasını əks etdirən sənədlərdə tədricən ingiloyların adı gürcü etnonimi ilə əvəz olunmağa başladı. Bu sənədərdə xristianlığı qəbul etmiş ingiloylar "gürcü xristian", müsəlman ingiloylar isə "gürcü-məhəmmədi" və ya "gürcü müsəlman" kimi absurd adlar altında qeyd olunurdu. 1886-cı il siyahıyaalma sənədlərində isə ruslar daha da irəli gedərək təkcə müsəlman ingiloyları "ingiloy" adı ilə qeyd edir, xristian ingiloyları isə artıq birbaşa "gürcü" yazırdılar (59, 6–8). Beləliklə, Rusiyanın XIX əsrin əvvəllərindən bəri apardığı məqsədli uzaqgörən siyasətinin nəticəsində artıq XIX əsrin II yarısında xristianlığı qəbul etmiş ingiloyların böyük əksəriyyəti keçmişini unudaraq özlərini gürcü hesab etməyə başladılar.

Rusiyanın imperiya tarixçiləri Çar Rusiyasının Azərbaycanın bu regiondakı fəal hərbi-siyasi və dini təcavüzünü "xristian mədəniyyətinin mühafizəsi" kimi təqdim edirdilər. Dubrovin, Butkov, Plotto, İvanenko, Esadze, Lineviç kimi XIX əsr rus müəllifləri Rusiya imperiyasını "guya xristian Gürcüstanın mədəni irsinin varisi və... qoruyucusu, beləliklə də Qafqazın 1500 illik tarixə malik olan xristian mədəniyyətininin bərpaçısı kimi" qələmə verməyə çalışırdılar (172, 27).



Beləliklə, XIX əsrdə Çar Rusiyasının milli və dini ədavət toxumu səpərək yürütdüyü "parçala və hökm sür! siyasəti ingiloylar üçün daha ağır nəticələr verdi. İmperiya tarixçiləri dini zəmində parçalanan ingiloyların etnik adını da təhrif edərək onları məhəmmədi gürcü, xristian gürcü kimi qəribə adlarla adlandıraraq məqsədli olaraq qədim alban etnosu ingiloyların mənşəyi problemini dolaşıq vəziyyətə saldılar.

Rus imperiya tarixçilərinin qoyduğu ənənələr sovet dövründə də davam etdirilirdi. Sovet tarixşünaslığında da ingiloyların müstəqil bir etnos kimi deyil, müsəlmanlığı qəbul etmiş gürcü mənşəli qrup kimi qəbul edilməsi konsepsiyası mövcud idi (59, 34–36; 172). XIX–XX əsrlərin əvvəllərində həm imperiya tarixçiləri, həm də sovet tarixçiləri ingiloyları gürcü mənşəli tayfa hesab edir, ingiloy sözünü isə Azərbaycan dilində "yengi" (yeni) və "yol" sözlərindən ibarət olmaqla "yeni yolu, yəni islamı qəbul etmişlər" mənasında izah edirdilər. Bununla da, ingiloyların müsəlmanlığı qəbul etmiş gürcülər olduğunu isbat etməyə çalışırdılar.

XX əsrin ortalarından etibarən Azərbaycan tarixşünaslığında ingiloyların etnik mənşəyinə dair tarixi həqiqəti əks etdirən ideyalar öz əksini tapmağa başladı. Azərbaycanlıların etnik tarixinə dair sanballı əsərlərin müəllifi olan görkəmli tarixçi Qiyasəddin Qeybullayev ingiloyları "gürcüdən dönmə", yeni yola gələn, yəni müsəlmanlaşmış gürcülər" hesab edən Dubrovin, Nadejdin, Canaşvili, Qəmxaraşvili, Dumbadze, Musxeleşvili kimi rus və gürcü tədqiqatçılara (59, 27–36) tutarlı elmi dəlillərlə cavab verərək ingiloyların qədim alban tayfalarından biri olan gellərin varisləri olduğunu isbat etmişdir. İngiloy etnonimi "yengi yol" deyil, "yengi geloy" söz birləşməsindən meydana gələrək tədricən yengigeloy-yenigeloy-yengeloy formasında fonetik dəyişikliyə uğramışdır. Qeyd etmək

lazımdır ki, hazırda da bölgədə azərbaycan türkləri ingiloyları "qeloy" adlandırır. İngiloylar etnik özünü adlandırması isə "geli" şəklindədir.

Göründüyü kimi, ingiloylar da əslində kök etibarilə Azərbaycanın alban mənşəli ən qədim etnoslarından biri olan qellərin varisləridir və onların indiki etnik adı - ingiloy etnonimi son orta əsrlərdə onların kütləvi şəkildə islam dinini qəbul etməsi nəticəsində yaranmışdır. Din, ideya ayrılığı isə tarixin müəyyən mərhələlərində eyni mənşəli tayfaların parçalanmasına gətirib çıxarmışdı.

Ərəb xilafətinin Albaniya ərazisini işğalından sonra gellər arasında islam dini müəyyən qədər yayılsa da (34, 15) onların böyük əksəriyyəti xristian olaraq qalırdı. VIII əsrin əvvəllərində alban kilsəsinin müstəqilliyinin ləğv edilməsi nəticəsində isə alban monifizit məzhəbli gellər pravoslav gürcü kilsəsinin təsiri altına düşdülər. Xüsusilə də IX əsrin əvvəllərində Kaxetiya çarlığının meydana gəlməsilə gürcü kilsəsinin təsiri daha da güclənmişdi. IX əsrin sonlarında ərəb xilafətinin zəifləməsilə feodal pərakəndəliyinin başlaması mərhələsində isə gel tayfaları Azərbaycanın şimal-qərb bölgələrində yaranmış feodal dövlətlərindən biri olan Şəki dövlətinin (886-1104) tərkibində cəmləşmişdilər. Lakin bu ərazi tez-tez qonşu gürcü çarlarının basqınları ilə üz-üzə qalırdı və nəticədə X əsrin əvvəllərində (1104) şimal-qərbi Azərbaycan ərazində yerləşən Şəki çarlığı bir müddət, (X–XII əsrlər boyu) Kaxetiya çarlığından asılı vəziyyətə düşmüşdü (191, 161). Bu dövrdə artıq pravoslavlığı qəbul etmiş gellər tədricən öz tayfa dillərini də unutdular və gürcü dilinin təsiri altına düşdülər (168). Buna görə də müasir ingiloy dili gürcü dilinin şərq dialekti hesab edilsə də gürcü dilindən fərqlidir (199, 68).

1616–1617-ci illərdə I Şah Abbas Səfəvi dövlətində mərkəzi hakimiyyəti gücləndirmək siyasətini yeridərək



Azərbaycanın tarixi ərazilərini bərpa etmək uğrunda mübarizəyə başladı. O, gürcü çarlarının ələ keçirdiyi Azərbaycanın şimal-qərb ərazisindəki torpaqları geri alaraq Car-Balakən icmalarının və İlisi sultanlığının tərkibinə qatmış və bununla da qellərin gürcüləşmə prosesinin qarşısı alınmışdı. XVII əsrin II yarısından etibarən qellər kütləvi şəkildə müsəlmanlığı qəbul etdiyi üçün artıq Azərbaycanın şimal-qərb bölgəsinin əhalisi tərəfindən "*yengi qeloylar*", yəni müsəlmanlığı qəbul etmiş qeloylar adlandırılmağa başlamışdılar. Bu dövrdən etibarən qel və ya qeloy etnonimi tədricən fonetik dəyişikliyə uğrayaraq "yengiloy"-"ingiloy" şəklində ifadə edilmişdir. Mənbələrdə də ingiloy etnoniminə yalnız XVIII əsrdən etibarən rast gəlinir. Bu fakt ingiloy etnoniminin yeni qeloy adlandırmasından yaranması və ingiloyların qədim alban tayfalarından olan qellərin varisi olması konsepsiyasının döğruluğuna şübhə yeri qoymur.

Gellər haqqında ilk məlumatlar antik müəlliflərdən Herodot, Strabon, Böyük Plini, Ptolomeyin əsərlərində rast gəlinir. Gellərin adı orta əsr ərəb, fars, gürcü mənbələrində, o cümlədən "Dərbəndnamə", Gülüstani-İrəm", "Asari-Dağıstan" kimi bir sıra Qafqaz salnamələrində də xatırlanır (59, 19). Mənbələrdə qellərin məskun olduğu ərazi Qala, Gelda, Qoloda kimi qeyd olunmuşdur. Qala adlanan Gellər ölkəsi hazırkı Gilan ərazisi, həmçinin Xəzərin cənub sahilləri ərazisini əhatə edirdi (188, 9). Qel tayfaları həmçinin Qafqaz Albaniyasının şimal-qərbində, Alazan vadisində, habelə Qafqaz dağlarının cənub ətəklərində və Samur çayının yuxarı axarında məskun idilər. Qədim gel tayfaları e. ə. IV əsrdən eramızın VIII əsrinədək alban ittifaqında birləşmiş tayfalardan biri olaraq Qafqaz Albaniyasının şimal-qərbində məskun olmuşlar. Mənbələrdən məlum olur ki, VI əsrdə gel tayfaları Albaniyanın nüfuzlu tayfalarından biri idi (190, 15).

Ptolomeyin əsərlərində gellərin məskun olduğu ərazi kimi adı çəkilən Qelda toponimi (Ptlomey. V, XI, 2) Şəki-Zaqatala bölgəsinin əhalisi arasında Qoloda şəkində qorunub saxlanmışdır. Hələ XIX əsrdə Azərbaycan tarixşünaslığının banisi, görkəmli alim A. Bakıxanov Qax rayonunun İlisu dairəsinin yuxarı hissəsi və Car ərazisinin yerli əhali arasında **Qoloda** adlandığını qeyd edirdi. Bunu rus etnoqrafı P. K. Uslar da təsdiq edərək, yerli əhalinin Car-Balakən dairəsini Qoloda, sakinlərini isə qolodosey adlandırdığını yazırdı (199, 68). Göründüyü kimi, Ptolomeyin adını şəkdiyi Qelda toponimi Qoloda və ya Qoluda şəklində bu günədək bölgə əhalisi arasında qorunub saxlanmaqdadır. Hazırda da Zaqatalada ingiloylarla qarışıq və yanaşı yaşayan avarlar və saxurlar ingiloyların məskun olduğu ərazini Qoloda, ingiloyların özlərini qelou, gelavi adlandırır (127, 170).

Şəki-Zaqatala bölgəsində qel etnoniminin izləri Gelmes, Suvagil, Qüllük, Sarvagel (Sarıbaş kəndinin keçmiş adı) kimi toponimlərdə qorunub saxlanmışdır. Yerli əhali bu kəndlərin hər birinin qədim tarixə malik olduğunu söyləyirlər. Xüsusilə də, Güllük kəndi bölgədə ən qədim yaşayış yeri hesab edilir. Bu kəndin qədimliyi ilə bağlı Qax əhalisi arasında "Çaylarda Qurmuq, çöllərdə Turut, kəndlərdə Güllük" kimi xalq deyimi mövcuddur. Qeyd etmək lazımdır ki, gel etnoniminin izlərini daşıyan Gilançay (Ordubad), Gilanı (Naxçıvan), Gilgilçay (Dəvəçi), Gil (Qusar), Gilyar (Qasımkənd) kimi toponimlər hazırda Azərbaycan Respublikasının ərazisində olduğu kimi tarixi torpaqlarımız olan Cənubi Azərbaycan ərazisindəki Gəl, Kürəgil kimi yer adlarında, eyni zamanda Qərbi Azərbaycan ərazisindəki Gilkənd (İcevan), Gilli (Sevan) kimi toponimlərdə də qorunub qalmışdır.

**Udilər.** Azərbaycanın şimal-qərbində məskunlaşan etnik qruplardan biri də udilərdir. Hazırda udilər əsasən



Qəbələ rayonunu Nic kəndində və Oğuz rayonunda yaşayırlar. 1992-ci il məlumatına görə onların ümumi sayı 5.241 nəfərdir. Onların 4.465 nəfəri Nicdə yaşayır. Oğuzda isə udilərin sayı 70 nəfərə qədərdir (24).

XIX əsrdə udilər Yelizavetpol quberniyasının bir neçə qəzasında qeydə alınmışdılar. Lakin o dövrdə də Şəki-Zaqatala bölgəsini əhatə edən Nuxa qəzasında udulərin sayı daha çox idi. Onlar qəzanın Nic, Vartaşen (Oğuz), Vardanlı, Mirzəbəyli, Sultan–Nuxa, Courlu, Mamıx, Girzan, Yenikənd kimi kəndlərində qeydə alınmışdılar. Şəki-Zaqatala bölgəsində yaşayan udilərin ümumi sayı 1880-cı il siyahıyaalmalarında 10 min nəfər idi (25, 213). Alban tarixçisi Musa Kalankatlı Qazax-Ağstafa rayonu ilə lokalizə edilən Qafqaz Albniyasının vilayətlərindən olan Girdmanın Xalxal şəhərində utilərin yaşadığını qeyd etmişdir (Kalankatuklu. I, 29) Mənbələrə görə orta əsrlərdə Kürün sahilindəki bu ərazidə daha çox sayda udi ailəsi (900 ailə) yaşasa da, 1875-ci il siyahıyaalmalarında burada cəmi 29 ailə yaşayırdı (213, 44). XIX əsrə aid mənbələrdə udilərin Tovuz rayonunun Kirzan kəndində də məskun olması barədə məlumatlara rast gəlinir.XX əsrin əvvəllərində Tərtər rayonunun Seysulan kəndində də udi tayfasının yaşadığı məlumdur.

Azərbaycanın qədim tayfalarından biri olan udilərin adı e. ə. VIII əsrdə Urartu mixi kitabələrində "Uduri", yunan tarixçisi Herodotun "Tarix" əsərində (Herodot. III, 93) və Strabonun "Coğrafiya" əsrində (Strabon. XI, 711,) uti, Böyük Plininin "Təbiət tarixi" əsrərində (Pliniy Satarşiy, VI.), Ptolomeyin "Coğrafiya"sında (Ptlomey. 16–25) isə "udin" və "ud" kimi qeyd olunmuşdur. Herodot Cənubi Azərbaycan ərazisində – Maday dövlətinin iki əyalətində utilərin yaşadığını qeyd edirdi (Herodot. III, VIII). Daha sonra I əsr müəllifi Strabon bunu təsdiq edərək Atropatenada, Xəzərin cənub-qərbində Uti adlı əya-

lətdə utilərin yaşadığını qeyd edirdi ( Strabon. XI, 8, 18)

Udilər barədə daha ətraflı məlumatlar alban tarixcisi Musa Kalankatlının "Alban tarixi" əsərində verilir (I, IV). Müəllif bir çox alban tayfaları kimi utilərin də Albaniyaya gəlmə olduğunu qeyd edərək Qafqaz Albaniyası ərazisində bir neçə Uti mahalının adını çəkmişdir; 1) Qarabağın dağlıq hissəsində (I, XXIII); 2) Bərdə (I, XXIV); 3) Girdmanın Xalxal şəhəri (Qazax-Akstafa rayonu ərazisi) (I, XXIX); 4) Arazbar (I, XXVII); 5) Azərbaycanın şimal-qərbi (II, XXIII).

Mənbələrdən məlum olur ki, hələ eradan əvvəl Cənubi Azərbaycan ərazisində yaşayan bir sıra alban tayfaları ilə bərabər uti tayfaları da eramızın əvvəllərində Azərbaycanın cənub bölgələrindən şimala köçərək Albaniyada yerləşmişlər (97, 65). Görünür, bu tayfalar, o cümlədən utilər Kirin, Makedoniyalı İskəndərin yürüşləri, hun yürüşləri kimi müəyyən tarixi hadisələrlə bağlı olaraq Azərbaycanın cənubundan şimala döğru hərəkət edərək Albaniyada məskunlaşmışdılar. Müasir udilərin Qərbi Azərbaycanda Göycə gölünün cənub qərbindən, Gözəldərə adlı mahaldakı Niq adlı yerdən gəldikləri də ehtimal edilir (51, 52). Tədqiqatçılar udilərin Albaniyanın şimal-qərbinə köç etməsini Urartu çarlarının Etiuniyə dağıdıcı hərbi səfərləri ilə də bağlayırlar (224). Yuxarıda da qeyd etdiyimiz kimi, hələ e. ə. 764-cü ildə uti tayfalarının yad edildiyi Urartu mixi yazılarında Göycə gölünün hövzələrində yerləşən Etiuni adlı ölkənin adı çəkilir. Bu ölkənin yaşayış məntəqələrindən biri mənbələrdə Niq adlanırdı. Alazan və İberiya arasında yerləşən ərazidə Ptolomey də Niqa adlı yaşayış məntəqəsini adını çəkmişdir (Ptolomey. V, XI, 3). Görünür, udilər daha sonra Qəbələ ərazisində məskunlaşaraq hazırda Nic formasında olan Niq toponimini də özləri ilə bura gətirmişlər. Beləliklə, udilərin müəyyən hərbi yürüşlər nəticəsində eranın əvvəllərindən Azərbaycanın



cənubundan köç edərək qərb və şimal-qərb bölgələrinə və mənbələrin də söylədiyi kimi, əsasən Azərbaycanın Qəbələ-Şəki-Şəmkir-Qazax-Qarabağ bögələrində yayılmışlar (46).

Beləliklə, qədim udi tayfalrının Azərbaycanın şimal-qərbinə ya cənubu, ya da qərbi Azərbaycan ərazisindən gəldikləri, eranın ilk əsrlərində Xəzər dənizindən Baş Qafqaz sıra dağlarınadək, Kürün sol və sağ sahil boyundan Alazan çayınadək olan ərazilərdə məskunlaşdığı məlum olur.

Udilərin etnik mənşəyinə gəldikdə isə həm yazılı mənbələr, həm də toponimik məlumatlar Cənubi Azərbaycan, Şimali Qafqaz və Albanyia ərazisində qeydə alınan Uti mahallarında yaşayan utilərin türkmənşəli olduğunu söyləməyə əsas verir (52, 42–44).

Yuxarıda da qeyd etdiyimiz kimi, sakların tərkibində gələn utilər həm Xəzərin cənub-qərbində, Maday (Midiya) ərazisində, həm də şimalda Albaniya ərazisində yayılmışdılar. Antik müəlliflərdən Plini udinlərin skif tayfalarından olduğunu qeyd edirdi (Plini. VI, 38). E. ə. VII əsrdə türk sakların içərisində gəlib Arranda yerləşən utiləri bir çox tədqiqatçılar haqlı olaraq türkmənşəli hesab edilirlər (233). Utilər Cənubi Azərbaycanda olduğu kimi şimalda da saklar, gellər, müklər ilə qonşuluqda yaşamışlar (127, 46).

Bizans mənbələində (IV–V əsrlər) Şimali Qafqaz çöllərində hun tayfalarından olan utiqur adlı tayfanın yaşadığını qeyd edirdi (131, 30). Məlumdur ki, "qur" komponenti uyqur, yazqur, salqur kimi bir çox türk tayfa adları üçün xarakterikdir və monqolca "xalq" mənasındadır (108, 269). Monqol tarixçisi Rəşidəddin udiut (Udiut tayfa adı udi komponentinə türk-monqol dillərində cəm bildirən *ut* şəkilçisi qoşulmuşdur; udi+ut) adlı monqol tayfası olduğunu qeyd edirdi (178).

Udilər barədə XIX əsr rus qafqazşünasları arasında da

belə bir fikir söylənilirdi: "onlar... .mənşəcə doğma və türk tayfalarından udilər (115, 154). XIX əsrin ortalarında Azərbaycanda olmuş və udilərin mənşəyi ilə maraqlanmış A. Dümanın (Ata) "Qafqaz səfəri" adlı əsərindəki aşağıdakı məlumat da udilərin qədim türkmənşəli bir tayfa olduğu ehtimalını daha da gücləndirir: "Axı bu udilər kimlərdir və nə olan millətdir? Elə mən özüm də bunu tam təfərrüatı ilə bilmək istərdim. Udilər Qfqazda yaşayan tayfalardandır... Tək halda onlara udu, cəm halda udox deyirlər." Bir çox tədqiqatçılar türkmənşəli ox (ok) sözünün mənasını qəbilə kimi izah edirlər (47, 3). Eyni zamanda oğuz sözünün də qəbilə (bir siyasi qurulişa bağlı) mənasını verən ok və əski türkcədəki – iz cəm şəkilçisindən ibarət olaraq (ok+uz) qəbilələr demək olduğu da məlumdur (47, 3). Yəni bu söz əslində etnos deyil "türk qəbilələri" anlamını ifadə edir. Görünür udilər də qədim oğuz qəbilə ittifaqına (24 oğuz qəbiləsini olduğu məlumdur) daxil olan bir çox tayfalar kimi (məsələn, məşhur oğuz qəbilələri olan buzuk (ox) və üçok (x) kimi) özlərini cəm halda udox, yəni ud tayfası adlandırmışlar. Görünür hazırda Şəki-Zaqatala bölgəsindəki Oxud (ox-qəbilə+ud) kəndinin adı da ud tayfası ilə bağlıdır. Maraqlıdır ki, "ud" kəlməsinin özü də türkmənşəli olub qədim türk mənbələrində rast gəlinir. M. Kaşqarinin lüğətində "ud il"-öküz ili" kimi verilmişdir (223, 346). Göründüyü kimi, əski türkdilli qəbilələrdə il adlarından biri ud (öküz) olmuşdur (79, 27). Qədim türk abidəsi olan Orxon-Yenisey kitabələrində "Udun" kəlməsinə rast gəlinir (81, 330). "Kitabi-Dədə Qorqud" eposundan da oğuz tayfalarının bir qisminin xristian, digərinin isə islam dinini qəbul edənlər olduğu məlumdur. Oğuzların bir qolu olan Dış Oğuzlar xristian olduqları üçün dastanda özlərinə "biz kafərlər" deyirdilər. Görünür, bu gün xristian olan udilərin Dış oğuzlarla müəyyən etnoqenetik bağları olmuşdur. Bölgədəki Daşüz topo-



nimi də bu qədim tayfaların izlərini daşiyır.

Məlumdur ki, oğuz qəbilələrindən hər birinin ayrıca totemi olmuşdur və oğuz qəbilələrinin bir çoxu öz əcdadlarını əsasən yarızoomorfik öküzlə və Ay kağan ilahəsi ilə bağlamışlar. Uyğur "Oğuznaməsi"nin əlyazmasında da öküz şəkli mövcuddur (79). Görünür, öküz ud qəbilələrinin də totemi olduğu üçün qəbilə bu adla adlandırılıb. Udilərin qədim inanclarını əks etdirən bir çox magik ayinlərində də Ay və qədim inanclar sistemində ayın simvollarından biri olan öküz mühüm yer tutur. Udilərin qədim toy ayinlərində şər qüvvələrdən qorunmaq üçün icra etdikləri bir magik ayində məhz öküz qanından istifadə edilməsi, görünür, bu inancdan qaynaqlanır[1]. Məlumdur ki, qədim inanclar sistemində əcdad ruhu şər qüvvələrdən qoruyur. Udilərin ay və onun simvolu olan öküzlə bağlı inanclarının əcdad kultu, əcdad ruhunun qoruma özəlliyi ilə bağlı olduğunu ehtimal etmək olar. Göründüyü kimi, udilərin inancları da öz əcdadlarını əsasən yarızoomorfik öküzlə bağlayan oğuzların inanclar sistemi ilə üst-üstə düşür.

Altay dillərinə mənsub udmurt və udegey xalqlarının da udilərlə qohum olması ehtimallarına hələ XIX əsr rus ədəbiyyatlarında rast gəlinirdi (214, 98.) Göründüyü kimi, bu xalqların hər birinin adında "*udi*" komponenti nəzərə çarpır. Maraqlıdır ki, XVII əsrdə Sibirdə (Krasnoyarsk vilayəti) Udin mahalı mövcud idi və karakas, sarıkas, kaş kimi bir çox türk tayfalarının yaşadığı bu türk ulusunda "udin" adını daşıyan türkmənşəli etnik qrupun adı da qeydə alınmşdır (130, 247, 254). Hazırda bu ərazidə mövcud olan Nijne-udinsk şəhəri də məhz udi tayfasının adını əks etdirir (152).

Qeyd etmək lazımdır ki, XVIII əsrdə Azərbaycanın Şahsevən türk tayfa birləşməsinin bir cənubunda yaşayan

---

[1] Kitabın toy mərasimləri bölməsində bu ayin təsvir edilmişdir.

qolunun da udulu adlandığı məlumdur. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra bu tayfanın bir hissəsinin Cənubi Azərbaycandan şimala köçməsi nəticəsində Şamaxı və Dəvəçi rayonlarında Udulu adlı kəndlər meydana gəldi. XIX əsrə aid mənbədə Tərtərin sağ sahilində yerləşən Seysulan kəndinin əhalisi də türk dilində danışsalar da, özlərini udi adlandırırdılar (52, 46).

Göründüyü kimi, udilərin tarixi, qədim kökləri, udi etnonimnin etimologiyası, etnik arealı, inancları, adət və ənənələri araşdırıldıqca, bu qədim alban tayfasının türkmənşəli tayfalarla sıx etnoqenetik bağlarının olması ehtimalları daha da güclənir.

Azərbaycanın Şəki-Zaqatala bölgəsinin etnik tarixinin araşdırılması nəticəsində məlum olur ki, bölgənin yerli əhalisi qədim türkmənşəli tayfalar olmuşdur. Şimal-qərbi Azərbaycanda formalaşan vahid azərbaycanlı etnosunun kökü minilliklərin dərinliklərinə, hun, qıpçaq, oğuz, alban, avar, gel, leq, udi və b. tayfalarının əcdadları sayılan skif-sak qatınadək gedib çıxır. Skif-sak dövründən bəri şimal-qərbi Azərbaycan ərazisinə güclü etnik axın olmuşdur. Bölgənin etnik konsolidasiyası qədim alban tayfalarına qədər və albanlardan sonrakı dövrlərdə bu ərazidə məskunlaşmış tayfaların təkamülü əsasında baş vermişdir. Bu mürəkkəb və arasıkəsilməyən etnik prosesdə ən mühüm mərhələ erkən orta əsrlər olmuşdur. Məhz bu dövrdə – eranın ilk əsrlərindən başlayaraq XII–XIII əsrlərədək Azərbaycanın şimal-qərbinə müxtəlif tayfalar axışmışlar və bu tayfalar yerli türk etnosları ilə qaynayıb qarışaraq müasir Azərbaycan xalqının formalaşması prosesində iştirak etmişlər.

Əsrlər boyu tarixi hadisələrin gedişi, xüsusilə də, hərbi yürüşlər və inzibati-siyasi dəyişikliklər bu bölgədə məskun olan etnosların etnik tarixinə müəyyən təsir göstərmiş, xarici işğalçılara qarşı mübarizədə bu xalqları birləşdirmiş, onları bir-birinə daha çox yaxınlaşdıraraq etnik konsolidasiyasını gücləndirmişdir. Bununla bərabər bu xalqlar özlərinin etnik xüsusiyyətlərini, dinlərini, adət-ənənələrini qoruyub saxlayaraq bu günümüzədək yaşamışlar.



Göründüyü kimi, Şəki-Zaqatala bölgəsi rəngarəng etnik tərkibə malikdir və bu rəngarənglik, şübhəsiz ki, əhalinin mənəvi mədəniyyətində, o cümlədən ailə məşətində də özünü biruzə verməli idi. Bölgə əhalisinin ailə məişət ənənələrində ümumi və oxşar cəhətlərlə yanaşı hər bir etnosun özünəməxsus genetik kökləri ilə bağlı spesifik xüsusiyyətləri də mövcuddur və bu da tamamilə təbii bir prosesdir.

Bu gün Azərbaycanın Şəki-Zaqatala bölgəsinin əhalisinin böyük əksəriyyətini təşkil edən türkdilli azərbaycanlılara bərabər, avarlar, ingiloylar, udilər, ləzgilər, saxurlar, rutullar da öz etnik adlarını və etnik spesifikliyini qorumaqla bərabər özlərini vahid Azərbaycan xalqının tərkib hissəsi hesab edirlər və azərbaycançılıq ideologiyası ətrafında birləşmişlər.

## II FƏSİL

# EVLİLİK MƏRASİMLƏRİ

Milli-mənəvi dəyərlərimizə yad əllərin uzanmaq istədiyi bir zamanda mənəvi mədəniyyətimizin mühüm tərkib hissəsi olan ailə mərasimləri, onların mənşəyi və bu mərasimlərlə bağlı adət-ənənələr və sisteminin araşdırılması xüsusilə mühüm əhəmiyyət kəsb edir. Azərbaycanlıların, yəni həm Azərbaycanın aparıcı etnosu olan azəri türkləri, həm də bu ərazidə onlarla bərabər əsrlər boyu iç-içə mehriban qonşuluq şəraitində yaşayan avar, udi, ingiloy, saxur kimi Azərbaycanı özlərinə məskən seçmiş bir çox etnos və etnik qrupların ailə mərasimlərinin qarşılıqlı paralellərlə araşdırılması bu etnosların etnoqeneqtik, etno-mədəni əlaqlərinin, onlarının vahid kökə bağlanan keçmişinin üzə çıxarılmasına, bütövlükdə Azərbaycan mənəvi mədəniyyət tarixinin daha dərin qatlarına enməyə imkan verir.

Mərasim müəyyən davranış normalarının, mənəvi dəyərlərin, inancların kollektiv şəkildə simvolik ayinlərlə ifadə edilməsidir və xalqın keçdiyi tarixi yolu, onun keçmişini və bu gününü müəyyənləşdirmək üçün mühüm əhəmiyyət daşıyır. Xalqın həyatını, yaşayış tərzini, həyat təcrübəsini, ən əsası isə mənəvi mədəniyyətini əks etdirən mərasimlər insanların hər zaman ehtiyac duyduğu və duyacağı mənəvi mədəniyyət ünsürlərindən biridir. Mərasimlərin regional baxımdan öyrənilməsi bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin spesifik xüsusiyyətləri, mərhələ və təşəkkül prosesləri barədə daha dəqiq qənaət əldə etməyə imkan verir. Belə ki, mərasimlər zamanı icra olunan simvolik ayinlər hər bir xalqa spesifiklik qazandırır və xalqın etnik tarixi müəyyən dərəcədə həmin xalqa xas olan mərasim və ayinlər sistemində də öz əksini tapır.



Mərasimlərin mühüm hissəsini təşkil edən ailə mərasimləri, əsasən evlənmə, doğum, yas mərasimlərindən ibarətdir. İnsan həyatının ən mühüm mərhələlərini əks etdirən bu mərasimlərin hər biri özünəməxsus adət-ənənə və ayinlərlə müşayət olunmuşdur. Ailə mərasimlərini zənginləşdirən ayinlər bu mərasimlərin mahiyyətinin açılmasını təmin etməklə bərabər xalqın qədim dünyagörüşlərini, inanclarını əks etdirir. Bu baxımdan xalqın minilliklər boyu mövcud olan qədim dünyagörüşlərinin qalıqlarını məhz ailə mərasimləri, o cümlədən toy mərasimlərində müəyyən qədər izləmək mümkündür.

Evliliyin bünövrəsi toy mərasimləri ilə başlayır. Dini, milli, hüquqi və mədəni dəyərlərlə formalaşan ailənin qurulması həm də hər bir xalqın özünəməxsus mədəniyyətini əks etdirən toy mərasimləri ilə müşayət olunur. Azərbaycan dilində evlənmək, ev qurmaq ifadəsi ailə qurmaq anlamında işlənərək qədim dövrlərdən bəri Azərbaycan xalqı üçün müqəddəs məna kəsb etmişdir. "Ev" kəlməsi qədim şumerlərdən bizə miras qalmışdır və şumerlərdə ev məbəd anlamına gəlirdi (51, 71). Görünür, dilimizdəki "ev" sözündən meydana gələn "evlilik" kəlməsi də buna görə müqəddəslik, paklık mənasını daşıyır və azərbaycanlıların ailələyə verdikləri dəyəri ifadə edir.

Azərbaycanın qədim toyları bir çox mərasimlər, oyun və ayinlərlə zəngin olmuşdur. XIX–XX əsrin əvvəllərində də azərbaycanlıların ənənəvi toyları simvolik ayinlər, folklor, oyunlar, rəqslər, tamaşa-oyunlar, zorxanalar və s. ilə müşayət olunurdu. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi və mənşəyi müəyyən dərəcədə bu mərasim və ayinlər sistemində öz əksini tapır. Bu baxımdan Azərbaycan xalqının keçmişini, mənəvi mədəniyyətini, dünyagörüşünü tədqiq etmək üçün toy mərasimləri ən qiymətli mənbələrdən biridir. Toy mərasimlərinin bütün mərhələlərində icra olunan, simvollarla zəngin ayinlər xalqın spe-

sifik xüsusiyyətlərini ortaya çıxarır.

Toy mərasimlərimizdə icra olunan ayinlər, əsasən, yeni evlənənləri bəd nəzərdən və pis ruhlardan qorumaq, xoşbəxtlik və səadət bəxş etmək, ruhları razı salmaq məqsədilə edildiyi üçün onların kökü tarixin dərinliklərinə – təbiət, göy cisimlərinə sitayiş, əcdad kultu, magiya kimi qədim inanclar sisteminə gedib çıxır. Lakin toy mərasim ənənələrimiz əsrlər keçdikcə tədricən özünün bir sıra qədim elementlərini itirmiş, mərasim ayinləri tədricən oyun-tamaşa səciyəli olmağa başlamışdı. Getdikcə bir çox qədim ayinlərin qalıqları, təəsüf ki, yalnız yaşlı nəslin yaddaşlarında qaldığı üçün bunların yazıya alınması zəruridir və bu iş tədqiqatçıların üzərinə düşür.

XIX–XX əsrin əvvəllərində qədim ayinlərlə zəngin olan toy mərasimlərimiz sağlam ailənin bünövrəsinin qoyulmasını təmin etmək məqsədilə icra edilən adətlər və magik məzmun daşımaqla yanaşı, həm də tamaşa-əyləncə xarakteri daşıyan kollektiv-sakral tədbirlər toplusu idi. Azərbaycanın Şəki-Zaqatala bölgəsi tarixən etnik rəngarəngliyi ilə seçildiyi kimi toy mərasimlərinin, adət və ayinlərinin rəngarəngliyi baxımından da zəngindir. Şübhəsiz ki, əsrlər boyu yanaşı yaşama və bir-birinin mənəvi mədəniyyətlərindən təsirlənmələr həm azərilərin, həm də bölgədə məskun olan avar, saxur, rutul, ingiloy, udin, ləzgi kimi azsaylı xalqların adət-ənənlərində, o cümlədən toy mərasimlərində özünəməxsus çalarlar yaratmışdır. Bölgə əhalisinin adət və ənənələrində bütövlükdə azərbaycanlılara xas olan etnik əlamətlər üstünlük təşkil etsə də, ailə mərasimlərində, o cümlədən toy mərasimlərində bir sıra regional xüsusiyyətlər də mövcuddur. Şəki-Zaqatala bölgəsinin regional xüsusiyyətlərini əks etdirən bu mərasimlər bütövlükdə Azərbaycan mənəvi mədəniyyət tarixinin daha qədim mərhələlərini, spesifik xüsusiyyətlərini üzə çıxarmaq üçün qiymətli mənbədir.



Bödgənin polietnikliyi ailə mərasimlərinin, o cümlədən toy mərasimlərinin spesifik regional xüsusiyyətlərinin formalaşmasına səbəb olmuşdur. XIX–XX əsrin əvvəllərində Azərbaycan toy mərasimləri ilə bağlı ayinlər mahiyyət etibarilə eyni olsalar da, Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də özünəməxsus şəkildə icra edilərək bu bölgədə yaşayan həm azərilərin, həm də avar, ləzgi, udi, ingiloy, saxur, rutul və digər etnik qrupların mənəvi mədəniyyətlərini də əks etdirir. Bu baxımdan biz Şəki-Zaqatala bölgəsində çoxluq təşkil edən azərilərlə bərabər bu ərazidə əsrlər boyu azərilərlə birgə yaşayan və bir-birilə qaynayıb qarışan yuxarıda adları çəkilən etnik qrupların da ailə mərasimlərini, o cümlədən toy mərasimlərini qarşılıqlı şəkildə tədqiq etməyə çalışmışıq.

**Azərbaycan türkləri.** Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türklərinin evlilik mərasimləri Azərbaycanın hər yerində olduğu kimi "qız bəyənmə", "elçilik", "nişan", "paltarkəsdi", "xınayaxdı", "toy", "duvaqqapma", "üzəçıxdı", "ayaqaçdı" kimi bir çox mərhələdən keçirdi.

**Qız bəyənmə.** Toy mərasimlərinin ən ilkin mərhələsi olan qız bəyənmə mərasimi Şəki-Zaqatala bölgəsində keçmişdə regional spesifikliyi ilə seçilirdi və bölgə əhalisi arasında müxtəlif formalarda icra edilirdi. Bölgədə Azərbaycan türkləri Azərbaycanın əksər bölgələrində olduğu kimi keçmışdə qızı əsasən görüçü vasitəsilə bəyənərdilər. Görüçülər qızı müxtəlif sınaqlardan çıxarardılar; "Yerə kələğayı salıb qızı onun üstündə gəzdirərdlər ki, görsünlər kələğayı qırışmır ki... Qırışmış olsa dabanı çatlaqdır, deyə almazdılar... Əlinə aftafa-ləyən, dəsmal verib ələ su tökdürərdilər... Evin yerinə bir neçə şey atardılar və qızı yanlarına çağırardılar. Qız içəri girdiyi zaman şeyləri yığa-yığa gəlməsə idi o qızı almazdılar... " (6, 407). Yaşlı məlumatçılarımızın söylədiyinə görə, bəzən isə qız bəyən-

məyə gedən oğlan qız evinin kənarında ağaca çıxıb qıza göz qoyardı. Maraqlıdır ki, bu ağac ancaq qoz ağacı olmalı idi. Bu bölgədə qoz ağacına olan inamla bağlı idi. Yerli əhali qoz ağacına uğur məhsuldarlıq simvolu kimi baxırdı.

Şəki-Zaqatala bölgəsində qızbəyənmə Azərbaycanın hər yerində olduğu kimi, əsasən, toy-nişan məclislərində, bahar mərasimlərində olurdu. Bu ənənənin təsiri altında xalq arasında "Toydan toy törəyər", "Toy toyu gətirər" kimi məsəllər yaranmışdır.

XIX əsrdə Oğuz bölgəsində qız bəyənmə mərasiminin daha fərqli forması da mövcud idi. Evlənmək istəyən oğlan və qızlar bir-birinə qırmızı alma verərdilər. Ümumiyyətlə, azərbaycanlıların tot-düyün mərasimlərində almanın sevgi, qismət, bəyənilmək simvolu kimi mühüm yeri olmuşdur. Toy, bayram mərasimlərində açıq havada keçirilən kəndirbaz tamaşalarına baxmaq üçün gələn qız-gəlinlər halay vurub bir tərəfdə dayanardılar. Onlara baxmağa çıxan cavanlar gözaltı etdiyi qızları at çapmaq, qılınc oynatmaq ilə özlərinə cəlb etməyə çalışırdılar. Bəyənilən qıza alma atılardı. Qızın əyilib almanı yerdən götürməsi razılıq əlaməti hesab olunardı (65, 289). Toy zamanı verilən almanı qızlar "toy alması", "yar alması" deyə uzun müddət saxlardılar. Hətta bununla bağlı Azərbaycan folklorunda qədim bir bayatı vardır:

Əzizim yar alması,
Ağacda bar alması,
Toydan bir gözəl gəlir,
Qoynunda yar alması.

Xalq arasında bəzən qırmızı, qızıl almaya "yar alması" deyilməsi də bu ənənənin izlərini daşıyır. Bir çox Azərbaycan nağıllarında, məsələn, "Şahzadə və qurbağa", Ceyranın nağılı" və s. nağıllarda almanın sevgi, qismət



simvolu kimi çıxış etdiyini izləmək mümkündür (7, 226; 7a, 215–216).

Ümumiyyətlə, alma Azərbaycan evlilik mərasimlərində toya qədər, toy və toydan sonra müxtəlif rəmzi mənalar daşıyır. Məsələn, yuxarıda təsvir edilən mərasimdə alma evlənməyə razılıq əlaməti bildirirdi. Bəzən isə qırmızı alma qismət, övlad, əbədilik kimi rəmzi mənaları da ifadə edirdi. Məsələn, Azərbaycan toy mərasimlərinin vacib atributlarından olan və həyat ağacını ifadə edən toy şaxında qırmızı alma mütləq olmalı idi. Burada alma bərəkət, övlad arzusunu ifadə edirdi. Azərbaycan folklorunda da təzə evlilərə alma verilməsi övlad simvolunu ifadə edirdi. Məsələn, bir çox nağıllarda nurani qocanın yuxuda alma bağışlaması ailədə övlad olacağı kimi yozulurdu. Aşağıdakı bayatı da alma övlad arzusunu ifadə edirdi:

Almanı alma, gəlin,
Al, yerə salma, gəlin
Evində çox söz olar
Ürəyinə salma gəlin. (64, 89)

"Kitabi-Dədə Qorqud" dastanında ("Qanturalı" və "Bamsı Beyrək" boylarında) keçmişdə qız bəyənmənin daha qədim ənənələri olduğunu da görürük (63, 289).

XIX–XX əsrin əvvəllərində Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də hər məhəllə, oba, nəsil bahar mərasimlərini təbiətin qoynunda, açıq havada keçirər və bu bahar mərasimləri zamanında gənclər özlərinə adaxlı seçərdilər. Azərbaycanın hər yerində təbiətin, yaşıllıq ilahəsinin şərəfinə keçirilən qədim ayinlərin izlərini daşıyan "Yaşıl yarpaq, qızılgül", "Cəhribəyim", "Gül verdi" kimi qədim bahar mərasimləri Şəki-Zaqatala bölgəsində də keçirilirdi və bu mərasimlərdə gənclərin bir-birini seçib bəyənmə ənənəsi mövcud idi. Keçmişdə Azərbaycanda bahar bayramı ərəfəsində

hətta "Mürvət toyu" adlanan qədim bir mərasim də icra olunardı. Bahar bayramı ərəfəsində kəndin camaatı yığışaraq atasız-anasız gənclərin toyunu edərdilər (23). Göründüyü kimi, bu mərasim həm də xalqın qarşılıqlı yardım ənənələrini əks etdirirdi.

Bölgədə ev tikən zaman qarşılıqlı yardım ənənəsi kimi keçirilən iməci mərasimi zamanı da qız bəyənmə ənənəsi mövcud olmuşdur. Kəndin bütün əhalisinin iştirak etdiyi bu iməcilər tənbur, qara zurna, nağara ilə müşayət olunardı. İməcidə iştirak edən qız və oğlanlar isə bir-birinə göz qoyardı.

**Elçilik.** Şəki-Zaqatala bölgəsində azərilərilərin adətinə görə qız bəyənilib seçildikdən sonra əvvəlcə oğlanın anası və bacısı qız evinə rəsmi surətdə elçi gedirdilər. Əgər qızın ailəsi razıdırsa, "bu iki anaların arasında (aldım-verdim) sözü mütləq surətdə danışılar və bu evdən çıxıb gedəndə qıza bir bəlgə verib danışıq üçün kişilərin buraya gəlməyi vəd edilər... Əgər qudalıq baş tutmazsa qız evi bəlgə götürməyib elçilərə deyir ki, biz öz başımıza söz verə bilmərik, kişimizə gənəşib sizə xəbər göndərərik" (6, 407).

Bəzən elçilər gəlişlərinin məqsədini rəmzi ifadələrlə bildirirdilər. Şəki-Zaqatala bölgəsində adətən elçi gələn ağsaqqallar öz sözlərini "Əl mənim, ətək sənin" ifadəsi ilə başlardılar. Bu artıq qız istəmək anlamına gəlirdi. Maraqlıdır ki, keçmişdə Orta Asiya və Qazaxıstanda kiçik yaşlı uşaqların bir-birinə ad edilməsi mərasimi uşaqların köynəyinin ətəyinin kəsilməsi ilə müşayət olunurdu (155, 87). Görünür, elçiliklə bağlı yuxarıdakı xalq deyimi də bu qədim türk adətinin qalıqlarıdır. Ümumiyyətlə, Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də birinci dəfədən razılıq verilməzdi. Oğlan adamı müxtəlif bəhanələrlə bir neçə dəfə xalq arasında deyildiyi kimi "əli ətəyindən uzun" geri qayıdardı. Keçmişdə bölgənin xna toylarında nümayiş etdirilən "Quda-quda" oyununda



da bölgənin elçilik mərasiminin belə spesifik xüsusiyyətləri öz əksini tapmışdı.[1]

Xalq arasında qız istəmə-elçilik mərasiminin gününün, saatının secilməsinə diqqət edilirdi. Bu xalqın astroloji inamları ilə bağlı idi. Xüsusilə də həftənin günlərindən (duz, süd, adna, xas, bənəmiyyə, cümə) adna (IV gün) və xas (V gün) gününün axşamı elçilik üçün uğurlu gün sayılırdı. Günün vaxtları (dan, ajım, övnə, ikindi) içərisində isə ikindidən yaxud alatoranlıqdan sonra cəşt (axşam saat 8-10 arası) elçilik üçün münasib vaxt sayılırdı (54, 356). Şənbə və çərşənbə günləri isə bir qayda olaraq bəd, nəhs günlər hesab olunurdu.

Şəkidə azərilər elciliyə, adətən, məhəllə mollası ilə gedirdilər. Elçilik zamanı Azərbaycanın əksər bölgələrində razılıq simvolu kimi qəbul edilən "şirinçay" mərasimi Şəki-Zaqatala bölgəsində müxtəlif adlarla adlanaraq daha fərqli şəkildə icra edilirdi. Bölgədə yaşayan azəri türkləri arasında elçilik mərasimindən öncə "araçı" və ya vasitəçinin qız evinə gedib gələrək elçilərin gəlməsi üçün razılıq alması "diləmə", "ağız bilmə", "sözaldı", "hana" (Balakən rayonu), "hanqa" (Şəki rayonu) "hə-yox" adı ilə bilinirdi. Elçilik mərasimi zamanı isə bölgə üçün razılıq simvolu kimi elçilərin çörək kəsməsi xarakterik idi. Zaqatala rayonunun Muxax kəndindən olan məlumatçılarımızın dediklərinə görə, bu adətin mənası budur ki, çörək kəsdikdən sonra tərəflərdən heç biri sözünü geri götürə bilməzdi. Məlumdur ki, qədim Azərbaycan ənənələrinə görə çörək kəsmək insanla ömürlük dost olmaq deməkdir. Qız evindən razılıq alındıqdan sonra oğlan evi oraya yemək-icmək ləvazimatı (qoyun, düyü, qənd və s.) göndərərək özlərinin hansı gün nişan gətirəcəklərini bildirirdilər.

**Nişan.** Bölgədə azərilər arasında nişan mərasimi kiçik

---

[1] *"Xalq tamaşaları" bölümündə bu xalq tamaşasının təsviri verilmişdir.*

nişan-"bəlgə" (Şəki kəndlərində "üzük taxma" da deyilir) və böyük nişan kimi iki mərhələyə bölünürdü. Yaşlı məlumatçılarımızın söylədilkərinə görə nişan adətən günorta aparılırdı. Bu ənənə qədim kosmoqonik inamlarla bağlı idi. Məlumdur ki, qədim dövrlərdən bəri Azərbaycan əhalisi ulduzların onların məişətinə, həmçinin ailə həyatına təsir göstərdiyinə inanaraq öz fəaliyyətlərini bu səma cisimlərinin hərəkətinə uyğunlaşdırmağa çalışırdılar. Gün boyu səma cisimlərinin göy üzündə yerdəyişməsini müşahidə edən insanlar hər bir ulduzun özünəməxsus təsir gücü olduğuna inanırdılar. Azərbaycanın XIV əsr klassiklərindən Məhəmməd Əssar Təbrizinin "Mehr və Müştəri" əsərində də münəccimə toy gününü ulduzların yerdəyişməsinə görə müəyyən etməsi həvalə edilir: "Tapşır ki, yoxlasınlar ulduzların seyrini, İxtiyara elmi üzrə axtarsınlar xeyrini" (88, 226).Görünür, məhəbbət və sevgi simvolu olan Zöhrə ulduzunun Yerə təsir göstərdiyi zaman məhz günortaya qədər olan vaxt hesab edildiyi üçün, xalq arasında nişanın, toyun, nikah kəsilməsinin günorta saatlarlnda başlanmasının daha uğurlu olacağına inanınılmışdır. Hal-hazırda da yuxarıda adı keçən mərasimlər gündüz vaxtlarında icra edilir.

Bölgədə keçmişdə nişan xonçasına "1–2 ədəd üzük, bilərzik, pərəng (gərdənlıq), güşvara[1] (sırğa), ... quranqabı, bir cift alafa[2], üç ədəd kələğayı, üç ədəd ipək yaylıq və bir dəst paltarlıq parça[3], üç put* (1put = 16 kq) qənd, bir put şirni və bir ədəd əsl tirmə şal" (6, 408) qoyulurdu. Adətən dördbucaq şəklində olan qızıl quranqabının üzə-

[1] *Əssar Təbrizinin "Mehr və Müştəri" əsərində gəlinə gətirilən bəzək əşyasları içərisində güşvarə adı şəkilir: "Qulağına taxdı nadir misilsiz güşvarələr" (88, 127).*

[2] *Zərif tül parça (şəkil 27).*

[3] *Oğlan evinin maddi imkanına uyğun olaraq parça xara, qırmızı məxmər, kiseyi, sətin və s. ola bilərdi.*



rində ay və ulduz formalı bəzək də olardı (şəkil 8). İslamın simvolu olan Quran qabı və üzərində qədim astral inamların izlərini daşıyan ay-ulduz rəsmi qədim inanclar sistemi ilə islamın sintezinin bir nümunəsi idi. Şəkidə nişanda aparılan qızıl və gümüş zinət əşyaları "imarət" adlanırdı.

Qeyd etmək lazımdır ki, bölgənin hər yerində qıza gümüş kəmər aparılması zəruri idi (şəkil 6b). Görünür, bu adət də qızın nişanlamasını təsdiq etmək (arxayın olmaq) baxımından özünəməxsus rəmzi məna daşıyırdı. Azərbaycanlılar arasında geniş yayılmış güvənmək, arxayın olmaq mənasında işlənən "bel bağlamaq" ifadəsi də görünür, bu ənənə ilə bağlı idi. Həm də qədim dövrlərdən bəri insanlar gümüşün şər qüvvələri zərərsizləşdirdiyinə, insanı xatabəladadan qurtardığına inanardılar.

Kiçik nişan zamanı Balakən rayonunda qız üçün "dumca" adlanan baş örtüyü aparılması adəti də var idi (şəkil 9). Bundan başqa qırmızı parçaya bükülmüş Şəki paxlavası və bükmə, qırmabadam, tel, iriştə kimi bölgə üçün səciyyəvi şirniyyat növləri də aparılırdı. Adətə görə nişanda iştirak edənlər "hərə cib yaylığına yarım girvənkə, yaxud bir girvənkə[1] noğul, şirni, ... bağlayıb özləri ilə götürüb gedərdilər" (6, 408).

Şəki bölgəsindəki adətə görə kiçik nişan vaxtı oğlan atası ilə qız atası arasında "mehriyə" adlı başlıq pulunun miqdarı müəyyənləşdirilirdi. Bu zaman qızın anasının və ya ərə getmiş bacısının məhriyəsinin miqdarı nəzərə alınırdı və ağsaqqallar götür-qoy edərək ortaq bir rəqəm deyirdilər (28, 179). Məhriyə müəyyən miqdar pul, torpaq sahəsi (bağ, əkin yeri), müəyyən sayda mal-qara və s. ola bilərdi. Bu oğlanın ailəsinin iqtisadi imkanlarına bağlı idi.

Zaqatala bölgəsində isə başlıq adətən toydan əvvəl

[1] 1 girvənkə = 400 qr.

"toy danışması "adlı məşvərət zamanı müəyyən olunurdu. Buna bəzən "atalıq" da deyirdilər. Bölgə əhalisi başlıq pulunu "süd pulu" da adlandırırdı.

**Üzük taxma mərasimi.** Şəki rayonunun kəndlərində azərilər arasında olan adətə görə nişan üzüyünü qızın barmağına oğlanın anası və ya bacısı taxırdı.

**Nişanlılıq müddətində mərasimlər.** Bölgədə azərilər arasında kiçik nişan mərasimindən sonra "Bəylik" adlanan bir adət də icra olunurdu. Bu adətə görə nişandan bir neçə gün sonra qız evindən bir neçə gənc xonçalarla oğlan evinə yollanırdı. Xonçalara qatıq, dolma, dovğa kimi yeməklər, şirniyyat və meyvə düzülürdü. Şəkinin kəndlərindən olan İbrahimkəndə qız evindən oğlan üçün bəy paltarı kimi "40 yaxa köynək " qoyulması adəti də var idi. Toxunma əl işi olan bu köynəyin yuxarı hissəsində "hər tərəfi qırçınlı midaxil bəzək tökərdilər" (6, 426). Köynək xüsusi tikiş forması olan "baxiyə" ilə tikilərdi. Bu ənənənin izlərini azərbaycanlıların qədim ailə məişətini əks etdirən "Kitabi Dədə Qorqud" dastanında görmək mümkündür. Dastanda toy günü qız evindən oğlan (bəy) üçün qırmızı qaftan (köynək) göndərilməsi təsvir edilmişdir. Şəkidə də bəy köynəyi çox zaman qırmızı rəngdə olardı (48, 154) (bax şəkil 16).

Şəkinin bir çox kəndlərində nişandan sonra oğlan evinə pay göndərilməsi adəti "Qənd başı xonçası" adlanırdı. Bu adətə görə nişan qablarını boş qaytarmamaq üçün qız evindən oğlan evinə yağlı şəkər bişmişlər, şəkərbura, şəkər çörəyi, ovma fətir və s. göndərilirdi. Qənd başı xonçasında gedən qablar da öz növbəsində gız evinə boş qaytarılmırdı. Oğlan evi qız evindən gələn qaba"bir əlbisəlik ipək parça, iki imperial... qoyub qaytarardılar" (6, 408).

Bölgədə bütün Azərbaycan ərazisində olduğu kimi azərilərin nişanlı qızlara bayram ərəfəsində, xüsusilə



Novruz, Qurbanlıq və Orucluq bayramlarında "bayramlıq" göndərməsi adəti var idi. Qurban bayramı ərəfəsində öğlan evindən qız evinə ayaqlarına və başına xına qoyulmiş, boynuna qırmızı kələğayı və ya paltarlıq parça bağlanmış qoyun göndərilirdi. Bu qoyunun ətindən 7 pay ayrılaraq həm qız, həm də oğlan evinə göndərilirdi. Adətə görə bu qurbanlıq qoyunun ətindən qız evi oğlan evinə lülə kabab, girs (ətli xəmir xörəyi), dolma və ya qutab da hazırlayıb göndərərdi. Bundan başqa oğlan evindən nişanlı qıza düyü, qənd, şirniyyat, pal-paltar və s. də bayramlıq kimi göndərilirdi. Novruz bayramı ərəfəsində "çaharşənbə yemişi", Orucluq bayramında isə tel, paxlava, peşvəng və s. şirniyyat olan xonçaya bir "əlbisəlik parça" da qoyularaq qız evinə göndərilərdi (6).

Məlumdur ki, Şəki-Zaqatala bölgəsi Azərbaycanın qədim arıçılıq mərkəzlərindən biridir. Buna görə də bölgənin ailə mərasimlərində bal xüsusi yer tuturdu. Bölgədə arıçılıqla məşğul olan ailələrdə bal süzərkən nişanlı qıza bal göndərilməsi adəti də var idi. Bu gənclərin həyatının bal kimi şirin olması arzusu ilə edilirdi. Ümumiyyətlə bölgənin toy mərasimlərində balla bağlı bir çox ayinlər icra olunurdu (76).

Bölgədə nişanlılıq müddətində "bəy övrəzi" və ya əvrəzi adlanan qədim bir adət də icra olunurdu. Ümumiyyətlə, övrəz adəti azərbaycanlıların qədim qarşılıqlı yardım formlarından biri, təsərrüfat işində elliklə köməklik adəti idi. Müəyyən ictimai-iqtisadi səbəblərlə əlaqədar olaraq (işçi qüvvəsinin çatışmaması, hər hansısa bir işin təcili görülməsinə ehtiyac yaranması və ya ailə başçısını itirmiş dul qadınlara, şikəst və ya xəstəsi olan ailələrə kömək üçün) el-oba tərəfindən övrəz təşkil olunardı. Bu el köməkliyi adəti XIX əsrdə Azərbaycanın bir sıra bölgələrində toy mərasimləri ilə bağlı ənənələrdə də özünü göstərirdi. Şəki-Zaqatala bölgəsində "Bəy övrəzi" adəti azə-

rilər və saxurlarda qeydə alınmışdır. Bu qədim ənənəyə görə nişanlılıq dövründə oğlan evi qızın ailəsinın təsərrüfatında işləməli, ot calımında, biçin, ev tikmək və s. işlərində iştirak etməli idi. Lakin azərilərdə övrəzə bəy də getdiyi halda, saxurlarda nişanlı oğlanın özü yox, onun yaxın dostları qız evinin təsərrüfatında müəyyən bir işi yerinə yetirirdi. Bəy övrəzi zamanı qızın atası və ya böyük qardaşı köməyə gələnlərə qoyun kəsirdilər. Nişanlı qız da köməyə gələnlərə yemək hazırlanmasında iştirak etsə də, onların qarşısına çıxmazdı.

Azərbaycanın Şəki-Zaqatala bölgəsində, xüsusilə, dağ kəndlərində bəy övrəzi mərasiminin başqa bir forması qeydə alınmışdır. Dağlıq ərazidə odunla təminat ən ağır işlərdən biri idi. Toy sahibi odunla bağlı çətinliyi aradan qaldırmaq üçün "odun əvrəzi" təşkil edirdi. Müəyyən edilmiş gün əvrəzə çağırılmış şəxslər hərə öz nəqliyyat vasitəsilə meşəyə gedib toy evinə odun daşımalı idi. Adətə görə toy sahibinin həyətinə hamıdan əvvəl odun gətirənə xələt verilər, digər əvrəz iştirakçılarına isə əl dəsmalı və ya başqa hədiyyə bağışlanardı. Daha sonra əvvəlcədən razılaşdırılmış 5–6 iştirakçı qız evinə odun aparardı və qız evində də əvrəz iştirakçılarına hədiyyə verilərdi.

Ümumiyyətlə "bəy övrəzi" adəti Azərbaycanın bir çox bölgələrində müxtəlif formalarda və fərqli adlar altında icra edilirdi. Azərbaycanın Gədəbəy-Daşkəsən bölgəsində adətə görə toy zamanı qız evində yandırılacaq odunu və bu odunu daşımaq üçün nəqliyyatı oğlan evi verməli idi.

Azərbaycanın Quba bölgəsində isə nişanlılıq müddətində oğlanın qohumluq naminə qız evinin təsərrüfat işlərinə köməkliyi "qız əvrəzi" adlanırdı. Belə əvrəzdə nişanlı oğlan yaxın dostları, həmyaşıd qohumlarla birgə işləyərdi və digər iştirakçılardan seçilmək üçün adətə görə biçin zamanı qoluna niçanlısı tərəfindən göndərilmiş qırmızı parça bağlayardı. Əgər nişanlılıq dövrü uzanardısa bəzən



bu kömək hər il təkrar olunurdu. Belə köməklik adəti Azərbaycanın Lənkəran-Astara bölgəsində yaşayan talışlar arasında "zoma-koya", yəni kürəkən köməkliyi adı ilə yayılmışdı. Bu bölgədə əvrəz zamanı köməyə gələnlərə kürəkən özü yemək veririd (22, 63).

Göründüyü kimi əvrəz, o cümlədən nişanlılıq müddətində əvrəz ənənəsi Azərbaycnın çox yerində mövcud olsa da, bölgələrdə tətbiq edilən ənənələr müxtəlif və rəngarəngdir.

**Toya hazırlıq. Paltarkəsdi.** Ümumiyyətlə, bölgədə toya hazırlıq zamanı bütün Azərbaycan üçün xarakterik olan gəlin köçəcək qıza cehiz sandığı hazırlanardı (şəkil 25). Ailədə qız uşağı doğulduqda körpə yaşlarından başlayaraq ana onun üçün cehiz tədarükü görürdü (şəkil 19, 20, 21). Bir növ mebeli əvəz edən bərli-bəzəkli toy sandığına təzə gəlinin cehizinin ən dəyərli qismi, toy-düyün geyimi, gümüş zinətləri, baş örpəkləri və digər qiymətli şeyləri yığılırdı. Bundan başqa gəlin köçəçək qıza qazan, bölgədə *tosar* adlandırılan tava kimi mətbəx avadanlığı, o cümlədən bir çıraq da verilərdi (şəkil 19,26). Nişanlı qızın ər evində oğlanın qohum-əqrabasına hədiyyə verməsi üçün cehiz əşyalarının içinə toxunma corablar və burun dəsmalları da qoyulardı.

Şəki-Zaqatala bölgəsində yaşayan azərilər arasında toydan qabaq icra edilən və xalq arasında "El qonaqlığı" adlanan bir adət geniş yayılmışdı. Bu adətə görə toydan bir həftə qabaq gəlin köçəcək qızı qohum-əqrabası növbə ilə qonaq dəvət edirdi. Qız bir nəfər yaxın rəfiqəsi ilə birlikdə qohumlara bir-bir qonaq gedir, qızın adına xüsusi süfrə açan ev sahibi isə qıza həm də hədiyyə verirdi. Bu, adətən qızın cehizində çatışmayan əşyalar-qab-qacaq, dəsmal, süfrə, parça və s. olurdu. Qıza bir miqdar çiy yumurta, düyü, yağ, şəkər kimi qida məhsulları da hədiyyə kimi verilə bilərdi. Verilən şeylər qızın

cehizinə daxil olurdu, aldığı yeyəcəkləri də qız özü ilə ər evinə aparırdı. Bu adət yeni qurulmuş ailəyə ilk vaxtlar kömək məqsədini güdürdü və qarşılıqlı yardım formalarından biri idi.

**Toya dəvət formaları.** Azərbaycanın müxtəlif bölgələrində camaatı toya dəvət etmək üçün xüsusi adamlar ayrılırdı. Bu şəxs bölgələrə görə "salovçu", "xandaçı", "təklifçi", "xəlfə", "eladi", "nəvə" adını daşıyırdı. Toya dəvət edən şəxs adətə görə şirni-noğul götürərək evlərə gedir, toya dəvət etdiyi hər evdə ailə üzvlərinin sayı qədər noğul paylayardı. Dəvət olunan da öz növbəsində dəvətçiyə yumurta, meyvə vəs. ibarət olan "xanda" adlı pay verərdi. Şəki-Zaqatala bölgəsində toya dəvət edən şəxs "çağırışçı" və ya "təklifçi" adlanırdı. Toya dəvət etmək mərasimi də bölgədə yaşayan azərilər arasında Azərbaycanın hər yerində olduğu kimi icra edilsə də bölgənin etnik qrupları arasında bir qədər fərqli şəkildə icra edilirdi. Bu barədə aşağıda məlumat veriləcək. Azərilərdə, adətən, qonaqları toya xüsusi ayrılmış bir kişi dəvət edir və dəvət olunan ailələr ona "şirinlik" verirdilər. Bəzi yerlərdə isə, əksinə, məsələn, Şəkidə qohumlardan biri olan "çağırışçı" qoluna qırmızı yaylıq bağlayaraq toya dəvət etdiyi ailələrə şirinlik paylayırdı. Adətə görə toya gələ bilməyən adam "çağırışçı" ilə hədiyyəsini göndərməli idi.

**Toy.** Keçən əsrlərdə Azərbaycanın bütün bölgələrində toylar 2, 3 hətta 7 gün davam edərdi və hər gün bir adla adlandırılardı, məsələn, I gün "əl bozbaşı", II gün "yuxa günü", III gün "mağar günü", "dastan günü", "davran" və s. XIX–XX əsrin əvvəllərinə aid mənbələrdə XIX əsrdə Şəki qəzasında toyların 7 gün davam etdiyi yazılırdı (116, 110, 154, 31). Lakin Şəki-Zaqatala bölgəsində belə toylar tək-tək hallarda olurdu. Adətən toylar iki gün davam edirdi. Bölgədə toyun I günü "əttik", II günü "aş günü" adlanırdı. Bəzən III günü "qazax dağıldı" deyilən toyun



yığışdırılması mərasimi də keçirilərdi. Bəzi yerlərdə toyun birinci günü "məsləhət toyu" da adlanırdı. "Məsləhət" toyuna yalnız kişilər, o cümlədən kəndin ağsaqqalları dəvət olunurdu. Yeməkdən sonra toyda görüləcək işlərin bölgüsü aparılırdı: toybaşı, çağırıçı, aşbaz, ayaqçı[1] və s., eyni zamanda qız evinə odun yarıb aparan, toy ərzağı aparan müəyyənləşdirilirdi. Toydan əvvəl qız evinə "pay" adlandırıan ərzaq göndərilirdi. Bu ərzağın miqdarı ailənin maddi imkanından asılı idi. XX əsrin ortalarında bu, bir və ya bir neçə qoyun, 10–20 kq yağ, 20–30 kq şəkər, çay, 20–40 kq düyü və s. olurdu (194, 107).

Şəki bölgəsində gəlin köçəcək gün, adətən, "Parça biçdi" və ya "Paltar kəsdi" mərasimində oğlanın anası tərəfindən elan edilərdi. Qız anası ilə razılığa gəldikdən sonra toyun günü dəqiqləşdirilirdi. Adətən toy adna günü (cümə) başlar və bazar günü gəlin bəy evinə köçərdi. Qeyd etmək lazımdır ki, "Paltarkəsdi"də gəlinə gətirilən xonçaya parça, paltar, işlənməmiş, yəni istifadə edilməmiş iynə, sap, qayçı və digər tikiş ləvazimatı qoyulmalı idi. İnama görə "işlənmiş" şeylər yeni qurulacaq ailədə söz-söhbətə səbəb ola bilərdi.

**Xna toyları.** Azərbaycanın bir çox yerlərində olduğu kimi bölgədə, xüsusilə, Azərbaycan türklərində toyun başlanmasına 3 gün qalmış qız evində gənc qızlar iştirak etdiyi "Qız yığnağı" deyilən şənliklər keçirilərdi. Bu şənliklər bir çox türk eposlarında rast gəinən qız məclislərinin izlərini qoruyub saxlamışdır. Məsələn, "Alpamış" dastanında da oğlan toyu ərəfəsində qız məclisinin keçirilməsi ənənəsi olduğu məlumdur. Bu "qız məclisi"nin təsvirinə nəzər saldıqda Azərbaycandakı qız toyları ilə eyniyyət təşkil etdiyinin şahidi oluruq (102, 324).

Qız toyunun başlanması ilə həm qız evində, həm də oğlan evində toy mərasimləri başlardı. Gəlin köçməyə iki

[1] Ortada qulluq edənlər.

gün qalmış qızın yanına rəfiqələri "xna gecəsinə "yığılardılar. Oğlan evindən göndərilmiş xnanı bir nəfər qadın, adətən gəlinin yengəsi isladır və gəlinin əl-ayaq barmaqlarını xınaya tuturdu. Xnayaxdıda iştirak edən subay qızlar da əllərinə xna yaxardılar. Adətə görə əllərinə xna yaxan subay qızların hər biri gəlinə hədiyyə verməli idi.

Şəki-Zaqatala bölgəsində "xna gecəsi"ndə nişanlı qızın başına toplaşan qızlar keçmişdə geyimlərinə bölgə üçün xarakterik olan "şanta" adlı içi mixəkli xırda torbaçıqlar – qotazlar asardılar. Bu adətin izlərinə bölgəyə xas bir bayatıda da rast gəlinir:

Tampurun[1] teli uzun
Şantalar düzüm-düzüm.
Bir bu yana baxsana
Ay mənim ala gözlüm

Burada bitki kultunun izləri özünü göstərir. XIX əsrədə Azərbaycanda mövcud olan qədim bir ənənəyə görə toyqabağı təşkil olunan belə qız yığnaqlarında evlənmək istəyən qızlardan biri gizlicə gəlinin örtüyünə yaşıl rəngli ipək saplı iynə batırıb çıxarardı. Xalq arasında mövcud olan inama görə gənc qız həmin iynəni həmişə sinəsində gəzdirərsə tezliklə ona da yol açılardı (132). Göründüyü kimi, Azərbaycan toy mərasimlərindəki mixək, yaşıl rəngli sap, elə xnanın özü də qədim türk inanclar sistemində mühüm yer tutan təbiət kultunun, yaşıllıq ilahəsinə sitayişin izlərini daşıyırdı. Məlumdur ki, hələ qədim dövrlərdən türkmənşəli xalqlar yaşıllıq ilahəsinin şərəfinə bir sıra ayinlər icra edərək ona həm də gənclik, evlilik, ailə ilahəsi kimi sitayiş etmişlər (79, 56). Yaşıllıq gənclik və məhsuldarlıqla əlaqədar olduğu üçün qədim inanc sistemində artımın, yeni ailənin simvolu

[1] Təmbur.



olmuşdur. Azərbaycan dialektlərində də "yaş" sözünün mənalarından biri "gənc", "cavan", "uşaq" deməkdir (79). Beləliklə "yaş"in gənckliklə əlaqəsi onu ailə və toy mərasimlərinin simvoluna çevirmişdir.

Şəki-Zaqatala bölgəsinin xna toyları hər kənddə fərqli formalarda icra edilirdi. Məsələn, Oğuz rayonunun Baş Daşagil kəndində keçmiş adətlərə görə qız toyunda çalğıçı olmazdı. Qızlar-gəlinlər tabaq çalıb oynayardılar, ağızda "lilli" çalardılar. Kəndin yaxınlığında yerləşən Kor dərəyə təxminən 20-dək atlı çıxıb yarışardı. Baş Göynük kəndində isə "Qız yığnağı" deyilən bu şənliklər adətən neylə keçirilərdi. XIX əsrin II yarısında Şəki şəhərinin qız toylarında bəzən yerli əhalinin keçmişdə "mizqan" adlandırdığı qarmon və "dümbək" (dəf) də çalınardı. Toya gələn qadınların hər biri gəlin üçün bir şey də gətirirdi (53, 188).

Şəkidə adətə görə qız toyunda gəlinə bəyin qardaşı üzük taxardı və gəlinin başına isə özü ilə gətirdiyi qırmızı şalı atardı. Gəlin köçəndə onun başına bu qırmızı şalla bərabər göy rəngli və qızıl işləməli şal da örtürdülər (şəkil 10). Qız toyu zamanı oğlan yengəsinin qız evinə "yengə xonçası" göndərməsi adəti də vardı. Xonçada ənlik, xna, cib güzgüsü, qayçı, sabun, ətir, sancaq, iynə, üskük, saçayıran, yelpazə və s. qıza lazım olan şeylər olardı (6).

Qız toyu ilə bərabər oğlan evində də toy başlardı. Toyun birinci günü "Məsləhət toyu" adlanırdı. Toy sahibi toyun lazımı səviyyədə keçirilməsi üçün kəndin ağsaqqallarını, yaxın qohum-əqrabanı adbaad öz evinə dəvət edər, onlar üçün qoyun kəsib xörək bişirtdirərdi. Bu məclisdə yaxın qohun-əqraba arasında toyda görüləcək işlərin bölgüsü aparılardı: toyun ağsaqqalı, toybaşı təyin edilər, qəssablar, aşbazlar, habelə ayaqçılar, çağırışçılar seçilər, musiqiçilər müəyyənləşdirilərdi. Toyda bəyin dayısı fəal rol oynayırdı və çox zaman toybaşı da elə onun özü seçilirdi. Şəki şəhərində və rayonun bəzi kəndlərində toyu

idarə edən "toyşinas" da adlanırdı.

Bölgənin bəzi kəndlərində isə, məsələn Baş Şabalıd kəndində toya bir neçə gün qalmış "ağsaqqal aşı" bişirilərdi. Bütün kəndin ağsaqqalları oraya toyun idarə edilməsi üçün məsləhətə dəvət edilərdilər. Azərbaycanın bəzi bölgələrində buna "Salahaşı" da deyirdilər (22, 93).

Bölgədə toyun başlanması ərəfəsində adətən "malkəsdi" mərasimi də icra olunardı. Zurnaçıların müşayətilə keçirilən bu mərasimə qohum-qonşu da dəvət olunardı. Burada toy üçün xüsusi olaraq bəslənmiş heyvan (adətən cöngə) təntənəli şəkildə meydana gətirilər, "Koroğlu" havasının sədaları altında kəndin qolu qüvvətli gəncləri cöngənin boynunu qanırıb yerə yıxmağa səy göstərərdilər. Adətə görə malı yıxana toy evindən düşərrik verilərdi (22, 94). Bundan sonra heyvan kəsilər, əti yerbəyer edilərdi.

Toyun üçüncü axşamı "ağır yığnaq" məclisi qurularaq "dövran" yığılardı. Bu yığnağa hər yerdən adam çağırardılar. O gecə oxuyub çalandan sonra qaval gəzdirib dövran yığardılar. Kim qavala pul salsa, o adamın adı ilə verdiyi pulu çağırardılar. Toy sahibi bu pulla həm toy xərcini çıxarar, həm də gəlinin mehr pulunu ödərdi. Toy məclisi cümə günü axşam çağından (adına günü) başlar, bazar günü axşam bitərdi.

Şəkidə etnoqrafik çöl materialları topladığımız zaman azərilərin toy mərasimləri ilə bağlı maraqlı bir ənənəni də qeydə aldıq. Bu ənənəyə görə Şəkidə toy günü səhər tezdən aşıqlar dağ başına çıxaraq orada saz çalırlar. Çalğı səsinə bütün cavanlar yığışıb gəlir və burada hərə öz bacarığını nümayiş etdirir. Görünür, bu ənənə Azəbaycanda geniş yayılmış dağ kultu ilə bağlı çox qədim bir ayinin izlərini daşıyır. Göylərə-Tanrıya sitayiş edən qədim alban tayfaları dağı göylərə ən yaxın yüksəklik kimi qəbul edərək onu müqəddəsləşdirmişlər. Antik mənbələr də albanların öz ayinlərini dağ başındda icra etdiklərini



yazırdılar. Bu ənənənin izlərini qədim bir türk əfsanəsində görmək mümkündür; "Qızını Tanrı ilə evləndirmək istəyən xaqan onu yüksək bir dağa təslim edir (228, 76).

**Xna toylarında xalq tamaşaları, oyun və əyləncələr.** Qədim Azərbaycan toyları kollektiv oyun və əyləncələrlə zəngin idi. El arasında "oyun" adlandırılan belə xalq-meydan tamaşaları XX əsrin əvvəllərinədək Azərbaycanın bütün bölgələrinin el şənliklərində, eyni zamanda toy mərasimlərində icra edilirdi. Bu toylarda əsasən kişilərin oynadığı "Xan-xan" və ya "Xan-vəzir, "Kilim arası", "Maral oyunu", "Kaftar-kosa", "Kosa-gəlin", "Südlü-sümük", qadınların oynadığı "Toy mələk", "Kəklik-kəklik", "İncə-incə"kimi ələncəli xarakterli tamaşa-oyunlar oynanılardı. Xüsusilə də, "Kosa-kosa" oyunu Azərbaycanda ən çox nümayiş etdirilən və geniş yayılan xalq tamaşalarından biri idi. Kosa obrazı Novruz mərasimlərində olduğu kimi Azərbaycanın toy mərasimlərində də komik bir obraz kimi mühüm yer tutaraq, həm də magik xarakter daşıyırdı. Məsələn, Qərbi Azərbaycan toylarında bəzədilmiş kosa toy camaatının önündə gedir, camaatı güldürür, beləliklə də onların nəzərini gəlindən uzaqlaşdırardı ki, gəlinə göz dəyməsın (100, 170–173).

Azərbaycan toylarında ailə həyatının müxtəllif aspektlərini işıqlandıran tərbiyəvi, düşündürücü, tənqidi xarakter daşıyan "Şah Səlim", "Qaragöz", "Keçəl pəhlivan", "Şələ oyunu", "Hacı gəldi" kimi oyunlar (146, 58) da xüsusi yer tutardı. Bundan başqa "surpapax", "bahar bənd", "papaq oyunu", "piyalə və ox", "yaylıq oyunu", "gərdək qaçırma" kimi idman oyunları toy mərasimlərimizin vazkeçilməz tədbirlərindən idi. Azərbaycan toylarında cıdır yarışları da təşkil olunurdu və cıdırda qalib gələnlərə adətən xonça və ya xələt verərdilər. Bəzən də atın boynuna qırmızı yaylıq bağlayar və ya alnında yumurta qırardılar. Azərbaycanın bəzi bölgələrində nişan

üzrə yarışlar zamanı "Ləzgimalı" adlı oyun da keçirilərdi. Bu oyunun şərtlərinə görə toy sahibi yarışçılara nişangah kimi keçi verirdi. Keçini doğru nişan alan gəncə keçinin dərisi və başını hədiyyə edirdilər, ətini isə qonaqlara verirdilər (100, 175).

XIX–XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsində də toy günləri müxtəlif əyləncəli oyunlar və idman yarışları keçirilərdi. Bölgədə cavanların at çapmaq adəti "sürək" adlanırdı. XIX əsrə aid mənbələrdə Şəki bölgəsində toy-bayram mərasimlərində xüsusi pəhlivanlar qrupunun fəaliyyəti barədə məlumatlar var. Belə pəhlivanlar keçmişdə, hətta xan tərəfindən bütün vergi və mükəlləfiyyətlərdən azad edilirdi. Xanlıq sistemi ləğv edildikdən sonra bü güzəştlər ləğv olunsa da, hələ 1846-cı ildə Nuxada (Şəkidə) 7 belə pəhlivan yaşayırdı. Onlar toy-bayram mərasimlərinə adətən dəvətsiz gəlir, müxtəlif idman hərəkətləri edir, 20 putluq ağırlıqlar qaldırır və qonaqlar tərəfindən pul və xələtlər (6 arşınlıq parçalar) alardılar (132, 376).

Ümumiyyətlə, Şəki-Zaqatala bölgəsində toy mərasimlərində nümayiş etdirilən əyləncə və oyunların repertuarı çox zəngin olmuşdur. Toya gələnlər "Üzük-üzük", "Xan oyunu" "Kosa-kosa" kimi Azərbaycanın bütün bölgələrində yayqın olan oyunlar oynardılar. Gəlinin "Xna gecəsi"ndə qızlar toplaşaraq "Kosa-kosa", "Zopu oyunu", "Quda-quda", "Qız qaçırtma", "Cuhut-cuhut", "Usta qalayçı", "Uzun Nənəxanım", "Turna-turna", "Bənövşə" kimi müxtəlif oyunlar oynar, toylarda "Gərdan vurma" kimi məhz bölgəyə məxsus bir çox idman yarışları keçirərdilər.

Şəki-Zaqatala bölgəsinə etdiyimiz etnoqrafik ekspedisiyalar zamanı keçmişdə bölgənin şənlik mərasimlərində nümayiş etdirilən və hazırda yalnız yaşlı nəslin yaddaşlarında qorunub qalmış bir neçə əyləncəli oyun barədə məlumatlar əldə etdik. Bu oyunlar və bölgə üçün xarakterik



olan bir çox oyun-tamaşalarda, idman yarışlarında bölgənin regional xüsusiyyətləri özünü biruzə verir. Aşağıda bunlardan bir neçəsini təqdim edirik:

**Kosa-kosa.** Keçmişdə Şəki-Zaqatala bölgəsində, adətən "Xna günü"ndə ən çox nümayiş etdirilən xalq tamaşası "Kosa-kosa" oyunu idi. Oyunun iştirakçıları da, tamaşaçıları da "Xna günü"nə toplaşan qız-glinlərdən ibarət olurdu. Bu oyunda üç nəfər iştirak edirdi. Qızlardan biri kosa olardı. Digərləri isə çadraya bürünərək kosanın arvadları rolunu oynayardılar. Arvadları kosanın başına dolanaraq deyişərdilər; Kosanın birinci arvadı kosanın papağını iyləyərək söylərdi: "Kosanın papağından pis iy gəlir". İkinci arvad isə deyərdi: "Kosanın papağından gül iyi gəlir". Bundan sonra arvadlar kosanın başına fırlanaraq oxuyurdular: "Kosa, papağını əyri qoy, əyirsən də çevir qoy!" daha sonra arvadların hər biri "Kosa məni daha çox istəyir" deyə deyişib öz aralarında savaşardılar. Axırda kosadan soruşardılar: "Kosa, hansımızı çox istəyirsən?!" Kosa işarə ilə ikinci arvadını göstərənədə birinci arvad onun başına ikiəlli qapaz salırdı. Sonra da qapazdan yıxılan Kosanı orada qoyaraq qaçıb qapı dalında gizlənirdi. İkinci arvad kosanın öldüyünü görərək: "Kosam öldü" deyib ağlamsınırdı və günüsünü çağırırdı: "Ay günü huy, ay günü huy! Kosam ölüb, yasa gəl, yasa!" Birinci arvad da ikinci arvada qoşulardı və arvadların ikisi də kosanın dalına vuraraq ağlaşardılar. Bundan sonra arvadlar kosanın malını bölüşdürmərə başlayardılar; Birinci arvad deyərdi: "Kosanın bir cüt xalçası var, birisi sənin, birisi mənim. "Ikinci arvad isə: "İkisi də mənim!" deyərdi. Birinci arvad yenə də: "Kosanın bir cüt sandığı var, birisi sənin. birisi mənim" söylərdi. Bu dəfə də ikinci arvad: "Hamısı mənim!" deyərdi. Bu minvalla arvadlar dinamik bir duet şəklində deyişməyə davam edərdilər. Birinci arvad ev əşyalarından hansının adını çəkir-

disə, ikinci arvad "hamısı mənim!" deyərək əyləncəli şəkildə deyişirdilər.

**Zopu oyunu.** Bölgədə "Xna günü"ndə ən çox oynanılan tamaşalardan biri də "Zopu oyunu" idi. Bu oyun zamanı qızlar yallı oyunundakı kimi əl-ələ tutuşaraq dəstə yaradırdılar. Dəstənin başında gedən qızın əlində zopu olurdi və "Zopu başı" adlanırdı. Oyunun qaydasına görə "Zopu başı" nə etsə idi, qalan qızlar onu təkrarlamalı idilər. Əks halda "Zopu başı" əlindəki zopu ilə oyunun qaydasını pozanı vururdu. "Zopu başı" dəstəni arxasınca apararaq oxuyardı:

Qızıl üzüyün daşıyam,
Mən Zopunun başıyam.
Atlananda bəy oğluyam,
Düşəndə yüzbaşıyam.

Daha sonra "Zopu başı" dəstədəki qızları növbə ilə rəqsə dəvət edərək:

Ərik ağacının eymələri olaydım,
Qızıl gülün düymələri olaydım.
Əl çalan əllər yarısın,
Calmayan əllər qurusun!

deyə oxumağa davam edirdi. Qızlar oynayıb qurtaran kimi "Zopu başı" yenə də oxumağa başlayırdı:

Tutuşyn, qızlar, tutuşun,
Tut bağına girişin!
Allanın, qızlar, allanın,
Al-yaşıl geyinib sallanın!

Beləliklə bütün qızlar növbə ilə oxuyub şənlənirdilər.

**Quda-quda.** Keçmişdə Şəki-Zaqatala bölgəsində qız toylarında "Quda-quda" və ya "Qız qaçırtma" adlı elçilik mərasimini təsvir edən əyləncəli bir tamaşa da oynanı-



lardı. Tamaşada 6 qız iştirak edirdi. İki dəstəyə ayrılan iştirakçılardan üçü əvvəlcə meydana çıxaraq xorla oxuyurdu:

Ay quda-quda, can quda, canciyərim quda,
Elçi yar olsun quda, sirrin nar olsun, quda!
Qız almağa gəlmişik, naz almağa gəlmişik,
O qızı bizdən eyləmə, köynəyi candan eyləmə,
Qız pərini ver gedək, naz pərini ver gedək.

Qız adamları hər dəfə "Atası, anası öydə yoxdu", "Əmisi, qardaşı öydə yoxdu" deyərək oxumağa başlardılar:

Bizdən sizə söz olmaz, nazpərini verməyik,
Bizdən sizə qız olmaz, nazpərini vermərik!

Üçüncü dəfə gələndə artıq elçilər yalvarmağa başlayırdılar:

Yaxandakı bitin olum,
Qapındakı itin olum,
Təndirdəki kütün olum.
O qızı bizdən eyləmə,
Köynəyi dizdən eyləmə.
Nazpərini ver gedək.
Qız pərini ver gedək.

Qız evi rolunda çıxış edən qızlar isə cavabında:

Qapımdakı itim olma,
Yaxamdakı bitim olma,
Təndirdəki kütüm olma.
Nazpərini vermərik,
Qız pərini vermərik!

deyə oxuyardılar. Bundan sonra oğlan adamları:

Cəhənnəmə ver, göra ver,
Ayrana ver, şora ver!
Haylı quda, huylu quda,
İt tükündən paylı quda!

Deyərək qızı zorla qaçırardılar. Qızı qaçırandan sonra qudalar birlikdə meydana çıxaraq oxuyurdular:

Haylı quda, huylu quda,
Kaşdı quda, huşdu quda!
İt kütündən paylı quda,
İt tükündən saçdı quda!

Hər iki tərəf bu misraları bir neçə dəfə təkrar edərək səhnədən gedirdilər. Bir azdan yenə geri gələrək oxuyurdular:

Bu dərəni aşmaq olmaz,
Zarıncı başmaq olmaz!
Bu qədər küsülü qalıb
İndi barışmaq olmaz!

Buraya çatanda məclisdə əyləşən qız-gəlinlər "qudaları" barışdırış qucaqlaşdırardılar. Bununla da tamaşa bitərdi.

**Uzun Nənəxanım.** Qız toylarında oynanılan əyləncəli tamaşalardan biri olan bu oyun zamanı toy məclisindəki qızlardan biri başına mis sərnic qoyub əlinə də bir oxlov alaraq üstünə çadra salardı. Məclisdəki qızlar gah "Uzun Nənəxanım, uzan!", gah da "Baldırğandan yorğan-döşək, Gödək Nənəxanım, gödəl!" - deyə oxuyurdular. Bu zamanı qız-gəlinlər çadranın altındakı qız da sözlərə uyğun olaraq gah əlindəki oxlovu sərnicə salaraq komik şəkildə həddən artıq uzanır, gah da da cadranın altında büzüşüb qalırdı.

**Bənövşə.** Əsasən toylarda oynanılan bu oyun zamanı aşağıdakı nəğməni ifa edərək "Uzun Nənəxanım" oyununda olduğu kimi pantomim xarakterli hərəkətlər edərdilər:



Dağlara qar yağıbdı,
Yumul, bənövşəm, yumul!
Dağlara gün çıxıbdı,
Açıl, bənövşəm, açıl!

Bu nəğməni oxuyan zaman sözlərinə uyğun şəkildə bədənlərini əsdirərək əvvəlcə yavaş-yavaş aşağı əyilir, sonra isə tədricən müəyyən hərəkətlərlə qalxardılar. Görünür, toylarda əyləncəli bir oyun kimi icra edilən bu tamaşa qədim bir ayinin qalıqları idi. Məlumdur ki, qədim insanlar rəqs vasitəsilə, bədən hərəkətləri ilə ruhi vəziyyətlərini ifadə edirdilər. Fəlsəfi məna kəsb edən bu ayində də qış çətinlik, dərd simvolu olub insanı büzüşdürür yümağa döndərir, gün isə xoş güzəran simvolu olub insanı ruhlandırır. Göründüyü kimi, burada insanın qəmkədəri qışla, solğun çıçəklə, şadlığı isə gün şüası, acılmış cicəklə müqayisə olunur. Görünür, bu oyun qədim inanclarla bağlı magik bir ayinin icrası olub tədricən əyləncəli kollektiv toy rəqsinə çevrilmişdir.

Bölgədə XIX–XX əsrin əvvəllərində qız toylarında pantomim tipli başqa tamaşalar da nümayış etdirilməkdə idi. Qədim kökləri olan pantomimanın ünsurləri Azərbaycanın bütün bölgələrində yayılmış, el şənliklərində oynanılan "Yallı", "Köçəri" kimi kollektiv rəqslərdə günümüzədək qorunub saxlanmışdır. Şəki-Zaqatala bölgəsində də əl-qol, baxış, göz-qaş və bədən hərəkətləri ilə məna ifadə etmək ənənəsi "Cuhut-Cuhut", "Usta qalayçı" kimi pantomim xarakterli əyləncəli tamaşalarda qorunub saxlanmışdı.

**Usta qalayçı.** Bu oyunda 3 qız iştirak edirdi: Usta qalayçı, körükçü (oyundan xəbərsiz olur) və xəbərçi. Oyunçular him-cimlə, yəni hərəkətlərlə danışırdılar. Usta qalayçı əl hərəkətlri ilə qab qalaylayan kimi hərəkətlər edirdi. Körükçü isə ordunu şişirdib boşaltmaqla guya körük çəkirdi. Bu zaman xəbərçi gəlirdi və usta məzəli şəkildə.

xüsusi ləhcə ilə evini xəbər alırdı: "Ev bizi sağ-salamat varmı?" Xəbərçi də eyni şəkildə: "Atan ölüb var" – deyərdi. Usta isə cavabında: "Arvad sağ olur var. Körüyü bərk çək!" deyərdi. Bundan sonra xəbərçi bir-bir ustanın bütün ailə üzvlərinin ölüm xəbərini verirdi. Qalaycı isə hər dəfəsində "Arvad sağ olur. Körüyü bərk çək!" deyə eyni cavabı verirdi. Axırda xəbərci gələrək ordunu şişirdib boşaltmağa davam edən körükçünün arxasında duraraq deyirdi: "Arvad ölüb. " Bu xəbəri eşidən usta "tez körüyün ağzını şirələ" deyirdi. Bundan sonra xəbərçi ovcunda gizlətdiyi unla oyunun sonundan xəbərsiz olan körükçünün ağzını şirələyirdi. Körükçü rolunu oynayan qız başına gələcəklərdən xəbərsiz olduğu üçün komik vəziyyətə düşürdü. Bununla da oyun bitmiş olurdu.

**Cuhut-cuhut.** Bu oyun zamanı iki qız torpaq yeri olmayan "cuhut" roluna girərək əllərində ağac, qarınlarına balaca bir döşək bağlayıb başlarına da keçə papaq qoyaraq toy məclisinə daxil olurdular[1]. İçəriyə girən kimi – "Ağalar, ay ağalar! Can ağalar, can kişilər, bizə tənbəki əkməyə yer veriniz!" deyə məclisdəki hər qız-gəlinə yaxınlaşaraq yalvarırdılar. Axırda qızlardan biri çubuqla bir dairə çəkərək onlara yer göstərirdi. Qızlar əvvəlcə qoyulan sərhəd daxilində əllərindəki ağacla yeri qazan kimi edirdilər. Daha sonra dairədən kənara çıxıb məclisdəki qızların oturduqları yerləri də guya qazmaq istəyəndə yer verən qızlar – "ağalar" ayağa qalxırdılar. Yer verən "ağalar" "cuhutları" göstərilən dairədən kənara çıxmağa qoymazdılar. Axırda "cuhutlar" öz aralarında dairədəki yeri bölürdülər. Bundan sonra yenə də dairədə hərə öz

[1] *XIX əsrdə Şəki-Zaqatala bölgəsində torpaqsız olan yəhudilərin (cuhutların) varlı hissəsi ticarətlə məşğul olurdu, kasıbları isə bölgə əhalisinin torpaqlarında məhsulun yarısına şərik olmaq şərtilə tütün becərərdilər (109, 215). Cuhut-cuhut oyunu məhz bu prosesi əks etdirirdi.*



yerini qazmağa başlayırdı. Bu dəfə də "cuhutların" hər biri digərinin yerlərindən oğurlamağa çalışırdı. O, bunun, bu onun yerini qazır, yer üstündə höcətləşməyə başlayırdılar. Axırda bir-birilə dalaşan qızlardan biri o birinin qarnına bağlanmış döşəyə bir ağac vurardı. Vurulmuş cuhut yıxılardı, vuran isə onun gah sağına, gah soluna keçərək ağlayardı ki, "Muşu ölüb." Əyilib nəfəs almağnı yoxlayardı və tez gülə-gülə qalxırdı ki, "nəfəs alır."Bundan sonra yıxılanı da qolundan tutub qaldıraraq yenidən yer qazmağa başlayırdılar. Yenə də yer üstündə dalaşırlar bu dəfə də digər qız yıxılır. O biri də ağlamağa başlayır ki, "İlyas ölüb". Nə qədər çalışır ki, yıxılanı qaldırsın, olmur. Axırda qulağını ağzına dirəyərək dinşəyirdi. Birdən lap bərkdən ağlamağa başlardı. Bunula da oyun bitmiş olurdu.

Göründüyü kimi, Şəki-Zaqatala bölgəsində oynanılan qədim xalq oyunları xalqın həyat tərzini, həyatın gerçəkliklərini, bəzən də ictimai həyatdakı acınacaqlı halları və ziddiyyətləri əks etdirirdi. Belə xalq tamaşalarında xalqın idrakı, xalq təfəkkürünün həyati səciyyəsi bütün reallığı ilə sərgilənirdi. Məsələn, "Cuhut-cuhut" oyununda xalqın torpaqla bağlı problemləri, "Kosa-kosa" oyununda acı nəticələri, "Quda-quda" oyununda ailə ikiarvadlılığın acı nəticələri, "Quda-quda" oyununda ailə məişət münasibətlərində baş verən xarakterik hadisələr xalq dili ilə verilirdi. Əyləncəli, məzhəkəli xarakter daşıyan belə tamaşalar eyni zamanda mənəvi qüsurları satirik gülüş hədəfinə çevirirdi. Belə tamaşaların məhz toy mərasimlərində nümayiş etdirilməsi həm də tərbiyəvi xarakter daşıyırdı və yeni ailə quran gənclərin nəticə cıxarması üçün zəmin yaradırdı. Təəssüf ki, mənəvi mədəniyyət tariximizin qədim və zəngin səhifələrini təşkil edən belə xalq tamaşalarımız unudulmaqdadır və toy mərasimlərimizdə daha belə tamaşalar demək olar ki, oynanılmır. Bu tamaşalar yalnız yaşlı nəslin yaddaşlarında müəyyən qədər qorunub saxlanmaqdadır.

**Toy məclisərində rəqslər.** XIX –XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsinin toy məclislərində "Ysdən aşırma", "Turullay" adlı qədim rəqslər də ifa edilirdi. Toylarda ifa edilən rəqslər qadın və kişi rəqslərinə bölünürdü. XIX–XX əsrin əvvəllərində Azərbaycan toylarında "Qəşəngi", "Gülgəz", "Ceyranı", "İnnabı", "Qızılgül", "Lalə", "Yüzbir", "Xalabacı", "Narıncı", "Turacı" kimi qadın rəqsləri, "Qazağı", "Ulduz", "Bağdadur", "Əsgəranı", "Darçın", "Bəxtəvəri", "Mirzəyi" kimi kişi rəqsləri ifa edilirdi. Bu dövrdə Şəki-Zaqatala bölgəsinin toy məclislərində də bölgə üçün xarakterik olan qadın və kişilərə məxsus rəqslər ifa edilməkdə idi. Bölgə üçün ənənəvi rəqslər "Sarıbaş", "Yallı", "Yavaş məqam", "Ayaq sirkələyən", "Qoşa oyun", "Nazilə", "Şalaxo", "Ləzgihəngi", "Uzundərə", "Yanıq Kərəm" və s idi. Şəki toylarında "Davan altı", "Daşbulağı-qozalağı" kimi mürəkkəb rəqslər ifa edilirdi. Keçmişdə Şəki toylarında rəqqaslar "Barmaq üstü" və ya "Dırnaqüstü" adlanan və xüsusi məharət tələb edən rəqs də ifa edərdilər. Bunun üçün məclisə böyük bir nimçə gətirərdilər. Rəqqas onun üstündə ayaqyalın, dırnaqları üstündə rəqs edərdi. Rəqsin sonunda isə nimçəni yalın ayaqla sındırardı. Oğlan evindən gəlini gətirmək üçün göndərilən musiqiçilər gəlin havası, Səhər muğamı çalardılar. Bölgənin qədim toylarında məzəli rəqs olan "Üsdən aşırma" oyunu da icra edilərdi. Bu rəqsi kişilər arvad paltarında icra edirdilər. Adətə görə qız toyuna 12 yaşından yuxarı oğlan uşaqları qadınlar məclisinə buraxılmasa da "cahil oğlanların qız toylarına dürtülməsi, yetişmiş qızlar tərəfindən etiraza səbəb olmazdı (6, 412). Görünür bu məzəli rəqs də oğlanların bir bəhanə ilə qız məclisinə daxil olması ilə bağlı idi. Cünki yalnız belə toy məclislərində oğlanların özlərinə qız bəyənmək imkanı yaranırdı. El arasında işlənən "Toydan toy törəyər" və ya "Toy toyu gətirər" deyimləri də görünür, bu ənənəni əks etdirir.



"*Turullay*" rəqsini isə qadınlar ifa edərdilər. Bu oyun əl çala-çala hündürlüyə atılmaqla icra edilərdi. Gorünür bu rəqs də vaxtilə magik xarakter daşıyan, lakin tədricən əyləncəli oyun-rəqsə çevrilmiş qədim bir ayinin qalıqları idi. Bundan başqa, Şəkidə qız toyunda toyun axırına yaxın baməzə qadınlardan biri əyninə kişi paltarı geyərək məzəli rəqslər ifa edərdi. Bu oyunların hər biri, görünür, vaxtilə ritual-sakral mahiyyət daşımış, tədricən öz məzmununu itirərək əyləncəli oyun xarakteri almışdır. Şəki toylarında əvvəllər "Qodu-qodu" da gəzdirərdilər. Toy camaatının önündə gedərək onları güldürən "qodu", görünür, komik obraz olmaqla bərabər, həm də magik bir xarakter daşıyırdı. Çünki "qodu" toy camaatının diqqətini özünə yönəltməklə, onların nəzərini gəlindən də uzaqlaşdırırdı ki, gəlinə göz dəyməsin.

**Bölgə toylarında ifa edilən mahnılar.** XX əsrin ortalarına kimi Zaqatala mahalının toylarında əsasən aşıq məclisi qurular, zurna balabançı olardı (60, 488). Bəzən isə "nağara-zurna"nın müşayəti ilə xanəndə oxuyardı. XIX–XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsinin toy məclislərində bölgə üçün xarakterik olan "Səhər" muğamı ifa edilər, "Hacı Nəbi qızı", "Lilley, ay Maral xanım" kimi şən, yumorlu mahnılar da oxunardı.

Göründüyü kimi, keçmiş Azərbaycan toyları kollektiv oyun və əyləncələrlə zəngin olmuşdur. Bütün nəsil və eyni zamanda bütün kənd üçün əyləncə mərasiminə çevrilən toy mərasimlərindəki oyun – tamaşalar, zorxanalar, cıdır yarışları, idman oyunları, nişan atma tədbirləri xalqın mənəvi dünyasının bir parçası idi.

Şəki-Zaqatala bölgəsinin toy adətlərinə görə toy günlərində bəy camaatdan gizlənərək qohumlarının evində qalırdı. Adətən bir gün sağdışın evində, bir gün də soldışın evində qalan bəy yalnız toyun axırıncı günü toy məclisinə sağdış və soldışın müşayəti ilə gəlirdi. Qeyd etmək la-

zımdır ki, tədqiq etdiyimiz bölgədə azərilərdə bəyin sağdışı və soldışı "yançı" adlanırdı. Sağdışa "böyük yançı", soldışa isə "kiçik yançı" deyilirdi. Adətə görə "böyük yançı" evli olmalı idi. Beləliklə, toy məclisinə yançıların müşayəti ilə gələn bəy ayaq üstə 10–15 dəqiqə dinməz vəziyyətdə dururdu. Bu adət "bəy durma" və ya "bəy çıxma" mərasimi adlanırdı. Bu mərasimdə demək olar ki, kəndin bütün camaatı xonça tutaraq "bəyi görməyə" gələrdilər. Mərasim zamanı bəyin qarşısına bir yaylıq sərilirdi və qohum-əqraba yaxınlaşaraq ora pul və ya xələt atırdı. Bölgənin bəzi yerlərində yığılan pul bəylə gəlinə çatırdı, parçalar isə kasıblara paylanırdı. Qax rayonunun İlisu kəndində isə adətən pul və parçalar evlənməmiş gənclərə paylanırdı. Bu mərasim el-obanın gənclərə gələcək ailə həyatını qurmaq üçün köməklik məqsədini güdürdü.

Bölgədə keçmişdə "Bəydurma" mərasimi zamanı əyləncəli-simvolik bir adət də icra edilirdi. Bəyin dostlarından bir nəfər bəyin arxasında durmalı idi ki, təzəbəyin papağını oğurlamasınlar. Bu "bəyin oğurlanması" və ya "bəyin papağının oğurlanması" adlı yarızarafat adətə görə əgər bəy və ya onun papağı oğurlanardısa oğurlanmış bəyi və ya onun papağını almaq üçün tələb olunan xərci yançılar verməli idi. Buna görə də yançılar bəyi addım-addım izləyir və qoruyurdular. Bəyin və ya papağının oğurlanması yaxşı əlamət hesab olunmurdu. Belə hadisə baş verdikdə hamı yançıları günahlandırırdı. Yançılar da öz növbəsində belə işə təşəbbüs edənləri "cərimə" edirdilər. Cərimə bir qoyun və ya bəzədilmış xonçadan ibarət ola bilərdi. Bəzən dostları bəyin ayaqqabılarını və hətta özünü də oğurlaya bilərdilər. Bu zaman bəyi oğurlayanlar yançılardan müəyyən məbləğdə pul almadan bəyi qaytarmazdılar.

Şəki rayonun bəzi kəndlərində toyxanada bəyin üzünün təraş edilməsi adəti də mövcud olmuşdur. Bəy hama-



mından gələn bəyin başı qırxılmadan öncə toya gələn dost-aşnanın başı, üzü qırxılır, sonra isə musiqinin müşayəti ilə bəyin başı qırxılır. Bu adət bölgədə bir başqa formada da icra edilirdi: toyun axırıncı günü bəy, dəllək və bir oğlan uşağı toyxanaya gətirilirdi. Toyxananın ortasında dəllək uşağın başını qırxdıqdan sonra bəy uşağa müəyyən məbləğ pul – "düşərrik" verir və uşaq durub yerini bəyə verirdi. Sonra da dəllək bəyin üzünü qırxırdı. Bundan sonra aşıq bəy tərifinə başıayırdı. Bu adət Azərbaycanın digər bölgələrində qeydə alınmamışdır. Maraqlıdır ki, bəyin toyxanada xüsusi mərasimlə üzünün qırxılması adəti Türkiyənin Anadolu bölgəsində də mövcuddur.

**Nikah mərasimi.** Azərilərdə toyların sonuncu günü adətə görə qudaların hər biri öz evində qohum-əqrabaya toy aşı verirdi. Toy aşma dəvət olunanlar "toy payı" (nəqd pul və ya sovqat) gətirirdilər. Bundan sonra oğlan evi kəndin mollası və ağsaqqalları, qohum əqraba ilə birlikdə qız evinə gedərdilər. Burada nikah mərasimi icra olunardı. Adətə görə nikah ramazan və boş ayda kəsilməzdi. Boş ayda kəsilən nikah inama görə tez dağılardı. Kəbin kəsildikdən sonra gəlin oğlan evinə aparılardı.

**Gəlin aparılması.** XIX–XX əsrin əvvəllərində bölgədə yaşayan azərilərdə gəlin gətirmək üçün çalğı ilə yola düşən oğlan evi yol boyu cıdıra çıxan atlıların, nişançıların, "mil-kəmanə"[1] oynadan kamançıların müşayətilə qız evinə gedib çıxırdılar. Gəlini gətirməyə gedənlərin arasında iki yengə də olardı. Bunlardan biri "baş yengə", digəri

[1] *XX əsrin əvvəllərində bu qədim zorxana oyununu Sarabsi belə təsvir edirdi: "Mil-kəmanə üç santimetr yarım qalınlığında, bir metr uzunluğunda girdə, ucları bir metr uzunluğunda zəncirlə bərkidilmiş bir dəmir alət idi... O aləti bir əllə dəmirin ortasından, digər əllə zəncirin ortasından yapışıb başlarının üstünə qaldırardılar. Sağa və sola aparıb sonra başlarından keçirərdilər. Bu proses çalınan dumbulun tempı ilə əvvəlcə yavaş, sonra bir qədə sürətlə davam edərdi (77, 71).*

"sıpa yengə" adlanırdı. Şəki rayonunun Baş Göynük kəndində adətə görə gəlinin yengəsinə papaq vurarlarmış ki, gəlin kişi qeyrətli olsun. Bu kənddə qeydə alınmış qədim bir ənənəyə görə gəlin gətirərkən yengələr at üstündə kəndin küçələrində o yan, bu yana cövlan edərmişlər (6, 7). Yeddi hava çalınmayınca gəlini ata evindən buraxmazdılar. Zaqatala və Qax rayonunda yaşayan azərilərdə adətən gəlinin belini ancaq oğlanın dayısı bağlaya bilərdi. Bölgədə anaxaqanlıq dövrünə aid qədim ənənələrin izləri, toy mərasimlərinin bütün mərhələlərində olduğu kimi, bu ənənədə də özünü biruzə verməkdədir. Yuxarıda da qeyd etdiyimiz kimi, bölgənin toy mərasimlərində oğlanın dayısı mühüm rol oynayırdı. Azərbaycanın digər bölgələrində isə adətən gəlinin belini qaynatası, əgər qaynata yoxdursa qaynı, o da olmasa o zaman oğlanın dayısı bağlardı.

Keçmışdə bölgədə gəlinin beli bağlanandan sonra evin ortasındakı ocağın ətrafında 3 dəfə dolandırırdılar. Gəlinin ata evində ocaq ətrafında dolandırılması adəti Azərbaycanın başqa bölgələrində də olmuşdur. Dağlıq Altayda da gəlinin ər evinin ətrafında (alaçığın) ətrafında 3 dəfə dolandırılması adəti olmuşdur (207). Azərbaycanın qədim inanclar sistemində od, ocaq hər zaman evin, ailənin, ailə xöşbəxtliyinin simvolu kimi qəbul edilmişdir. Çox qədim dövrlərdən bəri qədim Azərbaycan sakinləri oda, ocağa günəşin göydən yerə düşmüş bir parçası kimi sitayiş etmişlər.

Balakən rayonunda yaşayan azərilər arasında gəlini aparmağa gələnlər gəlin otağına girdikdə su dolu qabın üstündən keçməli idilər. Ləzgilərdə də qədim ənənəyə görə evdən çıxan gəlin ayağı ilə su bardağını aşırmalı idi (192, 180). Maraqlıdır ki, buna bənzər bir ayin Türkiyənin Muş bölgəsində də icra olunur. Burada gəlin qapıdan içəri girərkən qaynana içi su dolu bir küpü yerə ataraq qırar,



su yerə tökülər (228, 104). Su aydınlığı təmsil edər. El arasında da adətən yerə su dağılarkən bunu yaxşılığa yozar və "su aydınlıqdır" deyərlər.

Qədim ənənəyə görə gəlini gecə saat 9-da bəy evinə aparardılar. Toy mərasimlərində ayın, günün, saatın seçilməsi xalqın qədim astral dünyagörüşü ilə bağlı idi. Qədim inanclar sisteminə görə "kut" adlı xöşbəxtlik ruhu məhz axşam düşən zaman göydən yerə enərdi. Görünür, gəlinin məhz gecə ata evindən aparılması ənənəsi də bu qədim dünyagörüşünün təsiri ilə formalaşmışdır. Gəlini bəy evinə şər qüvvələri azdırmaq üçün "özgə yolla" aparardılar və heç kəsi gəlinə yaxınlaşmağa qoymazdılar. Qız evindən birinci olaraq yaylıq, dibçək və ya hər hansı bir əşya gətirən adam adətə görə bəydən muştuluq alardı.

Şəki-Zaqatala bölgəsində atla ər evinə yola salınan gəlini "cilovdar" sifətilə qardaşı müşayət edirdi. "Cilovdar" gəlini bəy evinin qapısına çatdırdıqdan sonra geri dönürdü. Gəlin yengələrlə birlikdə qalırdı. Oğlan evində "cilovdara" hədiyyə verilməsə də yengələrə hədiyyə verilərdi. Saxurlarda isə cilovdara bəydən hədiyyə düşürdü (192, 218).

Gəlinin ata evindən ayrıldığında olduğu kimi ər evinə, yəni yeni bir ailəyə daxil olması da bir sıra dini magik ayinlərlə müşüyət olunurdu. Bəy evinə daxil olan gəlinin başına şirniyyat və gümüş pullar tökərdilər, ovucuna duz verərdilər və ya əlinə su dolu aftafa verərdilər. Bunlar gəlinin yeni ailədə firavan həyat sürməsi, əlinin duzlu olması, aydınlıq içində olması, eyni zamanda gəlinin düşdüyü ailə ilə xoş münasibətlər qurması arzusu ilə icra edilən qədim ayinər idi. Qapıdan içəri girən yerdə şər qüvvələri qovmaq üçün metal əşya – sini və və ya qiyməkeş qoyardılar ki, gəlin üstünə basaraq içəri keçsin. Gəlinin qucağına isə oğlan uşağı verərdilər ki, oğullu-uşaqlı olsun. Qayınana gəlinin başı üzərində bir çörək parçalayıb

evdəki arvadlara paylardı və hər kəs tikəsini ortaya qoyulmuş bir boşqab bala batırıb yeyərdi. Çörək kəsilən zaman gəlin sağ əlini başının üstündə tuturdu və qaynana onun əlinin üstündə çörəyi kəsirdi ki, gəlinin əli ruzulu olsun, gəldiyi ev çörəkli olsun. Bu ənənədə də qədim inanc sisteminin izləri görünməkdədir. Hələ "Avesta"da çörəyin ətrinin bütün pis ruhları qovduğu yazılmışdı. Sonra bir kasa bal gətirirdilər. Gəlin barmağını bala batırıb qapının çərçivəsinə sürtürdü. Bu simvolik mərasim həm ruhları razı salmaq, həm də ailədə şirinlik yaratmaq arzusunu ufadə edirdi. Ümumiyyətlə, bal azərbaycanlıların toy mərasimlərində hər zaman şirin həyat, bolluq simvolu olmuşdur. Xalq arasında yayılmış "Gəldi ballı gün, yamacda var toy-düyün" deyimi də bunu təsdiq edir. Xalqımızın bir adətinə görə bal kəsilən zaman mütləq qohuma-qonşuya pay göndərilməli idi ki, hər ailədə şirin həyat, firavanlıq hökm sürsün. Hələ qədim zamanlardan bal təzə ailə üçün xeyir-bərəkət, şirin ömür, mehribançılıq rəmzi hesab edilmişdir. Azərbaycanın bəzi yerlərində, məsələn Quba rayonun Xınalıq kəndində elçilik, nişan mərasimlərində bal yeyərdilər ki, gənclərin həyatı bal kimi şirin keçsin. Bundan başqa Şəkidə gəlin gətiriləndən sonra qadınlar onun ətrafında dövrə vurub oturardılar. Qaynana yeddi xəmrəli və ya dastana (çörək adlarıdır) gətirərək gəlinin başı üzərində parçalayar və məcməyiyə yığaraq evdəki qız-gəlinin qarşısına qoyardı. Onlar da çörəyi bala batırıb yeyər, mabarəkabadlıq verərdilər. Bununla da məclis adamları gəlinə bal kimi şirin həyat, şirin övlad, boluq arzulardı (19, 59). Toy mərasimlərində baldan istifadə edilməsi ənənəsi bir çox türk xalqlarında mövcuddur. Məsələn, Ahıska türklərində də gəlin evin eşiyindən içəri addımını atmazdan əvvəl bir qabda gətirilən bala sağ əlini bular və eşiyin üst qisminə bal sürtər. Bunu üç dəfə edər (30, 396). Gəlinin getdiyi evin qapısına



bal yaxması ənənəsi Türkiyədə də mövcud olmuşdur. Xalq arasında yayğın olan bir türküdə də "Bazarda bal var, gəlinim" gəlinin getdiyi evə bal kimi şirinlik gətirməsi üçün söylənməşdir.

Digər bir maraqlı adətə görə azərilərdə gəlin ər evinə daxil olarkən qapının astanasında balta və ya başqa dəmir əşya qoyulardı. İnama görə gəlin şər qüvvələri dağıtmaq üçün dəmirin üstündən adlayaraq ayağının ucu ilə qapını açıb içəri girirdi. Balakən rayonunun kəndlərində başqa bir adət də icra olunurdu: Gəlin bəy evinin qapısının kandarında qaynana tərəfindən üzüqoylu qoyulmuş bir saxsı qabı sağ ayağı ilə basıb sındırır və sağ ayağı ilə də içəri girirdi. Gəlinin eşikdən girmədən əvvəl qab sındırması evdəki şər-xatanı dağıtmaq üçündür. Qax rayonun İlisu kəndində gəlin içəri girdikdən sonra qucağına bir oğlan uşağı verərkən, gəlin də adətə görə uşağın başına bir araxçın qoyurdu.

Zaqatala və Balakən rayonlarının bəzi kəndlərində gəlin bəy evinin həyətinə girdikdən və atdan düşürüldükdən sonra zurnaçılar xüsusi hava çalardılar və gəlin oynayardı. Şəki rayonunun Baş Küngüt kəndindən aldığımız məlumata görə gəlinin bəy evinin həyətində oynaması adəti qədimdə çox yayğın olsa da, sonralar bu adət tədricən aradan qalxmışdır.

Adətə görə gəlin evini bəzəmək üçün aparılan əşyaların içərisində qız evində toxunub hazırlamnış "gərdək" də olardı. Gərdəyi rəngli ipək parçalardan biçərdilər. Onun 3 küncü olardı Künclərindən bəzəkli saplardan qotazlar sallanardı (şəki 28, 29). Gərdəyin üçkünc olması da görünür simvolik bir məna daşıyırdı. Məlumdur ki, qədim inanclar sistemində mühüm yer tutan, şumerlərin sevgi və məhəbbət ilahəsi İştarın simvollarından biri də üçbucaq formalar idi (82, 57–59). Qeyd etmək lazımdır ki, belə üçbucaq təsvirlər ibadət-namaz xalçaları üçün də xarakterikdir.

**Toy libası.** Azərbaycanlıların geyim və bəzəklərinin bir qismi özünün birbaşa məqsədindən başqa, həm də rəmzi məna daşıyaraq xalqın mənəvi dünyasını, onun inanc və etiqadlarını əks etdirmişdir. Milli geyimlər arasında papaq, kəmər və nişan üzüyü xalq inamları ilə sıx bağlı olub simvolik əhəmiyyət kəsb edirdi. Bu maddi mədəniyyət nümunələri minilliklər boyu xalqın mənəvi rəmzlərini ifadə etmiş, xalqın əxlaqi və mənəvi dəyərlərini əks etdirən mühüm atributlara çevrilmişdir.

**Bəy libası**. Azərbaycanda papaq ən mühüm kişi baş geyimi olmaqla bərabər, hər zaman kişilik, qeyrət-namus rəmzi olmuşdur. Papaq bəy libasının da mühüm atributlarından biri idi. Azərbaycanda bəy papaqlarının "dallayi", "şirvanşikari", "şahpəsəndi", ""çərkəzi", "şikari" kimi növləri var idi (53, 17). Keçmişdə Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də toyda təzəbəyin başına qıvrım, tüklü dəridən "bəy papağı" qoyması adəti var idi (şəkil 25 a). Toy günü bəyin papağının oğurlanması onun özünün oğurlanmasına bərabər idi və rüsvayçılıq sayılırdı. Ona görə də bölgənin toy mərasimlərində bəyin papağı da, bəyin özü qədər ciddi qorunurdu. Bölgədə papaqla bağlı yayılmış "Papaq başda yırtılar, başmaq ayaqda", "Papaq isti-soyuq üçün deyil, qeyrət namus üçündür" kimi zərb-məsəllər və "Papağını qabağına qoy, fikirləş", "başı papaqlı" kimi ifadələr bütün Azərbaycan üçün xarakterik idi. Bölgə üçün ənənvi olan papaqlar şal və ya mahud parçadan tikilirdi. Ən qədim papaq növü isə keçədən idi. Bu qədim baş geyimini sakların qədim keçə başlıqları ilə müqayisə etmək olar.

Kasıb və ya zəngin ailələrə məxsus bəy libası daha çox parçanın və ayaqqabının növü ilə fərqlənərdi. Bəy libası ipək, yun, şal, mahud, pambıq parçadan tikilərdi (şəkil 16). Kasıb ailələrdə bəyin ayağına çarıq, zəngin ailələrdə isə uzunboğaz dəri ayaqqabı geyməsi xarakterik idi.



Adətə görə, bəy qız evindən onun üçün göndərilən köynəyi geyməli idi. Bölgədə qız evindən bəy üçün göndərilən köynək "40 yaxa köynək " adlanırdı. Toxunma əl işi olan bu köynəyin yuxarı hissəsində "hər tərəfi qırçınlı midaxil bəzək tökərdilər" (6, 426). Köynək xüsusi tikiş forması olan "baxiyə" ilə tikilərdi. "Kitabi-Dədə Qorqud" dastanında da toy günü qız evindən oğlan evinə Beyrəyə köynək (qaftan) göndərilməsi ənənəsinə rast gəlirik (48, 154).

**Gəlin libası**. XX əsrin əvvəllərində Şəkidə 13 yaşlı gəlinin geyim və bəzəyini İ. Seqal ətraflı təsvir etmişdir (182, 20). Keçmişdə Şəki-Zaqatala bölgəsində zəngin ailədə gəlinə qanovuzdan (rəngli ipək parça) bafdalı tuman, uclarında gümüşü bağları olan açıq mavi rəngli enli ipək şalvar, zərxaradan sarı köynək geydirərdilər. Köynəyin yaxası və qolları iri qızıl düyməli olardı. Köynəyin üstündən çəhrayı rəngli ləbbadə (nimtənə) geydirərdilər[1]. Ləbbadənin qıraqlarına və tikiş yerlərinə qızıl sapla naxış salınardı. Onun da düymələri qızıldan olardı (132, 370). Keçmişdə Şəkidə gəlinin başına təkəlduz işləməli araxçın, üstündən isə soğanı və ya çəhrayı rəngli kələəğayı örtürdülər (şəkil 13).

Keçmişdə bölgədə gəlinin saçlarını gizləməsi üçün xüsusi baş geyimi olan "tülü"dən istifadə edərdilər. Tülü adətən eni 25–30 sm, uzunu isə saçların uzunluğuna uyğun olurdu. Şəkidə "tülü"yə "tülü-şütül" də deyirdilər (29, 62). Bölgədə, xüsusilə də ingiloylar, avarlar arasında tülünü düyməçə əvəz edirdi (şəkil 9). Azərbaycanın digər bölgələrində tülü *çutqu* kimi tanınırdı. Tülü çox zaman bahalı ipək parçalardan tililərdi. Bəzən də tülü üçün daha möhkəm və üzün ömürlü olan qanavuzdan istifadə edərdilər. Zəngin ailələr tülünü daha çox atlas, darayı, xara kimi bahalı parçadan, yoxsullar isə çitdən tikərdilər (145, 72). Gəlin üçün tikilmiş tülünün üstündə qızıl

[1] *Şəki bölgəsində buna labada və ya lavada deyərlər. (Bax: şəkil 15)*

qarmaqlar da olardı. Tülü dördkünc formada biçilərək uzun tərəflərin ucları tikilərək torba formasına salınardı. Onun bir tərəfi yarımçıq tikilər və bu hissədən başa geyilərdi. Tülünün bağları ya çənənin altından bağlanar, ya da boyunun ardından keçirilərək alında bağlanardı. Tülünün yaylığın altından görünən ön hissəsinə adətən tafta və ya məxmər zolaq tikilərək üstünə qızıl və ya gümüş piləklər – bəzək əşyaları asılardı (147, 101). Keçmişdə gəlinin üzünə duvaq da salınırdı. Ayağında isə burnu dik, hündürdaban, üstü zər naxışlı başmaq olardı. Umumiyyətlə bölgədə başmaqlar qadının statusuna görə fərqlənirdi. Qız başmaqları nəbati rəsmlərlə bəzədilmiş, uşaqlı qadın başmaqları düz dabanlı, sadə, yaşlı qadın başmaqları isə biz burunlu olurdu (şəkil 12).

Şəki bölgəsində *naz-nazı, xaralı, gülü yaylıq* kimi ipək örpəklər səciyyəvi bayram geyimi olsalar da, bunlardan ən bahalısı və bölgənin gəlin libasının vacib atributlarından biri *sərəndaz* adlı ipək örpək idi. Sərəndazı adətən başa bağlamayıb saçlara xüsusi qarmaqlarla bərkidilər. Örpəyin ucları arxadan çiyinlərə doğru sallanardı. Onun altından isə tülü və ya bölgədə geniş yayılmış baş örtüklərindən biri olan *xınabənd* bağlayardılar. Xınabənd kiçik ölçülü üçkünc formalı baş örtüyü idi.

Şəki-Zaqatala bölgəsində qadın baş geyimləri içərisində çalma xüsusi yer tuturdu. Gəlin köçən qıza çox zaman çalma bağlayardılar. Çalma adətən kələğayıdan, xüsusilə də bölgə üçün xarakterik olan dördrəng kələğayıdan bağlanardı (145, 72). Kələğayı elə bağlanmalı idi ki, bütün rənglər görünsün. Bunun üçün kələğayını alının ortasına yaxınlaşdıraraq uclarını arxada çarpazlaşdırar, yenidən alına doğru gətirərək bir neçə dəfə bunu təkrar edərdilər. Çalmanın uclarını adətən çalmanın altına salsalar da, gəlin çalmasının ucları mütləq düyünlənməli idi. Bu düyün gəlin bəy evinin kandarından içəri keçən kimi açılırdı.



Çalmanın düyünlənməsi adəti magik məna kəsb edirdi və çalmadakı düyünün bəy evinə yola düşən gəlini cadu-pitidən qoruyacağına inanılardı (147, 101). Bölgədə çalmanın üstündən bağlanan kiçik yaylığa "*qadar*" deyirdilər.

Oğuzda çalmaya "*dümbara*" da deyirdilər (147,101). Şəkidə isə çalma həm də "*dinqə*" adlanırdı. Lakin bölgəyə aid etnoqrafik materiallardan məlum olur ki, XX əsrin əvvəllərinə kimi çalma və dinqə fərqli baş örtükləri olmuşlar. Dinqə daha çox Şəki şəhərində, eyni zamanda Qəmizli, Xırxatala kimi kəndlərdə bağlanırdı və çalma ilə müqayisədə daha mürəkkəb bir bağlanış forması var idi (145, 72). Bölgədə zəngin ailələrdə dinqə adətən tirmə, xara, zərxara kimi bahalı parçalardan bağlanırdı. Toya gələn gəlinlər "gülbəngi" adlanan rəngli kələğayılardan da çalma bağlayardılar.

Bölgədə kasıb ailənin toy mərasimində isə gəlinə köynək və üstdən çəpkən geydirərdilər (şəkil 14). Başına qırmızı və ya soğanı rəng yaylıq bağlayır, üstündən də yenə də qırmızı və ya soğanı rəng kələğayı salardılar. Gəlin geyiminin mühüm atributlarından biri də *pərək* olmuşdur. Pərək gəlin gedən qızın başına, əlbisəsinə müxtəlif rəngli parçalardan və metallardan vurulmuş bəzək idi.

Yuxarıda da qeyd etdiyimiz kimi bölgədə ərə gedən qıza mütləq gümüş kəmər və gümüş üzük gətirilərdi. Bu gümüşün şər qüvvələri dəf etməsi, insanı xata-bəladan qorumasına inamla bağlı idi. Ümumiyyətlə, XIX əsrdə Azərbaycanın bütün etnoqrafik bölgələri üçün kəmər qadın geyiminin əsas elementlərindən bir idi (şəkil 5, 6, 7, 8, 9). Bayram mərasimlərində qadınların, xüsusilə də təzə gəlinlərin kəmər taxması vacib idi. Şəki-Zaqatala bölgəsində, xüsusilə varlı təbəqə üçün qızıl suyuna çəkilmiş gümüş kəmərlər xarakterik idi. Belə kəmərlər "sarı kəmər" və ya "tavat kəmər" adlanırdı (147, 159).

Bölgədə, xüsusilə də Zaqatala rayonunda gəlin və

bayram libası üçün səciyyəvi olan bəzək əşyalarından biri də gümüş boyunbağı idi. Bu gümüş sinə bəzəyi yalnız bu bölgəyə xas olan spesifik formada olurdu. Bütün sinəni tutan və ağırlığı ilə seçilən bu boyunbağılar mərkəzi üçkünc və ya dördkünc, bəzən də yumru formada olan, kənarlarından isə bir neçə cərgə pullar sallanan gümüş bəzək əşyası idi (147, 155). Boyunbağının ortasına adətən qırmızı daş mərcan bərkidilirdi (şəkil 7). Görünür bu da gəlini bəd nəzərdən qorumaq üçün idi.

Bölgə üçün xarakterik olan gümüş qolbaq (bilərzik) da gəlin libasını tamalayan bəzək əşyalarından idi. Bu qolbaqlar adətən nəbati ornamentlərlə və ya bir, bəzən də üç mərcan qaşla bəzədilərdi. Gümüş qolbaqlar təxminən 6–7 sm qalınlığında olurdu. XIX əsrin sonu – XX əsrin əvvəllərində bölgədə ortasında firuzə olan künbəzvari şəbəkəli medalyon bərkidilmiş yarımçıq formalı qolbaqlar da yayğın idi. Zaqatalada bu iki qolbağı adətən qoşa taxardılar (147, 156).

**Gəlin görməsi və duvaqqapdı mərasimləri**. Şəki-Zaqatala bölgəsinin adətinə görə toy gecəsinin səhəri bəy sağdış və soldışla "bəy qonaqlığı"na aparılardı. Bəyin taytuşlarının yığışdığı bəy qonaqlığı 3 gün davam edərdi. Bu zaman bəyi əyləndirmək üçün "Şah oyunu" oynanılırdı. Bu qonaqlıq "bəy yanı" da adlanırdı. Bu zaman gəlin üçün də anası tərəfindən "Dəstur aşı" göndərilərdi. Bundan sonra "Gəlin görməsi" mərasimi başlardı. Bu mərasim zamanı bütün arvadlar, tanıyan-tanımayan gəlinin evinə gəlib gətirdiyi cehizə və üzünə alafadan duvaq örtülərək məclisə gətirilən gəlinə baxardılar. Şəki rayonunda bu mərasim "duvax" adlanırdı. Bu mərasim zamanı təzə gəlin bir almanı dilimləyir və yanına gələn subay qızlara paylayaraq "Sizin də başınıza gəlsin!" deyirdi. Qax rayonun Sarıbaş kəndində bu mərasim hazırda da icra edilməkdədir. "Gəlin görməsi" mərasimi 3 gün davam



edərdi və III gün "Duvaqqapma" mərasimi başlayırdı, təntənə ilə gəlinin duvağı açılardı. Bu mərasim zamanı yenə qız-gəlin təzə gəlinin başına toplaşırdı. Bu zaman, atalı-analı, 7–8 yaşlı bir oğlan uşağı içəri girib qızılgül budağından kəsilmiş bir çubuqla gəlinin duvağını götürüb çölə qaçırdı. Adətən gəlinin duvağı barlı bir ağacın başına atılardı ku, yeni ailə də barlı olsun. Bu zaman qohum qadınlar gəlin üçün "üz görümcəyi" verərdilər. Bu mərasimdə qızın qohumları iştirak etməzdi. Qax və Balakən rayonlarında isə "üz görümcəyi" adlanan bu mərasim bir qədər fərqli olurdu. Toydan bir gün sonra gəlin əlində avtafa-ləyən qaynatasının, sonra isə qaynanasının qarşısına gələrək onların əlinə su tökürdü. Bundan sonra qaynana və qaynata gəlinə hədiyyə verərdi. Buna xalq arasında "üz görümcəyi" deyirdilər. Toydan sonra bəy üç gün müddətində gecələr yançıların evində yatırdı. Yalnız üçüncü gün bəy yançıların müşayəti ilə atasının evinə gəlirdi. Bu "Üzəçıxdı" məclisi adlanırdı. Həmin axşam qohum-qonşu bəyin evinə yığışır və bəyi gözləyirdilər. Bu zaman məclisə girən bəy qonaqlarla salamlaşaraq üzə çıxmış olurdu.

Toydan bir həftə sonra oğlan evi gəlinin hər iki yengəsini (baş yengə, sıpa (*kiçik, köməkçi*) yengə) qonaq çağırardılar. Bölgədə bu adətə "Yengə qonaqlığı" deyərdilər. Toydan bir müddət sonra gəlinin atası bəylə gəlini qonaq çağırırdı ki, bu adət də "Ayaqaçdı" adlanırdı.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Şəki-Zaqatala bölgəsində də toydan sonra 40 gün müddətində gəlin toylara, yas yerlərinə buraxılmırdı. Xalq arasında mövcud olan inama görə bu yerlərdə gəlinə nəzər dəyə bilər və ya çilləyə düşər.

**Bölgədə qədim nikah qaydaları.** "Alban tarixi", "Kitabi-Dədə Qorqud" kimi qədim mənbələrdən məlum olur ki, Azərbaycanda ailənin əsas forması monoqam ailə

olmuşdur (bax: 69 a). Bu nikah forması XIX–XX əsrlərdə də Azərbaycanda nikahın əsas və yeganə forması olaraq qalırdı.

Azərbaycanın Şəki-Zaqatala bölgəsində də əsasən monoqam ailə, yəni kişinin eyni zamanda təkcə bir qadınla kəbin kəsdirə bilməsi adəti mövcud idi. İkiarvadlılıq çox nadir hallarda olmuşdur. Yalnız ailədə uşaq olmadıqda kişi ikinci arvad alırdı. Bu zaman birinci arvad ata evinə də gedə bilər və ya ər evində qala bilərdi.

Qax rayonunun Qax-Muğol kəndində topladığımız etnoqrafik məlumatlara görə, keçmişdə bəzən övladı olmayan və ya oğul övladı olmayan qadın ərinin yeni arvadı – günüsü ilə bir yerdə yaşamağa məcbur olurdu. Bəzən isə, uşağı olmayan qadının özünün razılığı ilə əri ikinci arvad alırdı. Adətə görə belə halda II nikahdan doğulan uşaqlar ataları öldükdən sonra da I arvadı evdə saxlayır, hətta ailənin ata mirası bölüşdürülərkən ona pay ayırır, ana kimi hörmət edir, qadın öldükdə isə onu şəriətə uyğun qaydada dəfn edirdilər.

Bölgədə sigə kəbin qaydası – yəni evli kişinin özünə müvəqqəti kəbin kəsdirməsi qaydası da, demək olar ki, olmamasıdır. Şəki rayonunda məlumatçılarımızın söylədiklərinə görə, sigə şəriətdən irəli gəlsə də, belə nikah tək-tək hallarda baş verirdi. Belə nikah rüsvayçılıq sayılırdı və buna görə arvad tərəfin qohumları ilə kişi arasında düşmənçilik yaranırdı və çox hallarda qan intiqamına səbəb olurdu. Qeyd etmək lazımdır ki, hələ Qafqaz Albaniyasında V əsrdə qəbul edilmiş qanunnaməyə görə, ikinci arvadla nikahsız yaşayan ölüm cəzasına məhkum edilirdi. (Kalankatlı, I, 33).

Mənşəcə daha erkən yaranan ekzoqam nikahlar cəmiyyətin tarixi inkişafının qəbilə icması mərhələsində meydana gəlmişdir. Tarixin ən erkən mərhələsində yaranan ekzoqom nikahlar (yad nəsildən evlənmə) bir çox



türk xalqlarında (Altay türkləri, qazaxlar, qaraqalpaqlar və b.) qədim dövrlərdən bəri mövcuddur və hazırda da bu ənənəyə ciddi riayət edilir. Onlarda ata nəsli üzrə 7 arxa keçməmiş qohumdan evlənmək olmazdı, cünki yalnış 6 arxadan sonra nəsildə yadlaşma başlayır, qan qohumluğu itirdi. Azərbaycanın qədim nikah adətləri barədə Y. V. Çəmənzəminli də qeyd edirdi ki, qəbilə icərisində gənclərin bir-birilə evlənməsi adəti yox idi. Qəbilə gəncləri qəbilədaş sayldıqlarından bir-birilə evlənə bilməzdilər(21, 90). Xalqımızın yaşadığı tarixi hadisələri, o cümlədən adət və ənənələrimizin, ailə-məişət qayda-qanunlarımızın gözəl bədii ifadəsi olan "Koroğlu" dastanında da ailə quruluşunda ekzoqam nikahların əsas yer tutduğunu görürük (69 a).

İbtidai icma cəmiyyətinin dağılması mərhələsində xüsusi mülkiyyətin meydana gəlməsi ilə əlaqədar olaraq endoqam nikah qaydası da formalaşmağa başladı. Yazılı mənbələrdən, həmçinin şifahi xalq ədəbiyyatı materiallarından da məlum olur ki, azərbaycanlılar arasında həm ekzoqam, həm də endoqam nikahlar mövcud olmuşdur. Məsələn, Dədə Qorqud dastanında "yad qızı halalım" ifadəsinin işlənməsi, həmçinin "Manas", "Alpamış", "Koroğlu" kimi türk eposlarında da qəhrəmanların "özgə tayfalardan, uzaq ellərdən evlənildiyinin şahidi oluruq (50, 16).

Lakin cəmiyyətin sonrakı inkişaf mərhələlərində, bir sıra xalqlarda, o cümlədən azəri türkləri arasında endoqam nikahlara daha çox yer verilməyə başlamışdı. Endoqom nikahlar bir sıra amillərin təsiri altında yaranmışdır. Cəmiyyətdə xüsusi mülkiyyətin bərqərar olması ilə tədricən öz icma torpağına malik böyük patriarxal ailələr meydana gəlirdi. Belə ailə icması varidatını, torpağını icma daxilində saxlamaq üçün endoqom nikahlara üstünlük verirdi. Bu nikah qaydasının patriarxal ailələrdə geniş

yayılmasının əsas səbəbi varəsəlik hüququ idi. Belə ki, ailə patronomiyasında qız da torpaq payına malik idi. Ekzoqom nikah qaydasına görə isə ailədə kişi öldükdən sonra arvada torpaq payı çatmırdı, yəni kişinin ölümü ilə torpaq icmaya keçirdi. Beləliklə, vahid təsərrüfatın dağılmaması üçün böyük patriarxal ailə daxilində endoqam nikahlar yayılır. Göründüyü kimi endoqam nikah qaydası Azərbaycan ərazisində hələ islamiyyətdən çox-çox əvvəl-ata nəslinin bərqərar olması ilə yaranmışdır. Bu, Azərbaycanda patriarxal ailə ənənələrinin çox qədim dövrdən bəri (ibtidai icmanın dağılması mərhələsi) formalaşdığını göstərir. Tarixi mənbələr də bunu sübut edir. Alban tarixçisi Musa Kalankatlı alban tayfalarında qohumdan evlənmə adəti barədə yazırdı ki, Aquen kilsə məclisində (V əsr) qəbul edilmiş qanuna görə oğlanın üçüncü arxada qohumluğu çatan qıza, yəni əmisi qızına evlənməsi qadağan edilirdi (Kalanktlı, I, 29). Bu məlumatdan aydın olur ki, hələ V əsrdən öncə Albaniyda qohumdan evlənmə geniş yayılmışdı və alban kilsəsi də bunu qanunlarla qadağan etməyə çalışırdı. "Manas", "Kitabi-Dədə Qorqud", "Alpamış", "Koroğlu" dastanlarında ekzoqam nigahlarla bərabər, endoqam nikahların da təqdir olunduğunu görürürk. Məsələn, "göz açaraq gördüyüm" ifadəsi, "Baybican bəyin Baybərə bəyin oğluna qızını göbəkkəsmə" adaxlı etməsi kimi məlumatlar (48, 156) Azərbaycanda endoqam nikahların hələ islamdan öncə də mövcud olduğunu göstərir.

Qafqaz Albaniyasında IV əsrdən etibarən xristianlığın bərqərar olması ilə endoqom nikahlar qadağan edilməyə başladı. Bu 487-ci ildə Albaniyada qəbul edilmiş kilsə qanunnaməsinin 10-cu bəndində öz əksini tapmışdı (Kalankatlı. I, 29). Kilsənin endoqam nikah adətini belə rəsmi surətdə qadağan etməkdə məqsədi iri patronomiyalara məxsus icma torpağından pay əldə etmək idi (53, 1-4).



Daha sonra VIII-IX əsrlərdə islam dininin Azərbaycanda yayılması ilə çox qədimdən azərbaycanlıların məişətində kök salmış endoqam nikahlar yenidən yayğınlaşdı. Lakin XIX əsrin sonu – XX əsrin əvvəllərinədək azərilərdə patriarxal ailələrin və ailə icmasında vahid təsərrüfatın mövcud olması səbəbdən endoqom nikahlara daha çox üstünlük verilirdi. Bununla bərabər ekzoqam nikahlar da qalmaqda idi. Göründüyü kimi, Azərbaycan türkləri arasında həm ekzoqam, həm də endoqam nigah qaydası eyni dərəcədə geniş yayılmışdı. Şəki-Zaqatala bölgəsində də həm ekzoqam, həm də endoqam nikah qaydaları mövcud idi.

**Nikah adətləri.** XIX–XX əsrin əvvəllərində Azərbaycanın bütün bölgələrində olduğu kimi Şəki-Zaqatalada da **köbəkkəsmə, beşikkərtmə, süd nişanı** kimi yeni doğulan uşaqların, hətta hamiləlik dönəmində valideynlərin arasında olan evlililik sözləşməsi kimi nikah adətləri geniş yayılmışdı (53, 147–148). Ümumiyyətlə, beşik nikahı bir çox türkdilli xalqlar arasında geniş yayılmışdı. Orta Asiyada yaşayan qıpçaqlar bu adəti beşik kətti, beşik- kuda. kumıklar, beşik kərtə və s. kimi ifadə edirdilər.

Orta Asiya və Qazaxıstanda beşik nikahının daha qədim, fərqli bir forması da mövcud idi. Uşaqları birbirinə ad edən zaman köynəklərinin ətəyi kəsilirdi (155. 87). Maraqlıdır ki, Azərbaycanda da çox zaman qız istəməyə gedən oğlan atası "əl mənim, ətək sənin" ifadəsini işlədirdi. Bu ənənə tədqiq etdiyimiz Şəki-Zaqatala bölgəsi üçün də xarakterik bir ifadə idi. Hətta elçilikdən "yox" cavabı ilə dönərkən "əlləri ətəklərindən uzun geri qayıtdılar" ifadəsi də işlənərdi. Beşikkərtmə və ya göbəkkəsmə adətinə qədim türk eposu "Dədə Qorqud"da da rast gəlinir (48, 156).

XIX–XX əsrin əvvəllərində bölgənin xüsusilə Şəki qəzasında beşikkərtmə adəti geniş yayılmışdı. Körpələrin ataları razılaşdıqdan sonra qızın beşiyi xəncərlə kərtilirdi.

Bundan sonra oğlan evi qız evinə vaxtaşırı "bayramlıq" və başqa hədiyyələr aparmalı idi. Bölgədə beşikkərtmə adəti əsasən varlılar arasında, xüsusilə də 2 varlı qardaş arasında icra edilirdi. Bu, qeyd etdiyimiz kimi ailə icmasının varidatının parçalanmaması üçün idi. Bu zaman beşikkərtmə həm də endoqam nikaha çevrilirdi.

Beşikkərtmə adəti çox zaman nəsillər arasında düşən qan davasını bitirmək üçün də icra edilirdi, bu nikahla qan düşmənçilyi qohumluğa çevrilirdi.

Tədqiq etdiyimiz bölgədə süd nişanı adlanan qədim nikah forması da mövcud olmuşdur. Süd nişanı zamanı oğlan anası bələkdəki qız uşağını darvazadan içəri salıb çıxarardı, bundan sonra beşiyinin üstünü kərtərək beşiyə və ya uşağın bələyinə qızıl pul asırdı.

**Qədim nikah forması qız qaçırma**. Qafqazın bir sıra xalqlarının keçmişi üçün səciyyəvi olan bu qədim nikah forması XIX əsrdə Şəki-Zaqatala bölgəsində mövcud olsa da səciyyəvi hal almamışdı. Qızqaçırma bölgə əhalisi tərəfindən təqdir olunmurdu. Bölgədə tək-tək hallarda qızqaçırma halları baş verirdi ki, bu da əsasən iqtisadi mülahizələrlə bağlı olmuşdur. Başlıq və toy xərclərindən azad olmaq məqsədilə oğlan öz gələcək nişanlısını onun razılığı ilə qaçırırdı.

Ümumiyyətlə, qız qaçırma çox ibtidai bir nikah adətidir. Daha erkən patriarxal qayda-qanununa keçən hunlar, göytürklər və digər türk icmalarında bu ibtidai nikah adətinə rast gəlinsə də, bu səciyyəvi hal almamışdı.

Qız qaçırma adəti barədə Bahəddin Ögəl "Böyük hun imperiyası" əsərində bu məlumatı verir: "Kişilər toydan əvvəl bir qadın seçər..., bundan sonra qadını qaçırarlar. Aradan altı ay və ya 100 gün keçər. Bundan sonra evlənmə razılığı (və ya nişan üçün) bir vasitəçi ilə (başlıq) və ya hədiyyə kimi at, cönkə və qoyun göndərərlər. Nişan ərməğanı kimi göndərilən hədiyyələrdən sonra yeznə nişanlısı



ilə birlikdə onun ailəsinin yanına gedərdi (16, 168).

Bölgədə yaşayan azərilərdə keçmişdə qızın, yaxud nişanlanmış qızın qaçırdılması ailə üçün böyük rüsvayçılıq hesab olunurdu (154, 180). Qız qaçırdan adamla salamlaşmırdılar, bir süfrə arxasında oturmurdular, onunla alver etmirdilər. Keçmişdə, əsasən avar və saxurlar arasında mövcud olan qız qaçırma adəti bölgənin digər etnik qruplar və azəri türkləri arasında geniş yayılmamışdı (bax: 31, 79).

Şəki-Zaqatala bölgəsində levirat, sororat nikah formaları, yəni qayın və ya baldızla evlənmə də nadir hadisə olmuşdur. Məlumatçılarımızın söylədiklərinə görə bu nikah adətləri əsasən müharibə illərində yayılmışdı və iqtisadi amillərlə bağlı idi. Levirat adəti bəzi toy xərclərindən azad olmaq və ya qohumluq münasibətlərini (yəni digər varlı patropomiya ilə) qoruyub saxlamaq məqsədi güdürdü. Lakin nə levirat, nə sororat nikahlar bölgə əhalisi tərəfindən yaxşı qarşılanmırdı, ölmüş arvadın və ərin qohumu ilə evlilik qeyri-etik sayılırdı.

**Qarışıq milli nikahlar**. Tədqiq etdiyimiz bölgədə qarışıq milli nikahlar əsasən XIX əsrdən etibarən yayılmaqda idi. Bölgədə belə nikahlar həm bölgə əhalisinin əksəriyyətini təşkil edən azəri türkləri ilə azsaylı xalqlar arasında, həm də azsaylı xalqların öz aralarında müəyyən qədər mövcud olmuşdur. Azərilərin, avarların və saxurların, rutulların dini mənsubiyyətcə müsəlman olmaları isə bu xalqların əsrlər boyu bir-birinə təsirini gücləndirmiş və nəticədə azəri türkləri ilə bu xalqların daha çox qaynayıb qarışmasına və qarışıq nikahlara getdikcə daha çox yol verilməsinə səbəb olmuşdur. Bölgədə azərilərlə avarlar arasında qarışıq nikahlar daha geniş yayılmışdır. Keçmişdə də, hal-hazırda da azəri qızının avar oğlanla və ya avar qızının azəri oğlanla ailə qurması yolunda nə dini baxımdan, nə də milli adət-ənənə baxımından heç bir maneə

olmamışdır. Əksinə, yaşlı nəslin söylədiklərinə görə qarışıq nikah yeni qurulan ailələrin daha sağlam, mənəvi və fiziki baxımdan daha da inkişaf etmiş olmasına kömək edir.

Yaşlı məlumatçılarımızın dediklərinə görə azərilərlə avarlar, saxurlar və ləzgilər arasında qarışıq nikahlar əsasən XX əsrin əvvəllərindən genişlənmişdir, ondan əvvəl belə nikahlar nadir hadisə idi.

Milli qarışıq nikah zamanı icra edilən toy adətləri də bir növ ümumiləşir və çox hallarda həm Azərbaycan türklərinin, həm də azsaylı xalqların adətləri gözlənilir. Əslinə baxılarsa, hazırda azərilərin toy adətləri ilə bölgədə məskun olan digər etnosların toy adətləri çox hallarda adət-ənənə baxımından üst-üstə düşür ki, bu da bölgə əhalisi arasında əsrlər boyu davam etmiş qarşılıqlı mədəni təsirin nəticəsidir.

## Avarlarda evlilik mərasimləri

**Qızbəyənmə.** Bölgənin etnik qruplarından olan avarlarda da qızbəyənmə mərasimlərində azərilərdə olduğu kimi *araçılar, xəbərçilər* mühüm rol oynayırdı. Bundan başqa bahar mərasimləri zamanı da gənclər bir-birini görüb bəyənərdı. Bölgədə yazın gəlişi ərəfəsində təşkil olunan Gülverdi, Mərəkə, Ukur, Rukivak kimi mərasimlərdə gənclər həm də qız bəyənərdilər. Avarlarda keçirilən bu bahar mərasimlərində gənc qızlar və oğlanlar bir yerdə toplaşar, müxtəlif oyunlar, yarışlar keçirərdilər.

**Ukur mərasimi** zamanı avarlarda hər məhəllənin (oba və ya nəsil) qadın və kişiləri çöldə-çəməndə bir yerə toplaşaraq birgə yemək bişirib yeyir (qarğıdalı, buğda ilə ət), çalıb oxuyaraq şənlənərdilər. Bu mərasimlər zamanı



həm nəsil-tuxum[1] üzvlərinin birliyi saxlanar, həm də gənc nəslin evliliyə yol açan qızbəyənmə adəti icra edilərdi. Bu mərasim vaxtı gənclər qız bəyənmək, ürəklərini aça bilmək üçün fürsət tapar, yelləncək qurub əylənər, dəf çalıb mahnı oxuyar, birlikdə rəqs edərdilər. Kəndirdən düzəldilən yelləncəklərə müxtəlif parçalar bağlanardı. Yellənən qızlar növbə ilə mahnıları oxuyar, bəzən oğlanlar da gələr, gənclər mahnı şəklində deyişərdilər. Yelləncək mərasimində təkcə gənclər deyil, yaşlı-cavan hər kəs iştirak edirdi. Yelləncəkdə yellənmək ənənəsi bir çox türk xalqları üçün, o cümlədən Orta Asiya xalqları üçün də xarakterik idi. Xalq inancına görə yelləncəkdə yellənənin günahları yel kimi sovulub dağılardı.

Yaşlı məlumatçılarımız bölgədə yaşayan avar və saxur-

[1] *Tuxum Şəki-Zaqatala bölgəsində təsərrüfat və ideoloji birlik olan iri patriarxal ailəni – qohumluq birliyini ifadə edən terminlərdən biri idi. Zaqatala mahalı haqqında məlumat verən XIX əsr rus müəlliflərindən Pasərbski də tuxumu bir ümumi ailə kimi təsvir etmişdir. Bu ərazidə cəmiyyət tuxumlara bölünürdü. Bu tuxumlara nəinki yaxın və uzaq qohumlar hətta başqa ərazidən gəlib bu tuxumun himayəsini qəbul edənlər də daxil olurdular. Bu qohumluq təşkilatı ictimai və mənəvi birlik ifadə edirdi. Hər bir tuxumun dingəxana adlanan ictimai yeri – meydanı var idi. Burada həm tuxumun ağsaqqalları oturub dincələr, həm də tuxumun – nəslin həyatı ilə bağlı məsələlər, xeyir, şər işlərini müzakirə edərdilər. Dingəxana sözünün mənası da (dincəlmək, dinlənmək (türkcə)bunu ifadə edirdi. Bölgədə tirə, oba, tabun, oval, şaqqa, şaxa, simsar kimi terminlərdən də istifadə edilirdi. Ümumiyyətlə, XIX əsrin sonunadək Azərbaycanda patronomiyanı ifadə edən tayfa, nəsil, törəmə, əqrəba və s. kimi bir çox ümumi terminlər mövcud olmaqla bərabər, Azərbaycanın ayrı-ayrı bölgələri üçün səciyyəvi olan terminlər var idi. Məsələn, Abşeronda kürək, zu, çu, tum, Qarabağ bölgəsində turum, uruq-turuq, Gəncə, Tovuz, şəmkir, Qazaxda basalax, simsar, dinnik, Quba bölgəsində kök, yux və s. kimi terminlər qohumluq təşkilatını ifadə edirdi. Bu qohumluq təşkilatlarının da yuxarıda təsvir edilən ictimai yeri – meydanı olurdu. Belə meydanlar Gəncə, qazax, Ordubad bölgələrində də Şəki-Zaqatalada olduğu kimi dingəxana, Muğan, Xaçmaz, Quba bölgəsində isə kim, kimgə adlanırdı.*

lar üçün xarakterik bahar mərasimlərindən olan "Ukur" mərasiminin adının mənasını aydınlaşdıra bilməsələr də, düşünürük ki, bu mərasim qədim türk dillərindəki "uğur" sözündəndir. Bir çox əski abidələrdə, eləcə də orta yüzilliklərin lüğətlərində "uğur"un... mənalarından biri də "bəxt, "tale"dir (79, 237). Uğur həm də yol tanrısının adıdır. Əski zamanlardan azərbaycanlılar, eləcə də bəzi türkdilli xalqlar yola çıxarkən keçmiş inamla əlaqədar olaraq, Uğuru-yol tanrısını köməyə çağırmışlar (79, 236). Baharda keçirilən bu mərasim də, görünür. həm təbiətin, həm də təbiətin gəncləşməsinin simvolu olan gənclərin yeni həyat yolunun, bəxtinin uğurlu olması şərəfinə idi.

Elçilik vaxtı qohum olan tərəflərin çörək kəsmə adəti bölgə əhalisinin böyük əksəriyyətini təşkil edən azəri türkləri ilə yanaşı bölgədə məskun olan həm avarlar, həm də və saxurlar üçün xarakterik idi.

**Elçilik.** Avarlarda qız istəmə mərasimində maraqlı bir adət də icra edilirdi. Keçmişdə Şəki-Zaqatala bölgəsində yaşayan avar və saxurlarda evlənmə yaşına çatan qızı olan ailələr evlərinin qarşısında, darvazanın tinində bir iri hamar daş qoyurdular. Bu daş "elçi daşı" adlanırdı. Əgər qohum olmayan, yad bir ailə öz oğluna bu qızı istərdisə, oğlanın atası sübh vaxtı o başdan gedib həmin "elçi daşı"nın üstünə otururdu. Qeyd etmək lazımdır ki, "elçi daşı" ilə bağlı motivlərə bir çox Azərbaycan nağıllarında rast gəlmək mümkündür. Qızın atası, atası yoxdursa böyük qardaşı və ya əmisi daşın üstündə oturan kişiyə yaxınlaşaraq salam verib evə dəvət edirdi. Lakin qızın adamları onun nə üçün daşın üstündə oturduğunu soruşmurdular. Adətə görə, bu qonağa, yəni elçiyə hörmətsizlik hesab edilirdi, çünki qonağın artıq "elçi daşı" üstündə oturması ailənin qızına elçi gəldiyini bildirirdi. Qızın atası evə çağırılmış qonağa süfrə açdırır və yemək qoyurdu. Lakin oğlan atası yeməyə əl uzatmırdı və birbaşa qızın atasından qohum olmağa razılığını soruşurdu. Qız atasının sözü həlledici olduğu üçün elçi gəlmiş kişi qız atasına deyirdi: "Qızı versən çörək yeyərəm". Əgər qızın atası, atası yoxdursa əmisi və ya böyük qardaşı "çörəyi kəs" desəydi, bu artıq razılıq əlaməti idi. Bundan sonra oğlan atası yeməyə başlayırdı. Əgər qız atası bu evliliyə razı deyildisə "çörəyi kəs" ifadəsini işlətmirdi. Oğlan atası da məsələni başa düşərək çörək yemir, sağollaşaraq cıxıb gedirdi. Əgər qızın atası razı olsa və oğlan atası çörək yeyərdisə, bundan sonra süfrənin qırağına müəyyən qədər pul qoyurdu. Bu adət həm azəri türkləri, həm də avar və saxurlar arasında "xatircəmlik" adlanırdı. Şəkinin Baş Şabalıd kəndində də buna bənzər elçilik adəti mövcud olmuşdur. Elçi gedən adam "elçi dəsmalına" müxtəlif ərzaq şeyləri qoyaraq apa-rar və ev sahibi onun dəsmalından elçi olduğunu bilərdi. Beləliklə, qız evi tərəfindən razılıq alındıqdan sonra sonra müəyyən edilmiş vaxtda oğlan evi bir neçə ağsaqqal ilə qız evinə elçiliyə gedirdi. Qeyd etmək lazımdır ki, azərilərdə elçiliyə əksər halda kişilər, yalnız oğlanın atası olmadıqda kişilərlə birlikdə anası getdiyi halda, saxurlarda kişilərlə bərabər oğlanın bibisi də mütləq elçilikdə iştirak etməli idi. Görünür bu adət qədim matriarxat ənənələrinin qalıqlarıdır. Əvvəlcədən ailələr arasında razılıq olduğuna görə bu zaman süfrə açılır və elçilər yemək yeyirdilər. Yalnız bundan sonra qohum-qonşu elçilikdən xəbər tuturdu. Avarlarda elçilər razılıq əldə etdikdə "inşallah" sözünü təkrarlayırdılar. Azərilərdə olduğu kimi avarlarda da üzüyü öğlanın bacısı taxırdı. Lakin avarlarda üzük taxma mərasimi elçilik zamanı icra edilirdi. Adətə görə elçilərin arasında oğlanın bacısı da olurdu və "*barqciç*" (*avar dilində*) adlanan üzük taxma mərasimində məhz o, qızın barmağına üzüyü taxırdı. Maraqlıdır ki, avarlarda oğlanın anası bu mərasimdə iştirak etməzdi. Qıza nişan apararkən gümüş kəmər, (*avarca* "tac"), bilər-

zik (*avarca* "kvakça"), pal-paltar, şirniyyat və s. aparırdılar.

Avarlarda da toy ərəfəsində bölgə üçün səciyyəvi olan "El qonaqlığı" ənənəsinə riayət edilirdi. Lakin avarlarda qohum-əqraba gəlin köçəcək qızla bərabər bəyi də qonaq çağırırdı və hərə onlara bir şey bağışlayardı. Bu mərasim zamanı hətta bəzi ailələr çalıb-oynamaq mərasimi də təşkil edirdilər. Bundan başqa avarlarda və saxurlarda keçmişdə toydan bir həftə əvvəl kəndin subay qızları və oğlanları nişanlı oğlan və qızla birlikdə qızın dayısı və ya əmisigildə yığışardılar. Gənclər gələcək bəy və gəlinin qarçısında oynayar və oxuyardılar.

**Toya dəvət.** Bölgənin Qəbələ və Oğuz rayonlarında, xüsusilə də, avaralar və udilər arasında çağırışçı toya dəvət etdiyi ailələrin hərəsinə bir alma verərdi (109). Yuxarıda da qeyd etmişdik ki, alma Azərbaycan folkorunda qismət simvoludur. Burada da alma hər bir ailəyə toy qismət olması diləyini ifadə edirdi.

**Toy.** Avarlarda adətən toylar 2–3 gün davam edirdi. Avar toylarının ilk günündə qız evində "paltarbicdi" mərasimi keçirilərdi. Oğlan evi toy üçün alınmış parçaları gəlin üçün gətirərək paltar tikər, qız evi isə iştirakçılara yemək verərdi. Oğlan adamları axşamüstü qız evindən qayıtdıqdan sonra qızın qohumları gəlinin başına yığışaraq çalıb-oxumağa davam edirdi. Toyun ilk günü adət üzrə oğlan evində deyil, onun "*qsudul*" adlandırılan ən yaxın dostunun evində başlanardı, ikinci gün isə öz evində davam etdirilərdi.

Toyun oğlan evində başladığı ikinci gün gəlin də toy evinə gətirilərdi (169, 453). Bəzən isə toylar 3 gün davam edərdi. Bunun üçün də, Azərbaycanın hər yerində oıduğu kimi, həftənin cümə, şənbə, bazar günləri seçilirdi. Cümə günü həm oğlan, həm də qız evində toy çalınardı, şənbə günü hər iki tərəfin də iştirak etdiyi "paltarbiçdi" mərasimi keçirilirdi. Toyun sonuncu günü isə axşam saatlarında gəlin oğlan evinə gətirilirdi.



Avar toylarında toy ərzində bəy öz yoldaşları ilə ayrıca bir otaqda əylənərək toy camaatına qarışmazdı. Yalnız toyun axırıncı günü bölgə üçün xarakterik olan "bəy qoydu" mərasimi icra olunurdu. Avarlarda da bəyin oğurlanması adəti var idi. Əgər bəy oğurlanardısa əvəzində bəyin atasından "*düşərrik*" (hədiyyə) alınardı. Adətə görə qaçırılan zaman bəyin müqavimət göstərməyə ixtiyarı yox idi. Belə olardısa bəyi qaçıranların toyu bəyin qaçırıldığı evdə davam etdirilməsini tələb etmək haqları var idi. Bəzən hətta bəyi gəlinin rəfiqələri də aldadıb qaçıra bilərdilər. Bu halda bəyin anasından hədiyyə alaraq bəyi azad edərdilər (25, 291).

Keçmişdə avar toylarında qadın və kişilər üçün ayrıca toyxana qurulmurdu. Avar toylarında oğlanlar istədikləri qızı, və ya qohumluqları çatan qadını rəqsə dəvət edə bilərdi, hətta başqa kənddən gəlmiş tanımadığı qızı da oynamağa çağıra bilərdi. Əsərlərində orta əsrlərdə azərbaycanlıların ailə məişətinin müxtəlif sahələrinin əks olunduğu Qətran Təbrizi Gəncə şəhərində toy mərasimini təsvir edərkən burada da toyda kişilərlə yanaşı qadınların da iştiak etdiyini yazırdı (55, 137) .

Avar toylarında xüsusi çeviklik tələb edən "Avarı", "Sarıbaş", "Gendədur", "ləzginka" kimi havalar oynanılardı. Bu rəqslərin özünəməxsusluğu ondan ibarət idi ki, rəqs edən zaman oynayanın bədəninin beldən yuxarısı tərpənməməli idi. Avar toylarında da hər oba öz pəhləvanını toya gətirirdi və güləş yarışları keçirilirdi. Qalibə toy sahibi hədiyyə verirdi.

XIX əsrin əvvəllərində avar toylarında yetişmiş arpa və buğdadan hazırlanan "kaha" adlanan sərxoşedici içkilər də hazırlanardı. Təxminən hər toyda pivəyə bənzər bu içkidən 20 pud içilirdi. Qeyd etmək lazıdır ki, hazırda bu

qədim içki növünə Sibir türklərində (çuvaşlarda bu içki növü "kama" adlanırdı, 164, 97), eyni zamanda Türkiyə türklərində (türklər bu içkini boza adlandırır.) də rast gəlinməkdədir.

Avarlarda gəlini aparmağa gələnlər əsasən bəyin atası, əmisi, dayısı, qardaşı və dostu olurdu. Adətə görə onlar gəlini aparmaq üçün qızın atasından 3 dəfə izin istəyirdilər. Avarlar, saxurlar və udilər arasında gəlinin belinin bağlanması adəti yayılmamışdı. Gəlin adətən günortadan sonra aparılırdı. Avarlar və saxurlar gəlini, adətən qırmızı atla aparırdılar. Qeyd etmək lazımdır ki, bu adət ingiloylarda da mövcud idi. Bu adət bir çox türk xalqları üçün, o cümlədən azəri türkləri üçün xarakterik olmuşdur. Məsələn, Örta Asiyada qazaxlar və özbəklər də gəlini qırmızı atla aparırdılar.

Bölgədə avar toylarında gəlin aparmağa gələndə maraqlı bir ayin icra olunardı. Qız evinin həyətində ata minmiş oğlanın atası bir şişə müəyyən qədər əti və çörəyi keçirirdi və sonra atdan düşürdü. Bundan sonra qız evindən də bir nəfər, adətən qızın əmisi də şişə ət və çörək keçirərək öğlan evundən gətirilən ata minərək qızı ər evinə müşayət edirdi. Bu ayinin mənasını məlumatçılarımız izah edə bilmədilər. Maraqlıdır ki, buna bənzər bir ayin qarapapaq türklərinində də toy mərasimlərində icra edilməkdədir. Qarapapaqlarda gəlinin başına bir şiş və çörək dolandırılır Qarapapaqlar buna gəlinin "ellen dirilməsi" deyirlər (227, 59). Görünür bu ayin şər qüvvələri uzaqlaşdırmaq üçün icra edilirdi.

Avarlarda gəlin aparılanda adətə görə oğlan adamları qız evindən bir şey oğurlamağa çalışardı və oğurlanan əşya geri qaytarılmırdı. Hətta qız tərəfi gəlini aparmağa gələnlərə qarşı bir nəfər nəzarətci ayırırdı. Azərbaycanın bir çox yerlərində yayılmış bu adət- qız evindən gizlicə bir əşya alıb götürmək uğurla bağlı qədim inancın izlərini



daşıyır. Oğlan tərəfi qız evindəki bərəkətin gizlicə oğlan evinə daşınması inancı ilə qız evindən bir şey oğurlayır. Bu adət Türkiyənin Ağrı, Bayburt, Kars kimi bölgələrində də yayğındır (228, 105). Bölgədə mövcud olan adətə görə qız anası oğlan tərəfinin evdən bir şey götürməsinə yol verməmək üçün gəlinin qoltuğuna çörək verirdi. Bu çörək "xeyirlik" adlanırdı. "Xeyirlik" verildikdə oğurluq etmək olmazdı. Bu adətə bir çox türkdilli xalqlarda rast gəlinir (227, 39).

Avarlarda gəlin gətiriləndə od, ocaqla bağlı bir maraqlı ayin də icra edilirdi. Gəlin yanar məşəllərlə bəy evinə gətirilər, bu məşəllər bəy evində ocağa atılırdı. Bu ayinin mahiyyəti ondan ibarət idi ki, gəlin təzə ailəsinə uyğunlaşır, qaynayıb qarışırdı. Gəlin bəy otağına girəndə ayağının altına çaxmaqlı dəmir silah atılırdı. Qədim inanclara görə metal pis ruhardan qoruyurdu.

Avarların adətinə görə gəlini oğlan həyətində yalnız qaynanası atdan düşürə bilərdi, əgər oğlanın anası yoxdursa, o zaman qaynata gəlini atdan düşürərdi. Bundan sonra gəlinin ər evində həyatının uğurlu və xoşbəxt olması arzusu ilə bir neçə ayin icra edilirdi; Gəlinin ayağı yerə dəyən kimi oğlan adamlarından bir nəfər bəd ruhları dağıtmaq üçün tüfəng atardı. Daha sonra gəlin bəy evinin həyətinə girdikdə qaynana bir kasa bal gətirib gəlinin dodaqlarına sürtərdi ki, dili şirin olsun. Gəlin evin qapısından içəri sağ ayağı ilə keçməli idi. Bölgədə çox yayqın olan bu ənənəyə bir çox türk xalqlarında da riayət edilirdi. Məsələn, Ahıska türklərində bu adət eynilə icra olunur. Yuxarıda da qeyd etdiyimiz kimi, Türkiyədə bu ənənəni əks etdirən "Bazarda bal var. gəlinim... " misraları ilə başlayan qədim türkü var.

**Toy libası.** Avar gəlinlərinin başına azərilərdə olduğu kimi qırmızı duvaq deyil, "tac" deyilən qabağından gümüş pullar asılan dəbilqəyə bənzər metal baş örtüyü qoyur-

dular (şəkil 5b). Tacın konusabənzər mərkəzi hissəsindən üstündə buta formalı bəzəklər sallanan üç sıra zəncir olurdu. Bütün bəzəklər və piləklərdə yaşıl və qırmızı şüşədən qaşlar olurdu. Zəncirlərin uclarından asılmış qarmaqlar təməniyə birləşirdi. Tacın mərkəzinə zəncirlərlə birləşdirilmiş metal bəzək taxılırdı, onun da üstünə kiçik boru kimi bir şey bərkidilərdi. Görünür, bura lələklər qoyulurdu (147, 149). Bəzən tacın mərkəzində ay-ulduz fiquru da olurdu. Avar gəlinləri üçün xarakterik olan bu baş örtüyü daha çox türkmən qadın baş geyiminə bənzəyirdi. Buna avarlar bəzən *"kekim"* və ya *"keken"* də deyidilər (69, 103). Tac əsasən Balakən və Zaqatala rayonlarında yayğın idi. Hazırda Zaqatalanın şəhər muzeyində belə "tac"-lar saxlanmaqdadır. Avar gəlinləri tacın üstündən ipək yaylıq salardılar. Belə ənənəvi gəlin baş geyimi Ahıska türkərində də mövcuddur (30, 396). Bölgə üçün xarakterik olan "düyməçə" baş geyimi avarlar arasında da yayğın idi və avarlar bunu "dumça" adlandırırdılar (şəkil 5a). Avar qadınları keçmişdə sinəbənd (şəkil 32, 33, 34, 35), gümüş bilərzik, qolbaq, *qabaqlıq* və cütqabaq (üzərinə qızıl və ya gümüş pullar tikilmiş alına bağlanan bəzək), *təsmə* və ya *əmbərcə* adlanan saç bağı vəs kimi müxtəlif bəzək əşyaları da taxardılar (şəkil 11).

XX əsrin 30-cu illərinə qədər bölgədə avarların qadın geyimi uzun, düz biçilmiş köynəkvari paltar-don (*avarca* – "küntə"), ensiz, düz və uzun şalvar (*avarca* – "xəbət"), önlük (*avarca* "qaraxuni") və arxalıqdan (enli üst geyimi) ibarət idi.

Bölgə üçün səciyyəvi olan gümüş kəmər və üzük, sırğa kimi digər gümüş bəzək əşyaları avar gəlin geyiminin də əsas elementlərindən idi. Avar gəlinləri üstünə üç cərgə gümüş pullar, ətəyinə isə xırda pullar-quruşlar tikilmiş dəri və ya gümüş kəmər taxardılar (şəkil 6). Yuxarı Cardaqlar kəndində yaşayan avarlar arasında belə kəmər və qa-



baqlıq XX əsrin 80-cı illərində də qeydə alınmışdı (193, 99).

**Üzə çıxdı mərasimləri.** Avarlarda toyun səhərisi günü "Yengə aşı" bişirilirdi və qızın yengəsi onu gərdəkdə olan bəylə gəlin üçün aparırdı. Elə həmin gün də gəlinin Azərbaycan toy adətləri üçün xarakterik olan "Üzə çıxdı" mərasimi olurdu. Avarlarda buna "Gəlin oynadı" da deyərdilər. Toyin səhərisi gəlin hamıdan tez yuxudan durar, ev-eşiyi səliqəyə salaraq, samovar qaynadardı, evinə gələn qonaqları qarşılamağa hazır olardı. Adətən həmin gün qız evindən yengə ilə bərabər yaxın qohumlar da xüsusi hədiyyələrə gəlini görməyə gələrdi. Bu mərasim musiqiçilərin müşayəti ilə olardı. Oğlanın ata-anası gəlini dəvət etməklə üzə çıxarardılar. Buna görə də mərasim "Gəlin oynadı" adlanardı. Adətə görə həmin gün gəlin qaynanasına və qaynatasına avarca "tosar" adlanan tavaya oxşar taxta qabda yun corablar təqdim edirdi.

Avarlarda "suya ayaq açdı" mərasimi zamanı oğlanın qohumları gəlini suya apararkən bir xurcun çörək, meyvə və b. hədiyyələr də götürür, yolda qarşılarına çıxan gənclərə verirdilər.

**Nikah.** Avarlarda da bölgəninin bütün müsəlman əhalisində olduğu kimi toydan əvvəl evlənənlərin şəriət üzrə kəbini kəsilirdi. Ramazan və boş ayda nikah kəsilməzdi. Keçmişdə bölgədə kəbini *"dibir"* adlanan molla kəsirdi. Avarlarda da nikah zamanı azərilərdə oduğu kimi mehr pulu müəyyən edilirdi. Avarlar bu pula "mehr" sözünün təhrif olunmuş forması olan *"mahar"* deyirdilər. Avarca kəbinin kəsilməsi *"maqari tle"* adlanırdı. Avarlarda, rutullarda bədnəzərdən qorunmaq üçün nikah mərasimi gizli keçirilərdi. Nikahın gizli keçirilməsi adəti qaraqalpaq türklərində də mövcud olmuşdur. İnama görə nikah bağlı qapı arxasında icra olunmalı idi ki, evlənənlərə cadu edə bilməsinlər. Hətta nikah mərasimi zamanı bəyin yaxın

qohumu damda əli tüfəngli gözətçilik edərdi ki, heç kəs cadu-piti etməsin (192, 218). Maraqlıdır ki, avarlar da caduya türklər kimi "buxxi"-"buhi" (*türk dilində – büyü*) deyirdilər. Göründüyü kimi, bu qədim türk sözünə Azərbaycan dili dialektlərində rast gəlinməsə də, avarlarda qorunub saxlanmışdır. Avarlar arasında yayılmış inama görə "buhi" adlanan bu ovsunlama ayini zamanı bədxah adamlar nikahda deyilən sözlər qədər yun sapa düyün vurmaqla və ya həmin sayda xəncəri qınından çıxarıb yerinə taxmaqla bəyi bağlaya bilərdilər (192, 220). Bundan başqa qıfıl bağlamaq, dəsmal ucu düyünlənməklə də təzə toyluların bəxtinin bağlanacağına inanırdılar.

**Qədim nikah qaydaları** XIX-XXəsrin əvvəllərində Şəki-Zaqatala bölgəsində yaşayan avarlarda da azərilərdə olduğu kimi qohum nikahlar əsas yer tuturdu. Xüsusilə də əmiuşaqları arasındakı nikahlar daha geniş yayılmışdı Qeyd etmək lazımdır ki, avar və saxurlarda endoqom nikahların bu formasının yayılmasında həm maddi, həm də bioloji faktor rol oynayırdı. Belə ki qardaşlardan birinin oğlu yoxdursa və ya ölmüşsə, o öz qızını qardaşı oğluna ərə verirdi ki, torpağı və varidatı başqa nəsilə keçməsin. Və yaxud qardaşlardan biri yoxsuldursa, ya da övladlarının da əksəriyyəti qızdırsa, digər qardaş kömək məqsədilə qardaşı qızlarından birini oğluna alardı.

Avarlarda keçmişdə qız qaçırma müxtəlif səbəblərlə əlaqədar olurdu. Məlum olduğu kimi qız qaçırmanın iki forması vardır: zorla qaçırma və könüllü qaçırma. Şəki-Zaqatala bölgəsində zorla qız qaçırma halları olsa da yerli əhali bunu çox pis qarşılayırdı. Zaqatala rayonunun Muxax kəndində məlumatçımızın dediyinə görə "höcət" üstündə, yəni qisas almaq üçün qız qaçırılırdı. Əgər qız qaçıranın ailəsi ilə qızın ata-anası barışmaq istəməsəydi onda qız qaçıran avarca "tsaxis" adlanan cərimə verməli idi. Bu cərimə cavan, sağlam mal-qara ola bilərdi. Maraqlı



budur ki, Muxax kəndində (Zaqatala rayonu) oğlan evindən alınan cərimə kənd camaatına (tuxumun üzvlərinə) çatırdı. Bundan başqa, keçmişdə qız qaçırandan kəndxudanın xeyrinə də müəyyən sayda qoyun alınırdı. Nəhayət, əgər oğlan qız evi ilə barışa bilməsə idi qızın mənsub olduğu tuxumun kişiləri qız qaçırmış oğlanın yaşadığı evin bir küncünü dağıdırdılar. Məlumatçılarımız danışırlar ki, belə halda qız qaçırmış adam məcbur olurdu ki, kənddən çıxıb getsin.

Qaçırılmış qızın ata-anası ilə barışıq bəzən ağsaqqalların işə qarışması nəticəsində mümkün olurdu. Əks halda, qız qaçıran, qeyd etdiyimiz kimi, kənddən çıxıb getməli idi. Çox hallarda qızı götürüb qaçan oğlan kənddən köçməyə məcbur olurdu, çünki qızın məxsus olduğu tuxumun cavanları ilə düşmənçilik yaranırdı və hətta qan intiqamına səbəb olurdu. Qeyd edilməlidir ki, bu adət keçmişdə bölgədə yaşayan avarlarda daha çox yaılmışdı. Zaqatala rayonunun Car kəndində verilən məlumata görə, bəzən ata qaçırılmış qızı ilə barışmaq istəmədiyi təqdirdə kəndin ağsaqqallarını evə toplayaraq onların hüzurunda qızını "qızlıqdan çıxardığını" elan edirdi. "Qızlıqdan çıxarılmış" qızla heç vaxt ata-anası barışmır və ölənə qədər ata evinə gəlməyə razılıq vermirdilər. Belə qızı atası və qardaşları xeyir və şər işlərinə də dəvət etmirdilər. Əgər öldükdən sonra atadan var-dövlət qalsa, həmin qıza pay çatmırdı, doğrudur bu pay ayrılırdı, amma camaata (icmaya, yəni tuxuma) verilirdi. Çünki qız toxum üzvlüyündən də çıxarılırdı. Qız könüllü olaraq oğlana qoşulub qaçmışsa, onda tuxumun adamları onu həmin tuxumun üzvlüyündən çıxarsalar da kənddə qalmağına izin verirdilər. Əgər qızın razılığı olmadan qız qaçırılmışdırsa, onda oğlan çox halda kənddən də çıxmağa məcbur olurdu.

**Qarışıq milli nikahlar.** Avarlarla azərilər arasında qarışıq nikahlar əsasən Zaqatala və Balakən şəhərlərində və

azərilərlə avarların qarışıq yaşadıqları kəndlərdə geniş yayılmışdır.

### Saxur və rutullarda evlilik mərasimləri

**Qız bəyənmə.** Yaz bayramı ərəfəsində saxur və rutullarda da hər nəsil öz məhəlləsində bir yerə yığışar, baharın gəlişi münasibətilə müxtəlif mərasim ayinləri icra edərdilər. Bu zaman gənclər qız bəyənmək, ürəklərini aça bilmək üçün fürsət tapar, yellənçək qurub əylənər, dəf çalıb mahnı oxuyar, birlikdə rəqs edərdilər. Kəndirdən düzəldilən yelləncəklərə müxtəlif parçalar bağlanardı. Rutullar bunu "şadvalid yaylıqları" adlandırırdılar. Yellənən qızlar növbə ilə "Pərizadə" mahnıları oxuyardılar. Onların yanına bəzən oğlanlar da gələr, gənclər mahnı şəklində deyişərdilər. Ümumiyyətlə, bahar bayramında yelləncəkdə yellənmək ənənəsi bir çox türk xalqları üçün, o cümlədən Orta Asiya xalqları üçün də xarakterik idi. Bəzən yelləncək mərasimində təkcə gənclər deyil, yaşlı-cavan hər kəs iştirak edirdi. Belə ki, inama görə yelləncəkdə yellənənin günahları yel kimi sovulub dağılardı (113, 32). Keçmişdə rutullar belə bahar mərasimində xalqın yığışdığı yerə alma, qoz, rəngli yumurtalarla bəzədilmiş şax da gətirərdilər. Gənclər bu şaxdakı bəzəklərdən götürməyə çan atırdılar. Görünür, bu gənclərin öz qismətlərinə tezliklə qovuşması arzusunu ifadə edirdi.

**Elçilik.** Zaqatala rayonunun Muxax kəndində topladığımız etnoqrafik çöl materiallarına görə saxurlarda da elçilər qız evi ilə razılığa gəlirlərsə, oğlan evindən olan ağsaqqalla qız evinin ağsaqqalı bir çörəyi süfrədən götürüb iki yerə bölürlər. Çörəyin bir hissəsi qız evində qalır, digər hissəsini isə oğlan evi özü ilə götürür və ailəsi ilə birgə yeyirdi. Saxurca "*Qıney xavaykar xiolanda*" adlanan bu



mərasim azərbaycan dilinə "*çörəkkəsmə*" kimi tərcümə olunur. Azərbaycanın daha çox Şəki-Zaqatala bölgəsində yayğın olan bu qədim türkmənşəli mərasim Orta Asiya və Qazaxıstan xalqları arasında da mövcuddur (170, 325).

**Nişan.** Saxurlarda üzük taxma mərasimini oğlan tərəfindən bir nəfər boşanmamış, uşaqları ölməmiş, yəni xoşbəxt ailə həyatı sürmüş bir qadın icra edirdi. El arasında belə bir bir inam var idi ki, əgər gəlinin üzüyünü belə bir qadın taxarsa gələcəkdə gəlinin də həmin qadın kimi xoşbəxt ailəsi olacaq. Qeyd etmək lazımdır ki. azərilər arasında da belə qadın toy adətlərində mühüm ter tuturdu və "*başıbütöv*" adlanırdı.

Saxurlarda qız üçün nişan aparılan gün "*Hənaybi*", nişan üzüyü isə "*tuçva*" adlanırdı. Bu nişan üzüyü keçmişdə əsasən gümüşdən olurdu və xüsusi sifarişlə yerli zərgərlərə düzəltdirilən bu üzüyün üstündə adətən ərəb əlifbası ilə "nikah" sözü yazdırılırdı. "Hənaybi" mərasimində kişilər iştirak etmirdilər. Saxurlarda paltarbicdi mərasimi elə nişan günü keçirilərdi. Gəlin paltarını da "*başıbütün*" qadın biçərdi. Həmin gün toyun vaxtı da müəyyənləşərdi.

**Nişanlılıq müddətində mərasimlər.** Zaqatala rayonunun Yeni Suvagil kəndində nişandan sonra "*istək gecəsi*" mərasimi də keçirilərdi (194, 106). Müəyyən olunmuş bir gündə bəyin qohumları qız evinə hədiyyələrlə "gəlini görməyə" gələrdilər. Gətirilən hədiyyələr qızın çehizinə əlavə edilərdi. Saxurlarda keçmişdə qıza cehiz kimi ev üçün avadanlıq, yorğan-döşək, mal-qara verməklə bərabər, zəngin ailələr bəzən torpaq da verərdilər. Cehiz sandığında oğlanın qohumlarına hədiyyə edilmək üçün toxunma corablar, dəsmal və köynəklər də qoyulardı.

Saxurlarda toya bir gün qalmış qız evinə toyda istifadə edilməsi üçün ərzaq – "pay" göndərir. Suvagil kəndində adətə görə qız evinə "pay" göndərilən zaman oğlanın qohumlarından biri qoyunu çiynində aparır. Qoyun götürən

şəxsə qızın qohumları toxunma corab, dəsmal kimi hədiyyə verərdilər.

Bir çox türk xalqlarında olduğu kimi, rutulların da qədim adətinə görə oğlan evindən başlıq haqqı alınırdı. Lakin saxurlar başlıqdan əlavə qız evinə "dayılıq" (dayı üçün qoyun aparılardı), və "analıq" (gəlinin anası üçün isə bir dəst paltarlıq aparılardı.) adlanan haqq da verməli idi (192, 180).

Avarlar və saxurlar arasında da Qurban bayramı münasibətilə nişanlı qıza qoyun aparılması adəti icra edilsə də, qurbanlıq qoyuna xna qoyulması adəti o qədər də yayılmamışdı. Təbii ki, dini mənsubiyyətlə əlaqədar olaraq xristian ingiloy və udilərdə bu adət olmamışdır.

**Toya dəvət.** Saxurların toy mərasimlərində əvvəlcədən seçilmiş iki yengə qadın həm də "çağırışçı" rolunu icra edirdilər. Qız toyunda "çağırışçı"lardan biri qızın anasının qohumu, digəri isə qızın atasının qohumlarından seçilirdi. Oğlan toyunda isə yalnız ata tərəfdən seçilən qohum toyda çağırışçı olurdu. Keçmişdə bu şağırışçı at belində gəzərək oğlan evində toyun başlanmasını bütün kəndə xəbər verərdi.

Keçmişdə rutulların özünəməxsus toya dəvət forması qeydə alınmışdır. Rutullar toya dəvət edərkən "*qaşığınızla gəlin*" deyərdilər (192). Görünür, bu həm də yeməyə dəvət forması idi.

**Toy.** Toy oğlan evində başlayardı. Toyun ikinci günü günortadan sonra bəyin qohumları qız evinə gedərdi. Yaşlı məlumatçılarımızın söylədiklərimizə görə "Xnayaxma" adəti və "Xna toyu" keçmişdə avarlar və saxurlar arasında geniş yayılmamışdı.

Saxurlarda toylar adətən iki gün davam edirdi. Toyun birinci günü "Hənaybı", İkinci günü isə "Davatdı" adlanırdı. Azərilərdə olduğu kimi avarlarda və saxurlarda da sağdış və soldış olurdi. Lakin onlarda sağdış-soldış "bal-



boğan" adlanırdı. Avar və saxur toylarında aşıq və xanəndə olmurdu. Toyu əsasən "surnay" adlandırdıqları zurna ilə edir və bəzən də təmbur çalardılar (şəkil 26, 27). Məlumdur ki, uyqurlar, özbəklər, qırğızlar, türkmənlər kimi bir çox türkmənşəli xalqlar da qədim musiqi alətimiz olan zurnanı avar və ingiloylar kimi "surnay" şəklində tələffüz edirlər (170, 719–727). Kitabi-Dədə-Qorqud dastanında da bu alətin adı "surna" formasında çəkilir (48, 64). Bölgədə məlumatçılarımızın söylədiklərinə görə "surnay" qara rəngli heyvan buynuzundan düzəldilirdi. Maraqlıdır ki, Mingəçevirdə arxeoloji qazıntılar zamanı maral buynuzundan zurnaya oxşar qədim musiqi aləti tapılmışdır. Tarix boyu "surnay", "surna", "saznay" şəklində ifadə olunan zurna türkmənşəli tayfalara məxsus qədim musiqi aləti olmuşdur. Ümumiyyətlə, Azərbaycanda hər zaman toy məclislərində zurna xüsusi yer tutmuşdur. Hələ XIII əsrə aid Azərbaycan dilində yazılmış "Dastani Əhməd Harami" poemasında da toylarda "saznay", "təmbur" və b. musiqi alətlərinin çalındığı yazılırdı (8, 137).

Yaşlı məlumatçıların təsvir etdiklərinə görə təmbur bölgədə xüsusilə də avarlar arasında geniş yayılmış musiqi aləti idi (şəkil 8). Qeyd etmək lazımdır ki, tənbur türkmənşəli xalqlar üçün xarakterik olan bir musiqi alətidir. Cənubi Azərbaycan ərazisində, əsasən Təbriz yaxınlığındakı İlxıçı şəhərində məskun olan Qaraqoyunlu türklərində hazırda toylarda və digər əyləncələrdə tar, qavalla bərabər tambur da çalınır (226, 104). Bu qədim musiqi aləti saza oxşayırdı və at tükündən iki simi olurdu. Tambur çalan həm də xanəndə kimi oxuyardı. Bölgədə avar toylarında təmburla oxunan mahnılar, əsasən, avarca oxunsa da, azərbaycanca da bayatılar deyilirdi.

Keçmişdə saxur toylarında qadın və kişilər üçün ayrıca toyxana qurulmurdu. XIX əsrin əvvəllərində saxur toyla-

rında da "kaha" içkisindən istifadə edilərdi.

Bəzi saxur kəndlərində, məsələn, Yeni Suvagildə toy günü özünəməxsus bir adət də icra edilməkdə idi; Toy günü səhər-səhər bəyin bacısı bəyi və onun yancıların, dostlarını şənlik və rəqslərlə müşayət olunan səhər yeməyinə dəvət edirdi (193, 109).

Saxurlarda da toy günü bəy dayısının evində otururdu. Toyun axırıncı günü "Bəydurma" mərasimini icra etmək üçün bəyi çalğı ilə dayısı evindən toyxanaya gətirirdilər. Bu adət saxurlarda "bəy oturdu" adlanırdı. Bəy üçün toyxananın yuxarı başında süfrə açılırdı. Bəy toyxanaya girməzdən əvvəl onun üçün ayrılmış süfrədə bir nəfər kişi oturur, yalnız sağdış ona nəmər (saxurca "*nək*") verdikdən sonra kişi durub yerini bəyə verirdi. Görünür bu adət bəyin artıq evlənərək cəmiyyətdə yeni bir status qazanmasını ifadə edən bir ayin idi. Bəyi oturdandan sonra kişilər cərgə ilə bəyə pul verirdilər. Bu zaman bir nəfər əlində "it ağacı" adlanan ağacla bəyi qoruyurdı. Bu mərasim saxurlarda "Xuan-tata" (İt ağacı) adlanırdı.

**Toy havaları.** Saxur toylarında əsasən "Avarı", "Sarıbaş", "Gendədur", "ləzginka" havaları oynanılırdı. Ləzgi, rutul toylarında da gəlini bəy evinə "Pərizadə", "Zarı-Zarı" kimi xüsusi mahnılarla yola salırdılar.

Saxur toylarında keçmişdə hər oba öz pəhləvanını toya gətirirdi və güləş yarışları keçirilirdi. Azərbaycan toyları üçün xarakterik olan cıdır yarışları Şəki-Zaqatala bölgəsində yaşayan saxurların da toylarında XX əsrin ortalarına kimi icra edilməkdə idi. Belə yarışlarda bəyin 15 yaşından 40 yaşına kimi olan dostları və qohumları iştirak edirdi. Adətən yarışanlar bəy evindən gəlin evinə və geriyə çapardılar. Qalibə dəsmal, şrniyyat kimi hədiyyələr verərdilər. Bəzən isə gəlini cıdırda qalib gələnin atı ilə gətirirdilər.

Saxurların toy mərasimlərində keçirilən özünəməxsus



idman oyunlarından birində meydanda bir nəfər yerə uzanırdı. Kim onu əlləri üstündə üfüqi vəziyyətdə yerindən tərpədib qaldıra bilsə idi, o qalib sayılırdı. Qalibə bir xoruz bağışlanırdı və xonça verilirdi. Saxur toylarında "Daş atma", "Gərdən vurma" yarışları da keçirilirdi. "Gərdən vurma" yarışı zamanı oğlan tərəfinin adamları sini tutur, qız tərəfindən isə 10–15 nəfər subay oğlan bu siniyə xəncər vuraraq onu bir balaca çərtirdilər.

XIX–XX əsrlərdə rutul gəncləri arasında daha çox "Tataldüyün", "Turai", "Turna-turna", "Şah oyunu" kimi oyunlar icra edilərdi. "Tataldüyün" oyunu zamanı gənclər iki dəstəyə ayrılaraq bir ağacı hərə öz tərəfinə çəkməyə çalışardı. "Turai" isə daha çox əyləncə xarakterli, zarafatyana bir oyun idi. Bu oyun zamanı iki gənc gözübağlı şəkildə bir-birinin qarşısında otururdu və bir-birini yaş dəsmalla vurmağa çalışırdı. Rutul gənclərinin icra etdiyi maraqlı oyunlardan biri də "Ovçu oyunu" idi. Bu oyun "ovçu" və "dağ keçisi" rolunu oynayan iki gəncin mübarizəsindən ibarət idi. Bu oyun açıq havada-özünəməxsus bir "teatr səhnəsində" icra edilərdi. Bu tamaşada kəndi əhatə edən dağlar təbii dekorasiya rolunu əvəz edirdi (113,120).

**Gəlin aparılması.** Şəki-Zaqatala rayonunun əsasən rutulların yaşadığı Şin kəndində oğlan adamları qız evinə yaxınlaşdıqda gəlinin qohumlarından biri uzun bir ağacın başına soğan keçirirdi. Gəlini aparmağa gələnlərdən biri onu nişan alıb vurmalı idi. Bundan sonra oğlan adamları qapı tutanlara bölgədə "*baxrı*" deyilən nəmər verərək içəri keçirdilər. Keçmişdə saxur toylarında "*Ketur*" adlanan maraqlı bir ayin də icra edilirdi. Bu ayini icra etmək üçün gəlin atını oğlan evinin darvazasının ağzında saxlayırdılar. Oğlan evindən cavan bir kişi əlində halva, ət, və şirniyyat olan qabla gəlinin karvanının qabağına çıxırdı. Bu zaman gəlini müşayət edən "cilovdar" belindən xəncəri sıyırıb onunla üz-üzə durur, daha sonra qabdakı əti

(Adətən qabdakı ətin miqdarı təqribən 3 kq-a qədər olurdu.) xəncərə keçirərək həyətə girirdi və sonra birlikdə rəqs edirdilər. Gəlini evdən dayısı və ya qardaşı yola salırdıl. Qızı evdən çıxartmazdan əvvəl dayısı onu evin ətrafına dolandırırdı. Bu zaman gəlinin həm də yengəsi olan xalası onun üzünə güzgü tuturdu. Gəlini evdən xalası cıxarır və ata mindirirdi. Gəlinlə ata bir qız da minirdi. Buna saxurlar "tərkintək", (yəni atın tərkinə minmək) deyirdilər. Dayı və ya qardaş müəyyən yerə qədər gəlin atının cilovunu tutur, sonra cilovdara təhvil verirdi. Gəlin aparılarkən oğlanın atası əlində silah gəlin karvanının önündə gedirdi. Avarların adətinə görə gəlini ər evinə 7 nəfər kişi müşayət edirdi. Gəlini müşayət edənlərin arasında iki nəfər "surnayçı" da olurdu. Bunlardan başqa gəlinlə güzgütutan qadın, gəlin sandığının üstündə oturan oğlan uşağı, atanın qızına bağışladığı ev heyvanını aparan adam ("boyun vuran" adlanırdı), gəlinin mindiyi atın cilovunu tutub aparan və ya gəlin arabasını sürən "cilovdar və "toyuq verən" də bəy evinə yola düşürdü.

Adətə görə "toyuq verən" adlanan adam gəlini oğlan evinə çatdırandan sonra gəlini müşayət edən 7 kişinin hərəsinə bir diri toyuq veriridi. Gəlinin ər evinə diri toyuqla gətirilməsi adəti hazırda Türkiyənin Anadolu bölgəsində icra edilməkdədir. Türkiyənin Giresun bölgəsində yaşayan türklərin də toy-düyünlərində bir gənc gəlinin qarşısına geçər, elində tutmaqda olduğu yumurtlayan toyuğu oynadaraq oynayar. Ayrıca qız evi gəlinlə birıikdə onun yeni evinə yumurtlayan bir toyuq hədiyyə edər. Bununla da, gəlinin gələcəkdə çoxuşaqlı bir ana olacağına inanılır. İnanca görə toyuq, yumurta dölün, zürriyətin rəmzidir (226,108.)

Gəlin karvanı bəy evinə yola düşən zaman atlılardan biri çaparaq öndən gedir və bəyi gəlin karvanın yaxınlaşması xəbəri ilə muştuluqlayırdı. Saxurlarda da gəlin



karvanın önünü gənclər kəsər və nəmər kimi iki-üç xoruz istərdilər.

Adətə görə gəlin oğlan evinə özü ilə bir çörək də aparır və onu qaynanasına verirdi. Bu o demək idi ki, gəlin evinə "ayağı çörəkli" gəlir. Gəlin oğlan evində atdan düşən kimi qaynana onun başına şirniyyat səpərək evə aparardı. Evə girdikdə isə qaynana onu evin döşəməsinə qoyulmuş çırağın ətrafına üç dəfə dolandırardı (31).

Saxurlarda da gəlini azərilərdə olduğu kimi iki yengə və cilovdar müşayət edirdi. Saxurlar yengəni *"ləngə"* adlandırırdılar. Saxurların adətinə görə gəlin karvanını bəyin adamları boğazı kəndirli bir dana ilə qarşılardılar. Dananın qulağı çərtilməyincə gəlin adamları içəri girməzdilər. Adətə görə, bundan sonra qulağı çərtilmiş dana gəlinin şəxsi mülkiyyəti olurdu. Oğlan evinin həyətində gəlinin atdan enməyinə kömək edən gənc cəld gəlin atına minər və nəmər alıncaya qədər atı qovmağa başlardı. Evin qapısında gəlini oğlanın anası və baçısı qarşılardı. Gələn qonaqlar yeməyə dəvət olunardı. Süfrə arxasında ailənin ağsaqqalı çörək kəsdikdən sonra yemək mərasimi başlanardı (194, 99).

**Toy libası.** Saxur gəlinləri də avarlarda olduğdu kimi başlarına "tac" deyilən qabağından gümüş pullar asılan dəbilqəyə bənzər metal baş örtüyü qoyur, onun üstündən isə gəlinin üzünə duvaq kimi ağ, ətəyi haşiyəli ipək kələğayı atırdılar. Ənənəyə görə gəlinin başına bölgədə "qülbəndi" və ya "irat" adlanan əlvan kələğayılardan çalma da bağlayardılar. Bölgə üçün xarakterik olan "düyməçə" saxurlar arasında da yayqın idi və *"dümçə"* kimi ifadə edilirdi. Dümçə dördkünc parça və onun ortasına tikilmiş üçkünc hissədən ibarət idi. Dümçənin üçkünc arxa hissəsi xüsusi bağlarla ön hissəyə birləşdirilirdi. Dümçənin ön hissəsi gümüş zəncir və qotazlarla bəzədilərdi (şəkil 5a). Dümçə başa geyildikdən sonra gülbəndi çalma formasın-

da bağlanardı. Keçmişdə Zaqatala bölgəsində çalma özünəməxsus formada bağlanardı; Gülbəndinin ucları çənənin altından üzüyuxarı qaldırılaraq boyunun ardına atılırdı. Onun üstündən isə alını tutan burulmuş kiçik yaylıq bağlayırdılar (69, 98). Ərə getmiş qadınlar da toy məclisinə gedərkən "dümçə"nin üstündən uzunluğu 2, 5 m olan kələğayını dioqanal formada qatlayaraq başlarına atır, uclarını isə çalma formasında başlarına dolayırdılar. Bu cür çalma bağlamaq ərdə olan gəlinlər üçün xarakterik idi (69, 99).

XX əsrin 30-cu illərinə qədər bölgədə saxurların ənənəvi qadın geyimi avarlarda olduğu kimi düz biçilmiş uzun, köynəkvari paltar-don, ensiz şalvar, önlük və arxalıqdan ibarət idi. Lakin avarladan fərqli olaraq saxurlar üst köynəyini "*qurt*", şalvarı "*vaxçək*" və ya "*bada*", önlüyü "*yelək*", adlandırırdılar (69, 99). Saxurlar da gəlin bəzəklərində gümüş kəmər, sinəbənd, gümüş bilərzik, qabaqlıq* (üzərinə qızıl və ya gümüş pullar tikilmiş və alına bağlanan bəzək), təsmə və ya əmbərcə adlanan saç bağı vəs kimi müxtəlif bəzək əşyalarına üstünlük verərdilər. Üstünə üç cərgə gümüş pullar, ətəyinə isə xırda pullar-quruşlar tikilmiş dəri kəmərlər də saxur qadınları üçün xarakterik idi. Bölgədə buna "*pullu kəmər*" deyirdilər.

Saxurlarda gəlin paltarına bədnəzərə qarşı dağdağan ağacından muncuq tikərdilər. Gəlin güzgüsünün ətrafına isə iki ədəd sədəf düymə tikilərdi. Maraqlıdır ki, qırğızlarda və kalmıklarda dərd-bəladan qorunmaq üçün yanlarında yeddi sədəf düymə qoyulmuş torbacıq gəzdirmək adəti olmuşdur (79, 141).

Saxur toylarında gəlin aparılan atın alnından "haykal" adlanan üçbucaq formalı qırmızı rəngli çitdən tikilmiş əşya talisman asardılar. "Haykal"ın icərisində mollada yazdırılmış üçbucaq formalı dua (saxurca "sabab"), kiçik güzgü, mixək olardı, ətəklərinə isə 12 ədəd muncuq



tikilərdi. Burada da qədim inanclar siteminin qalıqları, xüsusilə də günəş kultunun (güzgü – ayna)[1], təbiət və bitki kultunun (mixək) və məhəbbət ilahəsi İştarın (üçbucaq formalı dua) simvolları özünü biruzə verməkdədir. Ümumiyyətlə, bölgənin ailə mərasimlərində mixək bitkisindən tez-tez istifadə edilməsi (nişanlı qızların üstlərinə içinə mixək qoyulmuş şantalar (qotazlar) asması, ölünü üstünə mixək səpilməsi) bitki-ağac kultunun qalıqları idi.

**Üzə çıxdı.** Saxurlarda toyun səhərisi günü zurnaçıların iştirakı ilə məclis qurulurdu. Gəlin tərəfindən də qızlar bu şənliyə dəvət olunardılar. Onlar özləri ilə aş bişirib gətirərdilər. Yeni Suvagil kəndində gəlinin üzə çıxma mərasimi "*xonçaulxa savı*", yəni xonçaya dəvət etmə adlanırdı (194). Toyun səhərisi gəlin üçün bəy evində, bəy üçün isə qohumlardan birinin evində üzə çıxma mərasimi təşkil edilirdi. Həm bəyin, həm də gəlinin qarşısına içi şirniyyat dolu xonça qoyardılar. Gəlinlə bəyin yaxın qohumları bu xonçalardan bir şirni götürərək əvəzində isə öz hədiyyələrini xonçaya qoyardılar. Saxurların və azərilərin yaşadığı Muxax kəndində isə "üzə çıxdı" mərasimi üç gündən sonra icra edilirdi.

Gəlin gətirildikdən 3 gün sonra "Suya ayaq açdı" mərasimi keçirilərdi. Keçmişdə bu mərasim zamanı gəlin baldızı və digər qızlarla birlikdə üzü duvaqlı, çiynində güyüm, qavalla calıb oxuya-oxuya bulağa aparılardı. Bulaqdan qayıdarkən qabaqlarına çıxan hər kəsə su paylaya-paylaya evə gələrdilər. Beləliklə, də gəlin "su cığırı" ilə tanış olurdu. Bu adət XX əsrin ortalarına kimi Köhnə Suvagil kəndində qorunub saxlanmaqda idi. Qum kəndində yaşayan saxurlarda toydan 10–15 gün sonra "yengə plovu" adəti icra edilirdi.

Göründüyü kimi, XIX–XX əsrlərdə saxurların toy mə-

---

[1] *Ayna göy ilə bağlı inanclarda günün və ayın simvolu idi (229, 204).*

rasim ənənələrinin, gənclərin toy ərəfəsində ayrı evə çıxması, "istək gecəsi", toy günü bəyin bacısının "səhər yeməyi" verməsi kimi bir sıra özünəməxsus xüsusiyyətləri olsa da, bu mərasimlərdə bölgə üçün səciyyəvi olan ümumi cəhətlər daha çox idi.

**Nikah qaydaları.** Saxurlarda da nikah zamanı azərilərdə oduğu kimi mehr pulu müəyyən edilirdi. Azərilərdə olduğu kimi qohum nikahlar əsas yer tuturdu, xüsusilə də əmiuşaqları arasındakı nikahlara daha çox üstünlük verilirdi. Qax rayonunun İlisu kəndində saxurlardan topladığımız məlumata görə XIX əsrdə bölgədə yaşayan avarlar, saxurlar arasında əmioğlu ilə əmiqızı arasındakı nigahlar hər zaman təqdir olunurdu. Bu nikah formasına avar dilində "riqin" (yəni qohumdan evlənmə) deyilirdi. Saxurlarda isə əmioğlu ilə əmiqızı birinə "xıdı" deyirdilər. "Xıdı"larm evlənməsi hər zaman rəğbətlə qarşılanırdı. Lakin bu zaman adətə görə nəslin ağsaqqalarının razılığının alınması şərt idi. Maraqlıdır ki "xıdı" qədim türk sözüdür və taxma ad, ləqəb mənasında da işlənir (115, 37). Məlumdur ki, qədim patriarxal ənənələrə görə əmiuşaqları doğulandan bir-birilə nişanlı, yəni ad edilmiş sayılırdılar. Bu qədim ənənənin saxurlarda qədim türk dilində qorunması faktı yuxarıda saxurlarm etnik mənşəyi ilə bağlı söylədiyimiz ehtimalları daha da gücləndirir.

Saxurlar arasında qohum nikahlar ənənəsi XXəsrin əvvələrinədək davam etməkdə idi. XX əsrin əvvələrinədək hətta bölgənin digər müsəlman əhalisi ilə tək-tük halda nikaha yol verirdiər. Belə ki, Muxax kəndində kənd əhalisinin "muğal" adlandırdığı azərilərlə saxurların qarışıq yaşamasına baxmayaraq kənd əhalisinin söylədiyi kimi "kəndin bu başından o başına qız vermirdilər" (194, 112). Lakin hazırda bu məhdudiyyətlər aradan qalxmışdır və saxurların bölgənin digər müsəlman əhalisi ilə nikahları artmışdır.



Bölgədə yaşayan rutullar arasında da XIX–XX əsrləri əvvələrində qohum nikahlara – yəni əmiuşağı, xalauşağı, bibi və dayı uşaqları arasındakı nikahlara çox yol verilirdi. Lakin maraqlıdır ki, avar və saxurlarda qohum nikahın əsasən ata xətti ilə olan qohumlar, yəni əmioğlu ilə əmiqızı arasında nikah forması yayıldığı halda, rutullar arasında daha çox ana xətti ilə olan qohumlar arasındakı nikahlara, yəni xalauşaqları arasında evliliklərə daha çox üstünlük verirdilər. Bunu anaxaqanlıq dövrünün ənənlərinin qalıqları kimi qiymətləndirmək olar. Lakin rutullar bunu başqa cür izah edirlər: xalauşaqlarının evləndiyi zaman qız və oğlanın ataları ayrı-ayrı tuxumlara mənsub olduqları üçün belə evliliyi qan qohumluğu hesab etmirdilər. Bundan belə nəticəyə gəlmək olur ki, rutullar qan qohumluğuna əsaslanan nikaha deyil, daha çox ekzoqam nikahlara, yəni kənar nəsildən evlənməyə üstünlük verirdilər. Göründüyü kimi, XIX əsr – XX əsrin əvvəllərində avar, saxur, rutullarda endoqom nikahın yalnız bəzi formalarına yol yerilsə də, əksər hallarda ekzoqam nikahlar təqdir olunurdu.

**Qədim nikah adətləri**. XIX–XX əsrlərdə beşikkərtmə nikah qaydası avarlar, ləzgilər, rutullar arasında mövcud idi. Rutullar bu adəti "beşikkırtme" kimi ifadə edirdilər. Bölgədə toplanmış etnoqrafik materiallarda keçmişdə göbəkkəsmə nikah adətinin icrası zamanı yeni doğulan körpələrin göbəyinin kəsilməsi zamanı molla dua oxuyur və sonra körpələrin bir-birinə ad edildiyini (adaxlandığını) elan edirdi və ya yeni doğulan qız uşağının göbəyini kəsən qadın "köbəyini " filankəsin oğlunun adına kəsirəm" deyərdi.

Avarlarla azərbaycanlılar arasında milli qarışıq nikah tendensiyasını eynilə bölgədə yaşayan saxurlara və rutullara da aid etmək olar. Lakin çöl materiallarımız göstərir ki, bu tendensiya saxurlarda daha da güclüdür. Çünki, saxurlar içərisində azərbaycanlılarla konsolidasiya pro-

sesi daha genişdir. Elə saxur ailələri vardır ki, hələ XIX əsrin sonlarından artıq ailədə Azərbaycan dili əsas ünsiyyət vasitəsi idi.

## Ləzgilərdə toy mərasimləri

Yuxarıda qeyd olunduğu kimi, ləzgilər Şəki-Zaqatala bölgəsində az sayda yalnız Qəbələ rayonunda və Zaqatala şəhərində məskundurlar. Onların da toy mərasimləri bütün azərbaycanlılarda olduğu kimi çoxmərhələlidir. Qeyd etmək lazımdır ki, ləzgilərin toy mərasimilərini ifadə edən sözlərin əksəriyyəti azərbaycan dilindədir. Ləzgilərdə də elçi "ilçiyar", elçilərə şirin çay təklif edilməsi mərasimi "şirin çay", elçilərin razılığa gəlməsi "meçi yarıı" adlanırdı (92, 54–61). Keçmişdə bölgə üçün xarakterik olan "xatircəmlik" adlanan elçilərin şirin çay içdikdən sonra süfrənin qırağına gümüş pul qoyması adəti ləzgilərdə də olmuşdur. Bu onu göstərir ki, digər etnoslar kimi ləzgilər də çoxəsrlik qarşılıqlı münasibətlər nəticəsində Azərbaycan türklərindən bir sıra adətləri mənimsəmişlər. Ləzgilər daha çox Quba-Xaçmaz bölgəsində kompakt halda yaşadıqları üçün bu bölümdə onların ailə mərasimlərinin yalnız səciyyəvi ünsürlərini nəzərdən keçirəcəyik.

Ləzgilərdə elçilikdən sonra qıza **nişan** aparılması "*nişan ktun*" adlanırdı. Toy ərəfəsində oğlan evinin qız evinə başlıq pulunun ödənilməsi adəti də mövcud idi. Bu ləzgicə "*niged pul*", yəni "yol pulu adlanırdı. Ümumiyyətlə bölgə üçün başlıq pulunun "yol pulu" adlanması səciyyəvidir. Kərküklərdə də qız üçün başlıq kimi ödənən pul "Yol pulu" adlanırdı (72).

Keçmişdə bölgədə yaşayan ləzgilərdə toy ərəfəsində oğlan evinə maddi yardımla bağlı bir "*Payar*" adlı ənənə mövcud olmuşdur. Bütün kənd camaatı və toxumun üzvləri toy edənin ailə qurmasına və təsərrüfat yaratmasına yardımçı olmaq üçün oğlanın ailəsinə "payar" (pay) gətirərdi. Belə qarşılıqlı yardım forması daha fərqli şəkillərdə həm azərilərdə, həm də avar, saxur, rutul, udi, ingiloy kimi etnik qruplarda da olmuşdur.



Ləzgilərdə toya musiqiçilər-zurnaçı dəstələri oğlan evi tərəfindən dəvət edilər, toyun müəyyən mərhələsində onlar həm qız, həm də oğlan evində çalıb-çağırardılar. Bölgə üçün xarakterik olan gəlin karvanın qarşısının kəsilməsi adəti ləzgilərdə də var idi və "*rek atun*" adlanırdı. Azərilərdə sağdış-soldış, avar, saxurlarda "yançı", "balboğan" adlanan bəyin köməkçiləri ləzgilərdə "naib" adlanırdı.

Ləzgilərdə də gəlin oğlan evinə daxil olarkən müxtəlif ayinlər icra edərdi: Evin girəcəyində qoyulmuş yağ qabını sağ ayağı ilə sındırıb kecirdi. Bu ayin də qədim inanclar sistemində özünəməxsus yer tutan "eşik" lə (evin kandarı, girəcək) bağlı bir ayin idi. İnama görə bəd ruhlar evi kəndarına yığışardılar və bu ruhları uzaqlaşdırmaq üçün müxtəlif ayinlər icra olunardı. Eşik türk xalqlarında evin qoruyucu ruhunun olduğu yer olaraq bilinirş. Ona görə də eşiyə basılmadan içəriyə girilir (227, 120–121).

Bəzi yerlərdə adətə görə gəlin su dolu bardağı ayağı ilə aşırıb içəri keçməli idi. Görünür, bu su kultu, suyun yuyucu, axıçı xüsusiyyəyi ilə bağlı idi. Azərbaycanlıların inamında da su hər zaman aydınlıq, təmizlik simvolu olmuşdur. Azərbaycanın qədim mənəvi mədəniyyət ənənələrində "uğur suyu" su ilahəsinə sitayişin özünəməxsus yeri olduğu məlumdur (27, 51).

**Nikah qaydaları.** Ləzgilərdə qohumdan evlənməyə daha çox üstünlük verilirdi və kuzen nikahların bütün formaları mövcud idi. Yəni avarlarda və saxurlarda daha çox əmiuşaqları arasında nikahlar təqdir edildiyi halda ləzgilərdə hər formada qohum nikahlar – əmioğli-əmiqızı, xala oğlu-xalaqızı, dayoğlu-bibiqızı, bibioölu-bir dayıqızı

arasındakı evliliklər geniş yayılmışdı. Onlarda keçmişdə levirat, yəni qardaş ölərsə, arvadına evlənmə) adəti də olmuşdur. Bu adət ləzgicə "*exixad*" adlanır.

Göründüyü kimi, bu bölgədə keçirilən Azərbaycan toyları kimi avar, saxur, rutul, ləzgi toyları da yeni evlənənlərə xoşbəxt həyat arzusunu, bolluq bərəkət arzusunu ifadə edən müxtəlif mərasim və ayinlər, qarşılıqlı yardım ənənələri, kollektiv oyun və əyləncələrlə zəngin olmuşdur və diqqət yetirilərsə, bu toylardakı ənənələr, mərasimlər, oynanılan rəqslər, keçirilən yarışların həm adları, həm də həm də motivləri Azərbaycanın digər bölgələrindəki rəqs havalarından əsaslı şəkildə fərqlənmirdilər. Bütün nəsil və eyni zamanda bütün kənd üçün əyləncə mərasiminə çevrilən oyun-tamaşalar, zorxanalar, cıdır və idman yarışları kimi tədbirlər uzun müddət bir arada yaşayan bu xalqların eyni düşüncələrini ifadə edən mənəvi dünyasının bir parçası idi.

## Udilərin evlilik mərasimləri

Şəki-Zaqatala bölgəsində yaşayan udilərin qədim **qızbəyənmə** ənənələrinə görə, udi gəncləri daha çox Vərtivər və Pasxa bayramları ilə bağlı mərasimlərdə özlərinə qız bəyənərdilər. Udilərin adətinə görə bu bayramlarda hər kəs – yaşlı, cavan, kişi, qadın kilsəyə gələrdi. Kişilərin və qadınların birgə iştirak etdikləri bu mərasimlərdə gənc qızlar və oğlanlar kilsədə bir-birini görüb bəyənmək imkanı əldə edirdilər. Ənənəyə görə, Pasxa bayramı ərəfəsində gənclər günəşin qürub çağında "Kala Qerqes" kilsəsinin ətrafında toplaşaraq səhərə qədər əylənərdilər. Zurna sədalarının altında rəqslər, oyunlar təşkil edilərdi (109, 223).



Vərtivər bayramı[1] zamanı da udi gənclərinin bir-birini bəyənmə imkanları olurdu. Bu bayram ərafəsində gənc qızlar əllərini xınalayır, "Vərtivər çiçəyi" adlandırdıqları çöl çiçəklərini toplayaraq çiçəklərdən xaç düzəldirdilər[2]. Görünür bu udilərin qədim inanclar sistemininin qalıqları olub məhsuldarlıq ilahəsinin şərəfinə icra edilirdi. Sabah erkəndən udi qızları meyvə dolu bir nimçənin üzərinə topladıqları çiçəklərini də qoyaraq qohum-əqrabaya, tanıdıqlarına paylayırdılar, əvəzində pul və hədiyyələr alardılar. Axşam isə qızlar bir yerə yığışaraq özlərinə qonaqlıq düzəldirdilər.

Bayram günü udilər ən gözəl əlbisələrini geyərək *Tsmeri* kilsəsinə (müqəddəs Qeorgi kilsəsinə) gedərdilər. Burada gənc qızlar və oğlanlar zurna sədaları altında rəqs edir, yelləncəklərdə yellənir, müxtəlif oyun və yarışlar keçirilərdi; gənclər güləş üzrə yarışırdılar. Keçmişdə gənc qız və oğlanlardan xorlar da təşkil olunar, xalq mahnılarının ifası üzrə də yarışlar keçirilərdi. Burada gənclər gələcəkdə ailə qurmaq üçün bir-birini bəyənərdilər (109, 225).

Udilərin "Vərtivər" mərasimi yaşıllıq ilahəsinin şərəfinə keçirilən qədim türk mərasimini xatırladırdı. Məlumdur ki, qədim türk xalqları yaşıllıq ilahəsinin, yeniləşən təbiətin şərəfinə müxtəlf ayinlər icra etmişlər (79, 56–70). Bu ayinlərdə təbiətin təzəlik çağı olan yaşıllıq insanın da gənclik, təzə-tər dövrü ilə eyniləşdirilirdi. Yaşıllıqla əlaqədar olaraq meyvə, toxum əmələ gəldiyi kimi gəncliyin də toy mərasimi gələcək övladların doğulması üçün zəmin

[1] *Udilərin "Vərtivər" bayramı bir növ məhsul bayramını xatırladırdı məhsulun yetişməsi dövründə qeyd olunardı. Fındığın qızarması, üzümün yetişməsilə xalq arasında "Vərtivər"in dövrü müəyyənləşərdi. Maraqlıdır ki, tuva türklərində də bu dövrdə (iyul-avqust) Günəş bayramə keçirilirdi (85).*

[2] *Tədqiqatıların fikrincə bərabər tərəfli xaç içərəsi, türklərin qədim inanclar sistemində Göyün sahibi Tanrı və məhsuldarlıq ilahəsi və qadın başlanğıcı sayılan Humayın simvolu olmuşdur (164, 163) (şəkil 4).*

yaradırdı. Beləliklə, qədim təbiət kultunun izlərini daşıyan bu mərasim təbiətə məhsul verməsi üçün magik üsullarla kömək etməklə bərabər, həm də yaşıllıq simvolu olan gəncliklə eyniləşdirilirdi. Buna görə də zaman keçdikcə yaşıllıq ilahəsi gənclik, ailə qurmaq ilahəsinə çevrilmişdir və bir çox türkmənşəli xalqların toy mərasimlərində bu günədək qorunub saxlanmışdır. Məsələn, Orta Asiya türklərində də yaz ərəfəsində oğlan uşaqları udilər kimi çöllərdən boyçiçəyi toplayaraq həyət-həyət gəzir, xüsusi mahnılar oxuyaraq bu çiçək toplusunu təqdim edərdilər. Ev sahibi də çiçəkləri öpüb qoxlayar, boyçiçəyindən "üstlərindən ağırlığın götürülməsini, öz yüngüllüyünü onlara verməsini dilərdilər, daha sonra uşaqlara şirniyyat, quru meyvələr hədiyyə edərdilər (138). Orta Asiyada "Lalə bayramı" adlı mərasimdə də lalərdən xüsusi şax düzəldilir və onunla təntənə ilə kəndin mərkəzinə doğru axışırdılar. Bu bayram da udilərin Vərtivər bayramında olduğu kimi böyük xalq gəzintisi ilə başa çatırdı. Xarəzm ozbəklərinə məxsus Qızılgül bayramında da xalq gəzintisi həyata keçirilər, udilərin Vərtivər bayramında olduğu kimi, həm qızlar, həm də oğlanlar bir araya gələrdi. Gənclər bəyəndikləri qızlara və ya nişanlılarına sevgi və xöşbəxtlik simvolu olan qızılgül, alma... atırdılar (185, 30). Göründüyü kimi, təbiətin yenilənən, məhsuldar çağında təbiətin şərəfinə keçirilən bu qədim türk mərasimlərinin hər birində gənclər arasında bir-birini bəyənmək üçün fürsət yaranırdı. Çünki onlara başqa heç bir zaman tanışlıq və bəyənilmək üçün belə sərbəstlik, azadlıq verilmirdi. XIX–XX əsrin əvvələrində Orta Asiyanın Səmərqənd, Xarəzm kimi bölgələrində icra edilən bu mərasimlərdə udi bayramlarında olduğu kimi qızlar və oğlanların birgə rəqs edib əylənməsinə, əhalinin müsəlman olmasına baxmayaraq hətta xüsusi olaraq bu bayram üçün hazırlanmış *müsəllas* adlı şərab da içilməsinə icazə



verilərdi (138, 33–38). Bu da onu göstərir ki, bu mərasimlər daha qədim, islamaqədərki ibtidai inancların izlərini daşıyır.

Yaxın zamanlara qədər udilərin **elçilik mərasimi** özünəməxsus şəkildə icra edilirdi. Qıza elçi düşmək istərkən oğlanın valideynləri ilk razılığı qızın dayısından alıb onu qız evinə göndərirdilər. Hətta adətə görə oğlan qızın dayısına bir manat pul da verirdi. Buna udincə "*xaliluq*" – yəni "dayısının payı" deyilirdi. Bu adətdə qədim nəsli-qəbilə quruluşuna aid olan qayda-qanunların izləri özünü biruzə verməkdədir. Məlumdur ki, ana ailəsindən (matriarxat) ata ailəsinə (patriarxat) keçid dövründə artıq nəsli kişi idarə etsə də, belə patrilokal ortamda doğulan uşaqlar yenə də ana nəslinə mənsub sayılırdılar və onların tərbiyəsində dayı atadan daha mühüm rol oynayırdı. Görünür, Azərbaycanda xalq arasında yayılmış "Qız qarıyanda ağırlıq dayısının üzərinə düşər" deyimi də məhz bu keçid dövrü ənənəsi ilə bağlıdır.

Udilərin evlilik mərasimlərinin sonrakı mərhələlərində də həm bəy, həm də gəlinin dayıları mühüm rol oynayırdılar. Azərbaycanın Quba bölgəsində məskun olan "Şahdağ" etnik qrupuna daxil olan xınalıq, qrız, haputların da toy mərasimlərində dayı mühüm yer tuturdu.

Udulərdə dayıdan sonra əgər qızın ata-anası da qızı verməyə razıdırlarsa, onda oğlan evinin qız evinə verəcəyi pulun və malın miqdarı haqqında aralarında danışıq gedir. Danışıqların sonunda qızın dayısı oğlan adamlarının ona verdiyi gümüş üzüyü qızın valideynlərinə təqdim edirdi. Qız evi oğlan evindən gümüş kəmər və baş bəzəyi üçün müxtəlif gümüş əşyalarla bərabər "*iaqna tanqa*", yəni "yol pulu" da tələb edirdi. Maraqlıdır ki, "yol pulu" ənənəsi İraq-türkman toy mərasimlərində də mövcud idi. Kərkük türkmənlərində oğlan evi ilə qız evi nişana qədər "Yol" üçün görüşürdülər. "Yol"un ("Ana yolu") neçə manat ola-

cağını qız anası deyərdi (71, 48).

Elçi getmək udilərdə "*xozamandluq*", elçi isə "*xozamand*" adlanırdı (24, 134). Keçmişdə udilərin adətinə görə qızı əgər bir neçə yerdən istəyirdilərsə, seçim üçün qıza hər elçinin gətirdiyi müəyyən bir əşya, məsələn kağız pul, alma və s. bir qaba qoyulub təqdim edilərdi və hər əşyanın kimə aid olduğunu söylərdilər. Qız hansı əşyanı götürərdisə həmin əşyanın sahibinə razılıq verdiyini bildirmiş olurdu (109, 233). Bu qədim ənənədə Azərbaycan nağıllarının mötivləri özünü biruzə verir.

Keçmişdə udilərdə elçiliyə gedərkən bir qırmızı alma götürülürdü. Adətə görə oğlanın atası həmin almanı qıza çatdırırdı, qız da razılıq əlaməti olaraq almanı iki yerə bölüb yarısını özünə saxlayıb, yarısını elçiyə qaytarmalı idi. Əgər alma qız tərəfindən kəsilməyib, bütöv halda qaytarılardısa, bu qohumluğun baş tutmayacağı demək idi (25). Umumiyyətlə, keçmişdə udilərin toy mərasimlərinin qızbəyənmə, elçilik, toya dəvət, gəlin gətirmə kimi bir çox mərhələlərində qırmızı alma özünəməxsus yer tuturdu və sevgi, qismət, əbədiyyət simvolu kimi çıxış edirdi. Azərbaycan toy mərasimlərində, eyni zamanda folklor nümunələrində də qırmızı alma sevgi, qismət simvoludur. Məsələn,

Al alma, qızıl alma
Süfrəyə düzül alma
Bilsəydim yar göndərib
Saxlardım yüz il alma (65, 254).

Qeyd etmək lazımdır ki, Azərbaycanın Naxçıvan, Qarabağ kimi bir çox bölgələrinin də toy mərasimlərində alma ilə bağlı – nişanlı qıza alma göndərilməsi, gəlin faytonuna alma atılması kimi ayinlər icra edilirdi. Azərbaycanda hələ çox qədim dövrlərdən nikah mərasimlərində alma özünəməxsus yer tuturdu. Azərbaycan ərazisi və



əhalisi haqda məlumat verən Strabon qeyd edirdi ki, adaxlı dəvə beyni və alma yedikdən sonra nikaha daxil olurdu (32, 65). Göründüyü kimi burada da alma qismət, əbədi sevgi, övlad simvolunu təmsil edirdi.

Bir çox türk xalqlarının toy mərasimlərində alma bəxt, qismət, sevgiliyə qovuşma simvolu kimi geniş yayılmışdır. Məsələn, türkmənlərdə nişanlı qıza göndərilən qurbanlıq qoçun buynuzlarına alma taxılması adəti var. Türkiyənin Yozqat bölgəsində "düyün bayrağının"nın altına alma qoyardılar (226, 23). Eyni zamanda Cənubi Azərbaycan bölgəsində də gəlin evə girərkən başına 3 alma atardılar (227, 229).

Türk xalqlarında qeydə alınmış alma ilə bağlı bu ayinlərin hamısı eyni mahiyyət daşıyır, sevgi, qismət, əbədilik, övlad simvolu kimi şıxış edir. Azərbaycanlılar, eyni zamanda udilər arasında alma ilə bağlı adət-ənənələrin qorunub saxlanması azərbaycan-udi-türk ənənələrinin qədim və qohum köklərindən xəbər verir.

**Toya dəvət.** Udilərin toya dəvət mərasimində də alma mühüm yer tuturdu. Cağırışçı toya dəvət etdiyi ailələrin hərəsinə bir alma verərdi (109). Burada alma hər bir ailəyə toy qismət olması diləyini ifadə edirdi. Göründüyü kimi, udilərin toy mərasimlərinin qızbəyənmə, elçilik, toya dəvət, toy kimi mərhələlərində alma ilə bağlı icra edilən bu ənənə çox qədim dövrlərdən bəri Azərbaycan, eyni zamanda bir çox türk xalqlarının ailə mərasimləri üçün də xarakterik idi. Udilərlə azəri türklərinin məişətində oxşarlıqlara toxunan türkoloq, qafqazşünas Q. Voroşil də yazırdı: "... udinlər azərbaycanlılardan təkcə söz almamışdılar, onların nağılları, təmsilləri, atalar sözləri, zərb-məsəlləri də Azərbaycan dilindən alınmadır, geyimdə, adət və ənələrində də azərbaycanlılardan az fərqlənirlər (91). Göründüyü kimi, birgə yaşaış tərzi adət-ənənələrin formalaşmasına da öz bəhrəsini vermişdir.

Udilərdə də **kiçik nişan** azərilərdə olduğu kimi "bəlgə"[1] adlanırdı. Əvvəlcə qızın dayısından razılıq alan oğlan evi qıza gümüş üzüyü də dayısı vasitəsilə təqdim edirdi. Bəlgə mərasimindən sonra nişanlı sayılan oğlan öz əqrabalarına və qızın əqrəbalarına böyük qonaqlıq verirdi. Bu qonaqlıqda qızın valideynləri iştirak etmirdilər. Məclis üçün qoyun kəsilir, bütün gecə şənlik davam edirdi. Məclisə çalğıcılar, zurnaçılar, oyunbazlar da gətirilirdi. Axşam nahar zamanında qız evi üçün "*tapak*" (tabak) adlanan xüsusi xonça hazırlanırdı. Bu "tapak"a şirniyyat, cərəz, balaca kəllə qənd, içki və qızardılmış xoruz qoyularaq qızın qardaşına, əgər qardaşı yox idisə yaxın qohumuna göndərilirdi. Qızın qardaşı və ya qohumu da öz növbəsində xonçadan bir-iki şey götürərək qalanını onun evində yığışmış qonaqlara paylayırydı. Məclis bitdikdən sonra oğlan evi qızın qohumları vasitəsilə qız evinə əvvəlkindən daha da zəngin 3 "tapak" və qoyun göndərərdi. Bu hədiyyələrin içində mütləq bahalı qırmızı ipək şal və iki gümüş üzük də olardı. Bu qədim ənənəin izləri aşağıdakı Azərbaycan folklor nümunəsində də öz əksini tapmışdır:

Ay qız, nişanın gəlir,
**Qırmızı şalın** gəlir
Dur, yüyür eyvanına
Baldızın, canın gəlir (63, 292).

**Udilərdə nişanlılıq müddətində** müxtəlif adətlərə riayət olunurdu.

Udilər də nişanlı qıza bayramlarda müxtəlif hədiyyələr göndərərdilər. Udilərin əsas bayramları aşağıdakılar idi; Verbnoe Voskresenye; Pasxa; Pasxanın III və IV günləri;

[1] *Bəlgə qədim türk sözüdür və "bəlləmək-bəlirləmək-nişanlamaq mənasındadır.*



Vərtivər; Xaçveluğ və s. (109, 223). Nışanlı qıza Verbni Voskreseniya günü kilsədə ipək yaylıq bağışlanırdı. Bu yaylıq iri bir şama bant şəklində bağlanaraq nişanlı qıza təqdim edildiyi üçün "*çıraqçün yaylıq*" adlanırdı. Qız bu yaylıqla şamı toya qədər evində saxlayaraq nikah mərasiminə bu şamla getməli idi. Bu ənənənin izlərini aşağıdakı gəlin aparma ilə bağlı Azərbaycan folklor nümunəsində də görmək mümkündür:

Al almağa gəlmişəm
Şal almağa gəlmişəm,
Oğlanın bacısıyam
Aparmağa gəlmişəm (64, 66).

Udilərin Pasxa bayramında isə nişanlı oğlan adətə görə bir kiçik ipək yaylıq, bir cüt qadın ayaqqabısı (*qoş*), şərab, qırmızı yumurta, şirniyyat da götürərək qızı təbrikə gedirdi. Qızın nişanlısının gətirdiyi yaylıqla üzünü örtməsi adəti var idi. Pasxa günlərində həm qızın, həm də oğlanın valideynləri birgə udilərin qədim sitayiş yeri olan "*Kala Qerqets*"ə (Böyük kilsəyə) qoyun qurban kəsmək üçün gedərdilər. Bu mərasimdən sonra nişanlı oğlan qaynatasına "*tapak*" (xonça – M. P.) və qiymətli hədiyyələrlə bəzədilmiş şax göndərərdi. Qaynata da öz növbəsində şax gətirəni pulla mükafatlandırardı. Umumiyyətlə, şax bəzəmə adəti Azərbaycanın bir çox bölgələrinin toy mərasimlərində mövcuddur. Şaxbəzəmə adəti Şəki-Zaqatala bölgəsi üçün də xarakterik idi. Göründüyü kimi, udilər də bu adəti özünəməxsus bir şəkildə icra edirdilər.

Xristian olmalarına baxmayaraq udilərin bir çox adətləri, məsələn, qızbəyənmə, elçilik mərasimlərində qıza alma göndərilməsi, nişanlı qıza qırmızı şal hədiyyə edilməsi, ziyarətgahda qoyun kəsilməsi, şax bəzədilməsi kimi bir çox qədim ənənələr Azərbaycanın müsəlman əhalisinin-azərilər, avarlar, saxurlar və b. adət-ənənələri ilə üst-üstə

düşür. Bu, həmin mərasim ənənələrinin qədimliyindən və bu xalqların vahid mənəvi mədəniyyətin varisləri olmasından xəbər verir.

Azərbaycanın bir çox bölgələrində geniş yayılmış nişanlı qıza təzə meyvə göndərmək kimi "nübar" adətini də udilər keçmişdə özünəməxsus bir formada icra edirdilər. Udilərdə "bağbaşı" adlanan bu adətə görə, yayda mer-meyvə yetişəndə nişanlı oğlan onları yığıb qızgilin bağçasına nişanlısının gəlib keçəcəyi yerdə bağ başında qoyardı. Qız da sovqatı bağçadan götürərək evə aparardı. Azərbaycanın bir çox yerlərində də nişanlı qıza nübarlıq meyvə göndərilməsi ənənəsi məhz "bağbaşı" adlanırdı (53, 173). Görünür, bu qədim adət keçmişdə yuxarıda təsvir olunan formada icra edilirmiş.

Udilərin "Vərtivər" bayramında da nişanlı qıza oğlan evi tərəfindən barmaqlarını boyamaq üçün xna, bir cüt koş (ayaqqabı), corab və cürbəcür şirniyyat göndərilməsi ənənəsi mövcud idi. Bundan başqa udilər sentyabrın ortalarında (sentyabrın 24-də) qeyd etdikləri ənənəvi "Tərəmə" bayramında ölənlərini yad etmək üçün qəbiristanlığa getdiyi bir gündə də, adətə görə nişanlı oğlanın valideynləri qız evinə para qoyun, xoruz, udilərin də bir çox türk xalqları kimi "bişi" adlandırdıqları şirniyyat, halva, qarpız və b. yeməli şeylər göndərərdi. Belə hədiyyələr nişanlı qıza adətən yeni il və yaz bayramı ərəfəsində də göndərilərdi.

Udilərin adətinə görə nişanlı qıza oğlanın ailəsi ipək qurdu üçüncü yaşa çatanda bunlardan bir "*qats*"[1] seçərək barama qurdlarını müxtəlif şirniyyatlar, meyvələr və ərzaqla birlikdə qıza hədiyyə kimi göndərərdi. Bu qurdları qız özü üçün bəsləməli idi. Adətə görə nişanlı qıza oğlanın valideynləri yun, qats, boyaq və b. şeylər göndərirdilər ki,

---

[1] ***Barama qurdları üçüncü yaşına qədər ayrı-ayrı qatlardan ibarət olur. Bu qatlar "qats" adlanırdı.***



qız toya qədər bu ləvazimatlardan özünə cehiz hazırlasın. Nişanlı qız toya kimi "*avqa*" (torba), "*mayzar*" (çörək örtüyü), "*tsesim*" (sicim) və b. ev təsərrüfatı üçün lazım olan əşyalar hazırlamalı idi.

**Toya dəvət.** Udilərdə toya bir gün qalmış bəy toya dəvət etmək üçün bir neçə adam təyin edirdi. Bu adamlar başqa kəndlərdən də camaatı toya dəvət edərdilər. Dəvətçilər hər ailə başçısına bir alma verərək onu ailəsi ilə birlikdə toya dəvət edirdilər. Yaxın qohum və nüfuzlı tanışları isə bəy özü şəxsən dəvət edərək onlara bir "*tunqu*" (xüsusi şərab qabı) şərabla gələrək deyirdi: "Sizi toya dəvət edirəm. Toy sabah başlayır, bu gün axşam isə "məsləhətə" buyurun!"

Udilərdə toya dəvət mərasimi zamanı yasdan çıxarma adəti də icra edilirdi. Yaslı ailəni toya dəvət edərkən bir cüt ayaqqabı və ya papaq, başmaq və yaxud pul hədiyyə verərək ailə üzvlərini toya dəvət etməklə bir növ yaslı ailəni yasdan çıxarırdılar. Belə "yasdan çıxartma" mərasiminə Azərbaycanın bütün bölgələrində, o cümlədən, Bakıda, Naxçıvanda da riayət olunurdu.

Udilərdə də toydan öncə "paltarkəsdi" mərasimi olurdu. Toydan bir ay əvvəl oğlanın yaxın qohumlarından biri nişanlı qızgilə gəlin paltarı haqda danışıq aparmağa gedərdi. Oğlan evi adətən zərxara parçadan paltarlıq alaraq vaxt təyin edib qızgilə gedərdilər. Lakin udilərin adətinə görə "paltarkəsdi" mərasimində gəlin üçün parçanı kişi aparmalı idi. Qız evi isə parçanı gətirən kişiyə qızın əl işlərindən birini hədiyyə edirdi. Paltar biçmə mərasimi başa çatdıqdan sonra qonaqlar qız anasının hazırladığı xörəyi yeyib dağılırdılar.

Toya iki gün qalmış oğlanın yanına kömək üçün onun qohumları, yoldaşları gəlirdi. Toya bir gün qalmış isə adətən "Məşvərət" və ya "Məsləhət" toyu başlardı. Axşam vaxtı başlanan bu məclisə yığılan qohum-əqraba toyu

idarə etmək üçün" toybaşı" (toyu idarə edən), "yasavul" (nəzarətçi), "aşbaz" və iki nəfər "çardaqçı" (toyun azuqəsinə keşik çəkən) seçirdilər. Toy üçün lazım olan bütün azuqə və qab-qacaq evin çardağına yığılırdı. Bütün toy müddətində bu ləvazimata nəzarət etmək üçün cardaqda olan keşikçilər də buna görə "çardaqçı" adlanırdılar. Azuqələrin buraxılması çardaqçılardan asılı olurdu. Bəyin dostlarının vəzifəsi isə toyu idarə etmək, yəni toy üçün su daşımaq, süfrə açmaq, qonaqlara çaxır paylamaq eyni zamanda bəyi də gözdən qoymamaq idi.

Toy məşvərətindən sonra geçə yemək verilirdi. Bu zaman xanəndələrdən, zurnaçılardan ibarət çalğı da olurdu. Həmin gecə qız evində də onun qohumları yığışıb gecədən keçincəyə qədər şənlənərdilər. Gecə qonaqlar dağıldıqdan sonra bəyin yaxın dostları toy üçün qoyun, öküz, dana kəsirdilər. Bu mərasim udilər arasında "*əttuq*" ("ətlik") adlanırdı.

Toy üçün ayrılmış heyvanlar hüznlü zurna sədaları altında kəsilirdi. Bu "əttuq" mərasimi zamanı magik bir ayin də icra edilirdi. Öküzü kəsərkən qanını kotan üstünə axıdır və əvvəlcədən hazırlanmış oğlan və qızın nişan paltarlarının parçalarını öküzün qanı ilə isladırdılar. Oğlanın anası və ya baçısı bu parçaları bir-birinə düyünləyib gizlədirdi. Qana bulanmış kotanı isə toy xörəyinin bişirildiyi ocağın yanında qoyurdular. Toy bitdikdikdən sonra kotanı çəkib aparır, öküzün qanı ilə isladılmış düyünlü parçaları isə odda yandırıdılar. Bu magik ayin bəylə gəlinin toy mərasimi ərəfəsində ovsunlanmasının qarşısını almaq üçün icra edilirdi ki, bədxah adamlar toy çöngəsinin qanından cadugərə aparıb bəyi bağlaya bilməsin. Məlumdur ki, ibtidai dinlərdə qan bütün nəsil üzvlərini birləşdirən müqəddəs bir qüvvə-həyat simvolu hesab edilmişdir. Bu qədim dünyagörüşünün nəticəsi olaraq ibtidai insanlar qanın cadugərlikdə istifadə edilməsindən ehtiyat edərək



onun torpağa və b. predmetlərə düşməsini qoymurdular (208, 295–296). Görünür, udilərin toy çöngəsinin qanını kotan üstünə axıtması da bu qədim dünyagörüşünün qalıqları idi.

Udilərin xalq arasında mövcud olan inamına görə, əgər cadugər yanmayan əşyaya, yəni dəmir parçasına və ya qurğuşun gülləsinə ovsun oxusaydi artıq bədbəxtlikdən xilas olmaq yolu yox idi. Cadunun təsirini daha da gücləndirmək üçün qurğuşun gülləsini yarı bölərək bəy-gəlin keçəcəyi küçənin hər iki tərəfinə qoyurdular. Bəylə gəlin küçədən keçdikdən sonra qurğuşun parçalarını götürərək yenidən birləşdirir və odda yandırırdılar. Guya bu ovsun ayinindən sonra bəyi heç bir qüvvə iqtidarsızlıqdan və hətta ölümdən xilas edə bilməzdi. Buna görə də, belə ovsunların qarşısını almaq üçün bəyin anası və ya bacısı önləyici tədbir kimi yuxarıda təsvir olunan magik ayini icra edərdi. Cünki ovsunlu metaldan qorunmağın yeganə yolu od (əşyaların odda yandırılması) idi. Oğlan anası əvvəlcədən toy cöngəsinin qanını kotana axıdaraq, sonra bu qanı oğlanla qızın paltarlarına bulaşdıraraq yandırıb ovsunu batil edərdi. İnama görə metal yanmayan predmet olduğu üçün onu zərəsizləşdirmək üçün əvvəlcədən digər yanan predmetlərə ovsun oxuyub onları yandırmaq lazım idi. (109, 238).

Bəylə gəlinin toy ərəfəsində belə ovsunlardan qorunma adəti Borçalıda yaşayan azərilər arasında da mövcuddur. "Bəyin anası nişan paltarından cırar, özü bəyi başdan bağlayar və gəlini gələndə acar ki, başqaları bağlaya bilməsin" (227, 61). Ortaq türk abidəsi olan "Manas" dastanından da qədim türklərin toy mərasimləri zamanı belə ovsun ayinlərinin icra etdikləri məlum olur: "Evlilik dönəmində fal baxılıb büyü yapılırdı" (228, 182).

Udilərdə toy səhər vaxtı başlardı. Toyun axırıncı günü bəyi bal suyunda çimdirərdilər. Bal qarışdırılmış suyu

bəyin ata-anası sağ olan bir dostu tökməli idi. Bundan sonra bəylik paltarı geyən oğlan dostları ilə birgə "Kala Qerqets" və ya "Tsimeri" monastırına nikah kəsdirmək üçün yollanırdılar. Oğlan monastırdan qayıdandan sonra toy mərasimi başlayırdı. Bəy mağarda xüsusi mərasimlə qarşılanırdı: Bəyi zurnaçılar, toybaşı və mağarbaşı qarşılayardı. Toybaşının əlində 3 yanan şam olan mis sini, mağarbaşının əlində isə şərab tunqusu olurdu. Onlar üzü şərqə tərəf dururdular. Zurnada xüsusi melodiya çalınırdı. Əvvəlcə oğlan anası bəyin boynuna qırmızı yaylıq salıb onu öpür, daha sonra xaç atası da balaca ipək yaylıq verirdi. Bundan sonra yavaş-yavaş toya çağırılan qonaqlar yığılırdılar və hərə imkanı daxilində siniyə pul atırdı və ya yaylıq hədiyyə edirdi. Bütün qonaqlar hədiyyələrini verdikdən sonra toybaşı, yasovul və mağarbaşı kənara çəkilib pulu və yaylıqları sayırdılar. Sonra yasovul musiqinin kəsilməsini əmr edərək qonaqlara da nə qədər pul və yaylıq yığıldığını elan edirdilər. Udilərin "*ço boysun*" yəni oğlanın şəxsi hüzurunda bağışlanan pay adlandırdıqları bu pullar və yaylıqlar oğlanın özünə çatırdı. Bütün bu mərasimi isə udilər "*Bək bəsun*", yəni oğlanın bəy edilməsi adlandırırdılar.

**Nikah mərasimi**. Udilərin nikah mərasimi kilsədə icra edilirdi. Dostları ulə bərabər kilsəyə yollanan bəyi darvazaya kimi zurnaçılar müşayət edirdi. Bəyin dostları da bəyi əli silahlı müşayət etməli idilər. Bəyi kilsəyə yola salandan sonra zurnaçılar bəyin xaç atasının evinə gedərək onu və arvadını da kilsəyə götürürdülər. Nikah mərasimi zamanı oğlanın xaç atası (kirvə) üzükləri dəyişir. Nikah mərasimindən qayıdanda dostları tüfəng ataraq bəyin qayıtmasını xəbər verirdilər. Darvazada onları zurnaçılar qarşılayardılar. Bundan sonra oğlan evində toy mərasimi başlayardı.

**Gəlin gətirilməsi.** Gəlin gətirilməsinə bəylə birlikdə



onun kirvəsi, dostları, "toybaşı" da gedirdi. Qız evinə catanda adətə görə "*doqqazdıx*" verilməyincə[1] oğlan adamlarına darvaza açılmırdı. Qonaqları qız evində "*tuzluq*" adlandırdıqları taxta nimçədə 3 çörək, qayqanaq, 3 yanar şamla[2] qarşılayırdılar (109, 240). Bu yeyəçəkləri bəyin dostları yeyirdi. Bunun ardınca oğlan evinə mis qabda yenə 3 yanar şamla birlikdə şərab təqdim edilirdi. Daha sonra gəlinin anası, bəy və kirvə bir-birlərinə alma verirdilər. Burada da alma bir çox Azərbaycan folklor nümunələrində olduğu kimi qismət, övlad, əbədiyyat arzusunu ifadə edirdi. Bunun ardınca qız adamları öz hədiyyələrini təqdim edirdilər. Udilərin gəlin gətirməsi zamanı maraqlı bir mərasim də icra edilirdi. Qız evində bəyin dostları ən yüksək ağacın başına alma keçirərək nişan atmaq üzrə yarış keçirərdilər. Yarışın qalibi bəy tərəfindən yaylıqla mükafatandırılardı. Bu yaylıq ən qiymətli hədiyyə sayılırdı və qalib onu öz silahına bağlayardı. Dədə Qorqud boylarındakı toy mərasimlərini xatırladan bu ənənə dövrümüzədək qorunub saxlanmışdır. XX əsrin 50-ci illərində udilərin toy mərasimində iştirak etmiş xalq şairi Səməd Vurğun da bu qədim mərasimin şahidi olmuş və udi toylarını Bamsı Beyrəyin toy mərasiminə bənzətmişdi. Məlumdur ki, Dədə Qorqud dastanında da gənclərin toy mərasimində nişan qoyub oxla atmaq ənənəsi təsvir olunur (48, 161). Böyük şairimiz özü də udilərin Dədə Qorqud boylarındakı bu ənənəni xatırladan nişan alma mərasimdə iştirak edərək "hündür ağacın başında iki yanar lopa arasında qoyulmuş almanı bir güllə ilə parça-parça edərək " toyun qiymətli hədiyyəsini qazanmışdı (66, 38–39).

[1] *Bu adət "qapıkəəsınə", "qapıbasma" kimi müxtəlif adlar altında Azərbaycann hər yerində var.*

[2] *Qeyd etmək lazımdır ki. Qərbi Azərbaycanda da oğlan evi hədiyyələrlə bərabər qız evinə 3 şam göndərərdi (227, 228).*

Oğlan adamlarına qız evində yemək də verilirdi. Bunun üçün bəy əvvəlcədən qız evinə bir qoyun və 4 batman şərab göndərirdi. Bunu udilər "*uzaqan*" adlandırırdılar. Yemək zamanı bəyi "şah yeri" və ya "bəy yeri" adlanan xalçalarla bəzədilmiş xüsusi yerdə oturdardılar (109, 240).

Gəlin ata evindən çıxanda udilərin adətinə görə ocağın yanında toplaşan ata-anasına və qohumlarına yaxınlaşaraq əvvəcə oçağın yerini öpür, sonra isə atasının əlini öpürdü. Bir çox türk xalqlarında, məsələn, Makedoniya türklərində də gəlinə bərəkəti cəlb etməsi üçün "ocaq daşı" öpdürülür (227, 60) və ya qaşqaylarda gəlin ata evindən çıxarkən ata ocağını öpər, sonra gedər (227, 39). Bundan sonra bəy dostları və kirvəsi ilə içəri girirdi. Kirvə yaylığın bir ucunu gəlinə, o biri ucunu isə bəyin əlinə verirdi. Bəy və gəlin bu vəziyyətdən evdən çıxardılar. Maraqlıdır ki, belə mənzərəni, bəylə gəlinin əllərinin yaylıqla birləşdirilməsini bir çox türk xalqlarının toylarında da müşahidə etmək mümkündür.

Udi adətinə görə yol boyu bəylə gəlini yaxın qohumlar evlərinə dəvət edərək gəlinə "xələt"-ipək parça, bəyə isə "tuzluq", "tapak" hədiyyə edər, bəy və gəlinin şərəfinə şərab küpü açardılar. Bəy evində də gəlini qaynanası və qaynatası "tuzluq" la qarşılayırlar. Bundan sonra toy evinə yığışan qohum-əqraba bəy-gəlinə yenə də pul, yaylıq və ya xələt bağışlayırdılar.

Gəlin ər evinə girərkən qapının ağzında (eşikdə) boşqabda təzə kərə yağı qoyardılar. Gəlin yağı götürərək qapının yuxarı çərçivəsinə sürtdükdən sonra içəri girirdi. Bu ayin də qədim ianclar sisteminin bir parçasıdır və ev-ocaq ruhu ilə bağlıdır. Eşikdən içəri girərkən ruhları razı salmaq məqsədilə edilirdi. Türkiyədə də yayğın olan eşiklə bağlı inanclara görə, eşiyə basılmaz, eşikdə durulmaz. Cünki ev əyəsinin (ruhunun – M. P.)qoruma alanı eşikdən başlar (226, 64). Axıska türklərində də eşiyin



önünə dəmir qoyulur, içəri girən onun üzərindən adlayaraq girir. Bu şər qüvvələrdən qorunmaq üçün edilirdi.

Gəlin qapıdan icəri girəndə daha bir ayin də icra edilirdi; Gəlinin qardaşı bəy və gəlinin əlindən yaylığı almağa çalışır. Bəyin yaxın dostları da çalışırlar ki, yaylıq bəy və gəlinin əlindən çıxmasın. Görünür, bu yeni qurulan ailənin birliyini əks etdirən simvoik bir ayin idi. Bundan sonra oğlan evi qonaqları yeməyə dəvət edirdi. Qonaqlar yerləşib oturmayınca bəy, kirvəsi və toybaşı ayaq üstə dururdu. Bu da bütün azərbaycanlılara xas olan qədim qonaqpərvərlik ənənəsinin bir nümunəsi idi. Bəy oturandan sonra bəyin anası gərdək arxasında hələ ayaq üstə duran gəlinə bir gümüş əşya hədiyyə edirdi ki, gəlin də otursun. Süfrə açıldıqdan sonra bəyə, kirvəyə, yengəyə xonça hazırlanırdı.

Bu arada gəlinin cehizi də bir oğlan uşağının müşayəti ilə gətirilirdi. Cehizi gətirən uşağa pul verilməsə atdan düşməzdi və cehizi təhvil verəndən sonra isə geri qayıdardı. Oğlan evində şənlik səhərə kimi davam edərdi. Gecə qonaqların əksəriyyəti dağılsa da, bəyin dostları, yaxın qohumlar və zurnaçı səhərə kimi toy evində qalıb çalıb çağırırdılar. Bəy dostlarının ixtiyarına bir qoyun verirdi, onlar da bu qoyunu kəsib xörək hazırlayaraq səhərə kimi şənlənirdilər. Səhəri günü, yəni toyun axırıncı günü bəy bütün qohum-əqrabanı yenidən yığaraq qonaqlıq verirdi.

**Toy libası.** Udi gəlinlərinin toy libasında Azərbaycanın bir çox bölgələrinin toy libası üçün ənənəvi olan araxçın formalı baş geyimi mühüm yer tuturdu. XIX əsrdə Azərbaycanda digər baş geyimlərinə nisbətən daha yayğın olan *araxçın*[1] tipli baş geyiminə Azərbaycanın Qarabağ,

---

[1] *Araxçın adətən iki və ya üç parçadan tikilərdi. Bu papağın mərkəzi uclara doğru daralan dördkünc parçadan ibarət olurdu və kənarlara zolaq salınardı və uçları büzülərdi. papağın üstü hamar olardı. Bu baş geymi alının bir hissəsini tuturdu və üstündən qızıl piləklər asılardı.*

Naxçıvan, Astara-Lənkəran kimi bölgələrində "*papax*", "*qulaxlı papax*", "*qaysava*", "*dingə*" də deyirdilər. Şəki-Zaqatala bölgəsində də geniş yayılmış araxçın udilərdə "qatar", "daqqa" adlanırdı. Bölgə əhalisi arasında araxçını daha çox Şəkidə yayılmışdı. Oğuz rayonunda yaşayan udilərin "*qatar*" adlandırdığı bu baş geyimi parçadan tikilmiş və içinə pambıq doldurulmuş sərt yarımdairə formasında olurdu. Onun qabaq hissəsinə adətən qızıl pullar və bəzəklər asılardı. Oğuzda yaşayan udilər "qatar"ın başda durması üçün onun üstündən "*çənəbənd*"* (*udilər buna "çələbənd" deyirdilər.*) bağlayardılar. "Çənəbənd" xüsusi naxışlı iplə birləşdirilmiş iki üçkünc parçadan ibarət olurdu. Başa bağlanan zaman üçkünc parçalar qulağın üstünə gəlirdi. Çənəbəndin uçlarındakı iplər çənənin altından düyünlənirdi. Üçkünc qulaqlıqlar qırmızı parçadan tikilərdi və onun qıraqlarına "*çüçüb*" adlanan gümüşdən xüsusi bəzəklər bərkidilərdi. Qəbələ rayonunda yaşayan udilər isə bu baş geyimini "*daqqa*" adlandırırdılar. Onlar düyməcə tipli "*daqqa*"nın üstündən "*yalınqat*" adlanan kənarları sallanan ağ, üçkünc yaylıq salırdılar. Bunun üstündən də başlarına "*təpəlik*" adlanan kiçik yaylıq bağlayardılar. Təpəliyin uclarını çənənin altında düyünləyərdilər (69, 95).

Udilər arasında "*mamasan*" adlı bəzək forması da mövcud idi. Bu bəzək əşyası qatar və ya daqqanın gicgah hissəsinə bərkidilirdi. Mamasan çənənin altında gümüş pulla düymələnən gümüş zəncirdən ibarət idi. Zəncirin özündən üç-dörd sıra gümüş pullar və müxtəlif ölçülü yumru bəzəklər asılardı.

**Üzə çıxma**. Udilərdə toyun səhərisi bəy yaxın qohum-əqrabanı evinə yeməyə çağırardı. Yeməkdən sonra təzə gəlin qonaqlara qulluq edir, qonaqlar da növbə ilə onu təbrik edib hədiyyə verirdilər. Bununla da gəlin üzə çıxmış sayılırdı. Bu mərasimi udilər "*ço çevkal*", yəni gəlinin



yaxın qohumlara göstərilməsi adlandırırdılar. "*Ço çevkal*" mərasimindən sonra gəlin artıq gərdək dalında gizlənməsə də üzünə yaşmaq tutmaqda davam edirdi. Göründüyü kimi, udilər xristian olsalar da, onların müsəlman azərbaycanlıların ənənəsinə xas olan yaşmaq tutmaq adətini saxlaması onu göstərir ki, bu ənənə islamiyyətdən daha qədim bir dövrün əxlaq etikasının nümunəsi olmuşdir.

Udilərin adətinə görə gəlinin valideynləri nə toy günü, nə də toydan sonrakı günlərdə bəyin verdiyi qonaqlıqlarda iştirak edə bilməzdilər. Yalnız toyun 8-ci günü bəy tərəfindən xüsusi dəvət edildikdən sonra qızın valideynləri və yaxın qohumları oğlanın evinə gəlirdilər. Bəy öz qohumlarını da bu qonaqlığa çağırırdı. Süfrənin başında gəlinin atasına ayaqqabı və ya papaq qoyulmuş "tapak", anasına isə şal və ya ipək parça qoyulmuş "tapak" təqdim edilirdi. Kirvəyə və digər qohumlara isə toyuq hədiyyə edilirdi. Kirvənin arvadına da "tapak" hazırlanardı.

**Qədim nikah qaydaları.** Qeyd etmək lazımdır ki, bölgədə udilər arasında ancaq ekzoqam nikahlar təqdir edilirdi və hazırda da buna ciddi riayət edilməkdədir. Udilərdə ekzoqam nigah qaydasına görə evlilik zamanı qız və oğlanın 7 arxası öyrənilir, yalnız bundan sonra nikaha razılıq verilirdi. Belə ki yalnız 7 arxa dönəndən sonra "qan qohumluğu" bitir və yadlaşma başlayır. Bu ənənə udilərdə müasir dövrdə də davam etməkdədir. Hətta ailəsində qardaşların seçdiyi gəlinlərin də müxtəlif nəsillərdən olmasına diqqət edirdilər (25, 222). Ekzoqam nikah qaydasına bir çox türkmənşəli xalqlarda, o cümlədən Altay türklərində, qazaxlarda, qaraqalpaqlarda da indiyədək riayət edilməkdədir.

**Qarışıq nikahlar.** Bölgədə udilərlə azərbaycanlılar arasında milli-qarışıq nikahlar həm Nicdə, həm də Oğuzda mövcud idi. Bir cəhəti də qeyd etmək lazımdır ki, udilərlə azərilər arasında bağlanan qarışıq nikahlarda Azərbay-

can-türk adət ənənəsi tam üstünlük təşkil edir. Bu ənənələr qədim etnogenetik əlaqələrlə də izah edilə bilər (24, 193).

## İngiloyların evlilik mərasimləri

**Qızbəyənmə.** İngiloyların qızbəyənmə mərasimləri bölgənin digər əhalisindən fərqlənmirdi. İngiloylar da keçmişdə yazın gəlişi ərəfəsində çöldə-çəməndə şənlik məclisi düzəldərdilər. İngiloylara məxsus olan "Qorqot bayramı" adlanan bu mərasimdə həm qadınlar, həm də kişilər iştirak edirdi. Yeniyetmələrin, gənclərin və yaşlıların iştirakı ilə kollektiv şəkildə çöldə-çəməndə icra edilən bu mərasimdə gənclər çox zaman özlərinə gözaltı edərdilər. Bölgədə məhz ingiloylara məxsusluğu ilə seçilən Qorqot bayramı, Kürmük məbədi bayramı kimi qədim xalq mərasimlərində bir sıra qədim inam və etiqadların izləri qorunub saxlanmışdır.

Qorqot bayramı bahar bayramı ərəfəsində martın 20-dən aprelin ortalarınadək istənilən gün keçirilərdi. Bayramda yaşlı, cavan, uşaq, yəni hər kəs kollektiv şəkidə iştirak edərdi. Qorqot bayramı açıq havada çöldə-çəməndə keçirilirdi. Bu bayram da, görünür, bölgədə keçirilən Ukur, Otsbay, Vərtivər mərasimləri kimi qədim yaşıllıq ilahəsinə sitayişin izlərini daşıyır və Azərbaycanda və türk dünyasının bir çox ərazilərində Xızır, Xıdırəlləz, Xıdır Nəbi adları ilə tanınan bahar mərasimi idi.

**Elçilik.** İngiloyların elçilik mərasimi bəzi cüzi fərqlər olmaqla bölgə əhalisi üçün xərarterik olan formada icra edilirdi. Elçilik mərasimindən öncə, ingiloylarda adətən, oğlanın ailəsi qız evinə yaxın olan bir nəfəri özünə vasitəçi tutardı. Vasitəçi qız evinə gedib onlardan razılıq alandan sonra müəyyən edilmiş bir gündə 1 manat gümüş pul, 1 ədəd yun şal, 1gümüş üzük, 1 baş qoyun, müxtəlif şirniyyatlar (xristian ingiloylarda şərab da əlavə edilərdi)



hazırlayıb qız evinə aparardılar (25, 239). İngiloylar da bütün azərbaycanlılar kimi elçiliyə 3 nəgər ağsaqqal kişi ilə gedirdilər. Bu mərasimi ingiloylar "*macakali*" adlandırırlar. Adətə görə elcilər qız evinə üç dəfə gedirdilər. Birinci dəfə elçilərə qız evində süfrə açılmır, qızın ailəsi fikirləşib bir qərara gəlmək üçün vaxt istəyirdilər. İkinci dəfə əgər qızın ailəsi razıdırsa, elçilərə ancaq "şirin çay" verilirdi. Üçüncü dəfə isə artıq oğlan evi və qız evinin ağsaqqalları bölgə üçün xarakterik olan "Çörəkkəsmə" ayinini icra edərək cörəyi iki yerə bölərək yeyirdilər. Bununla da söz kəsilmiş olurdu. Həmin gün nişan gətirmək üçün vaxt təyin edilirdi.

**Nişan.** İngiloylarda da nişanda qıza üzük, paltar, baş örtüyü aparılması adətləri mövcuddur. Bundan başqa qəbul edilmiş ənənəyə görə nişana 2 qoyun, bir neçə çanax[1] şabalıd və fındıq, xeyli meyvə, boyadılmış yumurta, 2 sini halva, 1 tafta[2], 1 ədəd şal, 2 manat gümüş pul, və gümüş üzük aparılırdı (174, 29). Lakin ingiloyların nişan mərasimində xonça bəzəmək üçün məcməyi əvəzinə onların "xon" kimi ifadə etdikləri xırda ölçülü təknələrdən istifadə edilərdi[3]. Qız evində xüsusi hazırlıq görülər, həm qızın qohumları, həm də oğlan evinin adamları toplaşaraq nişan mərasimini icra edərdilər. Nişanda həm qadınlar, həm də kişilər iştirak edirlər.

Bölgə üçün xarakterik ənənələrdən biri də nişan xonçasına düyü halvası qoyulması idi. Düyü halvası ingiloyların da nişan mərasimlərində bişirilən ənənəvi mərasim yeməyi idi. Bunun üçün düyü ununu qovuraraq halva

---

[1] *Ağacdan düzəldilmiş. qalınlığı 3-4 sm olan çuxur formalı qab. Çanaq bir növ ölçü vahidi idi. Onunla arpa. buğda. un və s. ölçülürdü*

[2] *Parça növü.*

[3] *Ümumiyyətlə ingiloyların təknələri müxtəlif ölçülü olub fərqli məqsədlər üçün istifadə edilirdi. Məsələn. paltar təknəsi, çörək təknəsi, xəmir təknəsi, bal təknəsi mövcud idi. İngiloylarda bu təknələr "xon" və ya "xonça" adlanırdı.*

çalır və şərbətlə qarışdırırdılar. Mərasim halvası üçün çox zaman ballı şərbət hazırlayırdılar. Nişanda halva bişirilməsi rəmzi mənada qohumlar arasında şirinlik yaratmaq məqsədini güdürdü (59, 170). Düyü unundan halva çalınandan sonra onun altının yarmasından da firni bişirərdilər. Südlə bişirilən firniyə hazır olana yaxın bir azça da düyü unu qataraq xəçilsayağı bişirər, üzərinə də şəkər tozu tökər və nişan süfrəsinə qoyardılar.

**Nişanlılıq müddətində mərasimlər.** İngiloylarda da bir çox türk xalqlarında olduğu kimi başlıq almaq adəti mövcud idi. Bu adət ingiloyca "*melçe*" adlanırdı. İngiloylarda gəlin üçün cehiz tədarükündə, Azərbaycan türklərində olduğu kimi, sandıq vazkecilməz bir əşya idı. Bər-bəzəkli cehiz sandığına təzə gəlinin toy-nişan geyimi, zınət əşyaları, baş örpəkləri və digər qiymətli əşyaları qoyulardı. Cehiz sandığına qırmızı parça və ya sapla bağlanmış bir dəstə üzərrik də qoyardılar ki, gəlinə göz dəyməsin. Cehiz sandığı Azərbaycanın hər yerində olduğu kimi Şəki-Zaqatala bölgəsində də toy mərasimlərinin ən mühüm elementlərindən biri idi (şəkil 29).

Toydan qabaq – parçabiçdi mərasiminə bir həftə qalmış ingiloylarda da qohum-əqrabanın həm qıza, həm də oğlana qonaqlıq vermək adəti vardi. Lakin bəylə gəlin ayrı-ayrı dəvət edilirdi.

**Toy.** İngiloyların da toyu bölgə üçün xarakterik olan zurnaçı və sazəndə dəstələri tərəfindən müşayət olunurdu və 3 gün davam edirdi. Qadınların və kişiləin birgə iştirak etdiyi toy məclisini "tulumbaş" adlanan şəxs idarə edirdi və məclisdə ona böyük səlahiyyətlər verilirdi. Onun hər bir tələbi yerinə yetirilməli idi (110, 792). Tulum sözü türk dillərinə aiddir (89, 1205). Tulum (dairəvi) və baş sözlərindən olub dairəvi masanın başı anlamına gəlir (118, 105). Maraqlıdır ki, tulumbaş sözünə müasir azərbaycan dilində rast gəlinməsə də, bu türkmənşəli kəlmə ingiloy



dilində qorunub saxlanmışdır.

İngiloylarda toyun birinci günü qız evində "Paltar bicdi" mərasimi ilə başlayırdı. Qız gəlin gedənədək qohumlarının evində gecələyirdi. İngiloylarda da gəlinin iki yengəsi olurdu və hər ikisi də gəlini bəy evinə müşayət edirdi. Gəlin getməyə bir gün qalmış yengə aş verməli idi. Gəlin bəy evinə qardaşı və ya əmisi oğlunun cilovdar sifətilə müşayət etməsi kimi bölgənin səciyyəvi ənənəsinə ingiloylarda da riayət olunurdu.

Oğlan evində toy iki gün davam edirdi. İngiloylarda da bəy toy zamanı ata evində deyil, yaxın qohumlarından birində və ya qonşu evində qalırdı. Qohumlardan və ya dostlardan iki nəfər onun yanında olub ona bəy libası geydirirdi (25, 240). Oğlan evində toy çalınan günü saat 4-də bəyin bacısı xına gecəsi təşkil edərdi. Toy evindən çalaçala bəyin bacısının evinə gedərdilər. Toyun axırıncı günü adətən gün əyiləndə gəlin gətirilərdi və oğlan evinin qızgəlinləri gəlinin başına toplaşaraq çalıb-oxuyardılar.

Gəlin gətirməyə təxminən bir saat qalmış bəyi toyxanaya gətirirdilər və "bəy durdu" mərasimi icra olunurdu. İngiloyların "bəy durma" mərasimi bir qədər fərqli formada icra edilirdi; Toyun axırında bəy yoldaşları ilə məclisə gələrək bir az ayaq üstə durur, sonra yenə gəldiyi yerə, yəni toy günlərində qaldığı evə dönürdü və gəlin gətiriləna qədər orada qalırdı. "Bəy durma" mərasimi zamanı bəyin anası başında meyvə və halva olan xonça ilə gəlir və xonçanı bəyin qarşısına qoyaraq oynayırdı. Sonra bunu başqa qohum qadınlar da təkrar edirdi. Yengiyan kəndində bəyin sağdış-soldışı da bəylə birlikdə gəlin gətirməyə gedirdi.Bəyin atası və anası gəlin gətirməyə getmirdi.

Qız evində oğlan adamlarının qarşısına ağacın başına keçirilmiş toyuqla çıxardılar. Oğlan adamlarından biri onu güllə ilə vurduqdan sonra içəriyə buraxılardılar.

İngiloylarda gəlini evdən çıxarmaq üçün bəyin sağdışı evə girirdi. Ümumiyyətlə, gəlin gətirilməsi mərasimində bütün işlərə bəyin sağdışı başçılıq edirdi. Çünki ingiloyların adətinə görə bəy gəlin gətirməyə getməzdi. İngiloylarda sağdış həm də "bəy bəzəyən" adlanırdı. Bəyin sağdışı gəlini aparmaq üçün evə girəndə bu dəfə gəlinin yengəsi qapını tuturdu. Buna müsəlman ingiloylar elə azərilər kimi "Qapı tutma" və ya "Qapıbasma" deyirdilər. Bəzi yerlərdə qapını gəlinin dayısı da tuta bilərdi. Dayı qapı arxasında sandığın üstündə oturardı və oğlan evindən düşərrik almamış düşməzdi. Bundan sonra "bəy bəzəyən", yəni bəyin sağdışı gəlinin belinə kəmər bağlayar, boynundan "sinəbənd" adlı bəzək asardı.

Yengiyan kəndində ingiloyların gəlin gətirmə mərasimi bir qədər fərqli icra edilirdi; Bəy özü də sağdışı və soldışı ilə gəlin gətirməyə gedirdi. Oğlanın adamları qız evinə yaxınlaşanda darvaza bağlanardı. Qız evindən olan bir nəfər, adətən qızın əmisi və ya dayısı 7-8m. uzunluğunda ağacın başına bir alma, keçirdib yuxarı qaldırardı. Bəyin sağdışı 3 dəfə atmaq şərtilə bu almanı güllə ilə vurub parçalasa idı, darvaza açılardı. Əgər vura bilməsə sağdış tələb olunan haqqı (mal, pul) verməli idi ki, darvaza açılsın (174, 32). Almanın nişangaha qoyulması ilə bağlı ayinin bənzəri bölgədə udilərdə də icra edilməkdə idi. Türkiyənin Anadolu bölgəsində də oğlan evini ağaca keçirilmiş alma ilə qarşılamaq adəti vardır.

Qeyd etmək lazımdır ki, toy zamanı alma ilə bağlı mərasim XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsində də qeydə alınmışdır. Bu bölgədə adətə görə gəlin karvanı oğlan evinə bir az qalmış dayandırılır. Bəy gəlin tərəfə alma atır, onu müşayət edənlər almanı havada tutaraq gəlinə verirdilər (101, 22).

Anadolu türklərində də gəlinin başına dilimlənmiş, ançaq dilimləri ayrılmamış alma atardılar (227, 86). Qeyd



etmək lazımdır ki, Şəki-Zaqatala bölgəsində də toydan sonra "Gəlin görməsi" mərasimi zamanı adətə görə, gəlin yanına gələn qızlara alma dilimləyib verərdi. Göründüyü kimi, alma türk-azərbaycan xalq inanclarında bəxt, qismət, sevgiliyə qovuşma, eyni zamanda döl və bərəkət rəmzidir.

İngiloylarda gəlin evdən çıxarılanda anası qapıda əlində çörək tuturdu və gəlin onun altından keçirilirdi. Bundan başqa müsəlman ingiloyların gəlin aparılması mərasimində belə bir qədim ayin də icra olunurdu; gəlin ata evindən çıxarılanda iki kişinin ağız-ağıza verilmiş xəncərlərinin altından keçirilirdi. Görünür, bu ayin gəlinin şər qüvvələrdən qorunması məqsədilə icra edilirdi və dəmirə sitayişlə bağlı idi. Bu qədim bir türk ayinini xatırladırdı. Antik mənbələrin verdiyi məlumata görə, türk kağanını ziyarətə gələn elçi öncə iki atəş arasından keçirilərək təmizlənmişdi (228, 107). Şəki və onun ətraf kəndlərində də qonağı odun simvolu olan kömürün üstündən keçirib apararmışlar. Bu adət də od arasından keçirməni xatırladır (79, 167).

Azərbaycanın hər yerində yayılmış "Yol kəsdi" adəti ingiloylar tərəfindən də icra edilirdi. Gəlin karvanının yolunu kəsmək üçün gənclər yolun ortasına daşın üstünə çörək parçası qoyurdular. Təbii ki, gəlin atını çörəyin üstündən sürmək olmazdı.

Cilovdarın müşayəti ilə yola salınan gəlin bəy evinin qapısına çatanda burada da darvaza bağlanırdı. Darvazanın arxasında hündür bir dirəyin üstünə çıraq və ya boşqab qoyulardı. Adətə görə bu dəfə də gəlin tərəfdən bir nəfər nişangahı vurmalı idi. Ancaq bundan sonra gəlin və onu müşayət edənlər həyətə daxil olurdu. Görünür bu bəd ruhları dağıtmaq məqsədi güdürdü.

Gəlini oğlan evində içində bir neçə yanar şam, çörək, yağ-bal olan xonça ilə qarşılayırdılar. Gəlin evə daxil

olarkən həmin xonçanın içinə bir tüfəng də qoyaraq ona təqdim edərdilər. Bunlar gəlinin yeri gələrsə evi qorumağa da qadir olmasını ifadə edirdi (174, 34).

İngiloylarda da gəlin və bəy üçün şax bəzəmə adəti geniş yayılmışdı. Lakin ingiloyların şaxları bir qədər fərqli olurdu. Bəzədilmiş şaxın budaqlarına fındıqlar da yapışdırılırdı. Zaqatala rayonunun Yengiyan kəndində bəzədilmiş şax toyun axırında bəyin qarşısına, Əliabad kəndində isə gəlin üçün nəzərdə tutulmuş otağa qoyulurdu. Azərbaycanlıların toy adətlərində geniş yayılmış şax bəzəmə adəti ağac kultunun qalıqları idi. Yaz, yay aylarında və payızın əvvələrində toy edildikdə şax bəzəmək üçün kəsilmiş budağın yaşıl yarpaqları qoparılmırdı. Qış aylarında isə şaxı qırqovulu rəngli lələklərlə bəzəyirdilər (54).

Ümumiyyətlə, Azərbaycanın müxtəlif bölgələrində şax müxtəlif formalarda bəzədilirdi. Məsələn, Qarabağda şaxın budaqlarından taxıl növləri ilə doldurulmuş kisəciklər və şirniyyat asılırdı. Quba-Xaçmaz bölgəsində şaxın budaqlarına müxtəlif təzə meyvə, əsasən alma, armud keçirir, qoz ləpəsindən "rasa" adlanan düzümlər asırdılar. Şaxın orta dik budağına isə qızardılmış xoruz bərkidilirdi. Bu Çəki-Zaqatala bölgəsi üçün də xarakteik idi. Xoruz vəya toyuq məhsuldarlıq, zürriyət simvolu idi. Şaxın gövdəsini yerdə dura bilməsi üçün xaçvari düzəldilmiş taxtanın ortasındakı deşiyə keçirurdilər. Görünür, şax bəzədilməsi həm də qədim inanclar sistemində mühüm yer tutan "həyat ağacının" simvolu idi. Şəki-Zaqatala bölgəsində şax üçün qayın, armud, iydə, palıd və b. ağac budaqlarından istifadə olunurdu. Yalnız soyüd ağacından şax düzəldilmirdi, çünki söyüd barsız ağac sayılırdı (53, 256).

Gəlin bəy evinə girəndə ingiloylarda da balla bağlı ayin icra edilirdi. Bu zaman oğlanın anası boşqabda bir az bal gətirib gəlinin dodaqlarına sürtür, sonra da həmin qabı üzüqoylu yerə qoyur və gəlin sağ ayağı ilə həmin qabı



sındırırdı. Daha sonra oğlan anası gəlinin əlinə bir az xəmir, başına isə bir neçə barama qoyurdu.

İngiloyların qədim toy adətlərinin birinə görə gəlin oğlan evinə girəndə ocağa bir dəmir əşya atılar, od falına da baxılardı. Əgər dəmir ocaqda tez qızardısa, bəylə gəlinin xoşbəxt yaşayacaqlarına inanardılar (174, 48). Od, ocaq ruhu Azərbaycan, eyni zamanda türk inanclar sistemində mühüm yer tutur. Odla bağlı bu qədim ayini göytürklər də icra edirdilər. Bizans qaynaqlarından türklərin atəşə baxaraq gələcəyi öyrənməyə çalışdıqları, atəşlə fal baxdıqları məlumdur. Fala baxılarkən alovun şəklinə görə gələcək müəyyənləşdirilərdi (228, 107). Qədim türklərin ocağın başına toplaşaraq dəmir parçasını oçaqda qızdırmaqla xüsusi bir ayin icra etdikləri də məlumdur (228, 106). Qədim türk əfsanəsinə görə Ergenekon Dəmir dağı odla əridərək yeni həyata başlamışdır. Göytürklər bunun şərəfinə hər il yazda-yeni ilin başlanğıcında odda dəmir qızdırardılar. Göründüyü kimi, bu qədim türk ayini ilə yuxarıdakı ingiloy ayini arsında bir paralellik mövcuddur. Görünür, bəylə gəlinin evə girərkən ocağa dəmir əşya atması ayini yeni həyatın başlanğıcının şərəfinə icra edilirdi.

Xristian ingiloylarda adətə görə gəlinlə bəyi ata-anası sağ olan bir nəfər qarşılayaraq onlara şərbət verirdi. Bundan sonra içində qənd, şərbət, çörək olan xonçanı başına qoyur, sağ əlinə də şərab dolu qabı alaraq bəy və gəlini evin ocağının başına 3 dəfə dolandırardı. Bəzən bu ayinin icrasından sonra bəyin atası gəlinin adına şərab küpü açmaq üçün onu şərab anbarına da aparardı. Ümumiyyətə, xristian ingiloylar və udilərin xeyir-şəri şərabsız keçməzdi. Özlərinin üzümdən hazırladıqları şərabı küplərə yığaraq uzun müddət qalması üçün adətən həyətin bir tərəfində yerə basdırırdılar. Çox zaman uşaq doğulduğu ildən basdırılan şərab onun xeyir işində açılar-

dı. Gəlin yerə basdırılmış şərab küpünü tapmaq üçün bellə torpağa vurardı. Çıxarılan küpdən şərabı "*qotoşla*"[1] gümüş "*azarpaşalara*" töküb içirdilər (142, 158).

İngiloylarda "*buza*" adlı qədim içki növü də hazırlanardı. Bu içkini təkcə xristianlar deyil, müsəlman ingiloylar da içirdilər. "Buza" əsasən arpa, bəzən də buğda, darı və qarğıdalıdan çəkilib hazırlanardı. XIX əsr müəllifi A. Paserbski "hətta üzümdən də buza hazırlandığını yazırdı (175, 32). Bu içki növü türklərin də qədim içkilərindən biridir və "boza" adlanır.

**Toy libası.** Keçmişdə ingiloy gəlinlərinin başına da bölgə üçün səciyyəvi olan gümüş tac qoyular və üstündən ağ yaylıq salınardı. İngiloylarda toy-bayramlıq paltarın qollarının biləklərinə, ətəyinə və boyunluğuna rəngbərəng keçə sapdan toxunmuş ensiz və nazik şərid, yaxud "qıy" tikilirdi. Eyni bəzək elementinə xristian ingiloylarda da təsadüf olunurdu. Lakin onların paltarının ətəyi nisbətən qısa olurdu. İngiloylarm istər müsəlman, istərsə də xristian hissəsində toy libaslarında "meyzər" (önlük) ənənəvi və zəruri geyim elementi olmuşdur. Hətta bölgədə toylarda toy meyzəri ilə bağlı gəlin -qaynana deyişməsini əks etdirən belə bir mahnı da oxunardı:

Qaynana: Köynəyi təzə, **məzəri** təzə
Bir il keşsin, görəh, nə deyir gəlin bizə?
Gəlin: Köynəyim təzə, **məzərim** təzə
Özümə yer eyləyim, gör, neylərəm sizə!.. (83, 342).

Toy meyzəri bahalı ipək parçadan, bəzən isə varlı ailələrdə məxmər və ya gülməxmərdən tikilirdi, güləbətın, bafta və asma gümüş sikkələrlə bəzədilirdi. Gündəlik

[1] *Qotoş adətən kududan düzəldilən çömçəsuyağı qab idi. Kudunu quruduqdan sonra iti bıçaqla uzununa tən yarı bölürdülər, hər parçadan bir qotoş düzəltmək olurdu. Qotoşun saplağına ağac dəstək keçirir, gövdəsinin üstünü kəsib ağızlıq düzəldirdilər (59, 130).*



meyzərdən fərqli olaraq toy meyzərinin yaxası xeyli aşağıda dayanırdı. Adətə görə gəlin gedən qız üçün toy libasının tərkibində gümüş zinətlərlə süslənmiş bahalı ipək və ya məxmərdən meyzər olması toy tədarükünün vacib şərtlərindən idi (59, 143). Toy meyzərinin beli meyzər bağı və ya gümüş kəmərlə bağlanırdı. Bu halda onu xüsusi sifarişlə zərgərə düzəltdirilmiş gərdənbənd (*gümüş boyunbağı*) vasitəsilə boyundan asırdılar (şəkil 32, 33, 34, 35).

Meyzər bağı Zaqatala bölgəsində "*bel bağı*" kimi də tanınırdı (şəkil 31). Bel bağı maddi imkandan asılı olaraq metal və ya gümüşdən ola bilərdi. Belbağının ucunda iri düymələr olurdu ki, meyzər buna bərkidilirdi (147, 160). Bel bağı yalnız Şəki-Zaqatala bölgəsinə məxsus spesifik bir bəzək forması idi.

İhgiloylar meyzərlə "*qazayağı*" adlanan spesifik sinə bəzəyi taxardılar (şəkil 32, 33). Bu gümüş bəzək əşyası meyzərin (önlüyün) boyundan asılan bağlarını əvəz edirdi. Yumru medalyona qalın zəncirlərlə üç medalyon bərkidilirdi. Bu medalyonlar da xüsusi qarmaqlarla önlüyə keçirilirdi. Bu sinə bəzəyi öz formasına görə qaz ayağını xatırlatdığı üçün elə qazayağı adlanırdı.

Meyzərə bağlanan sinə bəzəyinin bir başqa forması isə "*ilgək*" adlanırdı (şəkil 35). Bu bəzək əşyası gümüş pullardan tor formasında olurdu və qarmaqlarla meyzərə bağlanırdı. "İlgəyin" yuxarı hisəsindəki uzunsov formalı hissəyə də bir cərgə pul bərkidilirdi. Bu bəzək bütün sinəni tuturdu və ancaq meyzərlə birgə taxılırdı (147, 155).

İngiloyların toy mərasimlərində düyməçə də meyzər qədər zəruri atributlardan biri idi. El adətinə görə, düyməçəsiz və meyzərsiz gəlin köçürməzlərmiş (59, 143). İngiloyların ailə və məişətini təsvir etmiş XIX əsr müəllifi fon-Plotto ingiloylarda gəlin geyimi haqda yazırdı ki, başlarını düyməçə ilə örtür, bunun üstündən isə ağ örpəkdən duvaq salırdılar. Duvağın üstü isə üzərinə xırda pul-

cuqlar bənd edilmiş gümüş zəncirlərlə bağlanırdı 174, 25). Yuxarıda da qeyd eydiyimiz kimi, düyməcə bölgə əhalisinin ənənəvi, spesifik baş geyimi idi. Azərbaycanın digər bölgələrində düyməçəni çütqu əvəz edirdi. İngiloyların geydiyi düyməcə biçim tərzinə görə Azərbaycanda geniş yayılmış təsəyi və araxçını xatırlatsa da bir qədər fərqli olaraq onun təpədən arxaya olan hissəsi bütöv deyil, üçbucaq formasında biçilirdi. Hər tərəfdən 3 ədəd üzəngi vasitəsilə arxa tərəfdən kəlləliyin yanlarına birləşdirilirdi (şəkil 23). Adətən qadınlar saçlarını düyünçələyib düyməçənin içinə yığırdılar. Görünür, elə bu səbəbdən də ona "düyünçə" sözündən götürülmüş ad verilmişdır (59, 145). İngiloylarda düyməçənin mahud[1] və ya tumacdan[2] düzbucaqlı formada biçilmiş kəlləliyinin ön hissəsi bir neçə qatar gümüş zəncirlə bəzədilirdi. Hər birinin üzərindən gümüş sikkə və ya qoza "düymə"lər asılmış zəncirlərin ucları hər iki tərəfdən gicgahının üzərinə sallanırdı (59). Tumaçdan olan kəlləliyin üzəri xüsusi muncuqlarla bəzədilirdi (bax şəkil). Adətən varlı ailələrdə gəlinin düyməçəsinə zərgərə xüsusi sifarişlə düzəldilmiş qızıl və ya gümüşdən "qoza düymələr" bənd edilirdi. Kasıblar isə düyməçənin zəncirlərinə qulaqlı gümüş pullar bənd edərdilər. Düyməçəni başa elə qoyurdular ki, saçlar onun altından görünməsin. A. fon-Plotto yazırdı ki, ingiloy qadınları saçlarını bir neçə hörüklə hörür, gicgahlarından isə bir cüt birçək sallayırdılar.

İngiloylar gəlinlərinin baş geyimində alabəzək, güllü örpək növü olan "gülbəndi"nin də olması toy libasının vacib şərtlərindən idi. Türklərdə buna tülbəndi deyirlər.

---

[1] *Yüksək keyfiyyətli yun parça növüdür.*

[2] *Tumac – aşılanmış qoyun dərisidir. Adətən tumac təbii yollarla alınan rənglərlə-sarı, qırmızı, yaşıl və s. rənglərlə rənglənir. Tumacın üzərinə çox vaxt gül də salınır. Vaxtilə Azərbaycanın xarici ölkələrə olan əmtəə ixracında tumac mühüm rol oynamışdır.*



Gülbəndi gəlinin düyməçəsinin üstündən bağlanırdı.

Qeyd etmək lazımdır ki, ingiloyların ənənəvi gəlin libasının düyməşə, gülbəndi kimi atributlarının azərbaycan dilində olmasından görünür ki, vaxtilə bu ənənəvi baş geyimi bölgənin türkdilli əhalisi üçün xarakterik olmuşdur.

**Üzə çıxdı mərasimi.** Gəlin toydan 3 gün sonra üzə çıxarılırdı. Toyun üçüncü günü axşam bəyin evinə kəndin kişiləri dəvət edilirdi. Bu məclisdə qız tərəfdən də iki kişi iştirak edirdi. Bu nümayəndələr "*menzanaqe*" adlanırdılar. Bu qonaqlıqda onlar hərəsi bəyin bir tərəfində otururdular. Keçmişdə ingiloyların "üzəçıxdı" mərasimi zamanı verilən bu qonaqlıqda əyləncəli bir adət də icra edilirdi: Bu zaman bəyin ayaqqabılarını oğurlayardılar. "Menzenaqe"lər isə haqq verib bəyin ayaqqabılarını almalı idilər. Üzəçıxma mərasimi zamanı bəyin əmisi və ya dayısı ona müəyyən məbləğ pul bağışlamalı idi. Bundan sonra sağdış məclisdə oturanlara elan edərdi ki, bu gecədən bəy bərabər hüquqlu kişidir, gəlin də camaatımızın üzvüdür. Həmin axşam oğlanın anası hər yengəyə bir "xon" bağışlamalı idi. İngiloylar xonçanı "xon" kimi tələffüz edirdilər. Maraqlıdır ki, Azərbaycanın qədim ailə məişətinin bəzi ənənələrini əks etdirən XIII əsrə aid **"Dastani-Əhməd Harami"** poemasında: "Naiblər o saat xonlar gətirdi" misrasında da xonça sözü xon kimi ifadə edilmişdi (8). Beləliklə, yengələrin hədiyyəsi verildikdən sonra bəy sağdışı ilə məclisi tərk edirdi. Onun ardınca qız tərəfdən olan kişilər də durub gedirdilər. Bundan sonra yengələr gəlini məclisə gətirirdilər. Məclisdəkilər növbə ilə gəlinə hədiyyə, pul verirdilər. Yığılan pul gəlinin şəxsi mülkiyyəti olurdu. Gəlin də öz növbəsində məclisdəkilərin hər birinə yaylıq bağışlayırdı.

" Üzəçıxma" gecəsinin səhəri qız evindən bir neçə qadın gəlini görməyə gəlirdi. Bu mərasim "Səhər aşı" adlanırdı. İngiloylarda bəzən 3 gündən sonra gəlinin "çay süzdü"

mərasimi də keçirilirdi.

**Nikah qaydaları.** Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz dövrdə ingiloylar arasında da yalnız ekzoqam nikah qaydası təqdir edilirdi. Lakin, bununla bərabər, ingiloylar əsasən öz aralarında nikah bağlayırdılar. Yəni ingiloyların kənarda, qeyri-ingiloylarla nikaha girməsi kütləvi hal olmayıb (34, 22). Yəni ingiloylar arasında milli-qarışıq nikahlar çox yayılmGöründüyü kimişdı.

XIX–XX əsrlərdə Şəki-Zaqatala bölgəsində çar müstəmləkəçilərinin "parçala, hökm sür!" ideyası ilə eyni kökdən olan müsəlman ingiloyların arasına dini ayrılıq salınması nəticəsində Zaqatala rayonu ərazisində yaşayan müsəlman ingiloylarla Qax rayonu ərazisindəki xristian ingiloyların mürəkkəb nikah münasibətləri yaranmışdı. Bu, Rusiya imperiyasının milli-müstəmləkə siyasətinin acı nəticəsi idi. XIX əsrdə başqa dindən evlənməyə müsəlman əhali arasında yol verilmədiyi üçün, bölgədə yaşayan azəri türkləri, avarlar, saxurlar ingiloylarla, hətta onların islam dinini qəbul edənləri ilə də evlənmirdilər. Çöl materialları topladığımız zaman, yaşlı məlumatçılarımızın dediklərindən məlum oldu ki, qarışıq nikahlar yalnız müsəlman əhali arasında mümkün idi. Yerli əhali müsəlman ingiloyların da dədə-babalarının keçmişdə xristian olduğunu əsas gətirərək belə nikahları rəğbətlə qarşılamırdılar. Ümumiyyətlə, XIX əsrdə Azərbaycanda başqa dindən olanlarla evlənmək mənfi hal sayılırdı və belə nikahdan doğulan uşaqlar xalq arasında "tumsuz" adlanırdı. Buna görə də avarlar, saxurlar, rutullar arasında keçmişdə belə nikahlara yol verilmirdi. Bunun nəticəsində də XIX əsrdə bölgədə müsəlman ingiloy oğlanlar həm azərilər, həm də azsaylı xalqlardan olan qızlarla evlənməyə meylli olsalar da, belə nikahlara ehtiyatla yanaşılırdı və müsəlman ailələr öz qızlarını hətta müsəlman ingiloy oğlanlara verməkdən çəkinirdilər. Eyni səbəbdən müsəlman ingiloy qızlar



da yalnız müsəlman ingiloy oğlanlarla, bəzən də xristian ingiloylarla ailə qururdular. Xristian ingiloy oğlanlar isə müsəlman ingiloy qızlarla bərabər əslən gürcü olan qızlarla evlənirdilər. Buna gürcü xristian mərkəzinin tabeliyində olan ingiloy kilsəsi də hərtərəfli kömək edir və bu nikahları təbliğ edirdilər. Çox zaman xristian ingiloy oğlanlarla evlənən müsəlman ingiloy qızlar da xristian dininə keçərək sənədlərində gürcü kimi qeyd olunurdular. Gürcü xristian mərkəzindən dəstək alan ingiloy kilsəsi hətta belə nikaha girənlərə maddi yardım da göstərirdi. Bu ənənənin əsası məhz XIX əsrdən Rusiya imperiyasının Qafqazda möhkəmlənmək siyasətinin başlandığı dövrdən qoyulmuşdur. Müstəmləkəçi Rusiya imperiyası guya xristian gürcü mədəniyyətinə sahib çıxmaq və Qafqazın qədim xristian mədəniyyətini bərpa etmək pərdəsi altında ingiloylar arasında dini və milli zəmində parçalanmaya yol açmaqla bərabər onların etnik kimliyini də təhlükəyə atdı.

**Milli-qarışıq nikahlar.** Göründüyü kimi, XIX–XX əsrlərdə Şəki-Zaqatala ərazisində yaşayan ingiloyların dini mənsubiyyətcə xristian və islama ayrılması qarışıq milli nikahlar üçün mürəkkəb vəziyyət yaratmışdır. Zaqatala rayonunda müsəlman ingiloyların yaşadığı kəndlərdə məlumatçılarımızın söylədiklərinə görə gürcü xristian kilsəsi ingiloyların arasında apardığı xristianlaşdırma siyasətini XIX əsr – XX əsrin əvvəllərində, həmçinin sovet dövründə də davam etdirmiş və xristian ingiloyların Gürcüstanda təhsil almasına maddi yardım göstərən gürcü xristian mərkəzi xristian ingiloylar arasında ziyalı təbəqənin artmasına çalışmışdır.

XIX–XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsinin əhalisi arasında mövcud olan nikah formalarının təhlili göstərdi ki, azərilər arasında həm ekzoqam, həm də endoqam nigahlar və eyni zamanda endoqam nikahların

bütün formaları (əmiuşaqları; xalauşaqları, dayıoğlu-bibiqızı; bibioğlu-dayıqızı) olduğu halda, avarlarda, saxurlarda, rutullarda endoqam nikahlara bəzi hallarda yer verilirdi, ləzgilərdə də isə daha çox endoqam nikahlar yayılmışdı. Xristian dinli udi və ingiloylar arasında isə ekzoqam nikahlara ciddi şəkildə riayət edilirdi.

Yuxarıda deyilənlərdən aydın olur ki, Şəki-Zaqatala bölgəsində keçmişdə nikahın həm endoqam, həm də ekzoqam formaları mövcud olmuşdur. Bölgədə qız qaçırma halları olsa da geniş yayılmamışdı və əhali tərəfindən təqdir edilmirdi. Bölgədə yaşayan milli azlıqlar və azərilər arasında, həmçinin bu milli azlıqların öz aralarında qarışıq nikahlar isə əsasən XX əsrin əvvəllərində inkişaf etmişdir. Belə nikahların da öz növbəsində spesifik xüsusiyyətləri var idi. Bu nikahlar bölgədə məskunlaşan xalqların bir-birinə daha çox qaynayıb qarışmasına şərait yaradırdı. Eyni zamanda bölgədə yaşayan ingiloyların da dini zəmində parçalanması bu etnosun nikah münasibətlərində də ziddiyyətlərin meydana çıxmasına səbəb olmuşdu.

Beləliklə, XIX–XX əsrin əvvəllərində Azərbaycanın Şəki-Zaqatala bölgəsində qədim evlilik mərasimlərinin zəngin simvolika, folklor, oyunlar, rəqslər, tamaşa-oyunlar, zorxanalar və s. ilə müşayət olunduğunu izlədik. Bölgənin regional xüsusiyyətlərini qoruyub saxlamış bu mərasimlər qızbəyənmə, gözaltı, elçilik, ağızbilmə, sözkəsdi, çörəkkəsdi kimi bir çox mərhələlərdən ibarət olub yançı, balboğan, başıbütöv, toybaşı, çardaqçı və s. kimi spesifik iştirakçıları olan, qədim inancların izlərini özündə qoruyan bir çox ayinlərin icra edildiyi zəngin bir mənəvi mədəniyyət xəzinəsi idi. Məhz bu mərasimlərdə mənəvi mədəniyyətimizin etnik spesifikliyi və regional xüsusiyyətləri daha aşkar izlənir.



## III FƏSİL
## DOĞUM MƏRASİMLƏRİ

Doğum mərasimləri doğuma qədər, doğum zamanı və doğumdan sonra icra edilən ayinlər toplusudur. Doğumla bağlı adət və inamların etnoqrafik materiallar, eyni zamanda yazılı mənbələr əsasında təhlili mənəvi mədəniyyətimizin, xüsusilə də xalq inamlarının- qədim inanclar sisteminin öyrənilməsində ciddi mənbələrdən biridir. Adət və inancların ən arxaik formasını özündə ciddi şəkildə qoruyub saxlaya bilmiş doğum mərasimləri xalqın qədim dünygörüşlərini, dini-mifik təsəvvürlərini müəyyənləşdirməyə imkan verir.

İnsan həyatının başlanğıcı olan doğum, nəsil artırma, uşaqların ailədə tərbiyəsi ailənin bünövrəsinin möhkəm olmasına və ailə daxili münasibətlərə təsir edən amillərdən biridir. Evliliyin bünövrəsi qoyulan andan insanlar dünyaya övlad gətirmək, nəsil artırmaq arzusunu ifadə edən bir sıra ayin və adətlər icra etməyə başlayırlar. Hələ qız bəyənilməsi, elçilik mərasimlərində qismət simvolu kimi verilən almanın həm də övlad arzusunu ifadə etdiyini bir çox folklor nümunələrimizdən görmək mümkündür. Gəlin köçərkən ona "oğullu-qızlı olsun" deyə xeyir-dua verilməsi, qucağına oğlan uşağının verilməsi, ər evində duvağının barlı budağa, xüsusilə də alma ağacının budağına atılması kimi adətlərdə də yeni ailəyə övlad arzusu ifadə edilirdi. Azərbaycan-türk ənənəsinə görə övladı olmayan ailə el tərəfindən də yaxşı qarşılanmırdı, "sonsuz" adlandırılırdı. Məlumdur ki, qədim türk kəlməsi olan "*sonq*" "nəsil, övlad, oğul", "*sonqsuz*" isə övladsız demək idi (*-nq azərbaycan dilində arxaizmdir və müasir azərbaycan dilində "q" səsi istifadə olunmur* (118, 98.) Dədə Qorqud dastanında da övladı olmayanlar üçün

"oğlu-qızı olmayanı Allah-taala qarğayıbdır, biz dəxi qarğarız" deyə söylənməsi, sonsuzlar üçün qara otaq ayrılması xalqın övladsız ailəyə münasibətini əks etdirir.

**Azərbaycan türkləri.** XIX-XX əsrn əvvəllərində Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də çoxuşaqlı ailələr daha xoşbəxt və bünövrəsi möhkəm ailə sayılırdı. Ailədə uşağın çox olması ailə üçün başucalığı sayılırdı. Adətən belə ailələrdə boşanma halları olmurdu. Xüsusilə də, ailədə nəslin davamçısı və evin dayağı kimi oğlan övladına daha çox üstünlük verilirdi. Bu ənənə xalqın" 7 oğul istərəm, bircə dənə qız gəlin" xeyir-duasında da öz əksini tapmışdır. Azərbaycanın bir çox yerlərində olduğu kimi, bölgədə də sağlam övladlar yetişdirən və ailəsi heç bir zaman dağılmayan qadın ailə böyük hörmətə sahib olurdu. Bölgədə "Başı bütöv" adlanan belə qadın ailə mərasimlərində xüsusi rol oynayırdı. Sonsuz ailə, xüsusilə də sonsuz qadın isə hər zaman uğursuz sayılırdı. Sonsuz qadın "çilləli" olduğu üçün yeni doğulmuş körpənin və hamilə və ya zahı qadının yanına buraxılmazdı. Şəki-Zaqatala bölgəsində yayılmış inanca görə sonsuz adam səfərə çıxan adamın qarşısına çıxarsa, səfər uğursuz olar (6, 390).

Buna görə də doğum mərasimlərində sonsuzluğun qarşısını almaq, xüsusilə də oğlan övladı dünyaya gətirmək istəyilə icra olunan bir sıra adətlər, ayinlər mühüm yer tutur.

**Sonsuzluğa qarşı ayinlər**. Azərbaycanın hər yerində olduğu kimi Şəki-Zaqatala bölgəsində də sonsuzluğa qarşı bir sıra ayinlər icra edilirdi. XIX–XX əsrin əvvəllərində icra edilən bu doğum mərasimləri daha çox dini-magik mahiyyət daşıyırdı. Bölgədə övladı olmayan qadınlar Gömrad (GöyMurad – M. P) (Qəbələ r-nu), Armatay (Zaqatala rayonu) dağlarına, Pəriqala, Kürmux (Qax rayonu), Toyuqqıran piri, Sarılıq piri, Çillə piri kimi



ziyarətgahlara gedərək nəzir deyib qurban kəsdirirdilər. Sonsuzluğa qarşı müxtəlif türkəçarələr etdirir, magiya xarakterli bir sıra ayinlər icra edirdilər.

Qəbələ rayonu ətrafında yerləşən və xalq arasında "Gömrad" kimi tələffüz edilən Göy Murad dağı hazırda da bölgə əhaisinin sonsuzluğa qarşı, qorxuluğu götürməyə və bir çox dərdlərdən qurtulmaq üçün pənah apardığı ziyarətgahdır (şəkil 30 d). Məlumdur ki, göy əski türkdilli xalqlarda müqəddəsliyi, həm də Tanrını ifadə etmişdir (79, 45). Görünür, bu qədim inamın təsiri ilə yerli əhali müqəddəs hesab etdiyi və göylərə ən yaxın yüksəklik kimi, Tanrı kimi sitayiş etdiyi bu dağı Göymurad adlandırmışdır. Yerli əhali bu dağa övlad üçün nəzir deyib qurban kəsməklə göylərdən"murad", yəni övlad diləyirdi. Göymurad dağında müqəddəs bir daş da var. Övladı olmayanlar buranı ziyarət edərək qarınlarını bu daşa sürtərdilər və bura beşik qoyardılar. Gömrad pirinə qorxmuş, müxtəlif xəstəliklərə düçar olmuş, və ya xəstə doğulmuş uşaqlar, eyni zamanda böyüklər də şəfa tapmaq üçün gələrdilər.

Bölgədə geniş yayılmış qədim ənənəyə görə övladının oğlan olmasını diləyən ana doğulacaq körpənin saçını Gömrad dağına nəzir deyir. Bir neçə qızdan sonra və ya çox çətinliklə doğulan oğlan uşağının saçı niyyət edilərək arxa hissədən kəkil kimi uzadılıb 7 il və ya sünnət olunana qədər kəsilmir. Daha sonra bu saçı Gömrad ziyarətgahında kəsərdilər. Xalq arasında yayılmış inama görə guya bu kəkilə görə pis ruhlar oğlanı qız bilib ona toxunmayacaqlar. Bu saç bölgə əhalisinin doğum inancları ilə bağlı ən nüfuzlu ziyarətgahı sayılan Göymurad pirində nəzir paylayıb qurban kəsdikdən sonra kəsilir. Maraqlıdır ki, bu adətə Şahdağ etnik qrupuna aid edilən xınalıqlar arasında da rast gəlinir (75). Türkdilli xalqlardan olan kumıklar arasında da bu ayin icra edil-

məkdədir. Qədim kumık inancına görə, kəkil yuxarıda Allahın bu uşağı nəzərdən qaçırmaması, hifz etməsi üçündür (164). Orta Asiya türklərində bu ayin icra edilməkdədir. Özbəklərdə və türkmənlərdə də yaşamayan oğlan uşağının saçı qırxılarkən arxasında müəyyən bir hissə saxlanaraq uzadılar və hörük hörülər. Uşaq 7 və ya 9 yaşına çatdıqda nəzir deyilmiş pirə gedilib qurban kəsildikdən sonra bu saç kəsilir (226, 120). Bu adət türk dünyasının bir çox yerində olduğu kimi İraq türkmənlərində də vardır (226, 264).

Azərbaycanın bir çox yerləində olduğu kimi Şəki-Zaqatala ərazisində də **ağac doğum pirləri** mövcuddur. Balakən rayonunun Katex kəndində əhalinin pir kimi ziyarət etdiyi böyük bir dağdağan ağacı var. Bura xəstə övladı olan və ya övladsız ailələrin ümid yeri olan pirdir. Bu ziyarətgahdakı ağacın ortasında nəhəng təbii oyuq var. Ətraf kəndlərdən geç yeriyən, geç dil açan uçaqlar, sonsuz qadınlar şəfa tapmaq üçün buraya gətirilir, niyyət edilərək ağacın oyuğundan keçirilir, dağdağan ağacının onlara kömək olacağına inanardılar. Məlumdur ki, bir çox türk xalqları uşaqları, hətta heyvanları şər ruhdan qorumaq üçün boyunlarından dağdağan ağacının parçasını asardılar. Inanarmışlar ki, "bu gözəl, böyük ağac" qəbilənin, soyun, xalqın qoruyucusudur (78, 31).

Bölgədə, dağdağan ağaçı ilə bərabər şümşad (nil), qoz, fındıq ağacları da müqəddəs sayılırdı. Qoz-fındıq bölgə əhalisinin qida mənbəyi olduğu üçün pirlərin bir çoxu bu ağacların altında yerləşirdi. Hətta uşağın beşiyi də bölgədə məhsuldarlıq simvolu olan qoz ağacından düzəldilirdi (şəkil 6).

Yerli əhalinin söylədiyinə görə keçmişdə Qəbələnin Mıxqovaq kəndində qovaq ağacının altında da pir olub. Buranı ziyarət edənlər ağaca mıx vurardılar. Kəndin adı da bununla bağlı olaraq Mıxqovaq qalıb.



Bölgədə ağac pirlər əsasən uşaq-doğum pirləri olsa da qızdırma, öskürək, sarılıq və s. xəstəliklərlə bağlı ziyarət edilən müqəddəs ağaclar da var idi. Belə ziyarətgahlarda xəstə müqəddəs ağacın başına 3 dəfə dolanıb ağacın altından torpaq götürərək su ilə qarışdırıb içməli, daha sonra paltarlarından bir parça qopararaq ağaca bağlamalı idi (211, 145). Məlumdur ki, Altay türkləri də müqəddəs ağaclara ağ, qırmızı, göy rəngli parçalar bağlayırdılar. Qam-şaman görüşünə görə hər bir ailənin öz ağacı var. Belə ağaclar parça bağlayan şəxsin ailəsini pis ruhlardan qoruyur. İnama görə bu ağacın ruhu insanın taleyini himayə edir (78, 24–27). Bölgədə indi də belə parçalar bağlanmış ağaclara rast gəlinir. Bölgədə avarlar "müqəddəs" palıd ağacına xırda daşlar bağlayırdılar. İnama görə bu daşlar onları ağacdan asan adamı əvəz edirmiş.

Gəlinin övladının olmaması xalq arasında "cilləyə düşmək" kimi izah olunurdu. Belə qadını "çillədən azad etmək" üçün Şəki-Zaqatala bölgəsində "Cillə piri" adlanan yerə də aparar və orada nəzir deyərdilər.

Sonsuzluğa qarşı bölgə əhalisi tərəfindən bir çox türkəçarələr və ovsunlar da edilirdi. Məsələn, qara qoyun və ya qara toyuq qanı ilə cindara dua yazdırırdılar, qırx evdən cındır toplayaraq yandırır və tüstüsünü qadına verirdilər; itin kəlləsini (skeletini) suya salıb qadını bu suda çimdirirdilər; "kösöv göyərdərdilər"-bir kösövü üç yol ayrıcında basdırıb deyirdilər ki, burada sən göyər, evdə mən; 40 qəbrin üstündən götürülmüş torpağı suya salır və üç çərşənbə günü qadını həmin suda çimdirirdilər; evdə qadın kişi ilə yatdığı yastığı dəyişdirərdi; 40 çəpər payası dibindən (bəzi hallarda 40 qəbirdən) götürülmüş torpağı suya salaraq sonsuz qadını həmin suda çimdirirdilər; ölü yuyulmuş taxtanı iki qadın qaldırır, uşağı olmayan qadını onun altından keçirərdilər; sonsuz qadını ölü yuyulmuş əlcəyin salındığı suda çimizdirərdilər və s.

Bu ayinlərdə aldadıcı ovsun, totemizm, əcdad kultu kimi qədim inancların izləri özünü göstərir.

**Bölgənin** ailə mərasimlərində xüsusi yer tutan alma Azərbaycan, o cümlədən türk qədim inanclarında sevgi, birləşmək simvolu olmaqla bərabər, həm də ailənin təməli olan övlad, çoxalma simvoludur. Almanın müqəddəsləşdirilməsini, övlad, qismət simvolu olmasını ortaq türk mədəniyyətinin misilsiz incilərindən olan "Manas" dastanında da görmək mümkündür. Manas dastanında sonsuz qadının "almalı yerləri" ziyarət etməsi ilə övladı olacağına inanılırdı. Cakır xanın öz xanımına övladı olmadığı üçün sitəm edərək: "Məzarlı yerləri, ... ziyarət edib almalı, kutlu yerlərdə yuvarlanmadın" deyir (231, 8). Bu ifadədən almalıq yerlərin müqəddəs sayıldığı, almanın övlad simvolu olduğunu görürük. "Manas" dastanında qızıl alma həmçinin qismət bildirir və yuxuda qızıl alma görmək qız övladın olacağı deməkdir (85, 192). Göründüyü kimi, alma xalq yuxuyozmalarında da övlad demək idi. Qədim türk dastanlarında olduğu kimi nağıllarımızda da övladsız qadınlara yuxuda dərvişin və ya nurani bir kişinin verdiyi almadan sonra övlad sahibi olması ideyası Şəki-Zaqatala bölgəsinə məxsus folklor nümunələrində də öz əksini tapmışdır. Bölgənin yuxuyozmaları ilə bağlı flklor nümunələrində alma qismət, övlad rəmzi idi, yuxuda alma verilməsi ailənin övlad payı alacağı, qismət kimi yozulurdu. Alma ilə bağlı bölgədə yayğın olan yuxuyozmasına görə, "əgər yuxuda alma görüb yeməmisənsə, demək qismətini əldən vermisən"demək idi (6, 394).

**Doğum öncəsi.** Bölgədə hamilə və ya zahı qadın umsunduğu zaman[1] el adətinə görə yeddi evdən ərzaq yığılır. "*Umma*" adlanan bu ərzaqlardan xörək bişirilir. Xəstənin kürəyinə yumruqla yavaşca vurub xörəyi ona yedirirlər.

[1] *Evlərində və ya qonşuda bişirilən xörəkdən ürəyi istəyib yemədikdə xəstələnməsi və ya başqa təbirlə "şişməsi".*



Şəki-Zaqatala bölgəsində bətndəki uşağın qız və ya oğlan olmasını müəyyən etmək üçün hamilə qadın iynəyə sap salaraq onu halqa üzüyün içərisindən keçirib ovcunda tutur. Əgər iynə çevrə şəklində hərəkət edərsə oğlan, saat kəfkiri kimi hərəkət edərsə qız olacağına, iynə hərəkətsiz qalarsa uşağı olmayacağına inanarlar. Bölgənin yuxu yozmalarında da uşağın cinsiyyəti ilə bağlı inamlara rast gəlinir. Məsələn, hamilə qadının yuxusunda güllü parça görərsə qızı, ilan və ya at görərsə oğlu olacağı kimi yozulardı (6, 392–394).

**Doğum ayinləri.** Keçmişdə evdə doğan qadına bu işdə xüsusi səriştəsi olan qadınlar kömək edirdilər. Azərilər ona "mamaça" deyirdilər. Qeyd etmək lazımdır ki, qədim şumerlərin də döğum və məhsuldarlıq ilahəsi Mami adlanırdı. Mamaca bir çox türk xalqlarında doğuş zamanı hamilə qadına yardım edən xüsusi qadına deyilirdi. Xüsusilə də, Orta Asiy türklərində "momo" ruhuna inam geniş yayılmışdır. İnama görə bu ruh qadın əcdadlarının ruhudur və mamaçalara – xüsusi olaraq seçilmiş qadınlara onların spesifik məşğuliyyətlərində kömək edir (138, 114).

Hamilə qadının rahat azad olması üçün bölgədə bir sıra ovsunlar və ayinlərə riayət edirdilər. Bum kəndindən olan məlumatçımızın söylədiyinə görə, hamilə qadın azad olanda kişi öz evində qalırdı ki, hal anası adlı pis ruh evə girməsin, çünki bu ruh kişilərdən qorxur. Bu zaman qadının hörüklərini, bütün düyünləri, evdə olan kilidləri də açardılar. Inama görə belə olduqda qadın rahat azad olar. Şəki-Zaqatala bölgəsində azərilər körpəni və ananı hal anası və ya hal arvadından qorumaq üçün tüfəng də atardılar ki, hal anası səsdən qorxsun. Bundan başqa körpənənin başı altına dəmir əşya qoyurdular. Bəzən doğan qadını haldan qorumaq üçün başına papaq da qoyardılar. Bu barədə XIX əsrin ortalarında A. Zaxarov

da məlumat verirdi (141, 46).

Şəki-Zaqatala bölgəsində "hal" cox zaman ağ paltarlı, uzun, və ya sarıbənizli, uzun dırnaqlı, bürüşmüş əlləri olan bir varlıq kimi təsvir olunurdu. Şəki rayonunda isə hal ruhu xalqın mifik təsəvvürlərində daha spesifik formada -keçi, pişik, xoruz şəklində də özünü biruzə verir. Əhali arasında qeydə alınmış folklor mətnlərində Hal bəzən keçi şəklində olub hamilə qadın yatarkın onun körpəsini öldürür, bəzən qara pişik şəklində zahı qadının gözünə görünərək onu qorxudur, bəzən də böyük xoruz şəklinə düşüb zahının ciyərini dimdikləyib suya salır (84).

XIX–XX əsrin əvvəllərində Azərbaycanın bir çox bölgələrində olduğu kimi Şəki-Zaqatala bölgəsində də Azərbaycan türklərinin adətinə görə, körpə doğulduqdan sonra mamaça cifti (çox zaman ona "son" və ya "uşağın yoldaşı" da deyirdilər) evin döşəməsində basdırırdı. Bu da qədim inanclarla bağlı idi. Türk dünyasında yayqın olan bir inama görə uşaq göbəyinin parçasının atıldığı yerə bağlı olacaqdı (227, 258). Görünür, göbəyin döşəmədə basdırılması uşağın evinə, ocağına bağlı olması arzusunu ifadə edən bir adət idi. Bu qədim inamın qalıqları xalq arasında geniş yayılmış: "Elə bil göbəyini burda basdırıblar" ifadəsində də özünü biruzə verir. Bölgədə həm azərilər, həm də avar, saxur və ləzgilərdə uşaq anadan olan kimi bədəninə az miqdarda narın duz səpmək adəti olmuşdur. Bu adət Dağıstanda məskun olan arçinlərdə də mövcuddur (185, 155). Bölgənin bəzi kəndlərində körpəni göbəyi kəsilən kimi ılıq duzlu suya da salırdılar. Görünür, xalq arasında yayılmış "duzsuz adam" ifadəsi də bu adətlə bağlıdır.

**Doğum sonrası**. Doğulan körpəni pis ruhlardan qorumaq üçün başının altına dəmir əşya qoyardılar. Belə bir inam var idi ki, pis ruh dəmir əşyadan qorxur. Odur ki, zahı ananın da döşünə iynə və ya sancaq taxırdılar. Doğumdan sonra 40 günü keçməmiş qadınlar çilləli sayılırdılar. Bölgədə yayılmış inanca görə "oğlan uşağı doğmuş zahı qadının "qəbrinin" (rəmzi mənada) üstü bir il, qız uşağı doğmuş zahının "qəbrinin" üstü altı ay açıq olur" (6, 392). Yəni həmin müddətdə zahı qadının qorunması gərəkdiyinə inanılır.



Adətə görə doğuş vaxtı və doğuşdan sonra 40 gün ərzində sonsuz qadınlar və ya uşağı ölmüş qadınlar bir ili tamam olmamış təzə uşaq doğulmuş evə gələ bilməzdilər. Belə qadınlar da çilləli sayılırdılar. Xalq arasında yayılmış inama görə isə "çilləsi çıxmamış" iki qadın üz-üzə gəlməməli idi. Belə halda uşaqlardan biri cilləyə düşə bilərdi. Lakin cilləli qadınlar təsadüfən üz-üzə gəlsə idilər, yaxalarındakı sancaqlarını bir-biri ilə dəyişməli idilər. İnama görə bu körpələri çillədən qoruya bilərdi. Qırxı çıxmamış analar və uşaqlar Anadoluda, İraqda da bir araya gətirilməz, "qırxların qarışacağı"na inanılar (226, 113).

Azərbaycan türklərində yeni doğmuş qadının yanına gedən qohum-qonşu halva, quymaq bişirib aparadılar. Adətə görə, zahının yanına əliboş gəlmək olmazdı, qonşuda iyi çıxan bir yemək, məsələn, çörək bişirildikdə zahıya mütləq pay göndərilməli idi, yoxsa zahı "umsuna" bilərdi. Zahı qadına ballı quymaq verilərdi. Adətə görə qaynana böyük bir qabda halva çalıb paylayardı. Zahı yanına çiy ət, ət xörəyi aparmaq olmazdı. Körpə olan evə əli tüfəngli adam girə bilməzdi.

**Bədnəzərə qarşı ovsunlar**. Bölgənin əhalisi arasında körpəyə, xüsusilə də oğlan uşağına gözdəyməyə qarşı bir cox ovsun səciyyəli ayinlər icra edilirdi. "Nəzərə, gözə gəlmək" inamı Azərbycanın hər yerində olduğu kimi bölgədə də geniş yayılmışdı. Əhali arasında yayılmış inama görə körpə yuxuda diksinib ağlayırsa və ya süd əmərkən ağlayırsa, ona göz dəymişdir.

Doğumdan sonra qadın və ya uşaq xəstələnərdisə, müxtəlif magik ayinlər icra edilirdi; Mis qaba 40 açar

qoyur, üstünə 40 qaşıq su tökür və hər qaşıqda Qurandan surə oxunurdu. Bu ayin 3 dəfə təkrar edilrdi. Hər III gün ovsunlanmış bu sudan xəstəyə çiləyərdilər. Xəstəni bəzən 40 qəbirdən də adladırdılar.

Bundan başqa, nəzəri götürmək üçün taxta tasa su tökür və isti kömür parçaları ataraq gözü dəyən adamın adını çağırırlar. Keçmişdə körpə uşağı şər qovuşanda-qaranlıq düşəndə evdən çıxararkən də yanına kömür qoyarlarmış. Bəzən bu məqsədlə evin qapısından da kömür parçası asarmışlar. Bölgədə XX əsrin 60-cı illərinə qədər bədnəzərdən qorumaq üçün oğlan uşağının yanağına oçaq kömürü ilə xətt çəkmək adəti mövcud olmuşdur (53, 32). Türkiyənin Elaziğ bölgəsində də uşağı nəzərdən qorumaq üçün qulaq arxasına oçaq hisi sürtülür (228, 148) Anadolunun bəzi yerlərində isə uçaq dünyaya gələn gün həm ananın, həmdə körpənin alnına his sürtülür. Buna "Nəzər qarası" deyilir (226, 109) Maraqlıdır ki, bu adət hələ XII əsrdə Xaqaniin: "Deyirlər qara xətdir, yaman gözü dəf edən" misralarında da təsvir edilmişdir (45, 313). Məlumdur ki, kömür odun atributudur və bu adət də odun bəd ruhları qovmasına inamla bağlıdır.

Ümumiyyətlə, XX əsrin əvvəllərinədək Şəki və onun ətraf kəndlərində kömürlə bağlı bir çox ayinlər icra olunurdu; qonağı kömür və kömür tozu üzərindən keçirdib evə apararmışlar, bədnəzərə qarşı evin qapısının üstündən kömür parçası asarmışlar, körpə uşağı şər qovuşandan sonra evdən çıxararkən onun yanına pambıq və qəndlə bərabər kömür də qoyarmışlar (79, 167). Göründüyü kimi, bölgədə kömür də odun simvollarından biri olub şər qüvvələri dağıtdığına inanılırdı.

Azərbaycan türkləri bədnəzərə qarşı uşağa daha çox dağdağan ağacından gözmuncuğu tikir və ya üzərrik bitkisinin tüstüstünü iylədirdilər. Bədnəzərə və pis ruhlara qarşı bölgədə aypara formalı metal medalyon və ya



canavar dişindən muncuq da taxılırdı. Qax, Balakən rayonlarında aman-zaman oğlan uçaqlarını bədnəzərdən qorumaq üçün yaxasına metal aypara tikirdilər. Xalq arasında yayılmış inama görə körpəni tək qoyduqda "cin vurmaması" üçün başının altına və ya sinəsinin üstünə çörək parçası da qoyurdular. Hələ Avestada yazılırdı ki, çörəyun ətri bəd ruhları qovur (54). Türkiyənin Malatya bölgəsində də nəzərə uğrayanların başında çörək kəsilir. Bunun nəzəri qıracağına inanarlar (228, 148).

Şəki-Zaqatala bölgəsində yayılmış xalq inancına görə uşağı geçə vaxtı suyun üzərindən keçirmək olmazdı. İnanca görə su ruhu "Ərdov" adamı çay qırağında, su götürərkən vura bilər. Bölgədə geniş yayılmış "Ərdov" mifi görünür "qədim dini etiqadlardakı "Ardvi"-Anahit su ilahəsi"nə inamın qalıqları idi.

**40 tökülməsi.** Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də zahının və körpənin həyatı 40 gün təhlükədə sayılırdı. Xalq arasında yayılımış inama görə 40 gün zahının "qəbrinin üstü açıq olurdu." Bu 40 rəqəminin sehirli qüvvəsinə inamla bağlı idi. Xalq inamına görə, insanın quruluşunda 40 rəqəminin xüsusi yeri var. 40 sayı ruhi bədənlə cismi bədən arasında bir koddur. Belə ki, ana bətnində uşaq məhz 40 günün tamamında canlanır, yəni ruha gəlir, 40 həftənin tamamında isə dünyaya gəlir. Eyni zamanda yeni evlənənlərin də 40 gün xeyir-şər məclislərinə buraxılmaması onların "yeni doğulmuş ailəsinin" möhkəmlənməsi məqsədilə edilirdi. Buna görə bütün aiilə mərasimlərində 40 adətinin gözlənilməsinə ciddi riayət edilirdi. 40 rəqəminin insanın həyatındakı rolu barədə türklərdə belə bir deyim də var: "İnsan kırk odalı bir konak"dır (İnsan qırx otaqlı bir evdir – M. P.). Görünür, bu deyim insanın orqanizmindəki qirx mərkəzlə bağlıdır (226, 114).

Zahı qadının qırxının tökülməsi üçün aşağıdakı ayinlər

icra edilirdi. Çaydan 40 çay daşı gətirilərək qaynar su dolu qazana atılırdı. Bundan sonra həmin sudan 40 qaşıq su götürülərək başqa qabdakı suya əlavə edilərək həmin su ilə ananı və uşağı çimizdirirdilər. Bu zaman uşağın əynindəki 40 gün ərzində geydirilmək üçün tikilmiş "çillə köynəyini" də çıxarırdılar. Bölgədə, xüsusilə də, doğulan oğlan isə 40 tökülən günün axşamı qohum-əqrabanın iştirakı ilə "*yığva*" adlanan şənlik məclisi təşkil edilirdi.

Bölgədə körpə uşağın saçı ilk dəfə qırxdırılandan sonra başının tükünü tərəziyə qoyub, onun çəkisi qədər pulu sədəqə verərdilər (6, 390).

**Türkəçarələr.** XIX-XX əsrin əvvəllərində bölgədə xalq təbibləri müxtəlif xəstəliklərin sağalmasında qədim inanclara əsaslanan türkəçarələrdən də istifadə edirdilər. İnsanlar tədricən təbiətin onlara bəxş etdiyi müxtəlif nemətlərin, xüsusilə də bitkilərin müalicəvi xüsusiyyətlərini öyrənərək bu biliklərini qədim inancları ilə birləşdirərək müxtəlif xəstəliyə çarə tapmağa çalışırdılar. Məsələn, "*çumaol*" adlandırılan (uşaq səpdikdə) xəstəlik zamanı uşağı göy əsgiyə bükürdülər. Görünür, bu göylərə sitayişlə bağlı idi. Qızılca çıxarmış uşağı isə, görünür, Günəşin qoruyucu qüvvəsinə inanaraq qırmızıya bükürdülər. Qızılca çıxaran uşağı qırmızılara bükməklə bərabər uşağa at südü də içirdirdilər. Qızdırmaya qarşı qarpız suyundan istifadə edirdiər. Çox zaman qarpızı ikiyə bölərək onun üzərinə bal çəkir və bütün gecəni açıq havada saxlayaraq xəstəyə verirdilər. Xəstəyə ancaq yay aylarında, hələ qoz və nar noxud boyda olanda bir neçə təzə qoz və nar da uddururdular. Sarılıq xəstəliyi zamanı xəstəyə açqarına 20 gün sumax ağacının meyvəsini suyunu içirdir, eyni zamanda əlinə 7 düyün vurulmuş pambıq sapı və bir sarı muncuq verirdilər. Qulaq ağrısı zamanı xəstənin qulağına bu qulaq ağrısından xəbəri olmayan qonşudan götürülmüş yağdan bir neçə damcı qızdırılaraq tökülür (211, 145–147).



### Avarlarda, saxurlarda və rutullarda doğum adətləri

**Sonsuzluğa qarşı ayinlər.** Avarlarda və saxurlarda uşağı olmayan qadınlar övlad diləyilə keçmişdə Zaqatala rayonu ərazisindəki Armatian (saxurlar və avarlar bu dağa Armatay deyirdilər) adlı dağa çıxırdılar. Tədqiqatçıların fikrincə Armaiti qədim türk dillərindəki "arım", "irim", yəni "fal", "nişan", "əlamət", "qabaqcadan xəbər verən", "ovsun" və "ata" sözlərindən ibarətdir (52, 76). Görünür, əhali bu dağın fövqəladə gücünə inanaraq bu adla ona sitayiş etmişdir. Maraqlıdır ki, Cənubi Azərbaycan ərazisində də keçmişdə (qədim Manna dövləti ərazisində) Armatay adlı dağ mövcud olmuşdur. Armatay pirini təkcə saxurlar deyil, azərilər, ingiloylar da ziyarət edirlər. Zaqatala rayonun Muxax kəndi yaxınlığında, Qax rayonunun Zərnə və Güllük kəndlərinin üstündə yerləşən Armatian dağına məhz bu 3 kəndin camaatı daha çox sitayiş edərək onu *Ziyarət* adlandırırlar. Həmin kəndlərdə həm azərilər, həm saxurlar, həm də ingiloylar yaşayırlar. Bu dağın başında pir hesab olunan Pəriqala adlı qədim bir kilsə də vardır (şəkil 30 b). Keçmişdə sonsuz qadınlar övlad üçün ora gedərdilər. Niyyətlərinin hasil olması üçün qadınlar, xüsusilə də bahar mərasimləri zamanında dağa ayaqyalın çıxmalı idilər. Bu dağ kultuna inamın qalıqları ilə bağı idi. Ulu dağlara mövsümündə ziyarət üçün gedildiyi zaman bu dağlara ayaqyalın dırmanmaq inancı Türkiyədə də vardır (227, 83).

Rutullarda sonsuzluğa qarşı qadını diri canavarın üstündən adlamağa məcbur edirdilər. Bu ayinin icrası üçün adətən qış aylarında ovçular tələ qurub canavar tutaraq kəndə gətirərdilər. Bundan sonra kəndin bütün sonsuz qadınları yığışaraq bir-bir çanavarın üzərindən adlayardılar. Qadınlar qurdun üstündən adlamaqla ağırlığın ona keçəcəyinə inanaraq bu mərasimi icra edirdilər. Bu ayin

Azərbaycanda antik dövrdə icra olunan qurbanverma mərasimini xatırladır; Strabon Azərbaycanın qədim tayfalarında icma üzvlərinin saflanma xatirinə nizə ilə öldürülmüş qurbanın üstündən adladıqlarını qeyd edir. (Strabon. XI, 4, 7) İbtidai inanclara görə, bu zaman bütün xəstəlik və rahatsızlıqlar yerdəki qurbanlığa keçirdi. Yuxarıda təsvir etdiyimiz mərasimdə qurd müqqəddəs qurban rolunda çıxış edir. Bu mərasimdə qurdla bağlı qədim türk inancının izləri özünü biruzə verir. Qurd türk inanclarında bəzən bəd ruhları qovan, uşaqların hamisi kimi çıxış edir (85, 101–105). Ümumiyyətlə, türk inanclarında qurd xilaskar, başlanğıc, əcdad, hami, yol göstərən kimi bir çox funksiyanı yerinə yetirir. Göründüyü kimi, bu mərasim qurdun ritual-mifoloji səciyyəsini, eyni zamanda onun arxaik strukturunu bərpa etməyə imkan verir.

**Doğum ayinləri.** XIX əsrdə saxurlar azərilərin mamaça adlandırdığları qadını türklər kimi "ebeçi" adlandırırdılar (135, 1). Keçmişdə avarlar mamaçaya "çarağan" və ya "hadağ" da deyirdilər. Mamaça doğan qadının kürəyinə yavaşcadan vurub deyirdi: "Körpəyə olacaq xatadan gəlmişəm, sən də gəl". Azərbaycanın bir çox yerlərində olduğu kimi, bu bölgədə də körpənin göbəyini mamaça kəsirdi. Bunun üçün göbəyi hər iki tərəfdən ipək sapla bağlayaraq ortadan iti qayçı ilə kəsirdilər.

Avarlarda doğuşu asanlaşdırmaq üçün hamiləyə tısbağa çanağından su içirirdilər. Zaqatala və Qax rayonlarında yaşayan avarlarda doğuş zamanı qadının qoluna "Məryəm tükü" adlı bir ip də bağlayardılar ki, rahat doğsun. Bundan başqa hamilə qadın ağrı çəkərkən mamaça "Məryəm pencəri"[1] adlı otu bir kasa suya salırdı. Bu ot suda açılırdı. Ot suda aşıldıqca hamilə qadının da rahat azad olacağına inanardılar. Bu ayin qədim inanclar

[1] *Pencər Azərbaycanın bir çox yerlərində göy-göyərti, ot mənasında işlənir.*



sisteminin bir parçası olan oxşarlıq magiyasının qalıqları idi. Doğuş zamanı mamaça tez-tez "Ya Məryəm ana kömək et!" sözlərini də deyərdi. Maraqlıdır ki, Kərkük türkmənlərində də döğumun rahat keçməsi üçün "Məryəm Ana əli" deyə bilinən bir ot suya qoyulur və bu suyu doğacaq qadına içirirlər ( 227, 257). Bu xalqların inanclarındakı eyniyyət qədim etnoqenetik əlaqələrdən xəbər verir. Bu ayinin izlərinə orta əsr klassiklərimizin əsərlərində də – Nizami Gəncəvinin şerlərindən birində "Arvad doğan kimi Məryəm əliylə" ifadəsinə rast gəliir (41, 213).

Avarlarda hamilə qadın azad olan zaman ərinin balta ilə çay daşını parçalaması adətinə bir sıra türk xalqlarında, o cümlədən kərkük türkmənlərində rast gəlinir. Kərküklərdə də qadın doğum sancısı cəkərkən iztirabı azalsın deyə "daşa daş çaxarlar, daşı qırarlar, beləcə arvad tez doğar"inancı vardır (227, 258).

Şəki-Zaqatala bölgəsində avarlar zahı qadına hal anasının yaxın düşməməsi üçün ona düyü də çeynədirdilər. Saxurlarda isə qadına bir ovuc barama qurdunun toxumunu çeynəməyə veririldilər. Zahını hal anasından qorumaq üçün qapının kənarında ucu qıfıllanmış kəndir qoyur və ya qadının başının altına xəncər, qayçı kimi dəmir əşya qoyurdular. Bu adət keçmişdə Azərbaycanın bir çox yelərində yayğın idi. Uşağın beşiyində başının altına qayçı və ya bıçaq qoyulurdu. Avarlarda və saxurlarda körpənin göbəyini kəsdikləri qayçını bağlayaraq körpənin 40 günü olana kimi açmırdılar. Körpəni "roş" adlandırdıqları beşiyə qoyduqdan sonra başının altına dəmir əşya qoyurdular. Körpənin başı üstündə xəncər də qoyulurdu.

Avarlarda və saxurlarda 40 gözləmək adəti geniş yayılmasa da adətə görə körpənin saçı 40 gün ərzində qırxılmalı idi. Bu adət Türkmənistanda da mövcuddur və bu zaman körpənin kəsilən saçı çilə/qırx saçı adlanır. Bu saç 3–4 yaşına qədər nəzərlik kimi uşağın üstünə taxılır. Bu

saçın qoruyucu qüvvəsinə inamla bağlı idi.

**Doğum sonrası ayinlər.** Avarlarda və saxurlarda da azərilərdə olduğu kimi qohum-qonşuda uşaq doğulanda zahıya halva, quymaq bişirib aparmaq adəti var idi. Lakin onlar halvanı yalnız düyü, bəzən də qarğıdalı unundan bişirərdilər. Zahı qadın üçün hazırlanan ballı quymaq avarlarda *karş*, ləzgilərdə *xəşil* adlanırdı. Avarların adətinə görə körpə olan evə xəncərli adam girə bilməzdi.

**Bədnəzərə qarşı ayinlər.** Avarlarda azərilərdə olduğu kimi qurdun bədnəzə qarşı qoruyucu xüsusiyyətləri olduğuna inam vardı. Məsələn, qurdun dişlərindən boyunbağı və ya qolbaq düzəltdirərək "nəzərlik" kimi uşağın üstünə taxılardı. Məlumatçımızın söylədiyinə görə, avarlarda və saxurlarda bədnəzərə qarşı belə bir ayin də icra olunurdu; payızın axırında, birinci ildırım çaxana qədər həftənin cümə axşamı günü və ya cümə günü səhər-səhər, dəstəmaz aldıqdan sonra andız otunun kökünü yerdən çıxarıb hissələrə ayırır və qurumaq üçün ipdən asırdılar. Nəzərə gəlmiş körpəyə həmin hissələrdən birini yandıraraq tüstüsünü verərdilər. Avar dilində körpənin ağlaması da "*andaza*" adlanır və ona andız kökünün tüstüsünün verilməsi də bununla izah edilir.

### Udilərdə doğum adətləri

**Sonsuzluğa qarşı ayinlər.** Övladı olmayan qadının nəzir deməsi, bir çox inanclara tapınması adəti bölgədə yaşayan udilərdə var idi. Maraqlıdır ki, xristian olan udilər kilsələrə gedib şam yandırmaqla bərabər pirlərə gedib qurban da kəsirlər.

XIX əsrdə udilər Kala Qerqes, Kitske Qerqes, Kala Çiçik, Tsimeri, Codari, Toyuqqıran piri kimi qədim ziyarətgahlarda öz mərasim ayinlərini icra edirdilər. Udilər buradakı ağaçları da müqəddəsləşdirərək onlara əski və



parçalar bağlar, onları ocaq adlandıraraq sitayiş edirlər.

"Toyuqqıran piri" Qəbələ rayonuinun Nic kəndində meşəlinin içində yerləşirdi. Bu pirdə daha çox toyuq kəsildiyi üçün pir "Toyuqqıran" adlanırdı. Toyuqqıran pirinə, əsasən Nic kəndinin əhalisi gələrdi. Məlumatçımızın söylədiuyinə görə hərə qoltuğuna bir və ya iki toyuq vurub bura gələr, kəsdikləri qurbanın ətini burada birgə bişirib birgə yeyər və nəzir paylayardılar. Qurbanın başı və ayaqlarını isə hündür ağacdan asardılar (şəkil 38) Görünür, burada toyuqun nəzir-qurban edilməsi onun məhsuldarlıq, zürriyət simvolu olması ilə bağlı idi.

**Kala Qerqes** Oğuz rayonu ərazisinin (keçmiş Vartaşen r-nu) cənubunda, təpədə ağacların arasında yerləşirdi. Maraqlıdır ki, qədim türk dillərində **kala**-müqəddəs yer deməkdir. Türkmənlər ziyarətgahlarına "kala" deyərlər. Udilər bayram mərasimlərində bura qurbanlıq qoyun gətirər, onu 3 dəfə kilsənin ətrafında dolandıraraq torpaq qatılmış müqəddəs duz yedizdirirdilər. Bəzən kasıblar xoruz da qurban kəsərdilər. Burada icra olunan ayinlərdə qədim inanclar sisteminin izləri açıq-aşkar özünü büruzə verir.

Udilər özlərinə məxsus müqəddəs ocaqları ilə bərabər onlar bölgənin müsəlman əhalisinin ziyarət etdiyi pirlərə də gedir, orada qurban kəsirdilər. Bölgənin Qəbələ rayonunun Soltan Nuxa kəndindəki Şeşpər baba ocağına müsəlman əhali lə bərabər udilər də gedər, qurban kəsib niyyət edərdilər.

Udilərdə sonsuz olmamaq üçün şər vaxtı nə gəlin, nə də bəy suya getməməli, axar suyun üstündən keçməməli idilər. Hətta təzə gəlin toydan sonra altı aydan üç ilədək su dalınca getməzdi. Keçmişdə Nic kəndində udilərdə övladı olmayan gəlini ay işığında axar suyun üstündən keçirərdilər ki övladı olsun. Maraqlıdır ki, Altay türklərində də sonsuzluğa qarşı buna bənzər bir ayin icra edilir:

Sonsuz qadın dolunaydan əvvəl (ayın böyümə fazasında – M. P.) "Arjan su"ya gedir və "Kutay mənə bala ver" deyə dua edirlər (228, 74). Əski türk dillərində "kut"-qut sözünün mənalarından biri ruh, həyat qüvvəsi, candır. Altaylıların inamına görə qut doğulan uşağın həyat qüvvəsi, canı və ruhu deməkdir (79, 136–139). Bu qədim ayinlərin hər ikisində də həm ay kultu, həm də su kultunun qalıqları müşahidə olunur. Qədim Azərbaycan tayfalaranın aya və suya sitayiş etməsini yunan müəlliflərindən Satrabon da qeyd edirdi (Strabon. Qeoqrafiya. I, 131). Qədim türk inanclara görə təzə ay (aypara) məhsuldarlıq, döllənmə simvoludur. Türkiyənin Kars bölgəsində də yayılmış inama görə ayın ilk hilalını (aypara) görən kişi o dəqiqə torpağa və qızıla baxarsa gələcək həyatının bərəkətli keçəcəyinə inanardı. Ağrıda ay işığında saxlanmış və uğuruna inanılmış dərə və göllərdən alınmış sular bol məhsul olması üçün tarla suvarılan suya qatılır (228, 74–75).

Udilərdə övladı olmayan qadını cənazənin altından keçirmək adəti də mövcud idi. Sonsuzluğa qarşı maraqlı aynlərdən biri də qurbağanın ilan ağzından xilas edilərək öldürülməsi və qurudularaq sonsuz qadının paltarına tikilməsi idi (109, 253). Bundan başqa inama görə sonsuz qadın doğuş vaxtı qadının əlini tutardısa və yeni doğulmuş uşağın göbəyini də sonsuz qadının ayağı altında kəsərdilərsə, qadın sonsuzluqdan xilas olardı. Buna bənzər bir ayin Kərkük türklərində də mövcuddur; "Kərkük türklərində uşağın kəsilmiş və qurudularaq un halına salınmış göbəyi sonsuz arvadın üzərinə tikilir ki, övladı olsun" (227). Bundan başqa udilərdə qadını sonsuzluq dərdindən azad etmək üçün "*tilisumun cam*" adlanan 40 zəncirli qabdakı su ilə çimizdirər, gərdək gecəsi olduğu otaqda sonsuz qadının başına "tilsimun camla" 40 dəfə su tökərdilər. Udilərdə övladı olmayan qadını cənazənin də altından keçirərdilər. Bu əcdad kultunun qalıqları idi. İnama görə sonsuz qadın 7 evdən mum toplayaraq onu əridərdi və ərinmiş mumdan hansı əşyanın şəklinin alınacağını müşahidə edərdi. İnama görə mumdan alınacaq fiqurla sonsuzluğun səbəbi aydınlaşdırılardı.

Udilərdə də Azərbaycanda geniş yayılmış Hal anası mifinə inam var idi. Onlar bunu "*hali*" kimi ifadə edirdilər və ondan qorunmaq üçün azərilərdə olduğu kimi qadının başının altına xəncər, şiş kimi dəmir əşyalar qoyulurdu, yorğan-döşəyinin ətrafə zəncirlə əhatə edilirdi. Qadını sarılmsaq dişləməyə məcbur edirdilər.

Doğumun rahat keçməsi üçün hamilə qadının başı üzərində cörək bölürdülər. Qədim inanclara görə, çörəyin ətri bəd ruhları uzaqlaşdırır. Bundan başqa ipək qurdunun toxumunu qadının yaxasına tikirdilər. Ümumiyyətlə, bölgə əhalisi, xüsusilə də, udilərin ailə mərasimlərində barama qurdu özünəməxsus yer tuturdu. Maraqlıdır ki, bölgədə arxeoloji qazıntılar zamanı barama qurduna bənzər bir bəzək əşyası tapılmışdır. Görünür, bu əşya da bəd ruhları üzaqlaşdırmaq üçün bir talisman rolu oynayırmış. Bundan başqa hamilə qadına isti ərinmiş yağ, ərinin əllərinin və maşanın yaxalandığı suyu içirdirdilər. Ona həmçinin ərinin çarığından su da içirirdilər (109, 245).

Ailədə doğulan uşaqlar ölərdisə, belə hadisənin bir daha təkrarlanmaması üçün yeni doğulan körpənin bir tutulmuş dırnağı və bir ədəd baş tükünü parçaya büküb evin döşəməsinə basdırardılar. Məlumdur ki, qədim inanclar sistemində dırnaq və saç əbədilik simvolu idi. (208) Bir-birinin ardınca uşaqları ölən valideynlər aldadıcı magiya kimi yeni doğulan uşağın salamat qalması üçün ona 7 evdən yığılmış əskilərdən tikilmiş dilənçi köynəyi də geyindirərdilər.

**Doğum sonrası.** Udilərdə doğumdan həmən sonra zahıya "*xəşıl*" yedirirdilər. Xəşil azərilərdə olduğu kimi

hazırlanardı; Unu qaynayan suya töküb qatılaşana kimi qarışdıralar və üstünə yağ tökərdilər. Udilərdə un və yağdan hazırlanan ənənəvi mərasim yeməklərindən biri də hərsə adlanırdı. Maraqlıdır ki, hərsə Kipr türklərinin milli yeməyidir. Udilərdə doğumdan sonra qohum-əqraba zahıya plov, südlü yayma, bir tonqu* (saxsıdan xüsusi qab) şərab da gətirərdilər. Təbriklər və uşağa hədiyyələr gətirilməsi "qırx" çıxanacan davam edərdi. Bu adət udilərdə "*ajel bakal qanu taj un*" adlanardı və bu adətə çox ciddi riayət edilərdi. Lakin inama görə zahının yanına toydan və ya yasdan sonra gəlmək olmazdı. İnanılırdı ki, gəlin cilləyə düşə bilər. Bu adət azərbaycanlılar arasında da mövcuddur. Udilərdə yeni doğulmuş uşaq xaç suyuna çəkilənə qədər zahının qab-qaşığı ayrılırdı, o heç nəyə əl vurmurdu. Bu zaman zahı qadın xəmir yoğurmamalı, çörək bişirməməli, qapıdan çıxmamalı idi. Anadolu türklərində də qırxı çıxmamış zahı əlini xəmirə vura bilməzdi, xəmirin bərəkətinin qaçacağına inanılardı (227, 113).

Udilərdə uşaq anadan olandan 8 gün sonra körpə xaç suyuna çəkilirdi. Əgər ana doğum zamanı ölərdisə, onda uşağı xaç suyuna çəkəndən sonra mərhumu basdırardılar. Körpənin cümə günləri xaç suyuna salınması daha uyğun hesab edilirdi. Bu mərasimin, xüsusilə də həftənin III və VI gününə düşməməsinə diqqət edərdilər. Görünür, bu əhalinin qədim astral təsəvürləri ilə bağlı idi. Uşağın xaç atası-kirvə adətə görə bir-iki arşın çit parça, əgər varlı idisə, ipək parça və pul da hədiyyə edərdi. Xaç suyuna çəkilmə mərasimindən sonra günorta yeməyi zamanı uşağın valideynləri kirvəyə "*xilu*" adlandırdıqları pay təqdim edirlər. "Xilu" bir saxsı qabda meyvə, şirniyyat, bir cüt corab, payvaduk[1], balaca ipək torba və pul kisəsindən ibarət olurdu (109).

Umumiyyətlə, kirvəyə həmişə xüsusi hörmətlə yanaşılırdı. Udilər yeni il günü, böyük pəhrizin birinci günü, pəhriz bayramında kirvəyə xüsusi hədiyyələr göndərərdilər. Udilərdə oğlan doğularsa 40 gün, qız doğularsa isə 48 gün qadın "zahı"sayılırdı. Həm 40 günü, həm də 48 günü "qırx"adlandırırdılar. Uşağı 40 gündən sonra çimizdirər və həmin gün də ad qoyardılar.

---

[1] (Görünür, bu "pay-pürüş" mənasındadır. – M.P.)



Udilərdə olan inama görə zəif uşaq dəvənin altından keçirilirdi ki, qüvvətlənsin. Maraqlıdır ki, bu inanc bir çox türk xalqlarının doğum adətlərində də mövcuddur. Məsələn, türkmənlərdə də inama görə hamilə ikən dəvənin altından keçən qadın rahat doğar.

## İngiloyların doğum adətləri

**Sonsuzluğa qarşı ayinlər.** Övladı olmayan qadının nəzir deməsi, bir çox inanclara tapınması adəti bölgədə yaşayan ingiloylarda da var idi. İngiloylar da kilsələrdə şam yandırmaqla bərabər pirlərə gedib qurban kəsmərdilər.

Keçmişdə ingiloylar uşaq üçün əsasən Armatian pirinə, gedər, orada şam yandırır və qurban kəsirdilər. Ümumiyyətlə, bölgədə Armatian, Kürmux, Şeşpər baba piri kimi ziyarətgahlara həm müsəlman, həm də xristian əhali gedərdi. Bu həmin pirlərin çox qədim dövrə aid olduğunu göstərir. Zaqatala ilə Qax arasında yerləşən Armaiti dağını (müasir xəritələrdə bu dağ Armatian adı ilə gedir) (127, 171) həm Zaqatala rayonunun ingiloyların azərilərlə qarışıq yaşadığı Muxax, həm də Qax rayonunun saxurlarla azərilərin qarışıq yaşadığı Zərnə, Güllük kəndlərinin əhalisi "Ziyarət" adlandırırdılar. Daha çox bu üç kəndin camaatı həmin dağa sitayiş edirdilər. Bu dağda pir hesab olunan qədim bir kilsə vardır və əhali onu Pəriqala adlandırır (şəkil 37). Keçmişdə əhali dini mənsubiyyətindən asılı olmayaraq bu məbədə sitayiş edər, burada şam yandıraraq övladı olmaq üçün nəzir deyirdilər.

Sonralar ingiloylar islamı qəbul etsələr də ənənəvi olaraq qədim məbədlərə sitayişlərini də qoruyub saxlamışdılar. "Pəriqala" pirinə gedən ingiloylar burada niyyətlərinin qəbul edilməsi üçün əski bağlayırdılar. İngiloyların söylədiklərinə görə Pəriqala qədimdə atəşgah olmuşdur. Tədqiqatçılar da burada daiəvi planlı qədim məbəd olduğunu və bunun yer ilahəsi, sədaqət ilahəsi Armaiti və ya Ay ilahəsi Arma ilahəsi ilə bağlı olduğunu qeyd edirlər (127, 171). XIX əsrə aid mənbələrdə də bölgənin həm xristian, həm də müsəlman əhalisinin ziyarət etdiyi Qaxın yaxınlığında yerləşən Kürmux kilsəsi barədə və bu kilsənin yaxınlığında qayaların içində ovulmuş bir yerdə qədim bir məbəd olduğu barədə məlumat verilir (142, 60–61).

Qax rayonunun Kilsəburun və Qaxbaş kəndi yaxınlığındakı "Alaverdi" məbədi də yerli əhalinin ziyarət etdiyi qədim yerlərdən biri idi. Oncalı və Baydarlı kəndi yaxınlığında isə "Yunis İmrə" ziyarətgahı yerləşirdi.

Hamilə qadının azad olarkən hal anasından qorunması adəti ingiloylarda da var idi. İngiloylar "*aliqoci*" adlandırdıqları bədniyyətli gözəgörünməz məxluqlara qarşı həm doğum zamanı və sonrakı ilk günlərdə müxtəlif tədbirlər görürdülər. Doğum zamanı mamaça qadının doğarkən paltarındakı bütün düyünləri və hörüklərini, həmçinin evdə olan qapıların kilidlərini də açırdı. Bu adət keçmişdə Qafqazın bir sıra xalqlarında olmuşdur (204,16).

İngiloylarda doğan qadının başına ərinin papağını qoyurdular. Bu adətiin azərilərdə də olması barədə XIX əsrin ortalarında A. Zaxarov məlumat verirdi (141, 46). Körpənin gələcəkdə alyanaqlı olması üçün göbəyinin qanından yanaqlarına sürtürdülər. Bölgədə xristian ingiloylarda udilərdə olduğu kimi körpə doğulduqdan sonra, əgər qızdırsa 40 gün, oğlandırsa 48 gün ərzində "qırx" gözlənərdi. Körpə 8-ci gün xaç suyuna çəkilərdi.

Bölgədə ingiloylar da dağdağanın qoruyucu qüvvəsinə



inanaraq oğlan uşaqlarının yaxasına dağdağan ağacından gözmuncuğu tikirdilər. Lakin ingiloylarda Azərbaycanda geniş yayılmış üzərrik bitkisinin yandırıb tüstüsünün uşağa verilməsi adəti çox yayqın deyil. Körpənin gözə gəldiyini yəqin etdikdə bir çox türk xalqlarlnda olduğu kimi körpənin başına bir çimdik duz dolandırıb oçağa atırlar. Duz türk xalq inanclarında həm də bərəkət simvoludur. Bədnəzərə qarşı körpənin beşiyindən bir kiçik daşı da deşib asırdılar, beşiyin küncündə bir küp su qoyurdular, suya isə bir yumurta atırdılar. Azərbaycanın hər yerində olduğu kimi, körpənin başı altına qayçı qoyurdular. Ingiloylarda "çillə" anlayışı yayılmamışdır.

**Ovsun ayinləri** İngiloylar tarixin müəyyən mərhələlərində xristianlıq, islam kimi monoteist dinləri qəbul etsələr də, onların məişətlərində daha çox ibtidai inancların qalıqları özünü biruzə verirdi. Bu qədim alban etnosu bolgənin digər əhalisi kimi tarixin ən erkən dövrlərindən əsasən aya günəşə, göyə tapınmışlar. Təsadüfi deyil ki, XIX əsr rus mənbələrində də ingiloyların "... xristianlığı qəbul etsələr də daha çox ibtidai dinlərə yaxın olduğu" qeyd edilirdi (110, 792). Keçmişdə ingiloylar şər ruhlardan qorunmaq üçün müxtəlif ovsunlar icra etmişlər. İngiloyların məişətlə bağlı dini inamları arasında cin və şeytanlar, xüsusilə də, "*eşmaq*" adlandırdıqları ruhla əlaqədar inamlar mövcud idi.

Cüməyə keçən gecə çaydan su götürmək, içində su olan dolçanın ağzını açıq qoymaq qadağan idi. Geçələr evdən od vermək olmazdı. Ayaq üstə çörək yemək və su içmək pis əlamət sayılırdı, cünki belə halda evdən bərəkətin üzüləcəyi güman edilirdi (25, 241).

İngiloy dini bayramları sırasında Kürmükoba mərasimi etnik spesifikliyi ilə seçilən bayramlardan olub ingiloyların qədim inanclarının izlərini daşıyır. Maraqlıdır ki, bu bayram həm xristian, həm də müsəlman ingi-

loylar tərəfindən icra edilirdi. Müsəlman və xristian ingiloy ailələri hər il noyabrın 10-da Kürmük məbədinə gələrək birlikdə bayram keirərdilər. Bayramda qurbanlar kəsilər, musuqu çalınar, dini ayinlər icra edilərdi. Bayrama həm xristian, həm də islam dini elementləri daxil edilsə də, qədim inanclar sisteminin qalıqları özünü daha çox biruzə verir. Bu da onu göstərir ki, Kürmükoba bayramı qədim, kökü ibtidai dövrlərə gedən bir mərasimdir.



IV FƏSİL

## QƏDİM DƏFN VƏ YAS MƏRASİMLƏRİ

İnsanı dərindən sarsidan hadisələrdən biri ölümdür. Bəşəriyyətin erkən mərhələsindən başlayaraq ölüm insanı heyrətə salan, qorxudan, düşündürən bir hadisə olmuşdur. Lakin ibtidai dövrdən bəri insanlar ölümü insan həyatının birdəfəlik qurtarması, sona çatması kimi qəbul etməmişlər. Deməк olar ki, bütün xalqlarda ölüm yeni həyata başlanğıc, insan həyatının mühüm keçid mərhələlərindən biri hesab edilmişdir. Həyat boyu insanlar hələ də əsrarəngizliyini qoruyan ölüm hadisəsini müxtəlif inanclar sistemi ilə anlamağa çalışırlar.

İnsan təbiətin "ölərək yenidən canlandığını" müşahidə edərək təbiətdə yaşanan hadisələrin – qışın gəlişilə təbiətin ölümü, baharın gəlişilə təbiətin canlanması, eyni zamanda göy üzündə Günəşin və Ayın batması və yenidən doğması kimi hadisələrin şahidi olduğu üçün ölümdən sonra da yeni bir həyatın varlığına inanmışdır. Əldə etdiyi bu bilgilər insanın özünü də təbiətin bir hissəsi sanaraq ölümdən sonra təkrar canlanacağı, yeni bir həyata başlayacağına dair dünyagörüşünün formalaşmasına zəmin yaratmışdır. Buna görə də ölümü həyatının ən mühüm keçid nöqtəsi, yeni bir həyata başlanğıc kimi qəbul edərək ölüm anında və ölüm sonrası müxtəlif ayinlər və mərasimlər icra ermişlər. Bu ayinlər başqa bir həyata kecidin simvolik ifadəsi olmaqla bərabər, həm də ölümün insanlara sarsıdıcı təsirini azaltmaq və ya unutdurmaq məqsədini güdürdü.

Bilinməyən bir yolçuluğa gediş və bu dünyadan ayrılma qorxusu ölümlə mübarizə, ölümsüzlük, əbədiyyət axtarışlarını da doğurmuşdur. Bu axtarışlar İskəndərin "abi-həyat" əldə etmək eşqi ilə qaranlıqlar dünyasına gedişi,

"Gilqamış" dastanında qəhramanın ölümsüzlük otu yeməyə çalışması, "Məlik Məmməd", Tapdıq" kimi Azərbaycan xalq nağıllarında almanın əbədi həyat simvolu kimi təsvi edilməsi, "dirilik ağacı" və ya "dirilik gülündən" söz açılması kimi şifahi və qədim yazı nümunələrində qarşımıza çıxır (10, 67; 79, 15). Lakin insan ölümsüzlüyün çarəsini tapmayınca "ölüm bizi hara aparacaq?" sualı onun üçün əbədi həyat, cənnət ideyası ilə cavablanmış oldu. Təbiətdə torpağın yenidən canlanması və isinməsi, ağacların yenidən çiçəkləməsi kimi hadisələr, insanda ölümdən sonrakı məkan təsəvürünü – "cənnət"i formalaşdırmış oldu. Bu gün, demək olar ki, bütün xalqların dini ideologiyasında özünə yer tapan cənnət anlayışı, göründüyü kimi, bu qədim mifik təfəkkürün məhsuludur.

Ölüm anında və ölüm sonrası bütün cəmiyyətlərdə bir sıra dini mərasim və ayinlər icra edilmişdir. Lakin bu mərasimlərin icra edilməsi formaları hər bir xalqın sahib olduğu inanc və mədəniyyətinə görə fərqli olmuşdur. Azərbaycanlıların yas mərasimləri zamanı icra olunan ayinlərdə islamaqədərki qədim inanclar sistemi ilə klassik dini ideologiyaların özünəməxsus sintezi özünü birüzə verir. Ümumiyyətlə, dəfn ayinləri və xalqın yas saxlamaq ənənələri xalqın ən qədim etiqadlarından olduğu üçün digər ailə mərasimlərinə nisbətən daha konservativ və mürəkkəb quruluşa malikdir.

Azərbaycan mənəvi mədəniyyəti və düşüncəsində də ölüm hadisəsinin mühüm yeri var. Azərbaycan mənəvi mədəniyyətinin mühüm bir qolu olan yas mərasimlərində cənnət anlayışı, əbədiyyət, can və ruhla bağlı ayin və inamlar mühüm yer tutur. Azərbayanda da ölüm insanin bəşəri həyatdan axirət dünyasına köçməsi kimi təsəvvür edilirdi və ölənin ruhunun o biri dünyada rahat olması üçün mürəkkəb ayinlər kompleksi icra edilirdi. Bu ayinlərin bir qismi axirət dünyası ilə bağlı olsa da, bir qismi də



ölənin ruhunu razı salmaq üçün icra edilir.

İnsanın ölüm hadisəsi ilə bağlı qədim dəfn və yas mərasimləri hər zaman öz dərin arxaikliyi, geniş ictimai xarakteri, adət və ənənələrinin zənginliyi ilə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. XIX-XX əsrlərdə icra olunan Azərbaycan yas mərasimlərinin tədqiqi təkcə bu dövrün ənənələrinin öyrənilməsi üçün deyil, həm də azərbaycanlıların qədim dünyagörüşlərinin, qədim etiqadlarının, bir sözlə mənəvi mədəniyyət tarixinin erkən mərhələlərinin göz önündə canlandırılması, Azərbaycan mənəvi mədəniyyətinin dərinliklərinə enmək baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan yas mərasimlərində ölümlə bağlı ən qədim etiqad və ideologiyaların qalıqları islam ənənələri ilə özünəməxsus şəkildə birləşdirilərək qorunub saxlanmışdır. Bu baxımdan Azərbaycan yas mərasimləri hələ də keçmişin dərin və köklü izlərini yaşatmaqla bərabər minilliklər boyu bir-birini əvəz edən nəsillər arasında tarixi-mədəni əlaqələrin göstəricisidir. Azərbaycanın dəfn mərasimləri həm də ümumazərbaycan mənəvi mədəniyyətinin formalaşmasında qədim türkmənşəli tayfaların iştirakını təsdiq edən mühüm etnoqenetik mənbədir.

Tarixi çox qədimlərə gedən Azərbaycan dəfn və yas mərasimləri, eyni zamanda ailə və qohumluq münasibətlərini əks etdirən ən mühüm mərasimlərdən biri olmuşdir. Bu mərasimlərdə də toy mərasimində olduğu kimi, nəinki yaxın qohumlar, o cümlədən qonşular, bütün məhəllə, hətta bütün kənd iştirak edirdi. Azərbaycan yas mərasimləri hələ Herodotun təsvir etdiyi skiflərin dəfn mərasimləri ilə (yas mərasimində kütləvi iştirak etmək, ehsan, yas sahibinə maddi yardım göstərilməsi, yas yerinə mal-qara gətirilməsi, 40 gün yas mərasimi keçirmək, ölüm ildönümünün qeyd olunması və s.) oxşarlıq təşkil edir. Skiflərin yas mərasimlərində bir adam ölüncə cəsədini

çadıra qoyurlar. Ölənin qohum-əqrabası qoyun, mal-qara, at kəsərək ona qurban etdiklərini göstərmək üçün çadırın önünə yığardılar. Daha sonra atla 7 dəfə çadırın ətrafında dönərək bıçaqla üzlərini kəsərdilər. Ölünü 40 gün dostlarının evləri boyu gəzdirər, dostları onun şərəfinə yemək verərdilər. Ölü müəyyən zamanlarda dəfn olunurdu... Cənazə mərasiminin icrası günündə ölünün ilk vəfat günündə olduğu kimi qohum-əqraba ağlaşar, üzlərini cızardılar. Skiflərin bu qədim yas mərasiminin təsvirinin bir çox izləri bu günkü yas mərasimlərimizdə aydın sezilməkdədir.

Azərbaycanda indi də yas düşəndə bütün yaxın-uzaq qohum-əqraba, dost-tanış, qonşu yas evinə axışır, yas sahibini yaxından-uzaqdan tanıyan hər kəs başsağlığı verməyi özünə borc bilir. Qədim ənənəyə görə yasa gələn yaxın qohumlar özləri ilə ehsan süfrəsi üçün əsasən mal-qara, yağ, qənd kimi ərzaq məhsulları gətirirlər. Əsrlər boyu davam edən bu qədim qarşılıqlı yardım ənənəsi ən vacib qohumluq və dostluq normalarından biri idi və yas yiyəsinə ağırlıq düşməməsi üçün edilirdi.

Skiflərin ölümlə bağlı daha bir qədim adətinin izləri də bu gün xalq arasında qorunub saxlanmışdır: Skiflər hər gün yaşadıqları günü dəyərləndirərək xüsusi bir torbaya (oxdanlarına), əgər günləri yaxşı keçmişsə ağ daş, pis keçmişsə qara daş qoyardılar. Kişi ölən zaman onun daş yığdığı bu torbadakı (oxdan) daşları sayardılar, əgər ağ daşlar çoxluq təşkil edərdisə ölənin xəşbəxt həyat keçirdiyi qənaətinə gələrdilər (bax. Herodot. IV. 72–75). Bu gün azərbaycanlılr arasında da yas yerində mərhum haqqında danışarkən onun "ağ gün görməsi" və ya "gününün qara keçməsi" kimi fikirlər söylənilir. Görünür yuxarıda təsvir olunan qədim ənənənin izləri xalğın yaddaşında bu şəkildə qorunub saxlanmışdır.

Qədim dəfn və yas mərasimlərimizin təsvirini "Avesta", "Orxon Yenisey", "Kitabi-Dədə Qorqud" kimi tarixi abidələrimizdə, saysız-hesabsız türk-oğuz əfsanə və xalq deyimlərində də izləmək mümkündür. Gültəkin"nin ölümü şərəfinə düzəldilmiş "yuğ"- yas mərasimi, kütləvi ağlama mərasimi olan "yuğlaş", ölən günü toplanan camaata ehsan verilməsi, qəmli havalar çalıb ağı deyilməsi bölümlərində qədim türk qəbilələrinin yas mərasimlərinin ətraflı təsvirləri verilmişdir. Qədim türk tayfalarında, o cümlədən hunlarda yuğ mərasimi zamanı ölən qəhrəmanın həyatının əlamətdar hadisələrini nağıl edib tamaşa kimi göstərmək adəti də var idi. Hunlar həm ziyafətdə, həm də yas mərasimlərində musiqi ilə şer, mahnı oxuyarmışlar. Ölünün kimliyini dəfn mərasiminə yığılanlara çatdırmaq üçün xüsusi istedadı olan, özündən söz düzüb qoşan ağıçılardan istifadə edilirdi. Məsələn, məşhur hun sərkərdəsi Atillanın ölümü ilə əlaqədar "ağular oxunduğu" (229, 5; 79) məlumdur. Qafqazda və Azərbaycanda məskunlaşan hun qəbilələrinin dəfn mərasiminin təsvirini verən alban tarixçisi M. Kalankatuklu da yazırdı ki, ... meyitlər üzərində təbil, zurna çalırdılar. Yanaqlarda və əzalarda qanlı çapıqlar... Bəziləri ağlayır, hönkürür, bəziləri isə... oynayır, rəqslər edir və oxuyurdular (46, 191). Bu qədim türk ənənələrinin izlərinə hazırda da yas mərasimlərimizdə rast gəlmək mümkündür. Məsələn, Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan udilərin dəfn mərasimi zurnanın müşayəti ilə icra edilir. Bəzən gənc adam öləndə də onu toy kimi, musiqi ilə dəfn edirlər. Bundan başqa Qafqaz Albaniyasının yas mərasimlərində ağı tipli mərsiyələr oxunduğu da məlumdur. Məşhur Alban hökmdarı Cavanşirin ölümünə həsr edilimiş Dəvdəkin şerləri buna misaldır. Bu barədə Ə. Haqverdiyev yazırdı ki, ... Qədim Azərbaycanda ölən qəhrəman üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya "yuğ" deyərdilər. Toplaşanlar üçün qonaqlıq

düzələrdi, xüsusi dəvət edilmiş yuğçular... ağı deyərdilər. Toplaşanlar hönkür-hönkür ağlardılar (44, 392).

Bir çox dilçi tədqiqatçıların da qeyd etdiyi kimi, "yuğ" sözü "yuğlamaq", ağlalamaq", yuğ- qəbir sözü ilə əlaqədardır (79, 299). Sonralar bir çox türkdilli xalqlarda bu sözün səs düşümü nəticəsində yuğlamaq ağlamaq şəklində formalaşdığı da dilçi alimlər tərəfindən söylənmişdir.

Kitabi-Dədə Qorqud boylarında, həmçinin qədim folklor nümunələimizdə də ənənəvi yas mərasimlərimizin qədim izlərini görmək mümkündür. Məsələn, dastandakı ölüm xəbəri ilə bağlı "qız-gəlin ağ çıxardı, qara geydi, qırx-əlli igid qara geyib göy sarıdı. "Burlaxatun yanağın dartdı, yırtdı, saçlarını yoldu (48, 154). kimi ifadələrdə, və yaxud aşağıdakı bayatılarda yuxarıda söylədiyimiz qədim yas mərasimlərinin izləri özünü aydın biruzə verir:

Gül açmaz qara bağlar,
Göy bağlar, qara bağlar.
Balası ölən ana
Başına qara bağlar.

***

Əziziyəm yüz qandı,
Əlli qandı, yüz qandı.
Qız nişanlın ölübdü,
Zülf pərişan, üz qandı

XIX–XX əsrin yas mərasimlərində qədim yas adətlərinin bir çox elementləri demək olar ki, heç bir dəyişiklik olmadan qalmaqda idi. Görünür, vaxtilə yalnız adlı-sanlı qəhrəmanlar üçün hazırlanan yuğ-yas mərasimləri tədricən bütün ölənlər üçün icra edilməyə başlamışdı. Belə ki, yuxarıdakı təsvirlərlə azərbaycanlıların XIX–XX əsrlərdəki, hətta müasir dövrdəki yas mərasimləri arasındakı uyğunluq aşkar gözə çarpır. Mərasim ayinlərinin qoru-



nub saxlanması baxımından yas mərasimləri daha konservativ olduğu üçün müasir dövrdə də yaslarda ağlaşma qurulması, ağıçı qadınların ağı söyləməsi və məclisdəkilərin də ağıçının səsinə səs verməsi və zümzümə etməsi ənənəsi müəyyən dərəcədə qorunub saxlanmaqdadır.

Bu fəsildə əsas məqsədimiz Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan Azərbaycan türkləri və onlarla bərabər bu bölgədə yaşayan avar, rutul, ləzgi, ingiloy, udu kimi etnik qrupların da yas mərasimlərindəki qədim adət və ənənələri, bu mərasimlərdə qorunub saxlanmış arxaik elementləri təhlil etməkdir. Eyni zamanda Şəki-Zaqatala bölgəsi əhalisinin axirət dünyası, ruh barədə qədim dünyagörüşləri, inancları, mifik təsəvvürləri, bölgədəki dəfn və yas mərasimlərinin lokal xüsusiyyətləri qarşılıqlı-müqayisəli şəkildə izah ediləcəkdir.

**Bölgənin qədim dəfn adətləri.** Yerli əhalinin adət və ənənəsini əks etdirən qədim dəfn ayinləri və cənazə mərasimləri barədə, təbii ki, ilk növbədə arxeoloji materiallardan daha dəqiq məlumat almaq mümkündür. Bölgədə aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş abidələrdə astral inamların izlərinə rast gəlinir (15, 49, 93) (Bax: şəkil 1, 2, 3). Qeyd etmək lazımdır ki, qəbir abidələrində astral təsəvvürlərlə bağlı arxeoloji materiallara Azərbaycanın təkcə Şəki-Zaqatala bölgəsində deyil, həmçinin, Daşkəsən, Şəmkir kimi ərazilərində də qeydə alınmışdır. Məsələn, Daşkəsən rayonu ərazisində ilk tunc dövrünə aid kurqandan gil aypara (61, 85), Şəmkir rayonu Zəyəmçay nekropolunda aypara formasında düzülmüş 9 ədəd kiçik ölçülü çay daşları aşkar edilmisi[1] qədim Azərbaycan əhalisinin çox qədim dövrlərdən göy cisimlərinə sitayiş etdiyini göstərir 68, 293–294).

Bölgədə aparılan arxeoloji qazıntılar zamanı tunc

[1] *Qədim türklərin astral təsəvvürlərinə görə göy 9 qatdan ibarətdir (bax: 164, 156).*

dövrünə aid olan bir çox qəbirlərdən kömür, kül izləri olan ocaq qalıqları aşkar edilmişdir. Oğuz rayonu və Nic kəndlərində aparılan arxeoloji qazıntılar zamanı Azərbaycanın qədim dəfn adətlərindən biri olan ölülərin yandırıb külünün gil qablarda basdırılması mərasiminin, bundan başqa Oğuz rayonunun Vardanlı kəndində qəbirin baş tərəfində ocaq qalıqlarının və iki ədəd gil şamdanın aşkar edilməsi hələ tunc dövründə bu ərazidə Günəş simvolu kimi oda, ocağa sitayiş edildiyini göstərir. Arxeoloji qazıntıar zamanı Qəbələ ərazisindəki qəbir abidəsindən üzərində oda sitayiş edən adam təsvir edilmiş əqiq daşlı üzük də aşkar edilmişdir (49, 75–105, 117, 93). Maraqlıdır ki, belə təsvirlər Göytürk xaqanlığı və ona bağlı Türk əsilli sülalərə aid sikkələrin üzərində də təsbit edilmişdir. Bu sikkələrin bir çoxunda od, atəş mehrabı günəşin simvolarından olan svastika, fırlanan çarx təsvirləri ilə birgə verilmişdir (222, 205–232). Mənbələrdən məlum olur ki, bölgədə ölüləri yandırmazdan əvvəl (günəşə sitayiş əlaməti olaraq – M. P.) qırmızı rəngə də boyayırdılar (156, 66–67). Yaloylutəpədə aparılan arxeoloji qazıntılar nəticəsində küp qəbirləri də aşkar edilmişdir. Qırmızıya çalan gildən hazırlanmış iri qəbir küpünün ətrafına sayı birdən altıya qədər olan saxsı qablar yerləşdirilmişdi (32, 79).

Şəki rayonu ərazisindəki III miniliyə aid Kudurlu kurqanlarından qədim Azərbaycan sakinlərinin astral dünyagörüşlərini əks etdirən aypara formalı və ayla günəşin birgə təsvir edildiyi fiğurlu örtüklər aşkar edilmişdir. Bu kurqanlardakı günəş fiquru dairəvi formalı, beş guşəli günəş formasında idi. Maraqlıdır ki, Kudurlu kurqanlarında aşkar edilmiş belə şüa formalı fiqurlara Qafqazın heç bir yerində rast gəlinməsə də, Azərbaycanda uzaqlardan olsa da, türk coğrafiyasına aid olan Tuvada aşkar edilmişdir. E. ə. V–III əsrlərə aid Uluq-Xorum kurqanında 32 şüalı nəhəng günəş təsvirinə rastlanmışdır (93).



Kudurlu kurqanlarından aşkar edilmiş aypara fiquru isə 4 kəsikli şüaları olan dairəvi günəşlə birgə təsvir edilmişdir. Günəş fiqurlu qəbir abidəsi aypara formalı örtüyün əhatə dairəsinin mərkəzində aşkar edilmişdir (93, 94). Maraqlıdır ki, aypara fiquru ilə birgə inşa edilmiş bu günəş fiquru qürub edən günəşi xatırladır (şəkil 2). Burada da qədim inanclar sisteminin izləri özünü büruzə verir. Məlumdur ki, günəşin qürub çağı xalq arasında şər vaxtı adlanır və şər vaxtı inancı bütün türk xalqları üçün xarakterikdir. Xalq arasında mövcud olan qədim ənənələrə görə bu zaman qəbiristana gedilməz, dəfn mərasimi icra edilməz, bu saatlarda yatmaq da olmaz. İnama görə "Günəşin dalınca yatanın bəxti də yatar". Türkiyənin Kars bölgəsində yaşayan türklər arasında da Günəşin batma saatlarında yatmaq yaxşı əlamət sayılmaz. Bu saatda yatan varsa oyandırılar. Oyandırılmayanların və qalxmayanların öləcəyinə inanılır. Bu saatlar üçün "Günəşinə qovuşur" deyərlər (228, 70). Bir çox türk xalqlarında günəşin qürub çağı üçün "Gün yavrusuna qovuşur" və ya "Yer bağlanır", "dar vaxt" kimi ifadələr işlənir (226, 61). Görünür, qədim inanclar sistemində günəşin qürub çağı ölümlə eyniləşdirilirdi və xalq arasında bu vaxtın şər vaxtı adlanması da bununla bağlıdır. Kurqanlardan aşkar edilmiş skeletlerin başının qərbə doğru, yəni günəş batdığı yönə doğru dəfn edilməsi faktı da qədim dəfn adətlərinin günəşin qürub çağı ilə bağlı inanclarından qaynaqlandığı fikrini təsdiq edir. Bu qəbirlərdən aşkar edilmiş çay daşlarından Aypara və günəş fiqurlu qəbir örtükləri şimal-qərbi Azərbaycan əhalisinin qədim və zəngin kosmoqonik dünyagörüşlərinə sahib olduğunu təsdiq edir (şəkil 1, 2, 3). Çox qədim bir mədəniyyətin nişanəsi olan bu tapıntılar azərbaycanlıların mənəvi irsinin Şumer ideologiyası ilə sıx bağlı olduğunu göstərir. Bu kurqanlardan aşkar edilmiş qoyun, keçi, öküz sümükləri də görünür, astral inamlarla bağlı idi.

Azərbaycanın Şəki-Zaqatala bölgəsində aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunan materiallar qədim Azərbaycan əhalisinin toy, doğum mərasimlərində olduğu kimi, qədim dəfn adətlərində də Ay kultunun özünəməəxsus yer tutduğunu göstərir. Oğuz rayonu Vardanlı kəndində tunc dövrünə aid edilən qəbirdə ölünün qarşısına öküz buynuzu şəklində çıxıqlı bir cüt kürənin qoyulması (56, 55) bölgənin dəfn mərasimlərində aya sitayişin də geniş yayıldığını göstərir. Cənubi Qafqazın Kür-Araz mədəniyyəti tayfalarının dünyagörüşündə patriarxal münasibətlərlə bağlı olaraq məhsuldarlıq kultunda kişi başlanğıcı astral inamlarla birbaşa bağlı olmuşdur. Bu, özünü görkəmi ilə öküz buynuzlarını xatırladan təzə Ay simvollunda biruzə verir (61, 85).

Yaloylutəpə qəbir abidələrindən də tapılan qabların üzərində aypara təsvirlərinə təsadüf edilmişdir (56, 85). Bölgənin, xüsusilə, Kudurlu, Daşüz kimi qədim qəbir abidələrindən aşkar edilmiş arxeoloji materiallar bölgə əhalisinin dəfn adətlərində Ay və Günəş kultunun izlərini açıq-aşkar büruzə verir. Şəki rayonu ərazisində yerləşən Daşüz kurqanındakı qəbir çalalarından içərisi də çay daşı və çınqıldan ibarət iri bir ayparanın içərisində 3 kiçik aypara fiquru və bir böyük aypara fiquru aşkar edilmişdir (93, 89–99). Antik mənbələrdə qədim insanların Ayın bataraq (ölərək) yenidən doğmasını sevinclə qarşılayaraq özlərinin də öləndən sonra o dünyada yenidən doğulacaqlarına inandıqları qeyd olunmuşdur (Strabon. 3, IV)

Bütün bu məlumatlar qədim Azərbaycan əhalisinin dəfn mərasimlərində özünəməxsus yer tutan aypara nişanının mahiyyətini anlamağa imkan verir. Bu qədim dəfn ayinlərinin qalıqları bu gün də Şəki-Zaqatala bölgəsində yaşayan əhalinin məişətində özünü büruzə verir. Məsələn, yerli əhali təzə ayı görən zaman çeçələ barmağını ona doğru uzadaraq "barmağım sənə çatana qədər mənə və



qohumlarıma ömür ver " deyərlər.

**Azərbaycan türkləri.** Şəki-Zaqatala bölgəsində də Azərbaycanın hər yerində olduğu kimi ölüm ayağında olan xəstənin yaxın adamları, qohum-əqraba onunla halallaşmağa gəlirdi. Bu ənənənin çox qədim kökləri vardır. Herodot bununla bağlı yazırdı ki, qədim şərq adətinə görə sağalmaz xəstəliyə düçar olmuş adamı, hər kəs onunla hal-əhval tutub dərdini bölüşə bilsin deyə, meydana çıxarardılar. İnsanlar xəstəyə yaxınlaşaraq onunla söhbət edər, dərdinə çarə tapmağa çalışardılar. Xəstənin yanından halını soruşmadan, onunla söhbət etmədən ötüb keçmək qəbuledilməz hal sayılırdı (Herodot. I. 196–199).

Şəki-Zaqatala bölgəsində dünyasını dəyişməyə hazırlaşan adam ona əziz və doğma olandan narazı və ya narahat gedirdisə vəsiyyət edirdi ki, sağ əlini çöldə qoysunlar. Bu adətlə bağlı indi də xalq arasında belə bir deyim də mövcuddur: " Əli uzanaqlı getdi".

Azərbaycanın bir çox yerlərində oduğu kimi bu bölgədə də xalq arasında ölümə işarət edən bəzi əlamətlərə imam var idi. Xalq bu işarətlərin ölümü xəbər verdiyinə inanardı. Məsələn, Azərbaycanın bir çox yerlərində heyvanların bəzi hərəkətləri, məsələn, itin, bayquşun ulaması, qarğanın qarıldaması, xoruzun vaxtsız banlaması, toyuğun xoruz səsi çıxarması və ya ayaqqabı, çorab kimi əşyaların yuxuda görülməsi ölüm işarəti kimi qəbul edilir. Xüsisilə də, ölümün yaxınlaşdığını hiss etdirən heyvanlardan ən birincisi bayquş sayılır. Bölgədə də xalq arasında yayılmış inanca görə, "Axşam bayquş ulayanda deyərlər ki, sabah adam öləcək. Bunun qarşısını almaq üçün bayquşun dalınca yanar kösöv atarlar. Bu adət Azərbaycanın hər yeri üçün xarakterik olduğu kimi, Türkiyədə də yayqındır. Türkiyədə bayquşla bağlı xalq inancına görə bayquş bir evin yaxınlığında uladıqda, o evdə birisinin ölməməsi üçün ya bayquş silahla öldürülürdü, ya

da ocaqdan bir yanan odun parçası bayquşa tərəf atılardı (230, 94).

Bölgədə it ulaması da ölüm işarəti kimi qəbul edilir. İt ulamağı xeyrə yozulmazdı, bu zaman ailəni bədbəxtlik gözləyirdi. Bölgənin XIX əsrə aid mənbələrində (109), "Yurdunda ittər ulaşsın!" kimi bəd dualarında (6, 372) da bu inancın izlərini görmək mümkündür. Xalq arasında yayılmış inanca görə itlərin gözünə ruh görünürdü. Qədim bir rəvayətə görə, itlər sehrli bir otu yedikləri üçün onlar ruhları görə bilirlər (8 a, 26–27). İnama görə, itin gözünə ruh göründüyü zaman o ulayır və sahibinin ölümünün yaxınlaşdığını hiss edir. Bunun qarşısımı almaq üçün it ulayanda ona çörək verər və ya Allah yolunda qurban kəsərdilər ki, bədbəxtlik baş verməsin. Qədim inama görə çörəyin ətri bəd ruhları qovur.

Bölgə əhalisinin inancına görə, qəbiristanlıqda olan müxtəlif bəd ruhlar da insanlara zərər verə bilərdi. Məsələn, Şəki əhalisinin mifik təsəvvürlərinə görə qəbiristanlıq ətrafında *Unuqay* adlı ruh da insanlara keçi cildində görünərək onları aldadıb qəbiristanlığın içərilərinə apara bilər. Bəzən hamilə qadına belə zərər verərək uşağın tələf olmasına səbəb olar (84).

Ölümə işarət edən sınamalardan biri də xoruzla bağlı idi. Xalq arasında yayılmış inama görə vaxtsız banlayan xoruzun başını kəsməsən yaxın kimsən ölər. Bölgədə də vaxtsız ötən xoruz tez kəsilər, adətə görə əti yeilməz, mollaya və ya bir kasıba göndərilərdi (119, 109). Ailədə iki adam dalbadal ölərdisə, o zaman da xoruz kəsərdilər ki, daha 3-cü adam ölməsin. Bölgədə yayılmış digər bir inanca görə mərhumun ölümünün 4-cü günü adna gününə (cümə axşamı) düşərsə, ailə üzvləri və ya yaxın qohumlarından dalınca adam aparar. Bunun qarşısını almaq üçün də xoruz kəsib kasıba verərlər (6, 387).

İnanclara görə ölü suyunun başqasının üzərinə sıçraması da yaxşı əlamət sayılmır. Lakin ölü suyundan müxtəlif ovsunlar, xüsusilə, sonsuzluğa qarşı ovsunlarda da istifadə edilərdi. Bu əcdad kultunun qalıqları ilə bağlı idi. Bölgədə *yuyucu* adlanan ölüyuyanın ardınca da bir qara daş atarlar ki, bir daha ailədə ölən olmasın. Bu məqsədlə ölü yuyulan yerə də daş qoyarlar. Bölgədə ölümlə bağlı bəddualardan biri "Qulağına yuyucu barmağı girsin" idi (6). Xalqın ölüm haqqında təsəvvürlərinə görə, ölü yuylub qulaqlarına pambıq tıxanana qədər hər şeyi eşidir.

Bəzi təbiət hadisələri də, məsələn, göydə ulduz axması, qəfil şam sönməsi də kiminsə öləcəyinə işarət hesab edilirdi. Xalq inamına görə yuxuda od söndürmək yaxın adamın öləcəyinə işarət idi.

Bundan başqa, ağlağan uşağın da valideynlərinin "başını yeyəcəyi" (*"başını yemək" ifadəsi kiminsə ölümünə səbəb olmaq anlamında işlənir)* inamı var idi. İnama görə bunun qarşısını almaq üçün atanın ayaqqabısı ilə uşağın ağzına yavaşca üç dəfə vurmaq lazımdır. Bu inam türkmənlərdə və Anadolu türklərində də var. Bu zaman "Yaşın başını yesin" deyərdilər (226).

Bölgədə ölümlə bağlı geniş yayılmış bir inam da ayaqqabı ilə bağlı idi. Bu inama görə ayaqqabı darlıq, qəbir əlaməti idi. "Dar yer" bir çox türk xalqlarının təsəvvüründə qəbir hesab olunurdu. Amasya, Tokat, Anadolu kimi Orta Anadolu bölgələrində də "su səlası" deyilən mərasim zamanı ölü evdən çıxarılan zaman arxasınca bir dolça su ataraq mərhumu "dar yerə yolçu" edərdilər (230, 96–103). Azərbaycanda da darlıq ifadəsinin ölüm, qəbir mənaları var. Məsələn, "ayaqqabı darlıqdır" ifadəsi ayaqqabının ölüm işarəti olması mənasındadır. Azərbaycanlılar arasında "darmacal" ifadəsi də var. Bölgədə yayılmış inama görə, ayaqqabının hər iki tayı üzüaşağı düşərsə, pis əlamət sayılır. Belə olanda ayaqqabının arxasına tüpürərək, düzünə qoymaq məsləhətdir (6, 388). Yas yerindən

çıxıb başqasının evinə gedən adam orada ayaqqabılarını tərs geyməlidir, yoxsa getdiyi evdən də cənazə çıxa bilər. Ayaqqabı bölgənin yuxu yozmalırında da xeyirliyə yozulmurdu. Ayaqqabı və corab darlıq, ayaqqabı və corabı çıxartmaq isə darlıqdan xilas olmaq kimi yozulurdu. Türkiyənin Anadolu bölgəsində də ayaqqabı ilə bağlı bir inanca görə mərhumun ayaqqabıları axşamdan eşik qapısına tərs qoyulmasa, o geri qayıdıb gələ bilərdi. Ayaqqabılar bir an əvvəl yoxsula verilir (228, 206). Maraqlıdır ki, Mingəçevirdə qədim qəbristanlıq sahəsində, bundan başqa Qızıl Vəngdə, Xanlarda (indiki Göygöl rayonu) və s. arxeoloji qazıntılar aparılarkən qəbirlərdən gildən hazırlanmış, burunları yuxarıya döğru əyilmiş Qafqaz uzunboğaz çəkmələrinə oxşar qablar tapılmışdır. Belə ayaqqabı formalı qablar inanca görə axirət dünyasına yola düşən ölünün səfərini asanlaşdıracaqmış (56, 83).

Oğuz rayonunda yayılmış bir başqa inama görə xalça toxunan zaman adam ölərdisə, toxunan xalçaya bir düymə tikərdilər ki, yenə ölən olmasın. Hətta xalça toxunub qurtardıqdan sonra da yerə döşənərkən bu düymə xalçanın üstündə qalırdı. Düymə şər qüvvənin yolunu bağlamaq, düyünləmək məqsədi güdürdü. Hazırda da bölgədə belə xalçalara rast gəlinir. Qeyd etmək lazımdır ki, Azərbaycanın digər bölgələrində də bu adət mövcuddur.

Şəki-Zaqatala bölgəsinin yuxuyozmalarında da ölümə işarət edən bir sıra lokal inanclar qeydə alınmışdır: Yerli əhali arasında belə inanclar var ki, yuxuda "Araba-aşkarda cənazə deməkdir", "Camış evə əzrayılın gələcəyinə işarədir", "Dişin çəkilməsi - həmin nəslin uzaq qohumlarından birinin vəfatıdır". "Kələm evdən ölü çıxacağına işarədir", "Paltar geymək darlıqdır, ağ paltar kəfəndir", "Yuxuda təndir görən qəbir qazacaq", "Hasar, barının uçması-evin ağsaqqalının həyatdan gedəcəyidir" (6). Türklərdə də yuxuda evin bir tərəfini uçmuş görən



qadının əri öləcəyinə inanılır (227, 87).

**Ölümün qarşısını almaq üçün ovsunlar.** Alın yazısı deyilən bir anlayış tarixin bütün dövrlərində insanları düşündürmüşdür. Müasir dünyanın bir çox alimləri bu yazını oxumağa belə səy etmiş, amma bir nəticəyə gələ bilməmişlər. Alın yazısı insanlar arasında bir inanca çevrilmişdir. Azərbaycanın bütün bölgələrində alın yazısı inancı yaşanmış, Şəki-Zaqatala bölgəsi də bu inancdan xali olmamışdır. Bölgədə yaşanan "alın yazısı" (tale) anlayışına görə uşaq doğularkən onun taleyi də artıq yazılmış olurdu və insanın bədəninə müvəqqəti yerləşmiş ruh yaşından asılı olmayaraq zamanı gəldikdə bədəni tərk etməli idi. Yerli əhalinin ölüm haqqındakı təsəvvürlərində "Allahın yazısı beləymiş", "Yazıya pozu yoxdur" inamı özünəməxsus yer tuturdu. Lakin xalq inamına görə ölümün vaxtı gəlib çatmayıbsa onun qarşısını almaq mümkündür. Keçmişdə bölgədə ölümün qarşısını almaq üçün bir sıra ovsunlar icra edilirdi. Məsələn, ölüm ayağında olanının qarşısında səs-küy salaraq bəd ruhları qovmağa çalışırdılar. İbtidai inamlara görə, can verən insanın yanında bərkdən ağlayanda və ya onu çağıranda onun ruhu geri qayıda bilərdi (208, 329). Çox zaman ölüm ayağında olanın adı dəyişdirilirdi. Belə ki, qədim inama görə insanın adı onun ruhunu əks etdirir. Altay türklərində də mövcud olan bu inama görə insan bədən, ruh və addan ibarətdir. Ad da ruh kimi ölmür (208, 297). Qədim insanlar ailə səadəti, sağlamlıq və təhlükəsizliklərinin təminatıçıları olaraq sitayiş etdikləri ilahi qüvvələrin qoruyucu gücünə inanaraq körpələrinə teofor, və ya xoşbəxt yaşamış əcdadlarının adlarını da verərdilər. Doğulan körpəyə qoyulan adın ruhu uşağın qoruyucusuna çevrilirdi. Xəstə, talesiz insan ruhu ilə bağlı olan adı daşıyan şəxsin həyatının da ağır keçəcəyinə, əksinə, xoşbəxt, uğurlu ömrü olan insanın adının qoyulduğu şəxsin də xoşbəxt olaçağına

inanardılar. Buna görə də bəzən adını daşıdığı ruhun xəstə və bədbəxt olması düşüncəsi ilə tez-tez xəstələnən uşağın və ya ölüm ayağında olan xəstənin adını dəyişdirirdilər.

Bölgədə keçmişdə xəstə doğulan uşağın sağ qalması üçün onun sağlam uşaqla beşikkərtmə edilməsi adəti də var idi. İnama görə sağlam uşağın taleyi digər uşaqla birləşdirildiyi üçün onu da qoruyacaqdı.

**Ölüm, axirət dünyası haqında təsəvvürlər.** Bəşər tarixi boyunca xalq arasında ölüm, axirət dünyası haqqında müxtəif təsəvvürlər mövcud olmuşdur və bu təsəvvürlərdə islam və islamaqədərki inanclar özünəməxsus şəkildə bir-birinə qaynayıb qarışmışdır. Bütün xalqlarda olduğu kimi, azərbaycanlılarda da ölüm, hər şeydən əvvəl ruhun yer dəyişdirməsi, görünən aləmdən görünməz aləmə keçid, eyni zamanda yeni həyata başlanğıc kimi qəbul edilmişdir. İnsan ruhunun bədənində qonaq olduğu və bir müddətdən sonra bədəndən ayrılıb yeni bir dünyaya gedəcəyinə inanmışdır. Bu yeri azərbaycanlılar "axirət", "o dünya", "haqq yeri", "haqqın dərgahı" adlandırırlar. Ölüm kəlməsi Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də çox işlədilməz. Ölən adam üçün daha çox "Dünyasını dəyişdi", "Bu dünyadan köçdü", "Ömrünü bizə bağışladı", "Haqqa qovuşdu" və ya "Haqq dünyasına köçdü" kimi ifadələr işlənər.

**Ölüm anında və ölümdən sonra icra edən ayinlər.** Şəki-Zaqatala bölgəsinin dəfn adətləri bütövlükdə Azərbaycanın digər bölgələrindəki kimi olsa da, forma və icra tərzlərinə görə müəyyən lokal xüsusiyyətlərə də malik idi. Bölgədə yaşayan müsəlman əhalinin dəfn adətləri demək olar ki, fərqlənməmişdir. XİX əsrdə bölgə əhalisinin məişətini təsvir edən Fon-Plotto da yazırdı ki, Zaqatala vilayətində məskunlaşan muğalların (yuxarıda da qeyd etdiyimiz kimi, azərilər nəzərdə tutulur. – M. P.) və ləzgilərin



(avarların-M. P) dəfn adətləri bütün müsəlmanlarla eyni idi (174, 45). Müsəlman əhalinin yas mərasimlərində Quran oxunur, ölü sahibinə başsağlığı verilir, islam ənənəsi ilə dəfn hazırlıqları görülür, xristian əhali isə xristian ənənələri ilə dəfn mərasimi icra edirlər. Lakin bu ayinlərdə bir sıra arxaik elementlərin – qədim inancların da izlərini də görmək mümkündür.

Azərbaycanın digər regionlarında olduğu kimi, bölgədə də keçirilən yas mərasimlərində ağı demək ənənəsi var. Azərbaycanın hər yerində olduğu kimi, bölgədə **dəfnə qədərki müddətdə** ölü üçün ağılar oxunur. Maraqlıdır ki, bölgədə dinindən asılı olmayaraq bütün əhalinin, həm müsəlman, həm də xristian əhalinin yas mərasimlərində ağı demək ənənəsi mövcud olmuşdur. Ağı demək yuxarıda da qeyd etdiyimiz kimi bəşər tarixinin ən qədim dövrlərindən davam edib gələn bir adətdir. Azərbaycan xalq ədəbiyyatında da ağı bir folklor janrıdır. Ağı ayinində söz, musiqi, pantomim sənəti qaynayıb qarışmışdır.

El arasında ağı demək "ölünün yaraşığıdır" deyərlər. Ağı demək bölgədə azərilər arasında çox zaman "dil demək" kimi də ifadə olunur. Bunun üçün yasa xüsusi ağıçılar dəvət olunardı ki, bölgədə bəzən onlara "sazanda" da deyirdilər. Maraqlıdır ki, hazırda Türkiyənin bəzi bölgələrinin yas mərasimlərində kəndin mollası və ya ozanları ölünün ətrafında səhərə qədər saz çalıb ağı deyərlər. Kərkük yas məclislərində də xüsusi dəvət olunmuş ağıçılar "sazlayan" adlanır (72, 79). "Ölü sazı çalma" adəti Türkiyənin, xüsusilə, Ege və Antalya bölgəsində yayqındır (230, 97). Ağı ayinində bəzi qədim inancların qalıqları da özünü göstərməkdədir. Məsələn, region üçün xarakterik ağılardan biri olan "toy xınasını qurd aparmış" ifadəsində qurd ölüm simvolu kimi özünü göstərir. Bölgədə yayılmış deyimlərdən biri olan "Qurd tükü əzrayıl tükü" deyimi də yüxarıda dediklərimizi təsdiq edir.

Məlumdur ki, keçmişdə Azərbaycanda yas mərasimlərində saç yolma, hörüklərin kəsilməsi kimi qədim adətlər də qalmaqda idi. Azərbaycanı bəzi yerlərində əri ölmüş qadının hörüklərinin kəsərək mərhumun sinəsinin üstünə qoyulması adəti mövcud olmuşdur. Qədim inanclar sisteminə görə saç insan ruhunun gəzdiricilərindən biri idi (56, 82).

Bölgənin yas mərasimlərində də saçla bağlı ayinlər icra edilirdi. Keçmişdə Oğuz rayonunda bəzən ailədə ölən olardısa mərhumun bütün qohum-əqrabası öz saçlarını kəsərdilər (56, 82). Cox güman ki, Azərbaycanda "səni görüm hörüklərn kəsilsin" (və ya "saçın kəsilsin") kimi qarğış ifadələri yaxınlarına ölüm bədduası kimi deyilmişdir. Şəki-Zaqatala bölgəsində bu qarğış bəzən "Saçın biləyinə bağlansın!" formasında da söylənərdi. Bölgənin yuxu yozmalarında da saçın qırxılması ömrün kəsilməsi kimi izah olunurdu.

Azərbaycanın hər yerində olduğu kimi, tədqiq etdiyimiz bölgədə də müsəlman əhali adətə görə ölümdən sonra cənazənin ən qısa müddətdə torpağa verilməsinə çalışır. Ölünün "yerdə qalması" yaxşı əlamət sayılmır. Xalq inamına görə, ölünün basdırılması yubadılsa yenə ölən olar. Cənazə bölgədə "mayıfə" (mafə) adlanırdı. Adətə görə dəfn mərasimi günəş batmadan icra edilməli idi. Ölüm axşamüstü və ya axşam saatlarında baş veribsə ölünün dəfni ertəsi günə saxlanar. Bu, bütün türk xalqlarında yayğın olan şər vaxtı inancı ilə bağlı idi. "Ölünün yerdə qalmaması" üçün onu erkən dəfn edilməsi düşüncəsi əslində qədim Yer kultu ilə bağlı təsəvvürlərdən qaynaqlanır. Türkiyədə inanca görə axşam vaxtı-şər vaxtı "Yer bağlanır". Anadoluda bu vaxta "yerlərin kilidləndiyini vaxt" deyilir (226, 333). Adətən şər vaxtı ölü dəfn edilməz, "Axşamın xeyrindən səhərin şəri yaxşıdır" deyimində də bu düşüncə özünü biruzə verir. Türkiyədə olduğu kimi,



Azərbaycanda da günəş batmadan öncə dəfn edilmə adəti, günəşin qürub çağında yatan adamın oyandırılması adəti, görünür, bu qədim inancın qalıqlarıdır. Şəki-Zaqatala bölgəsində "Günün dalınca yatanın bəxti yatar" inamı var. Türkiyədə də günəş batmadan öncə dəfn ölüm hadisəısi baş verən zaman, günəş batan zaman yatan adam varsa qaldırılması adəti var.

Günəşin batma saatlarına türklər çox zaman "Günəşinə qovuşur", "Gün yavrusuna qovuşur" və ya "dar vaxt" da deyirlər.

Azərbaycanın bir çox bölgələrində ölən adamın qəbri üzərində və ölü yuyulan taxtanın üstündə 3 gecə şam yandırılardı. İnanca görə ölünün ruhu 3gecə himayəsiz qaldığı üçün bu şər qüvvələrdən qorumaq üçün edilirdi. Ölünün ruhu 40 gün evə gəlib getdiyi üçün və evin yerini rahat tapa bilməsı üçün 3 gün, bəzən isə 40 gün boyunca şam yandırılar, işıqlar sondürülməz. Türklərdə də ölünün olduğu otaq onun ruhunun evə gəlib dolaşa biləcəyi inancı ilə 3 gün, bəzən 9 gün, bəzən isə 40 gün boyunca şam yandırılar və ya işıqlar söndürülməzdi (230, 98).

**Ruh haqqında təsəvvürlər.** Azərbaycanların dəfn və yas mərasimlərində ruh haqqında təsəvvürlər xüsusi yer tuturdu. Ümumiyyətlə, dəfn-yas mərasimlərinin böyük əksəriyyəti ölü ruhu, onun yenidən canlanması qorxusu ilə, ruhun razı salınması istəyi ilə icra edilirdi. Xalq arasında yayılmış inama görə narahat ölü yenidən dirilə bilər. Ölünün dirilərək insanlara, xüsusilə də uşaqlara xətər yetirəcəyindən qorxan xalq onları "xortlamış" (yəni yenidən dirilmiş) "xortdan", "kaftar" adlandırırdı. Bunun qarşısını almaq və ya ölünün ruhunu razı salmaq üçün ehsan vermək, dua oxumaq, şam yandırmaq kimi müxtəlif ayinlər icra edilirdi.

Şəki-Zaqatala bölgəsində ruh xalqın təsəvvürlərinə görə gözlə görünməz idi və əsasən müxtəlif zoomorf

obrazlarda (ilan, quş, pişik, keçi, camış və b. cildlərdə) gözə görünə bilərdi. Bölgədə yaşayan Azərbaycan türkləri arasında da insanın "can" və "ruh" dan ibarət olması inamı geniş yayılmışdı. Bu inanca görə insan dünyaya nəfəs və canla gəlir və bu nəfəs ya da can ölənə qədər insanın ruhunu əvəz edir. İnsanın nəfəsi ağzından çıxanda ruhu da bədəndən çıxır. Bu inancların təsiri ilə bölgədə "nəfəsi ağzından çıxdı", "canı çıxdı", ""ruhu bədənindən quş kimi uçub getdi" kimi ifadələr "öldü" sözünü əvəz edir. Şəki-Zaqatala bölgəsində yayılmış inama görə ruh insanın bədəninidən quş kimi – bülbül, sərçə, ağ toyuq kimi quşların cildində uçub gedir (84). Belə təsəvvürlər sisteminə Orta Asiya xalqlarında da rast gəlinir (179, 93; 185, 114). Bölgədə yasda söylənən ağılarda da ölünün ruhunun quş obrazında olması inamının izlərini görmək mümkündür. Məsələn,

Anası yanar ağlar,
Hərifi qanar-ağlar.
Ana diyipdi: "Göyərçin
Tabuta qonar-ağlar" (6, 39).

Ölənin ruhu çox zaman ağsaqqal kişi və ya ağbirçək qadın şəklində təsəvür edilir. Ölünün ruhu qohumlarının yuxusuna girərdisə, adətən onun nəsə istədiyi güman edilərdi. Bu zaman mollaya yasin oxutdurulardı, qoyun kəsilib ehsan verilərdi.

Şəki-Zaqatala bölgəsində mövcud olan inanca görə əgər hər hansı bir qohumun yası layiqincə verilməyibsə, ehsan paylanmayıbsa, o zaman həmin nəsildən birini "ruh tuta bilərdi". Adətən çox zəif, tez-tez xəstələnən adamı hər hansı bir ölmüş qohumunun "ruhu tutduğu" güman edilirdi. İnama görə, xəstəni ruh tutmasından "ruh ölçən" adlandırılan xüsusi baxıcılar qurtara bilərdi. Xalq arasında yayılmış inama görə, baxıcılıq sənəti kişi baxıcılara



ata, qadın baxcılara isə ana nəsli ilə keçən bir vergi idi. XIX əsr mənbələrində bölgədəki "ruh ölçmə" ayininin təsviri verilmişdir. Bu ayinin icrası zamanı, adətən üç gün axşam vaxtı xəstənin evindən "ruh ölçən"ə (baxıçıya) iri dəsmala bükülmüş çörək parçaları, duz, kömür, pendir, soğan (və ya sarımsaq) aparırdılar. Baxıçı qapısının ağzında hər dəfə dəsmalı yerə sərərək sağ dirsəyi ilə onu ölçərək deyir: "Öz əlimlə ölçmürəm, müqəddəs babamın (və ya müqəddəs nənəmin) əli ilə ilə ölçürəm". Sonra yuxarıda sadalanan əşyaları yenidən dəsmala bükərək boxçanı xəstəyə göndərir. Boxçanı gətirən adam xəstəyə bir söz demədən bu boxça ilə onun kürəyinə vurur və sonra boxçanı xəstənin başının altına qoyur. Səhər alatoranlıqda boxçanın içindəkilərin bir hissəsi, heç kəs görməmək şərtilə qəbiristanlığa atılırdı, bir hissəsi isə baxıçıya gətirilirdi. Bu proses 3 dəfə təkrar olunurdu. Dördüncü gün xəstəyə zərər verən ruh müəyyənləşirdi. Həmin ölünün ruhuna ehsan verilirdi və daha sonra baxıcı həmin qəbirdən götürülmüş torpağı suya qataraq xəstənin bu su ilə çimdirilməsini tövsiyyə edirdi (211, 143-144).

Ölü torpağından istifadə əcdad kultu ilə bağlı idi. Bölgədə müqəddəs adamların qəbirlərini ziyarətə gələnlərin ziyarətgahdan torpaq götürüb azca suya qatıb içməsi, ziyarətgahdakı müqəddəsin torpağından "tütyə" kimi götürüb hündür və təmiz yerdə saxlamaq, sonsuzluğa qarşı ölü torpağı qatılmış su icirdilməsi kimi adətlər əcdad kultu ilə bağlı idi. Ölü torpağından istifadə edilməsi adəti Azərbaycanın hər yerində yayqın olduğu kimi bir çox türk xalqları üçün də xarakterik idi. Anadolu və Balkan türklərində ölü torpağının dərin yuxu gətirəcəyi inamı vardır (230).

**Dəfn.** Qədim insanlar ölümün həyatın başqa bir şəkildə davamı olduğuna inanaraq ölü ilə bərabər qəbrə əşya, mal-mülk və s. qoyulması kimi bir çox ayinlər icra etmişlər. Mənbələrdə Qfqaz Albaniyasında da ölü ilə bir-

gə əşyalarının basdırılması ənənəsi olduğu barədə məlumat verilir. Albanlar cənazə ilə eyni zamanda sərvət və mallarını da dəfn etdikləri üçün ata mirasına sahib olmurdular. (Stabon. XI. 4. 8) Lakin albanlarda ölən adam üçün heyfslənmək də günah sayılırdı. Hətta 488-ci ildə təsdiq olunmuş alban kilsə qanunnaməsinə görə, "ölünün üstündə yas qurub ağlaşanlar ağıçılarla birlikdə cəzalandırılırdı (Kalankatlı. I kitab, XXVI). Bu adətin izləri bu gün xalq arasında ""Ölü üçün tökülən yaş təzə ölü aparar", "Göz yaşı olan evdə həmişə yas olar" inamlarında qorunub saxlanmışdır. Eyni zamanda Aqvan kilsə məclisinin bu qanunundan aydın olur ki, Albaniya ərazisində dəfn mərasimlərində qədim yuğ mərasiminin qalıqları olan ağlaşma və ağıçılar adəti olmuşdur.

Bölgədə vəfat etmiş insanı son mənzilə yola salarkən daha çox azərilər arasında yayılmş inanca görə mərhumun gözü evdə qalmasın deyə cənazənin dalınca bir daş atıb deyərdilər:

Altın torpax, üstün daş,
Yağış yağar, kəfənin olar yaş.
Bu dünyadan apardığın
Olsun bir dənə qara daş.

Türkiyənin Anadolu bölgəsinə də cənazənin ardınca daş atılır (228, 206). İbtidai inamlara görə daş əbədi yaşadığı üçün müqəddəsləşdirilmişdi (208). Xalq arasında yayılmış qədim inama görə daşda insan ruhu yerləşmişdir və hər bir adamın sağlığında özünəməxsus daşı mövcuddur. İnsan ölsə də onun ruhu bu daşda yaşamağa davam edir. Azərbaycanda daş kultu ilə bağlı yayılmış inanca görə arzu olunmayan adamın və ya ruhun bir daha geri qayıtmaması üçün arxasınca daş atırdılar. Cənazənin ardınca daş atma ayinini ölü yuyanlara - mürdəşirlərə qarşı da işlədilərdi.



Azərbaycanın cox yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də keçmişdə ölü basdırılan zaman qəbiri qazmaq üçün ölənin boyunun ölçüsü ya cubuq, ya ip, ya da qamışla ölçülərdi. Adətən qəbir qazılan zaman qəbir qazanın əlində mərhumun boyunu ölçüldüyü qamış olurdu. Bununla bağlı Azərbayanda yayğın olan "Boyuna qamış ölçüm!". "Boyuna ip ölçüm!" qarğışları bölgədə "Boyuna Varxiyan qamışı ölçüm!"şəklində işlədilirdi. Məlumatçılarımızın söylədiklərinə görə, Zaqatalanın Varxiyan kəndində uzun ölçülü qamışlar bitirdi. Görünür, bu deyim bölgənin Varxiyan kəndində yetişən qamışlardan dəfn mərasimlərində istifadə edilməsi ənənəsi ilə bağlı idi.

Bölgədə azərilər üçün xarakterik dəfn adətlərindən biri də ölü basdırılandan sonra qəbir daşları arasında dərin bir cızıq çəkilməsi, ya da cala düzəldilməsi idi. Xalq arasında yayılmış inanca görə ölü basdırılandan sonra qəbrin üzərində çala düzəldib içərisinə su tökürlər ki, mərhumun sinəsi qurumasın. Maraqlıdır ki, skiflərdə də ölünü dəfn edərkən belə dördkünc cala qazılırdı (161, 27).

Bölgənin sünnü-müsəlman əhalisi üçün "*sappa*" adlanan qəbir forması da xarakterik idi (212). Belə qəbir forması Qazax bölgəsində mövcuddur. Mütəxəssislərin fikrincə bu qəbir tipləri çox qədimdir və katakombalara bənzəyir (38, 54). "Sappa" tipli qəbirlərdə qazılmış qəbir quyusunun içərisində böyürdə də bir çala qazılırdı, yəni iki kameralı idi. Qeyd etmək lazımdır ki, bu məzar tipləri Türkiyə ərazisində də qeydə alınmışdır (221, 281-296). Məlumdur ki, hun məzarları da belə iki qatlı (kameralı) olurdu və tabut yana doğru cənub-şimal istiqamətində qazılmış hissədə yerləşdirilirdi (228, 198). Qeyd etmək lazımdır ki, sappa qəbirlər ən qədim türk dəfn ənənələrindəndir. Məlumdur ki, türklərdə əcdada hörmətlə bağlı olaraq qəbirlərin açılması ən böyük rüsvayçılıq sayılırdı. Buna görə də qədim türk tayfalarında ölüləri iki kameralı

qəbirlərdə basdırmaq adəti geniş yayılmışdı. Azərbaycanın Şəki-Zaqatala bölgəsi üçün belə qəbirlərin xarakterik olması bir daha bu ərazinin ən qədim türk yudlarından biri olduğunu təsdiq edir. Bu qədim dəfn adəti bölgədə qədim türk tayfalarının məskun olmasını təsdiq edən mühüm etnogenetik mənbələrdən biridir.

Mərhumu adətə görə sağ böyrü üstə qəbrə qoyurlar. Bölgənin özünəməxsus dəfn ayinlərindən biri də ölünün sinəsinə alma qoyulması (Şəkinin Kiş kəndində) adəti idi. Almanın bölgənin toy mərasimlərində olduğu kimi yas mərasimində də əbədi həyat simvolu kimi özünəməxsus yer tutduğunu görürük. Qeyd etmək lazımdır ki, Azərbaycanda yayqın olan bir inama görə, üşaqların ölümü zamanı Əzraryıl onlara alma verir. Buna görə də uşaqlar üzlərində təbəssüm ölürlər (119, 111). Burada alma əbədi həyat ağacı simvolu kimi çıxış edir. Almanın əbədiyyət həyat rəmzi olmasının izlərini "Məlikməmməd" nağılında da görmək mümkündür

Ağac-bitki kultunun izləri bölgədə saxurların ölünün üstünə mixək səpməsi adətində də özünü göstərir. Ölünün üzərinə alma qoyulması və mixək səpilməsi kimi təbiət kultu, bitki-ağac kultu ilə bağlı ayinlərin qalıqları Azərbaycan folklor nümunələrində də əks olunmuşdur. Məsələn, "Tapdıq" nağılında "dirilik ağacı" və ya "dirilik gülündən" söz açılır (10,67; 79, 15). Qədim inanclara görə Dünya ağacının simvolu olan müqəddəs ağacların meyvələri, yarpaqları insanları cavanlaşdırır, onlara əbədi həyat bəxş edir. Ölünün üstünə alma qoyulması, mixək səpilməsi kimi bölgəyə xas olan qədim adətlər məhz "əbədi həyat" və "dirilik gülünün" motivlərini əks etdirir. Bitki kultu ilə bağlı belə ənənələrə Orta Asiya türklərinin də dəfn mərasimlərindı rast gəlinir. Burada ölünün üzərinə reyhan otu və ya qızılgül qoyardılar (157, 141). Qədim şumer əfsanəsi "Gilqamış"da insanı gəncləşdirən, əbədi həyat bəxş edən, "dənizin dibində bitən, qızılgül tək tikanlı bir "gənclik çiçəyi"ndən bəhs edilir (201, 140; 39, 109).



Şəki-Zaqatala bölgəsinin toy mərasimləri üçün xarakterik olan şaxbəzəmə adətinə yas mərasimlərində də rast gəlinir. Gənc adam ölərkən qara şax bəzədilməsi adəti də ağaç kultunun nişanəsidir. Bölgədə nişanlı oğlan öldükdə iki qara şax bəzədilirdi. Biri qəbrin baş tərəfində, digəri isə ayaq tərəfində sancılırdı. Toy mərasimlərindən fərqli olaraq qara şax adətən barsız sayıldığına görə söyüd ağacının budağından düzəldilirdi. Ümumiyyətlə, Azərbaycanın yas mərasimlərində şaxbəzəmə ənənəsi özünəməxsus yer tuturdu. Keçmışdə Azərbaycanın başqa bölgələrində də gənc yaşlarında və ya nişanlı zamanı ölmüş oğlan və ya qız üçün şax bəzədilirdi. Toyda bəzədilən "qırmızı" şaxdan fərqli olaraq ölmüş cavan üçün bəzədilmiş şax "qara şax" adlanırdı. "Qara şax" qəbrin üzərinə sancılırdı. Nişanlı qız öldükdə bəzədilən "qara şax"dan bəzən onun əl işləri, tikmələri və s. də asılırdı, budaqlarına qara rəngə boyadılmış yumurta keçirdilirdi (53, 257). "Cənubi Azərbaycan ərazisində də adlı-sanlı kişi öldükdə onun üçün yaşıl budaq bəzəyir və ondan rəngli kağız lentlər və meyvələr asılırdı (12).

Bölgədə bəzən ölünün sinəsinə bir parça çörək də qoyardılar. Bunu həm mərhumun ruhunu razı salmaq, həm də ona evin bərəkətini özü ilə aparmağa mane olmaq üçün edirdilər (212, 63).

**Dəfndən sonrakı müddət. Yas.** Xalq arasında yayılmış inanca görə ölü dəfn olunandan sonra onun ruhu 40 gün ərzində evinə qayıda bilər və bu müddət ərzində o, basdırıldığı yerlə evi arasında gedib gəlir. Buna görə də bu müddət ərzində mərhumun yaxınları ölünün ruhunu razı salmaq üçün müxtəlif ayinlər icra edirlər. Ümumiyyətlə, yas mərhumun yad edilməsi, qohumların və həmkəndlilərin ona olan diqqət və hörmətini bildirən qədim ayinlər

toplusudur. Azərbaycanlıların yas ayinlərində islama qədərki inanclar islam ayinləri ilə birləşərək özünəməxsus sintez yaratmışdır.

Azərbaycanın hər yerində olduğu kimi bölgədə də dəfndən sonra 1, 3, 7, 40, verilməsi adəti var. Bölgədə həmçinin mərhumun 52-ci günü də qeyd edilir və "xeyrat" verilir. Bundan başqa mərhumun ruhunu razı salmaq üçün ehsan verib Quran oxudarlar.

Adətə görə dəfn mərasimi bitən kimi mərhumun evində ehsan verilirdi. Ehsan ölümdən sonra ruhun əzab çəkdiyinə inanıldığı üçün, ölünun əzablarını yüngülləşdirmək, daha çox xeyir-da qazanmaq üçün, ruhunu razı salmaq üçün verilən bir xeyriyyə yeməyidir. Bölgə əhalisi ehsanı "xeyrət" adlandırır. Türkiyənin bəzi bölgələrində ehsan kimi məzar qapanmadan ölənin baş ucunda "dar torpaq" qurbanı kəsilər, qurban əti cənazə evinə gətirilər və axşam yasa gələnlər üçün bişirilərdi (230, 103).

Məlumdur ki, hələ islamdan öncə də qədim türklər ölünün 7, 40 kimi günlərində qurban kəsər, yas tutar, qadınlar üzlərini cırıb saçlarını yolardılar. Görünür, ölü üçün 3, 7, 40, 52 kimi günlərdə ayinlər icra etməsi türk inanclarının xüsusilə də, "ölü aşı" deyilən qədim bir ənənənin davamı idi (230, 99).

Oğuz rayonunda yayılmış adətə görə ölü düşən evdə 7 gün iş görülməzdi, heç kəs paltarını dəyişməzdi (56, 82). Bölgədə ölmüş adamın papağının çardaqdan asılı qalması ənənəsi də var idi. Bu ənənənin izlərini bölgə üçün səciyyəvi olan "Papağın paya başında qalsın" bədduasında görmək mümkündür.

Adətə görə xeyir-şər məclislərindən evlərinə qayıdanlar bir cimdik duzu üç dəfə başına fırladıb ocağın üstünə atardılar. Bu bədnəzərə qarşı, şər qüvvələri qovmaq üçün edilirdi.

**40 mərasimi.** Mərasim ayinlərində 40 sayı mühüm yer



tutur. Xalqın inamına görə 40 gün insanın ruhu ilə canı arasında əlaqə yarandığı, yəni ruhun cana gəldiyi və ruhun candan ayrıldığı müddətdir. İnsan dünyaya nəfəslə-canla gəlir və can çıxdıqdan sonra ruha cevrilir. Bu proses 40 gün müddətində baş verir. Məsələn, ana bətnində uşaq 40 gündən sonra canlanır, və ya insan öləndən sonra onun ruhu 40 gün müddətində evi ilə qəbri arasında gedib-gəlir. Bu inamın nəticəsidir ki, doğuşdan sonra həm ana, həm də uşaq 40 gün hələ ölüm təhükəsini adlamamış sayılır. Hətta bununla bağlı xalq arasında "Zahının qəbrinin üstü 40 gün açıq olur" deyimi də mövcuddur. Beləliklə, xalqın ölümlə bağlı təsəvvürlərinə görə, ruhun bədəndə canlanması və həmcinin bədəni tərk etməsi müddəti 40 gün sayılır. Buna görə də yas mərasimlərində 3, 7 sayları ilə bərabər 40 sayı da mühüm yer tutur. Ruhun o dünyaya 40 günün tamamında köçüb getməsi münasibətilə 40 mərasimi icra olunur. Skiflərdə də yas mərasimlərində 40 sayı mühüm yer tuturdu. Skiflərdə mərhumu 40 gün ev-ev gəzdirir, hər evdə onun şərəfinə yemək verirdilər (161, 26). 40 mərasimindən sonra 40-ın səhəri sübh tezdən mərhumun qohumları yenidən yığışıb qəbr üstünə gedirdi. Daha sonra evdə ehsan süfrəsi açırdılar.

Azərbaycanın bəzi rayonlarında olduğu kimi (məsələn, Qazax r-nu) Şəki-Zaqatala bölgəsində də mərhumun 52-ci günü də yas mərasimi keçirilirdi. İnama görə həmin gün ölünün əti sümükdən ayrılılıb ruhu göyə yüksəlirdi və bu proses çox ağrılı keçdiyi üçün mərhumun qohumları ehsan verməklə onun əziyyətini yüngülləşdirməyə çalışırdılar. Bölgədə mərhumun 52-ci günü xüsusi mərasimlə qeyd edilirdi. 52-ci gündə də 40 mərasimində olduğu kimi Quran oxutdurub halva bişirilir, ehsan verilirdi. Bu adət Türkiyənin bir çox bölgələrində icra edilir. Anadoluda ölünün 3, 7, 40 günlərinə əlavə olaraq 52-si də qeyd olunur. Bu günlərdə ehsan kimi xeyriyyə işləri görülür.

yemək, halva verilir (234, 233).

**İl mərasimləri.** Ölüyə hörmət hələ ibtidai dövrlərdən mövcud olmuşdur və ölən adama yas tutulması bir il davam edir. Ölənin ruhunun iztirablarını azaltmaq üçün ilinin tamamında da yas mərasimi keçirilir. Bununla bağlı bölgədə yayılmış adətə görə rəhmətə gedənin birinci ili sumah aylarında (sumah ayı – Ramazan ayından əvvəl iki ay nəzərdə tutulur.) mərhumun yaxınları onun adına duz salaraq imam halvası bişirməli idi. Inanca görə əgər bu halva bişirilməsə mərhumun ruhu qapı-qapı gəzərək üzüm yarpağında borc alar. Ona görə də sumah aylarında imam halvası bişirilir və ölənlərin adına duz salınır (6, 388).

**Yasdan çıxarma.** Azərbaycanın bir çox yerlərində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də ölü sahibinin yasdan çıxarılması adətinə əməl olunur. Ənənəyə görə, yasdan bir il sonra ilk toy edən yaxın qohumlardan biri yasda olan ailəyə müəyyən hədiyyə-başmaq, pul və s. göndərər və toya dəvət edərdi. Bununla da evində yas düşmüş ailədən həm toy etdiyi üçün üzrxahlıq edirdi, həm də bu ailə toya dəvət edilərək yasdan çıxarılmış olurdu. Türkiyənin Kars bölgəsində də yasda olan ailələr ilk toya yaxın əqrabaları tərəfindən götürülərdi.

**Ziyarətgahlar.** Ölülərin ruhuna hörmət məqsədilə qəbir ziyarəti ənənəsi bir çox türk xalqları kimi azərbaycanlılar arasında da geniş yayılmışdır. Xüsusilə də bayram günləri, ən əsas da Növruz bayramı ərəfəsində bölgə əhalisi, istər müsəlman, istərsə xristianlar yaxın qohumlarının qəbirlərini ziyarət edir, yemək, şirniyyat bişirib qəbir üstünə aparır, qəbirləri qaydaya salır, qəbir üstündə dualar oxuyurdular. Bu, çox qədim, şumer ideologiyasınadək uzanan bir ənənəin qalıqları idi. Qədim şumerlərin təqviminə görə il hər biri 30 gündən ibarət 12 aya bölünürdü. İl sonunda artıq qalan 5 gün isə ölənlərin ruhuna hörmət,



ehtiram günləri kimi qəbul olunurdu (65, 517). Qədim şumer təqviminə görə il sonu mart ayına təsadüf etdiyi üçün bu qədim şumer ənənəsi bu gün Novruz bayramı günləri ilə üst-üstə düşür. Həmin gün ölülərin qəbri ziyarət edilər, əcdad ruhları adına qazan asılar, bayram şirniyyatından qəbir üstündə paylanardı. Azərbaycanın bir çox bölgələrində bu gün "Ata-baba" günü və ya "ölü çərşənbəsi" (*Novruzda bayram edilən dörd çərşənbədən biri yaxınların qəbirlərinin ziyarətinə həsr edildiyi üçün belə adlanırdı*) adlanır. Türkiyənin Iğdır bölgəsində də Novruz bayramı ərəfəsində "Qəbir üstü", və ya"Ölü bayramı" adlandırılan bu ənənə mövcuddur. Burada da bayramdan öncəki çərşənbə və cümə axçamı günləri yerli əhali məzarlığa gedərək ölülərinə fatihələr oxudurlar (228, 206). Maraqlıdır ki, tədqiq etdiyimiz Şəki-Zaqatala bölgəsində bu ənənəyə bölgənin həm müsəlman əhalisi, həm də udilər kimi xristian əhalisi də riayət etməkdədir. Bu, ata-baba günü mərasiminin çox qədim köklərinin şumer mədəniyyəti ilə bağlı olduğu ehtimalına gətirib çıxarır.

Azərbaycanlılar arasında müqəddəs adamların qəbirlərinə ziyarətgah kimi sitayiş etmək ənənəsi geniş yayılmışdır. Xalq arasında yayılmış inama görə müqəddəs adamların qəbirləri bir çox xəstəliklərdən, dərd-bəladan qurtulmağa yardım edir.

Ölənlərin ruhuna hörmət və inam öz kökləri ilə ən qədim zamanlara bağlıdır. İbtidai dövrdə insanlar ailə başçılarının, xüsusilə də qəbilə və tayfa başçılarının ölümündən sonra onun ruhunu müqəddəsləşdirmişlər. Əcdad kultunun mahiyyəti əcdadın himayədarlıq və qoruyucu xüsusiyyətinə inamla, yəni ölmüş əcdadın ruhunun yerdə qalan qohumların taleyi ilə maraqlanması və onların işlərinə təsir göstərməsinə inamla bağlı idi. İnama görə bu ruhu razı salmaq, onu heç zaman yaddan çıxarmadıqlarını göstərmək üçün müxtəlif qurbanlar, nəzirlər

verilməli idi. XX əsrin əvvəllərinə qədər demək olar ki, Azərbaycanın hər kəndinin, hətta hər məhəllənin öz müqəddəs yeri-piri var idi. Kökü patriarxal-nəsli icma quruluşuna gedib çıxan bu qədim ənənəyə görə pir sayılan bu yerlər ailə və ya patronomiya başçılarının, ağaqqallarının dəfn olunduğu yerlərdir. Azərbaycanın hər yerində olduğu kimi Şəki-Zaqatala ərazisindəki pir adlarının tərkibindəki nəslin başçısı, əcdad anlamına gələn "baba" sözü də buna təsdiq edir. Məsələn, bölgədə "Çərşənbə baba", "Hacı Növruz baba", "Usub baba" (Oğuz r-nu, Baş Daşagil kəndi) "Yel baba" (Şəki ra-nu Oxud kəndi), "Şeyx baba" (Şəki rayonu Şabalıd kəndi), Məhəmməd Əfəndi baba (Şəki) kimi əcdadların ruhuna inamla bağlı olan bir çox ziyarətgahlar mövcuddur. Usub baba, Hacı Novruz baba, Oğuz rayonunun Baş Daşagil kəndində yaşamış müqəddəs adamlar idilər. Bölgədə yayılmış rəvayətə görə "Usub baba pir adam" sayılırdı və buna görə də onun qəbri ziyarətgaha çevrilib. Oğuz rayonunun Kərimli kəndindəki Çərşənbə baba piri də bu kənddə yaşamış müqəddəs adamın qəbridir. Yel baba ziyarətgahına, həmçinin Şəkinin Oxud kəndində yerləşdiyi üçün Oxud piri də deyirlər. Buraya yel xəstəliyi olanlar gələrək şəfa diəyirdilər. Məhəmməd Əfəndi baba ziyarətgahına isə Şəki və ətraf rayonların sakinləri gəlirlər. Bölgədə Mahmud Axund Ağa (Şəki-Qax yolu üzərində) Murad Əfəndi piri də (Zaqatala rayonunda) mövcuddur.

Qəbələ, Oğuz rayonları ərazisində hələ XIX əsrdə Rəşid bəy Əfəndiyev tərəfindən qeydə alınmış "Pir Zəngi", "Pir-Salar", "Şeyx İbrahim", "Şeyx Tacı", "Şəhidlər", "Şeyx Amir" kimi bir çox əcdad kultunun izlərini daşıyan müqəddəslərin qəbirləri də mövcud idi (211). Bu qəbirlərin ətrafındakı ağacları və onun meyvələrini qırmaq günah sayılırdı.



### Avarların, saxurların, rutulların yas mərasimləri

Şəki-Zaqatala bölgəsində Azərbaycan türkləri ilə bərabər avarlar, saxurlar, rutullar kimi müsəlman əhalinin yas mərasimləri də demək olar ki, eyni qaydada keçirilirdi. Avarlarda da bütün müsəlman əhalidə olduğu kimi, ölü dəfn edilərkən bütün islam ənənələrinə riayət edilirdi. Mərhumu kəfənə bürüyərkən əvvəlcə ölüyə təzə, dizədək gecə köynəyi geydirilərdi. "Ölü köynəyi" adanan bu köynəyin üstündən ölü kəfənlənərdi. Bölgə üçün xarakterik olan dəfn adətinə görə ölü üçün hazırlanan geyimdə işlənməmiş tikiş vasitələrindən istifadə edərdilər. Çünki inanca görə ölü "yeni həyata", "yeni dünyaya" köçdüyü üçün bütün əşyaları da yeni olmalı idi.

Azərbaycan yas mərasimlərinə xas olan saç yolma, hörüklərin kəsilməsi kimi qədim adətlər avarlarda mövcud olmuşdur. Keçmişdə avarlar arasında ölənin anasının, bacısının, arvadının saçlarını dibindən kəsməsi adəti də vardı.

Balakəndə yas mərasimləri zamanı avarların adətinə görə ölü yerində zikr[1] edilərdi. 70 min zikr edilərək mərhuma bağışlanardı. Bu zaman 70 kişi tərəfindən xorla mərhum üçün dua oxunurdu. Bölgədə avarların adətinə görə zikr edildikdən sonra ehsan süfrəsinə südlü yayma, firni qoyulurdu (üyüdülmüş düyüdən hazırlanan yayma).

Keçmişdə bölgədə yaşayan avarlar, xüsusilə də imkanlı ailələr dəfn mərasimindən sonra qəbrin yanında xüsusi otaq tikir və ya çadır qururdular. Molla 3-7 gün burada qalıb ölüyə Quran oxuyurdu. Avarlarda 40 gün ərzində kişilər hər həftənin bazar ertəsi və cümə axşamları qəbr

---

[1] *Zikr hərfən anmaq xatırlamaq deməkdir. Allahın isimlərini, bəlli duaları müxtəlif vaxtlarda söyləmək, təkrar etmək deməkdir. Zikrdə əsas ünsür digər varlıqları unudaraq, Allahı anmaqdır. Ən üstün zikr "Lailahəilləllah"dır.*

üstünə gedir, qadınlar isə evdə ağlaşırlar (171, 45). Ümimiyyətlə, bölgənin azərilər, avarlar, saxurlar, rutullar kimi müsəlman əhalisi də 40 mərasimini, demək olar ki, eyni keçirirdilər. 40 mərasimi zamanı 40-cı gün səhər sübh tezdən mərhumun qohumları yenidən yığışıb qəbr üstünə gedirdi. Daha sonra evdə ehsan süfrəsi açırdılar. Lakin avarlar qəbir üstünə gedərkən özləri ilə müxtəlif yemək, şirniyyat, meyvələr də götürürdülər. Sonra isə qəbir üstündə gətirilən yeməkləri bir yerə toplayaraq öz aralarında bölüşdürərdilər (25, 293). Türkiyənin Trakya bölgəsində də məzarlığa halva, bişmiş xoruz, pendir-çörək götürülür. Buna"məzarlıq çörəyi" deyilir (230, 103). Türkiyənin Tunceli bölgəsində də qəbir üsrtünə yemək gətirərək burada süfrə qururlar. Bu adətlər ölünün ildönümünün qeyd edilməsi ilə bağlı qədim yuğ mərasimini xatırladır (228, 205). Goytürklərin də məzarların üzərinə yemək tökdükləri məlumdur (228, 206). Göründüyü kimi, qədim türk yuğ mərasimləri əsrlər boyu bir sıra dəyişikliklərə uğrasa da başlanğıcdan bəri mərasimin əsas elementləri mühafizə olunmuşdur.

Avarların yas mərasimlərində daş kultu ilə bağlı belə bir qədim ayin də icra olunardı. Zaqatala rayonunda yaşayan avarlar qəbir üstünə gələrkən orada bir ağ çay daşı qoyub gedirdilər. Bir daha qəbir üstünə gələndə bu daşı o biri üzünü çevirirdlər. Bu adət Quba raynunun Buduq kəndində də mövcuddur.

Bölgədə saxurların dəfn mərasimləri zamanı Azərbaycanın digər bölgələrində rast gəlinməyən spesifik bir ayin icra olunardı. Saxurlar ölünün üzərinə mixək səpərdilər. Bu ayində bitki kultunu qalıqları özünü göstərir. Bu qədim ayinin izlərinə Türkiyənin və Orta Asiyanın da dəfn ayinlərində bir qədər fərqli formada rast gəlinirdi. Türkiyənin bəzi bölgələrində ölüm döşəyində yatan adamın rahat can verməsi üçün üzərinə bir yaşıl yarpaq atılır



(230, 97). Orta Asiyada isə olünün üzərinə bu bitkilərdən "behiştin (cənnətin) iyi gəldiyi" düşüncəsilə qızılgül, reyhan, saflor kimi çiçəklərin səpilməsi adəti var idi (157, 145). Qədim mifoloji təsəvvürlərə görə dünya ağacının simvolu olan müqəddəs ağacların meyvələri, yarpaqları insanları cavanlaşdırır, onlara əbədi həyat bəxş edir. Azərbaycan mifologiyasında "dirilik ağacı" və ya "dirilik gülü" motivləri var. Görünür, saxurların ölünün üstünə mixək səpmək ənənəsi də bu mifik düşüncələrlə bağlı olub əbədi həyat simvolunu əks etdirirdi.

**Miras.** XIX əsr rus müəllifi Konstantinov "Car-Balakənlilər XIX əsrədək" məqaləsində "Car ləzgiləri"nin vərəsəlik hüquqları barədə geniş məlumat vermişdir. O yazır ki, bu ərazidə vərəsəlik hüququndan valideyn qatilləri, dindən üz döndərənlər, qeyri-qanuni doğulanlar məhrum edilirdi. Ata ölərkən mülkiyyət oğullar arasında bərabər bölüşdürülürdü. Ailədə qardaş bacıdan iki dəfə artıq pay alırdı. Məsələn, ailədə bir qardaş, bir bacı olardısa bacı mülkiyyətin 1/3-ni alırdı. Ailədə iki bacı, bir qardaş olardısa, atanın varidatı iki bərabər hissəyə bölünürdü; bir pay qardaşın, digər pay isə iki bacı arasında bölünürdü. Lakin qardaşı olmayan bacılar torpaq hüququna malik deyildilər. Torpaq almaq hüququna nə olənin arvadı, nə də digər qadın qohumları malik deyildilər. Ailə başçısı ölərdisə onun torpağı atadan oğula, əgər atanın oğul övladı yoxdursa kişi tərəfin qohumlarına keçirdi. Torpaqdan başqa digər varidat, əgər ailədə oğul övladı yoxdursa, qızlar arasında bərabər bölüşdürülürdü. Ata və ana, əgər nəvələr vardısa, oğul öldükdən sonra onun varidatının 1/6 hissəsini alırdı. Əgər ölən oğul sonsuz olardısa, ata onun bütün mülkiyyətinin tam hüquqlu sahibi olurdu. Belə halda ana oğlunun varidatının 1/3 hissəsinə sahib ola bilərdi. Sonsuz oğulun varidatının qalan hissəsi ata qohumlarının payına düşürdü (32, 382–384).

Belə bir nəticəyə gəlmək olar ki, Şəki-Zaqatala bölgəsindəki azərilər, avarlar, saxurlar, rutullar kimi müsəlman əhalisinin yas mərasimlərində islam dini və onunla bağlı inam və ənənələrlə bərabər bir çox arxaik elementlər də qalmaqdadır. Ağac-bitki kultu, daş kultu, əcdadın ruhuna hörmət kimi qədim inanclar sisteminin bir çox dəfn və yas ayinlərində, məsələn daşla bağlı ayinlər, ölünün üzərinə mixək səpilməsi, alma qoyulması və s. kimi ayinlərdə islama qədərki inancların bütün canlılığı ilə yaşadığını da görürük. Təbii ki, bu adətlərin bir qismi islamın yayılmasından sonra yeni dini rəng alaraq islamiyyətin təsiri ilə qaynayıb qarışmış, bir qismi isə xalq inancları və sınamaları kimi xalqın yaddaşında qorunub saxlanmışdır.

## Udilərin yas mərasimi

**Ölümə işarət edən əlamətlər.** Bölgənin xristian inanclı etnik qruplarından olan udilər arasında yayılmış inama görə əgər ayaqqabını soyunarkən ağzı üstə düşərsə, evdə kimsə öləcək. Udilərdə ölümlə bağlı digər bir inanca görə ərdə olan qadın iki qurşaq bağlayardısa əri ölərdi. Bundan başqa yemək zamanı ər-arvad qaşıqlarını dəyişməməlєi idilər. Qaşığını dəyişənin ölə biləcəyinə inanılırdı. Udilər arasında yayılmış bir inama görə adamın yuxusuna bir neçə gecə dalbadal ölü girsə, soğanın suyunu sıxıb həyətə ataraq deməli idi: "Al payını, get və bir də gəlmə!" Əgər bu da kömək etməsə, yuxuda yenə ölü görülsə, demək, kiminsə öləcəyinə inanardılar (109, 253).

**Ruhla bağlı təsəvvürlər.** Udilərdə də ruhla bağlı inamlar geniş yayılmışdı. Sağalmaz dərdə düçar olan xəstələri baxıcılar ruhun köməyilə müalicə edərdilər. Bunun üçün xəstə "*qleyda*"ya, yəni intihar etmiş bir adamın qəbrinə götürülərdi. Bazar və ya çərşənbə günü dəsmala bükülmüş



sarımsaq, darı, kömür, dəmir parçası, yumurta, xəstənin kəsilmiş ayaq və əl dırnaqları və bir su dolu saxsı qabı xəstənin yatağının altına qoyurdular. Səhəri gün xəstəni və bu şeyləri götürərək qəbiristanlığa yollanırdılar. Dəsmala bükülmüş şeyləri qəbiristanlıqda basdırır, qabdakı su ilə qəbirin baş tərəfində xəstənin əl-ayağı yuyulardı. Bundan sonra su qabı qəbirə çırpılaraq sındırılar, qəbirin üstündəki daş çevrilərdi (109). Qeyd etmək lazımdır ki, daş çevirmək ayini bölgənin digər müsəlman əhalisi arasında da mövcud idi, eyni zamanda Azərbaycanın Lənkəran-Astara kimi bəzi bölgələri üçün də xarakyerik idi.

Ölünün ruhu, onun yenidən canlanması qorxusu ilə də bağlı inanclar bütün azərbaycanlıların dəfn-yas mərasimlərində olduğu kimi udilərin də yas mərasimlərində özünəməxsus yer tutur. Udilər də ölünün diriləərək insanlara, xüsusilə də uşaqlara xətər yetirəcəyinə inanaraq ölünü "xortlamış" (yəni yenidən dirilmiş) "xortdan", "kaftar" kimi adlandirmişlar. Pis adamın öləndə də bəd ruha çevriləcəyinə inan udilərdə buna bəzən "kaftar kosa" da deyirdilər və onun qarşısını almaq üçün müxtəlif tədbirlər görməyə çalışırdılar. Ölüdən qorxmuş və ya ölünün ardınca həddən çox ağlayıb-sızlayan adamı özünə gətirmək üçün onun köynəyi çayda yuyulduqdan sonra intihar etmiş adamın qəbri üstünə götürülür. Daş çevirmə ayini icra edildikdən sonra köynək evə götürülərək xəstəyə geydirilir (109).

**Dəfnə hazırlıq**. Bölgənin xristian inanclı etnik qruplarında olan udilərdə ölüm hadisəsi baş verən kimi tez bütün qohum-əqraba ölü düşən evə yığışır, ölünün yuyulması və ağlaşma ayinləri icra edilirdi. Maraqlıdır ki, udilər XX əsrin əvvəllərinədək ölülərini paltarla deyil, kəfənlə dəfn edərmişlər (109, 250). Lakin, görünür, udilər üçün ənənəvi olan bu dəfn adətəri 1836-cı ildə udilərin qriqoryanlaşdırılmağa başlanması ilə tədricən aradan

çıxarılmağa başlanmışdır və getdikcə udilər arasında ölüyə xristian ənənələrinə uyğun olaraq təzə paltar və ayaqqabı geyindirərək tabutda basdırmaq ənənəsi yayılmışdır. Yerli əhalinin məlumatına görə tabutla ölü dəfn etmək udilərin xaç suyuna çəkilməsi məcburiyyətindən sonra meydana çıxıb (24, 158).

XIX əsrdə udilərdə ölünü yuyub kəfənlədikdən sonra adətə görə ölü duası oxunanadək hamıya yemək verilərdi. Ənənəyə görə meyid yuyulan yerdə 7 gün şam yandırılar və oradan heç nə götürülməzdi. Bu qədim ənənəyə Azərbaycanda və Türkiyədə də rast gəlinir. Sarıkamış, Kars, Van, Ağrı, Ərzurum, Malatya kimi Türkiyənin bir çox bölgələrində ölünün çıxdığı evdə 3, 7, bəzən isə 40 gün şam və ya lampa yandırılır. Bu ənənə ruhla bağlı inancın qalıqlarıdır. İnama görə nur, işıq ölümdən sonra ruha yardım edir, onun gəzib görmək istədiyi şeyləri tapmağa, yolu görməsinə kömək göstərir (229, 209).

Udilərdə ölü ilə vidalaşmaq üçün meyid yuyulub kəfənləndikdən sonra həyətə çıxarılaraq "*salaca*" adlanan xüsusi yerə qoyulurdu. Maralıdır ki, Türkiyənin bəzi bölgələrində də tabut "sal ağacı" adlanır (230,100). Görünür, udilərin dəfn ayinləri ilə bağlı işlədilən "salaca" kəlməsi "sal ağacı"nın fonetik dəyişikliyə uğramış formasıdır. "Sal" sözü Azərbaycan dilində də mövcuddur. "Sal daşı" ifadəsi böyük, hamar, taxta kimi dümdüz daş mənasındadır. Bir Azərbaycan bayatısında deyilir:

Əzizim sal yana
Dara zülfün sal yana.
Necəsən bir ah çəkim.
Kür quruya, sal yana.

Udilər salacanın üstünə "*xoçi*" adlanan ipək parça sərərdilər. Görünür, bu xaç və və ya haça sözündəndir. Salaca "*hayati*" adlanan ipək bağlarla iki yerdən bağlanırdı (109, 250). Maraqlıldır ki, udilərin dəfn mərasimlərində adı keçən salaca, xoçi, hayati kimi kəlmələr türk çoğrafiyasında da ölüm mənalı terminlərdir. Məsələn, Türkiyənin Anadolu bölgəsində tabut "sal ağacı" (*udi*-salaca) adlanır, ölünü baş tərəfində qoyulmuş taxtaya "haça daşı" (*udu*-xoçi) deyirdilər (230, 100). Türkiyənin Elaziğ bölgəsində isə "ölü yeməyinə" (ehsan) "hayat yeməyi" (*udi*-hayati) deyirlər. Həm udilərin, həm də türklərin qədim dəfn ayinlərində adı keçən bu kəlmələr ("salaca", "xoçi-haça", "hayati") türk-udi mənəvi mədəniyyətinin etnoqenetik köklərindən xəbər verir.

Qeyd etmək lazımdır ki, udilərdə də ölü üçün ağı deyib ağlamaq adəti var. Bu zaman ağıçı yüksək səslə ölünü mədh edər, qalan qadınlar isə xorla ağlaşardılar. Məlumdur ki, orxonlular, oğuzlar da kütləvi "ağlama" (yuğlaş) keçirirdilər. Yuğçu (ağıçı – M. P.) əvvəlcə mərhumun yaxşı işlərindən, igidliklərindən danışıb, onu tərifləyirdi. Sonra qəmli havaya keçib ağı deyirdi. Toplananlarda hönkür-hönkür ağlayardı (300). Göründüyü kimi türk xalqları üçün xarakterik olan qədim yuğ mərasiminin izləri də udilərin yas mərasimində açıq-aşkar özünü biruzə verir.

Udilərdə daha bir qədim ənənəyə görə ağlaşmağa yığışan qadınlardan biri ölünün ağzını mumlayırdı. Bu ayinin izləri azərbaycanlılar arasında çox yayılmış "ağzını mumla" ifadəsində qalmaqdadır. Hələ Strabonun qeyd edirdi ki, qədim Azərbaycan ərazisundə "cəsədə bal mumu sürtəndən sonra dəfn edirlər (Srabon. XV, 3, 20).

Udilərdə ölünü dəfn edərkən mərhumun paltarlarından yalnız bir dəst ağlaşma üçün saxlanar, qalan bütün paltarları ölü ilə birlikdə basdırılardı. Antik müəlliflər də qeyd edirdilər ki, "albanlar, cənazə ilə eyni zamanda sərvət və mallarını da dəfn edirlər (Strabon. IX. 4. 8). Maraqlıdır ki, Türkiyənin də bəzi yerlərində cənazə ilə

birgə ölünün sevdiyi bəzi əşyalar-bəzək əşyaları, ayna daraq, yorğan və s. də dəfn edilir (230, 100).

Bu qədim alban ənənəsi Azərbaycanın bir çox yerlərində bir qədər fərqli formada qorunub saxlanmışdır. Hazırda Azərbaycanın bir çox yerlərində ölən adamın mərəs (miras), "mərət", "soxa", "andır" kimi adlanan paltarlarının yoxsullara paylanması ənənəsi mövcuddur. Ölüyə mənsub əşyaların keyfiyyət və dəyərindən asılı olmayaraq məscid, pir və ya yolçulara verilməsi ənənəsi məhz qədim soydaşlarımız olan albanların mirasla bağlı qədim dəfn adətinin izlərini daşıyır. Qeyd etmək lazımdır ki, Türkiyədə də ölü paltarına "soyka" deyilir və ölənin geyimi paylanır. "Manas" dastanında da Kökatay ölürkən paltarları yoxsullara dağıdılır (231, 8–11).

**Dəfn**. Udilərin dəfn adətlərində də qədim inanclar sistemini əks etdirən bir sıra özünəməxsus ayinlərin izlərinə rast gəlinir. Udilər ölünü türk qam-şaman ayinlərinə məxsus ənənələrlə – musiqi ilə dəfn edirlər. Umumiyyətlə, udilərin həm yas, həm də toy mərasimləri zurna sədaları altında icra edilir. Məlumdur ki, türk xalqlarının şaman-qam ayinləri də musiqinin (ney, qaval, dəf) müşayəti ilə icra edilərdi (79, 293). Maraqlıdır ki, hazırda Türkiyənin Anadolu bölgəsində də, xüsusilə Midyat, Savur tərəflərin dəfn mərasimlərində də zurna çalınır... (218, 113).

Udulərdə **dəfndən sonra** kilsəyə yığışan kişilərə "*patarak*" adlanan yemək (ehsan) verilir. Adətən "patarak"a xüsusi olaraq adam dəvət edilməzdi. Arzu edən hər kəs, dini mənsubiyyətindən asılı olmayaraq, bu yemək mərasimində iştirak edə bilərdi. İnama görə yas sahibi başsağlığına gələn hər kəsi yedirtməlidir, yedirtməsə günaha batardı. Qədim türk abidəsi "Manas" dastanında Kökatay ölürkən ölü aşına kafir, müsəlman demədən hər kəs çağırılır (231, 8–11). Varlılar da, kasıblar da eyni yemək



süfrəsi açardılar. Süfrədə adətən pendir, *yaxni*[1] qovurma, *şiləxup*[2], suda bişirilmiş şabalıd, şərab olurdu. Bu yemək süfrəsində də qədim türk-azərbaycan ənənələri açıq-aşkar özünü biruzə verir. Manas" dastanında da yuxarıda təsvir etdiyimiz udi yas mərasiminin izləri müşühidə olunur: ehsan süfrəsində ətli plov və ayran verilir (231, 8–11).

Keçmişdə varlı udi ailələri 3–7 dəfə "patarak" verirdilər. İkinci gün "patarak" məclisinə gələn hər kəs özü ilə plov və ya südlü yayma və şərab gətirirdi. "Patarak" məclisindən öncə dini mərasim icra olunurdu, daha sonra isə keşiş də qəbir üstünə dəvət olunurdu. Burada da dini ayin icra olunduqdan sonra qəbiristandan evə qayıdaraq "patarak" yeyilirdi. Üçüncü gün isə udilərin adətinə görə qadınlar özləri ilə bişmiş toyuq, fətir, kətə, şabalıd götürərək qəbir üstünə gedir, orada paylayar, özləri də yeyırdilər. Bu adət də qədim türk mərasimlərini xatırladır. Məlumdur ki, göytürklər də ölü məzarlarının üzərinə yemək götürürdülər (217, 61–183). Hazırda Türkiyənin Muş bölgəsində də ölünün şərəfinə bütün kənd əhli qəbiristanlığa dəvət edilir. Gələnlər özləri ilə halva, pendir və s. gətirirlər. Qurulan süfrələrdə yemək yeyilir və fatihə ilə süfrə qaldırılır (228, 205). Beləliklə, udilərin bu adətində də qədim türk ənənlərinin izləri müşahidə edilməkdədir.

Udilər dəfnin 3-cü günü qəbir üstündən qayıdaraq "*partal xaypsun*" yəni paltar açdı mərasimi də keçirirdilər. Ölənün evinə yığışan qadınlar onun paltarlarını evin ortasına sərərək ağı deyib ağlayardılar. Bu ənənə azərilər üçün də xarakterikdir. Türkiyənin Anadolu bölgəsində də, xüsusilə Midyat, Savur tərəflərin dəfn mərasimlərində də ölənin əşyaları bir ağac parçasına geydirilərək ətrafında dönülür (218, 113).

---

[1] *Soyutma ət. Qeyd etmək lazımdır ki, udilərin mərasim yeməyi olan yaxni yemək adına Dədə Qorqud boylarında da rast gəlinir.*

[2] *Ət suyunda bişiriulmiş düyü.*

Udilərdə mərhumun yeddisi dəfn olunan gününün ya altıncı, ya da səkkizinci günü qeyd edilərdi (24, 160). Səkkizinci gün yenə də dua oxuması üçün qəbir üstünə keşiş dəvət olunur. Bütün qohumlar, həmçinin ölüyuyan, tabut düzəldən, aşbaz da yas evinə dəvət olunurdu və ölənin paltarı ölüyuyana verilirdi. Buna bənzər mərasim Türkiyənin Fırat-Elaziğ bölgəsində mövcud idi və qazma-kürək haqqı adlanırdı (232, 221).

Udilərin yas mərasimlərindəki özünəməxsus adətlərdən biri də "mərhumun əvəzinin seçilməsi" ənənəsidir. Bunun üçün ölünün 7-si qeyd olunandan sonra onun əvəzi olacaq adamı qonaq çağırırdılar. Qohumların, ailə üzvlərinin iştirakı ilə bu adam həmin gündən etibarən ölmüş adamın əvəzi elan edilirdi. Ənənəyə görə həmin adama ölmüş adamın bir dəst paltarı bağışlanırdı. Ölən atadırsa, onun ailəsi onu əvəz edən şəxsi ata, anadırsa – ana, bacı və ya qardaşdırsa – bacı-qardaş gözündə görməyə başlardılar (24, 160). Bundan sonra həmin adam ailənin bir üzvünə çevrilir və ailənin xeyir -şərində yaxından iştirak edirdi. Məlumdur ki, Azərbaycan türklərində də mərhumun ailəsinə başsağlığı verərkən "Allah əvəzini versin" təsəlli ifadəsi işlədilir. Eləcə də "ata əvəzi", "bacı əvəzi", "qardaş əvəzi" ifadələri də çox yayqındır. Göründüyü kimi, udilərin yas mərasimində qeydə alınmış bu qədim ənənənin izlərinə azərilər arasında da bu və ya digər şəkildə rast gəlinir.

Mərhumun qırxını verən zaman udilər yenə də mərhumun evindən yemək aparıb qəbr üstündə paylayardılar. Burada mərhumun qırx şamları yandırılar, onu yad edib ağlardılar. Ənənəyə görə şamlar sönənədək qəbr üstündə qalmaq tələb olunurdu (24). Bundan sonra yas evinə qayıdanlara ehsan verilərdi. Udilərdə mərhumun ili də eyni ilə yeddisindəki qayda-qanunla keçirilirdi.

**Bayram mərasimlərində qəbir ziyarəti.** Udilərdə də



baharın gəlişi ərəfəsində Azərbaycanda "ata-baba günü", "ölü çərşənbəsi" kimi adlarla tanınan yaxınlarının qəbrini ziyarət etmək ənənəsi mövcuddur. Onların mühüm bayramlarından biri olan və baharın gəlişi ərəfəsində qeyd edilən *Zərəzərtər* (Verbnoe Voskresenye) və Pasxa bayramında, ölən qohumlar yad edilir, qəbirləri ziyrət edilr. Verbnoe Vokresenye bayramı günü kilsəyə axışan qız-gəlinlərdən yaxınları ölən varsa onlar burada kiçik uşaqlara meyvə paylayardılar. Pasxanın ikinci günü hər kəs özü ilə plov, südlü yayma, mer-meyvə, şirniyyat götürürərək qəbiristanlığa axışır. Günorta saat 2–3-də gətirilən bütün yeməklər yeyilir. Keşişlər bütün qəbirlərın üstündə bütün gün ərzində dua oxuyurlar. Bu proses axşamadək davam edir.

Udilərdə yaxınlarının qəbrinin belə kollektiv ziyarət ənənəsi bir də sentyabrın ortalarında icra olunur. Spesifik bayramlarından biri olan "Tərəmə" bayramında da udilər valideynlərini, yaxın qohum-əqrabasını yad edirdi. Sentyabrın ortalarında (sentyabrın 24-də) adətən bazar günü keçirilən "Tərəmə" bayramında onlar qəbir üstünə plov, yayma, şirniyyat və s. apararaq ölmüş qohum-əqrabaları yad edərdilər.

**Udi ziyarətgahları.** Udilərdə də əcdadların ruhuna inamla bağlı bir çox qədim ziyarətgahlar mövcud olmuşdur. Bunlardan biri Vartaşendən bir qədər aralıda qədim yarıdağılmış Kiçke Qerqes kilsəsi idi. Kilsənin ətrafında şümşat ağaclarının altında çoxlu qədim qəbirlər var. Azərbaycanın Astara-Lənkəran bölgəsində də yerli əhali tərəfindən müqəddəs sayılan şümşat ağaclarının altında belə qədim qəbirlər mövcuddur.

Udilərin alban kilsəsində qeyd etdikləri qədim dini bayramlarından biri olan "*Konrad*" bayramında adətə görə qara qoç qurban kəsilərək kasıblara paylanardı. Kilsəyə gətirilən *əhər** (birillik qoyun; Bu qoyun adətən

həmin il ölüsü düşən evdə bişirərək kilsəyə gətirərdi.) adlı ehsan hər kəsə paylanardı. Bəzən kəndin bir neçə seçilmiş nümayəndəsi ev-ev gəzərək qurbanlıq toplayır, bir neçə qoyun alaraq gecə ilə kilsənin həyətində kəsib bişirərək səhər hər kəsə paylayardılar. Hər kəsilən qoyunun bir budu keşişə verilirdi (109, 223).

XIX əsrə aid mənbələrdə Oğuz rayonunun yaxınlığında Kala Çiçik kilsəsinin xarabalıqları, daha doğrusu, bünövrəsinin qalıqlarının olması barədə məlumat var (109, 225), lakin əslində burada heç bir kilsə və ya qala izi yoxdur. Yalnız daşları qaralmış bir qəbir yeri vardır. Yerli əhali buranı pir adlandıraraq qurban gətirər, buradakı qəbiri ziyarət edərək üstündə şam yandırırdılar. Bu ziyarətgah bəzən "Axsaq Çiçək" və ya "axsaq Çiçəyin olduğu yer" kimi izah edilmişdir[1] (62, 109). Lakin, fikrimizcə, "Kala Çiçik" ziyarətgahının adındakı həm kala[2] həm də Çiçik (Çiçək) kəlmələri türk dilli olub müqəddəs Çiçək anlamına gəlir. Mənbələrdən də məlumdur ki, türk-xəzər xaqanlarından birinin Çiçək adlı qızı olmuşdur. VII–VIII əsrlərdə xəzər xaqanlarının ərəblərlə Azərbaycan torpaqları uğrunda mübarizə apardığı dövrdə xəzərlər bir müddət Azərbaycanın bir sıra əyalətlərini, o cümlədən Qəbələni də tutmuşdular. VIII əsrin 60-cı illərində xəlifə əl-Mənsur Aran hakimi ilə sülh bağlamaq üçün nikah diplomatiyasından istadə etmiş və nəticədə Aran hakimi Yezid Xəzər xaqanının qızı ilə evlənmişdi. Lakin bu xəzər şahzadə xanımı tezliklə vəfat etmişdi. Qeyd etmək lazımdır ki, Xəzər şahzadəsinin adı mənbələrdə açıq şəkildə verilməsə də, Bizans mənbələrində bəhs edilən dövrdə Xəzər xaqanının qızı Çiçək adlı türk-xəzər şahzadəsinin adı çəkilir (118, 41–42). Orta əsr ərəb müəllifi Səlib əl-

---

[1] *Udi dilində Kala kəlməsi axsaq mənasında işlənir.*
[2] *Türkmənistanda ulu məzarlar "kala" kimi ifadə olunur (bax 228, 64).*



Muktəfi Billah da (902–908) Çiçək adlı türk xatun şahzadənin olduğunu yazırdı (118, 41–42). Beləliklə, Kala Sisik ziyarətgahının Çiçək adlı xəzər şahzadəsini qəbri ola biləcəyi ehtimalı ortaya çıxır. Görünür, siyasi hadisələrə qurban gedən xəzər şahzadəsinin dəfn olunduğu yer ərəblərə qarşı uzun müddət müqavimət göstərən türk-xəzərpərəst əhali tərəfindən tədricən ziyarətgaha çevrilmişdir. Udi dilində çingiltili səslər çox olduğu üçün ç hərfi *(s)* kimi tələffüz edildiyindən Çiçək kəlməsi *Sisik* şəklinə düşmüşdür Yerli əhalinin də söylədiyi kimi, yaxın illərə qədər "qızın qohumları onu yad" edib, üstündə şam yandırırdılar (62, 109). XIX əsrə aid mənbədə verilən məlumata görə, çox mənzərəli bir yer olan Kala Çiçik ərazisinə yerli əhali ziyarətə gələrək burada qurban kəsərdilər. Hətta əhali arasında gəzən rəvaytlərə görə 1883-çü ildə çiçək epidemiyasının yayıldığı zaman kənddən bir nəfərin gördüyü yuxuya görə, əgər Kala Çiçik ziyarətgahına gedilərsə camaatın bu yoluxucu xəstəlikdən yaxa qurtaracağına inanılmışdır. Burada da əcdad ruhuna inam özünü biruzə verir. Bundan sonra bu ziyarətgaha ziyarətlərin və qurbanların sayı daha da artmışdır. Görünür, ərəb işğalları zamanı ziyarətgaha çevrilmiş bu qəbir sonralar yerli əhali tərəfindən bir qədər unudulmuş və çiçək epidemiyası hadisəsindən sonra bu ənənə yenidən davam etdirilmişdir.

### İngiloyların yas mərasimləri

Qeyd etmək lazımdır ki, ingiloyların dəfn adətləri müsəlman ingiloylarda islamın, pravoslav ingiloylarda isə xristian dininin güclü təsirinə məruz qalsa da, bir çox ayinlərində arxaik elementlər də qorunub saxlanmışdır. Məsələn, yuxarıda qeyd etdiyimiz kimi, oğuz və hun

tayfaları, o cümlədən alban tayfaları üçün xarakterik olan yas mərasimlərində ağı söyləmək ənənəsi ingiloylar arasında da geniş yayılmışdı. Hər bir ingiloy qadını bədahətən ağı deməyi bacarırdı. Bu ağıların əksəriyyəti sərbəst vəzndə olub azərbaycanca, az bir qismi isə ingiloy dilində (xüsusilə xristian ingiloylarda) mərhumla bağlı müxtəlif məzmunda deyilirdi (34, 23).

Müsəlman ingiloylar mərhumu qəbrə tabutda deyil, kəfəndə sağ böyrü üstə üzü qibləyə qoyurdular. İngiloyların da dəfn mərasimi zamanı uzun ətəkli köynək ənənəvi dəfn libası idi. Əsrlərdən bəri davam edən adətə görə qadının meyidi yuyulub paklanandan sonra kəfənə bükülməzdən əvvəl ona tuman-köynək geydirilirdi (140, 140). Türkiyənin də bəzi bölgələrində ölüyə alt paltarı, hətta papaq və corab da geydirərlər. Ölən qadına yeni tikilən paltar geydirmək ənənəsi də vardır. Qadının başına yaşıl və qırmızı parça sarılır, üstünə tülbənd, ayağına corab geydirilir. (230, 99). Orta Asiyada da qadın meyidinin dəfn libasında bu adətə əməl edirdilər. Özbəkistanın Əndican əyalətinin dəfn mərasimlərində qadın kəfənlənməmişdən ona qırmızı rəngli tuman (şarovar) da geydirilərmiş (157, 144). Bizcə, bunlar bölgələrdə qədim adətlərin izləri kimi qorunub saxlanmaqdadır.

Xristian ingiloylarda isə mərhumu qəbirə qoymazdan əvvəl paltarlarını səliqə ilə qəbirin içinə altdan qoyurdular. Görünür, bu adət də albanlardan qalmışdır. Eramızın I əsrində Qafqaz Albaniyasının təsvirini vermiş Strabon albanların ölünün bütün şəxsi şeylərinin onunla bərabər qəbrə qoyduqlarını və ata malına sahib olmadıqlarını yazırdı. Ölünün paltarları ilə birgə dəfn olunması ənənəsi Göytürklərdə də mövcud olmuşdur (230, 99; 219, 199). Hun türkləri ölən atalarını, tayfa başçılarını dəfn edərkən onlara qızıl işləməli əlbisələrini geydirib tabuta qoyardılar (228, 198).



İngiloylarda yas mərasimlərinin 3-cü günü *xaşlı qorqot* adlı mərasim yeməyi bişirilərdi. Bu yeməyi hazırlamaq üçün sarı buğdanı yuyub döyürdülər. Hazır olan buğda nişastasını qaynar su olan qazana töküb üzərinə baş soğan əlavə edirlər. Daha sonra bura "*niqozi*" adlanan döyülmüş qoz ləpəsi, bişmiş qaxac[1], istiot, zoğal turşusu və duz əlavə edirlər. Xörək qatılaşana yaxın əvvəlcədən bişirilmiş xaş əlavə olunur. Qeyd etmək lazımdır ki, bir çox türk xalqlarında kəllə-paça (xaş) yeyilməsi ölümə işarətdir. Məsələn, türkmənlərdə doğumdan sonra qadın 40 gün kəllə-paça yeməməlidir, yoxsa ölən olar (226, 347).

İngiloyların yas mərasimlərində qəbir üstünə gedərkən mütləq mərasim yeməyi kimi maxara da bişirib aparırdılar[2]. Maxara sözü türkmənşəlidir. Türkiyə türkcəsində makara dolaq deməkdir. Bölgədə də sap dolağına mağara deyirlər. Əslində maxara yeməyinin bişirilmə özəlliyi də dolağın ora bura fırlanmasını xatırladır. Belə ki, maxara bişirilərkən sacın tən ortasına tökülən hörra kimi olan məhlul dolaq kimi ora-bura çevrilərək hər tərəfə axıb gedir. Göründüyü kimi, ingiloyların bu qədim mərasim

---

[1] *Qaxac adətən cəmdəyin qabırğa və döş hissəsindən hazırlanırdı. Qurutmazdan əvvəl qaxac ətini dilimləyib bol-bol duzlayır, sonra "dəmini götürmək üçün" 2–3 gün ağzı örtülü qabda saxlayırdılar, ət özünü tutandan sonra asma üsulu ilə onu zəif təndir və ya ocaq istisində qurudurdular. Ətin nəmliyi çəkiləndən sonra qaxacı damdan asıb qış üçün tədarük görürdülər. Ümumiyyətlə, ingioylar qədim türk tayfaları üçün xarakterik olan əti uzun müddət saxlamaq üçün qovurma, bağırsaq doldurması, qaxac hazırlanması kimi qədim ənənələri günümüzə kimi yaşada bilmişlər.*

[2] *İngiloy mətbəxi üçün səciyyəvi olan maxaranı bişirmək üçün südə un qatıb sıyıq horra halına salınır. Qızmış sacın üstünü qoyun quyruğu ilə yağlayandan sonra un horrasından bir çömçə götürüb sacın tən ortasına tökülür. Məhlul hər tərəfə yayılaraq ulduz şəklinə düşürdü. Maxaranın bir üzü bişəndən sonra o biri üzünə də çevrilərək bişirilir. Bundan sonra maxaralar kərə yağı ilə yağlanıb lay-lay (üst-üstə) bir siniyə yığılır.*

yeməyinin adı türkmənşəlidir. Azərbaycan türkləri yuxa arası halvanı ehsan kimi qəbir üstündə payladığı kimi, ingiloylar da maxaranı qəbir üstündə paylayardılar.

İngiloyların yas mərasimlərində ingiloy mətbəxi üçün səciyyəvi olan "*barı*" adlı yemək də hazırlanardı. Yas mərasimində kəsilmiş heyvanın, adətən malın içalatını (qarın, qursaq, ciyər, dalaq və s.) təmizləyib yuyandan sonra onların hərəsindən bir dilim götürərək uclarını birləşdirir və təmizlənmiş şirin bağırsaqla topa halında birgə bağlayırdılar. Bağırsağın qalan hissəsini dilimlərə dolaya-dolaya onun digər ucuna çatdırıb yenə də birgə düyünləyirdilər. Bu qayda ilə sarınmış dilim dəstələrini lay-lay tavaya düzəndən sonra üzərinə bir qədər istiot, soğan, duz əlavə edib su tökürlər. Xörək yağına düşənədək vam odda bişirilirdi. "Barı" ingiloyların yas süfrəsinin tipik yeməyi sayılırdı (59, 177). Maraqlıdır ki, ingiloyların milli yeməyi olan "barı", Qaşqay türklərində[1] "*türki kabab*" kimi tanınan və onların da ənənəvi milli yeməyinin eynisidir (227, 23).

Qax rayonunda yaşayan ingiloyların yas mərasimlərində də ölü üçün 40 gün ərzində ehsan verməkdən başqa, ildə iki dəfə ölünün şərəfinə ümumi ziyafət təşkil edirdilər (56, 85).

İngiloyların yas mərasimlərində Azərbaycanın bir çox bölgələri üçün xarakterik olan "Adna" adlı qədim bir adət də icra edilirdi. İnanca görə ailənin rəhmətə getmiş üzvlərinin ruhu hər həftənin bazar ertəsi və cümə axşamı öz ocaqlarına gəlir. Buna görə də ingiloylar əcdad kultu ilə bağlı olaraq öz əcdadlarını unutmadıqlarını nümayiş etdirmək və onların ruhunu yad etmək üçün ocaqda qazan asıb "duz" tökürdülər (59, 169). Adna mərasimi zamanı plov bişirərkən bölgədə şabalıd və qoz ləpəsindən

---

[1] *İranın İsfahan, Şiraz, Firuzabad, Köhlükiyə, Boyurahmet, Buşehir, Huzistan bölgələrində yaşayan böyük bir türk boyudur (227, 14).*



çox istifadə edirdilər.

Beləliklə, XIX–XX əsrin əvvəllərində Azərbaycanın Şəki-Zaqatala bölgəsinin dəfn və yas mərasimlərinin çöl etnoqrafik materiallarının, antik mənbələr və mövcud elmi ədəbiyyat əsasında qarşılıqlı-müqayisəli şəkildə tədqiqi bir sıra maraqlı nəticələri ortaya çıxarır. Xalq həyatın digər səhifələri kimi ölüm zamanı da icra etdiyi bir çox qədim dini ayinləri bu günümüzədək qoruyub saxlamışdır. Yuxarıda dediklərimizdən belə nəticəyə gəlmək olur ki, Şəki-Zaqatala bölgəsində yaşayan azərbaycanlıların yas mərasimləri əsrlər keçdikcə müxtəlif dəyişikliklərə uğrasa da başlanğıcdan etibarən mövcud olan əsas adətlərini mühafizə etmişlər və islamiyyət dövründə də bu adətlər yeni bir rəng qazanaraq davam etmişdir. Dəfn mərasimlərində torpaq kultu, astral inamlar, ağac, daş, heyvan kultu, əcdad ruhuna inam kimi arxaik inanmlar hələ də qorunub saxalanmaqdadır. Tədqiq etdiyimiz Şəki-Zaqatala bölgəsində yuğ-ağı mərasimləri, qədim dəfn adətləri, ölüyə ehsan vermək, 40 gün ölüyə yas saxlanması və ildönümünün qeyd edilməsi kimi qədim yas mərasim ənənələrinin qalıqları həm azərilərin, həm də avar, saxur, rutulların, udi və ingiloyların da dəfn və yas mərasimlərində müşahidə edilir.

Gəldiyimiz qənaətə görə qədim dəfn və yas mərasimlərinin əsas elementlərini qoruyub saxlayan azərbaycanlılar tarixi zaman içərisində bu mərasimlərlə bağlı qədim adətlərin bir qismini islam düşüncə tərzi ilə birləşdirərək yeni bir sintez yaratmış və bununla da qədim dünyagörüşlərinə məxsus bir sıra xüsusiyyətləri bu günədək özünəməxsus şəkildə yaşada bilmişlər. Həmçinin qeyd etmək lazımdır ki, bütün türk coğrafiyası üzrə apardığımız paralellər Şəki-Zaqatala bölgəsində təsbit etdiyimiz bir çox nümunələrin Orta Asiya, Anadolu, Altay, Balkan türklərinin də ailə mərasimlərində də mövcud olduğunu

ortaya çıxardı. Belə müqayisəli araşdırmalar sübut edir ki, Şəki-Zaqatala bölgəsində azərbaycanlılar qədim tarixə malik olan zəngin bir mədəniyyətin yaradıcıları və daşıyıcılarıdır. Bölgə ümumtürk xarakteri daşıyan bu mədəniyyətn yarandığı ilkin ocaqlardan biridir.



# I V FƏSİL

## AİLƏ MƏRASİMLƏRİNDƏ İNANCLARIN YERİ

**Azərbaycan xalq inanclarının qədim kökləri.** İbtidai inanclar, qədim dini-mifik təsəvvürlərin araşdırılması qədim ailə mərasimlərində icra olunan ayinlərin mahiyyətini dərk etmək üçün qiymətli mənbədir.

Yazılı mənbələrdən, arxeoloji və etnoqrafik materiallardan da aydın olur ki, tarixin erkən mərhələlərində meydana gələn qədim dünyagörüşləri əsrlərin süzgəcindən keçərək xalqın məişət ənənələrində öz izlərini qoruyub saxlaya bilmişdir. İlkin inanclar sistemi əcdadlarımızın yaddaşında həkk olunaraq onların mənəvi dünyasına o qədər güclü təməl atmışdır ki, bu gün belə bu inanclar islam ideologiyasının tərkibində öz varlıqlarını qoruyub saxlayaraq özünəməxsus sintezin ortaya çıxmasına səbəb olmuşdur. Bu geniş və əhatəli problemin araşdırılıb öyrənilməsi maraqlı nəticələr ortaya qoyur. Odur ki, xalq inanclarının mahiyyətini dərk etmək üçün onun xalqın mənəvi dünyasında, məişətində tutduğu yerini müəyyənləşdirmək üçün tarixi qaynaqlar və arxeoloji-etnoqrafik materiallardan əldə olunan məlumatların qarşılıqlı şəkildə öyrənilməsi zərurəti ortaya çıxır.

İnam bütün cəmiyyətlərdə insan həyatının əsas qayəsi olmuşdur. Hələ qədim dövrlərdən insan təbiətin sirli, fövqəladə bir qüvvə olduğunu hiss edərək və özünün də təbiətin bir hissəsi olduğuna inanaraq təbiət qüvvələrinə sitayiş etməyə başlamışdır.

Minilliklərdən bəri maldarlıq və əkinçiliklə məşğul olan qədim Azərbaycan tayfaları da iqtisadi səbəblər üzündən göy üzündə gedən prosesləri diqqətlə müşahidə edərək təbiətdə baş verən hadisələrin göy üzündəki planet-

lərlə əlaqədar olduğunu dərk etmiş, buna görə də göy üzünü, Ay, Günəş, Zöhrə kimi səma cisimlərini, ildırım, külək, yağış və s. təbiət hadisələrini müqəddəsləşdirmişlər. Göy üzünün, ay, günəş və ulduzların yerə təsir gücünə inanan qədim soydaşlarımız səmanı və səma cisimlərini ilahiləşdirərək ona Tanrı deyib sitayiş etmişlər. Xalqımızın dilində bu günədək qorunub saxlanmış "Tanrı" kəlməsi qədim şumer və türk mətnlərində də səmanın ilahiləşdirilməsini ifadə edirdi. Qədim türklərdə tanrı "tenqri", şumerlərdə "dingir", cinlilərdə "tyan", hunlarda "çenli" kimi ifadə olunaraq göy mənasını verir (86, 219). Azərbaycanın erkən orta əsr yazılı abidələrində, həmçinin Azərbaycan klassiklərinin əsərlərində də rast gəlinən "tanrı" kəlməsi bu gün də xalq arasında "Allah"mənasını ifadə edir və "Tanri haqqı", "Yeri-göyü yaradan ulu Tanrı", "Tanrı sənə yar olsun!", "Tanrı səni qorusun!" kimi alqışlarda və andlarda işlənir.

Azərbaycanlıların etnoqenezində özünəməxsus yeri olan skiflərin mənşəyi ilə bağlı əfsanələrdə Tarqıtay adlı mifik qəhrəmanın adına rast gəlinir (Herodot, IV, 3–5; 161, 339). Görünür, bu, "tanrı" kəlməsinin fonetik dəyişmiş formasıdır. Herodotun məlumatına görə, skif xalqının əsasını qoymiş Tarqıtay Göylər allahı ilə torpaq ilahəsinin mifik izdivacından doğulmuşdur. Bu əfsanə qədim türk və şumer mətnlərindəki insan övladının Göy Tanrının qonur Yerlə qovuşmasından doğulması mifi (39, 233) ilə eyniyyət təşkil edir.

Maraqlıdır ki, Papay (*Goylər allahı*), Api (*torpaq ilahəsi*) kimi skif ilahilərinin adları da türkmənşəli olub əslində türkcə *baba*-"ulu baba", "babanın babası", "soybaşı" və "aba"-ulu nənə" sözlərindəndir (52, 139). Eyni zamanda skiflərin günəş ilahəsi Qoytosir, yağış və məhsuldarlıq ilahəi Arqimpas da qədim türk dilləri ilə izah edilir. Qoytosir-türkcə *qoy, qok*-"göy", mavi səma" və



*tesir, teşir* (teşmək, deşmək, yarmaq, yarıb keçmək felindən) sözlərindəndir. Azərbaycan dilində ifadə etsək bu ad "göyü deşən", "göyü yarıb gələn" (Günəş şüası) mənasında, Arqimpas isə türkcə *irkin*-"bir neçə gün aramsız yağan yağış və *baş-başçı* sözlərindəndir (52, 140).

Antik müəlliflər qədim Azərbaycan əhalisinin də göy üzünə, göyləri idarə edən Göy tanrıya, həmçnin Günəşə, məhsuldarlıq və doğum ilahəsi Afroditaya, xüsusilə də Ay ilahəsi Selenaya sitayiş etdiklərini yazırdılar (Latışev. t. 1-2. SPb., 1893-1906.). Göründüyü kimi, şumer-türk-skif-azərbaycan inancları arasında aparılan paralellər onların etnoqenetik bağlarını ortaya çıxarır.

### 1. Toy mərasimlərində inancların yeri

**Kosmoqonik inamlar.** Minilliklər boyu insanlar yerdə həyatla bağlı suallarına göylərdə çavab axtararaq kainat haqqında mifik təsəvvürlər yaratdıqları kimi həyatlarının evlilik, doğum, ölüm kimi ən mühüm mərhələlərinə göy cisimlərinin təsir göstərə biləcəyinə, ulduzların göydəki vəziyyətinin onların həyatına təsirinə də inanmışlar. Zəngin astral təsəvvürlərə malik olan qədim Azərbaycan tayfaları göy üzündəki planetlərin onların həyatlarına təsir göstərdiyinə inanaraq öz fəaliyyətlərini də səma cisimlərinin hərəkətinə uyğunlaşdırmağa çalışırdılar. Qədim xalq inamıa görə, aylar, həftənin günləri və günün saatları planetlərin göy üzündəki yerdəyişməsinə görə bölünür. İnsanlar öz hərəkətlərini göy çisimlərinin hərəkətinə uyğunlaşdıraraq həyatlarını tənzimləyə çalışırdılar. Bununla bağlı indi də xalq arasında "Hər anın bir hökmü var" ifadəsi işlənməkdir. Ulduzların elçi getmək, nikah kəsdirmək, səfərə çıxmaq kimi hər hansı bir işi başlamaq üçün uğurlu anı, günü, saatı müəyyən etməyə kömək olacağına inanılırdı.

Bu baxımdan xalqımız elçilik, nişan, gəlin gətirilməsi kimi bir çox mühüm ailə mərasimlərində zamanın- günün, saatın seçilməsinə çox diqqət yetirmiş və bu mərasimlərin icrası zamanı uğuruna inandıqları, qoruyucu özəllikləri olan Goy cisimlərinin Yerə təsir gücünün daha çox olduğu zamanları seçməyə çalışmışlar.

Qədim astroloji təqvimlərdə həftənin günləri planetlərin adları ilə adlandırılırdı. Qədim təqvimə görə bazar ertəsini Ay, çərşənbə axşamını Mars, çərşənbəni Merkuru, cümə axşamını Yupiter, cümə gününü Venera, bazar gününü Günəş, şənbə gününü isə Saturn təmsil edirdi. Bu yeddi səma cisminin Yerə təsir gücünə inanan azərbaycanlılar da hələ çox qədim dövrlərdən etibarən həftənin günlərini planetlərlə əlaqələndirərək müxtəif mənalar axtarmış, bütün həyatlarının uğurlu keçməsi üçün vaxt bölgüsünü yeddi planet üzrə müəyyənləşirməyə çalışmışlar. Şəki-Zaqatala bölgəsində yaşayan udilərdə görünür, bu qədim astral dünya görüşünün təsiri ilə hər həftənin bazar günü Günəş günü kimi qeyd olunur və udilər buna "beğeğe" deyir (25, 229). Həmin gün udilər sübh tezdən Günəşin seyrinə çıxar, onun doğmasına baxardılar.

Şumerlərdə İştar kimi tanınan sevgi və məhəbbət simvolu Venera azərbaycanlıların astral təsəvvürlərində Zöhrə adı ilə məlumdur. Görünür, bu planetin təsir güçünə inamla bağlı olaraq soydaşlarımız bütün xeyir işlərin cümə günü başlanmasının uğur gətirəcəyinə və ümumiyyətlə, cümə gününün uğuruna inanmışlar. Cümə axşamını təmsil edən Yupiter isə Veneradan sonra ikinci yeri tutur. Venera yalnış səhər və axşam göy üzündə görünürsə, Yupiter öz parıltısı ilə səmanı bütün gecə bəzəyir. Görünür bu astronomik biliklərin nəticəsi idi ki, azərbaycanlıların ailə mərasimlərində cümə axşamı müqəddəs bir gün kimi qəbul edilir. Saturn isə qədim astroloji-mifik təsəvvürlərə görə, ömür yolunda insanın rast gəldiyi bütün çətinliklərin, bədbəxtliklərin simvolu idi. İndi çox zaman qoroskop adlanan qədim tale kitablarında Saturn qaşqabaqlı qoca kişi kimi təsvir edilir. Əfsanəyə görə, Saturn Yer üzərində doğulmuş bütün körpələri yeyirmiş. Görünür, elə bu səbəbdən Saturunun təmsil etdiyi də şənbə günü nə evlillik, nə də doğum mərasimləri üçün uğurlu gün sayılmazdı.

Azərbaycanın hər yerində olduğu kimi Şəki-Zaqatala bölgəsində də elçilik üçün həftənin günlərindən adna (cümə), xas (cümə axşamı) günləri uğurlu saylırdı. Bölgədə toylar adətən cümə günü başlayıb bazar gününədək davam edirdi və gəlin bazar günü ər evinə köçürdü. Günəşin təmsil etdiyi bazar günü də bir çox türk xalqlarında olduğu kimi (138, 73), Azərbaycanda da səfərə şıxmaq, nikaha girmək üçün xeyirli vaxt sayılırdı. Şənbə və çərşənbə isə xeyir işlər üçün nəhs günlər sayılırdı.

Xalq inanclarına görə günün saatları da həftənn günləri kimi uğurlu-uğursuz vaxtlara bölünürdü. Məsələn, səhər günəşin doğduğu erkən saatlar (Zöhrə ulduzunun göy üzündə göründüyü vaxt) nikah, səfər, xeyirli işlər üçün uğurlu zaman sayılırdı. Xalq arasında gündoğan vaxt xeyirli işlər üçün həmişə uğurlu sayılmışdır. Ümumiyyətlə, bütün türk xalqlarında günəşin ilk işıqlarının uğur gətirəcəyinə inam geniş yayıldığı mütəxəssislər tərəfindən yazılmaqdadır. Günəş işıqlarının Tanrının yer üzünə enən nuru kimi qəbul edilməsi inancı türklər arasında hun çağından bəri sürməkdədir (228, 70). Çin qaynaqlarında Hun çağında türk xaqanlarının *kün* deyə adlandırdığı günəşə hörmətlərindən dolayı otaqlarının şərqə, günəşin doğduğu yönə açıldıqları yazılır (219, 90). Məsələn, Türkiyənin Tunceli, Midyat kimi bölgələrində günəşin ilk işıqlarının dəydiyi daş və qayalar müqəddəs sayılır. Ərzurum, Sarıqamış, Malatya bölgələrində günəşin ilk işıqlarıl ilə evin qapısı açılırsa, uğur və bərəkət olaçağına

inanılır (228, 69). Azərbaycanını Şəki-Zaqtala bölgəsində də gündoğanın uğuru ilə bağlı belə bir deyim var: "Gündoğandan gələn ağ pişik uğur gətirər" (6). Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də erkən qalxmaq, yəni günəş şüalarının yerə yayılmasından öncə oyanmağın uğur gətirəcəyi inamı yayqındır.

Günün qürub çağı isə çox təhlükəli bir zaman sayılır, çünki bu zaman kəsiyi Saturnun himayəsi altında idi (138, 73). Xalq arasında bu zaman "şər qarışan vaxt" sayılırdı. Şər qarışan zaman evdən od, çörək verilməz, qarğış edilməz, ev süpürülməz" kimi inamlar xalq arasında yayqındır. Bölgə əhalisi arasında da "şər qarışanda zibil atmazlar, qonşiya od almağa, su almağa getməzlər" kimi inanclar geniş yayılmışdı (6, 391). Çünki inama görə günəş batarkən evdən bir şey çıxarmaq evin bərəkətini qaçırar, günəşin arxasınca evin süpürülməsi onun özünün, işığının da süpürülməsi, bir daha gəlməməsi anlamına gəlir. Xakas türklərində də mövcud olan inama görə, axşamlar kut adlı ruh yuxarıdan aşağıya endiyi üçün axşam ev süpürmək və ya evdən bir şey vermək olmaz, bu kutların da bayıra atılması deməkdir. Göydən yerə enən gözəgörünməz kut ruhu ilə bərabər evin bərəkəti də gedə bilər (227). Məlumdur ki, türk xalqlarının qədim inanclarında bəxt, xüsisilə də ailə xöşbəxtliyi gətirən "*qut ruhu*"[1] mövcud olmuşdur. İnanca görə gözəgörünməz kut ruhları məhz axşam vaxtı göydən yerə enərdi. Bu zaman evdən bir şey çıxardılarsa kut ruhunun da onunla bərabər evdən çıxaçağından ehtiyat edərlər. Bütün türk xalqları, o cümlədən azərbayanlılar arasında da bu astral təsəvvürlərin izi "Axşam evdən bir şey verməzlər", "bu vaxt qapı örtülməz, çünki bu vaxt ruzi paylanan vaxtddır. " kimi xalq inamlarında da qalmaqdadır.

Azərbaycanın digər bölgələrində olduğu kimi Şəki-

[1] *Qədim türk dillərində qut-xoşbəxtlik deməkdir.*



Zaqatala bölgəsində də günəşin batma saatlarında yatmaq da yaxşı əlamət sayılmır, "günün dalınca yatanın bəxti də yatar" deyərlər. Bir çox türk xalqlarında mövcud olan bu inanc da Türkiyənin Kars bölgəsində rast gəlinməkdədir. Günəşin batma saatlarında yatan varsa oyandırılır, oyandırılmayanların öləcəyinə inanıllır (228, 70).

Xalqın astral təsəvvürlərinə görə günbatandan sonrakı zaman Şərq mifologiyasında Müştəri ulduzu kimi tanınan Yupiterə aid olduğu üçün günün bu saatları uğurlu zaman sayılırdı. Görünür, bu astral dünyagörüşlərinin təsiri ilə Şəki-Zaqatala bölgəsində də günün saatlarından ya sübh tezdən-alatoranlıq, ya da ikindi çağından (günbatan) sonra alaqaranlıq zamanı –(8-10 arası) elçilik üçün münüsib saatlar sayılırdı. Yuxarıda da qeyd etdiyimiz kimi, qədim şumerlərin İştar adlandırdığı, azərbaycanlılara isə Zöhrə adı ilə məlum olan və məhəbbət ilahəsi kimi qəbul edilən Venera bir günbatandan sonra, axşam səmasında, bir də səhər dan üzündə, yəni alatoranlıqda görünür və hər dəfəsində də 3 saata qədər səmada qalır. Görünür, xalqın elçilik, toy kimi mərasimlərdə bu zamanları seçməsi də məhəbbət ilahəsinin simvolu olan Venera planetini yerə təsir gücünə, eyni zamanda qoruyucu özəlliyi olan Yupiterə inamı ilə bağlı idi. Tədqiq etdiyimiz bölgədə gəinin günortadan sonra, xüsusilə də axşam 8-9 da gətirilməsinin uğurlu zaman sayılması da, görünür, bu inancın qalıqlarıdır. Bu adət həm də oğlan evinin gəlinlə bərabər bərəkət də aparmaq istəyindən doğmuşdur. Gəlin aparаrkən qız evindən bir şey oğurlanması ənənəsi bu qədim dünyagörüşilə bağlı idi. Çox zaman qız anası evdən bir şey götürməsinlər deyə, özü gəlinin qoltuğuna bərəkət simvolu kimi "xeyirlik" çörək verərdi. Bundan sonra oğlan adamları evdən heç bir şey götürməzdilər. Ümumiyyətlə, çörək, toy mərasimlərimizdə, xüsusilə də, Şəki-Zaqatala bölgəsinin toy mərasimlərinin elçilik mərhələsin-

dən tutmuş gəlin gətirilməsinədək bütün mərhələlərində mühüm yer tutur. Bu mərasimlərdə çörək söz kəsmək, dostluq, bərəkət simvolu olmaqla bərabər şər qüvvələrə qarşı qoruyucu özəlliyi ilə də çıxış edir. Bu inanc bölgədə gəlin apararkən onun dəmir şişə taxılmış çörəklə müşayət edilməsi ənənəsində də bu inanc özünü büruzə verir.

Azərbaycan sakinləri qədim zamanlardan astral kultların yerdə simvolik obrazlarını yaradaraq onları da müqəddəsləşdirmişlər. Azərbaycan toy mərasimlərində gəlinliyin al rəngdə olması, toy-nişan xonçalarına qırmızı bağlanması, toy mərasimlərində xnadan istifadə edilməsi Günəş kultunun nişanəsi idi və günəşin qoruyucu qüvvəsinə inamla bağlı yaranmışdır. Şəki bölgəsinə aid arxeologiya materiallarda Günəş təsvirli medalyonun tapılması bölgə əhalisinin günəşlə bağlı inanclarının cox qədim dövrlərdən bəri davam etdiyini təsdiq edir. Bölgədə bu gün də "Gün haqqı", Göy haqqı" kimi andlar müqəddəs andlardandır.

Azərbaycanlıların qədim dini-mifoloji dünyagörüşlərində Günəşlə bərabər Ay kultu mühüm yer tuturdu. Antik mənbələrdə də qeyd olunduğu kimi albanlar Göy üzünə, Günəş və Aya sitayiş edirdi və xüsusilə də Ay ilahəsinə daha çox üstünlük verirdilər (Srabon, XI, 4, 7). Astronomik biliklərə sahib olan qədim Azərbaycan əhalisi ay təqviminin güclü təsiri atında idilər və ayın qoruyucu qüvvəsinə inanrdılar. Ayın yerdəyişmə fazalarından xəbərdar olan qədim Azərbaycan sakinləri onun ilk fazasına-təzə aya (aypara) xüsusi əhəmiyət verirdilər.

Şəki-Zaqatala bölgəsində aya, xüsusilə də təzə aya sitayişin izlərinə Azərbaycanın digər bölgələrinə nisbətən daha çox rast gəlinir. Təsadüfi deyil ki, bu əraziyə Ay məbədləri ölkəsi deyilir (58 a, VII). Bölgədə bu gün də Aya qurban kəsmək adəti qalmaqdadır. Xüsusilə də, udilərin məişətində Aya sitayişin qalıqları daha çox



qorunub saxlanmışdır. Onlar Aya "xaş", Aya inamı isə xaşa veluğ adlandırır (25, 229). Ay kultunun çox qədim dövrlərdən bəri azərbaycanlıların, xüsusilə də Şəki-Zaqatala bölgəsi əhalisinin inam və etiqadlarında mühüm yer tutmasını antik qaynaqlarla bərabər arxeooji-etnoqrafik materiallar da təsdiq edir. Bölgəyə aid arxeoloji materialların içərisində hələ e. ə. III minilliyə aid üzərində aypara rəsmləri olan əşyalar, aypara formalı bəzəklər və aypara formalı qəbir örtüklərinin olması, yerli əhalinin tarixin ən qədim çağlarından bəri Aya etiqad etdiyini göstərir.

Azərbaycanlıların qədim dini-mifik təsəvvürlərinə görə ay gümüşdən döyülmüş nimçədən ibarətdir. Görünür, Şəki-Zaqatala bölgəsində gəlinə mütləq gümüş üzük və gümüş kəmər gətirilməsi ənənəsi, gəlinin başına gümüş pullar tökülməsi adəti gümüşün qoruyucu qüvvəsinə inamla bərabər ay kultunun da izlərini daşıyırdı. Ay kultunun qalıqları bölgədə aypara formalı qızıl və gümüş bəzək əşyaları[1], kəmərlərin və ya qabaqlığın üstünə aypara formalı pilləklər düzülməsi ənənəsində də özünü büruzə verir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də "Ay çıxanda onu görənin işi uğurlu olar", "Ay işığı düşən qapıya çirkli su atan xeyir götürməz" inancı, təzə ay çıxanda "mübarəkdir!" deyib salavat çevirmək, dilək tutmaq, darvazadan aypara formalı buynuz asmaq, ay 3 günlük olan zaman niyyət tutan adamın 3 gün boyunca hər kəs yatdıqdan sonra aya baxarsa, evlənəcəyi adamı yuxusunda görəcəyi kimi inamlar geniş yayılmışdır.

**Od**. Şəki-Zaqatala bölgəsinin evlilik mərasimlərində

[1] *XIX-XX əsrin əvvəllərinə aid olan bu sırğalar öz formasına, hətta hazırlanma texnikasına görə arxeoloji qazıntılardan əldə edilmiş e. ə VII əsrə aid aypara formalı sırğalardan fərqlənmirdi (147, 146).*

günəş kultu ilə bərabər, onun atributları olan od, metalla bağlı inancların da qalıqları özünü biruzə verir. Günəşlə bağlı şəkildə mövcud olan od kultuna şumerlərdə də rast gəlinir (17). Qədim türk inancına görə od soyu-qəbiləni, ailəni qoruyur. Od yeni, xoşbəxt ailə qurmağa kömək edir. Buna görə də oddan xoşbəxtlik, evlənmyə icazə verməsinin diləyirdilər (79, 162). Bölgənin gəlin gedərkən ata ocağını öpməsi, ocağın və ya təndirin başına dolanması, gəlinlə bərabər ər evinə yanar kösöv aparılması, gəlin evə daxil olarkən ocağa dəmir atılması kimi bir çox toy adətlərində odun ailə qurma kultu ilə bağlı olduğunu müşahidə etmək mümkündür.

Şəki-Zaqatala bölgəsində də, Azərbaycanın hər yerində olduğu kimi, od, ocaq, tonqal müqəddəs sayılırdı. Ocağı müqədəs hesab edən azərbaycanlılarda oda söymək, ona tüpürmək, üstünə su tökmək və ya ayaqlayıb söndürmək, ayaqları ocağa tərəf uzatmaq xalq arasında günah hesab olunurdu (56, 56). Şəki-Zaqatala bölgəsində indi də oda baxanda, təndir yandıranda salavat çevirirlər. Qeyd etmək lazımdır ki, bu qədim ənənənin izlərinə Kərkük türkmənlərinin bahar mərasimi ilə bağlı nəğmələrində də rast gəlinir:

Oğlan, oğlan, od gəti,
Oda salavat gəti. (71, 19)

Şəki-Zaqatala bölgəsinin əhalisi arasında "kösöy haqqı", "ləmpə haqqı", "isti təndir haqqı" kimi andlar da geniş yayılmışdır.

Türkdilli xalqlar odun gələcək hadisələri xəbər vermək özəlliyi olduğuna inandıqlarına görə onun köməyilə "fal" da açarmışlar. Böyük xaqanlardan tutmuş sadə insanlaradək başına gələcək hadisələrdən xəbərdar olmaq üçün tez-tez oda müraciət edərmişlər. Odla fal açmaq ənənəsi məşhur "Manas" dastanında da öz əksini tapmışdır (79, 168). Şəki-Zaqatala bölgəsində yaşayan ingiloylar arasın-



da da bu qədim türk ənənəsinin qalıqları qorunub saxlanmışdır. İngiloyların adətinə görə evlənənlərin gələcəyini öyrənmək üçün odla fala baxardılar; Bəylə gəlin evə girərkən ocağa bir parça dəmir atardılar. İnama görə dəmirin qızarması xöşbəxtlik, qaralması isə bədbəxtlik əlaməti idi.

Od xöşbəxtlik rəmzi olmaqla bərabər şər qüvvələrdən təmizləyici xüsusiyyətə də malik idi. İki od arasından keçirilməklə şər qüvvələrdən təmizlənmə ayini bölgədə özünəməxsus şəkildə keçirilir. Məsələn, Şəkidə qonağın odun simvolu kimi kömür arasından keçirilməsi və ya Zaqatalada ingiloyların adətinə görə gəlinin yenə də odun simvollarından olan metalın – çarpazlaşdıtrılmış xəncərlərin arasından keçirilməsi şəklində icra edilirdi. İngiloylarm bu adəti, eyni zamanda, qədim türklərin od arasından keçirmə mərasimini xatırladır. Odun pis ruhları qovması inamı ilə bağlı türklər VI əsrdə Göytürk xaqanın yanına gələn Bizans elçilərini şər ruhlardan təmizləmək üçün iki od arasından keçirmişlər (116 a, 375–376). Bu baxımdan yuxarıda təsvir olunan ingiloy mərasiminin bu qədim türk ənənəsindən qaynaqlandığını ehtimal etmək olar.

**Metal.** Qədim şumerlər dəmiri göydən düşmüş bir parça kimi qəbul edərək onun qoruyucu qüvvəsinə inanmışlar. Altay türkləri də dəmiri Tanrının hədiyyəsi kimi qəbul edirlər. Azərbaycanda da xalq inamına görə metal göy cisimləri ilə eyniləşdirilirdi. Azərbaycanda yayılmış mifik təsəvvürlərə görə, göy qübbəsi dəmirdən döyülmüş tabaq, günəş kürədə qızdırılmış dəmir parçası, ay isə gümüş nimcə kimi təsəvvür edilirdi (56, 89).

Azərbaycan ailə mərasimlərində metalın qoruyucu qüvvəsinə inanaraq ondan şər qüvvələri uzaqlaşdırmaq üçün istifadə etmişlər. Bölgədə nişanlı qıza gümüş üzük və gümüş kəmər hədiyyə edilməsi, gəlin evə girərkən ayağının altına dəmir atılması, gəlinin başına gümüş pullar

tökülməsi, ocağa dəmir atılması kimi adətlərin yayılması yeni evliləri şər qüvvələrdən qorumaq məqsədilə edilirdi. Keçmişdə azərbaycanlıların elçilik mərasimləri zamanı qız istəməyə gedən elçilərə şər qüvvələrin mane olmaması üçün ev qapısının üstündən metal əşya sancılarmış (2, 124). Bu ənənəyə bölgədə yaşayan avarların toy mərasimində bir qədər fərqli formalarda rast gəlinir; Avarların qədim toy adətinə görə gəlin köçən zaman onu şiş və çörəklə müşayət edərdilər. İngiloyların isə yuxarıda da qeyd etdiyimiz adətinə görə isə gəlin evdən çıxarkən darvazanın ağzında iki kişinin çarpazlaşdırılmış xəncərləri altından keçməli idi. Bu ayinlərin hər biri gəlinin şər qüvvələrdən təmizlənməsi məqsədilə edilirdi.

Bölgədə toy mərasimi zamanı icra edilən "gərdan vurma" ənənəsi də gəncləri bəd ruhlardan qorumaq üçün icra edilən ayinlərdən idi. Toyda gənclərin metal siniyə xəncərlə vurması və mütləq bir balaca da olsa çərtməsi ənənəsi Günəş tutulan zaman bəd ruhları qovmaq üçün mis qabların döyəclənməsi adətini xatırladır. Hər ikisində də görünməyən şər qüvvələri qovmaq üçün dəmirin güçündən istifadə edərək səs çıxarırdılar. Buna bənzər bir ayin türkmənlərin də xna gecəsində icra edilirdi. "Teşti kırma" adlananan bu ayin zamanı yallı gedən gənclər növbə ilə əllərindəki teşti yerə vurub qırardılar (227, 298–299).

**Heyvan kultu.** Qədim Azərbaycan sakinləri astral kultların yerdə simvolik obrazlarını yaradaraq onları da müqəddəsləşdirmişlər. Məsələn, xalqımızın dini-mifik təsəvvürlərində od, xna, al rənglə bərabər, at, şir, ilan, xoruz kimi heyvan obrazları da günəş simvolu kimi ilahiləşdirilirdi. İşıqlaşanda banladığı və günəşin doğmasını xəbər verdiyinə görə günəş və məhsuldarlıq simvolu kimi qəbul edilən xoruz bölgə əhalisinin toy mərasimlərində hazırda da mühüm yer tutur. Bölgədə bəzədilən şaxın mərkəzinə qızardılmış xoruz yerləşdirilməsi, qız evinə



hədiyyələrlə bərabər qızardılmış xoruz göndərilməsi, gəlini müşayət edənlərin bəy evinə diri xoruz gətirməsi kimi adətlər də günəş kultunun qalıqlarıdır.

Xalqımızın qədim mifik-astral təsəvvürlərində öküz, keçi, maral kimi heyvan obrazları isə ayın simvolları kimi qəbul edilmişdir. Qədim Azərbaycan ərazisindəki ulduz məbədlərində hər bir ulduzun özünəməxsus simvolik bir heykəli var idi. Belə ulduz məbədlərində Ay planetinin heykəli ağ öküzün belində durmuş başqa bir öküz şəklində idi (37, 333). Mənbələrin də söylədiyi kimi, 7 səma cisimlərinə – ulduzlara sitayiş edən qədim türkmənşəli Azərbaycan tayfalarının inancına görə "hər bir ulduzu evlərdə saxlanılan müqəddəs tilsimli əşya təmsil edir və həmin müqəddəs əşyalar insanın həyatına təsir göstərirmiş (37, 334). Buna görə də xalqımızın dini-mifik təsəvvürlərində öküz, keçi, maral kimi heyvan obrazları, eyni zamanda ağ rəng bu gün Ayın simvolu kimi müqəddəs sayılır. Qədim türk inancına görə ağ tüklərdə qoruyucu və müqəddəs kut (xoşbəxtlik) ruhu yaşayır və insanlara ailə xöşbəxtliyi gətirir. Bu inancın təsiri ilə Sibir türklərində keçi və maralın cənələrindəki ağ tüklər müqəddəs hesab edilirdi. Bunda başqa tunqus qadınları maral və ya keçinin çənəsindən qopartdıqları ağ tükləri xüsusi torbacıqlarda üstlərində gəzdirirdilər və bunun ailə xöşbəxtliyi üçün ən güclü vasitə olduğuna inanardılar. Şəki-Zaqatala bölgəsində, xüsusilə udi gəlinlərinin "yalınqat" adlanan ağ yaylıq örtməsi ənənəsində də, görünür, bu qədim inamın izləri var. Bölgə üçün xarakterik olan "Gündoğandan gələn ağ pişik uğur gətirər" deyimində də ağ rəngin uğuruna inam nəzərə çarpır.

Bir maraqlı faktı qeyd etmək yerinə düşər ki, Şəki ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində barama qurduna bənzər bəzək əşyası aşkar olunmuşdur. Görünür, bölgənin təsərrüfat həyatında mühüm yer tutduğu

üçün barama qurdu da Şəki-Zaqatala bölgəsində məhsuldarlıq simvollarından biri olmuşdur. Bölgədə nişanlı qıza barama qurdu hədiyyə edilməsi, gəlin qapıdan girərkən başına barama qurdu qoyulması qədim ənənələr bu inancın izlərini daşımış ola bilər.

**Ovsun ayinləri.** Ovsun (magiya) insanın müəyyən üsulla kənar şeylərə təsir göstərməsidir. Ovsunun zərərverici, müalicə, qoyuyucu, aldadıcı sevgi kimi bir sıra növləri var idi. İbtidai din təbiəti insanabənzər ruhların məcmusu kimi qəbul etdiyi üçün ibtidai cəmiyyətdə bəzi insanların bu ruhlarla yaxınlaşaraq onlara təsir edə biləcəyinə də inanardılar. Buna görə də bu ruhlarla ünsiyyətdə olan və onlarla mübarizə aparmağı bacaran adamlar-cadugərlər ən təhlükəli şəxs sayılırdılar.

Şəki-Zaqatala bölgəsində toy mərasimləri zamanı daha çox qoruyucu magiya ayinləri icra edilsə də, zərərverici magiya ayinlərinin qalıqlarına da rast gəlinirdi. Məsələn, qara toyuq qanı ilə dua yazdırmaq, dəmirə, qurğuşuna ovsun oxunması, xəncəri bir neçə dəfə qınına salıb çıxarmaq, dəsmal ucu düyünləmək, qıfıl bağlamaq, qurd yağından istifadə etmək və s. kimi cadugərliklər bəd niyyətlə – yəni evlənmək istəyən oğlanla qızı bir-birindən ayırmaq, bəxt bağlamaq və ya ailəni dağıtmaq üçün edilərdi. Udilərdə bəd niyyətlə ovcun etmək üçün qurğuşun gülləsini iki yerə bölüb bəy-gəlinin keçə biləcəyi yolun iki tərəfinə yerləşdirirdilər. Gəlinlə bəy həmin yoldan keçəndən sonra qurğuşun parçalarının yenidən birləşdirərək odda yandırılması ən güclü zərərvrici ovsun hesab edilərdi. Bu dəmirə (qurğuşun) ovsun oxunmasının qarşısını almaq üçün önləyici tədbir kimi toy mərasimindən öncə yanan predmetlərdən, eyni zamanda od (toy xörəyinin bişirildiyi ocaq) və qandan (toy cöngəsinin qanı) istifadə edirdilər. Toy cöngəsinin qanının yerə yox, məhz kotanın üstünə tökülməsi, qanlı kōtanın bütün gecə yanan ocaq



qırağında qalması, bəylə gəlinin paltarlarının parçalarının toy cöngəsinin qanında isladılaraq düyünlənməsi və toy bitdikdən sonra yandırılması magiya, od, qana sitayiş kimi ibtidai inancların izlərini daşıyır. İbtidai insanlar qanın cadugərlər tərəfindən istifadə edilməsindən ehtiyat edərək onun torpağa və başqa predmetlərə düşməsinə qoymurdular (208, 296). Görünür, bu ayində odun bəd ruhları qovmasına inanaraq ocağın yanında qoyulan qanlı kotanla cadugərlərin təsirini yox etməsinə çalışırdılar. Çünki bölgədə keçmişdə mövcud olan inama görə cadugər qandan oğurlaya bilsə idi, bəylə gəlinə xətər yetirə bilərdi. Məlumdur ki, ibtidai insanlar qanın eyni zamanda bütün nəslin həyatının qorunması və davam etməsi üçün xüsusi gücə sahib olduğuna, onun həyatverici qüvvəsinə inanardılar (295). Bu ayinlərlərdə dəmirin güçünə inamla bərabər ona qarşı çıxa biləcək bir güc kimi odun təmizləyici güçünə inamın qalıqları da özünü göstərir.

Azərbaycanlıların ovsunçuluq ayinlərində qurd mühüm yer tutur. Azərbaycanda qurdla bağlı "qurd ağzı bağlama", "qurd tükünün yandırılması", "qurd ayağının yandırılması", qurd dişinin uşağın üstünə nəzərlik kimi taxılması, qurd ağzından keçirilməsi, qurd üstündən adlatılmaq kimi ovsunçuluq ayinləri icra olunurdu. Bu ayinlərin bəziləri yardımedici magiya olsa da da, bəzən qurdla bağlı zərərverici magiya ayinləri də icra edilirdi. Məsələn, ailədə uğur, bərəkət, ruzi olması üçün evdə qurd tükü, dırnaqları saxlanardı, qorxuluğu götürmək üçün üstündə qurd dişi gəzdirilərdi, cilləyə düşmüş gəlin və ya uşaq qurd ağzından keçirilirdi. Qurdun yağı isə zərərverici magiya məqsədilə istifadə edilərdi. İnama görə üzərinə qurd yağı çəkilmiş adam qurd kimi yalqız qalaraq ailsindən, evindən soyumalı idi. Oğurluğun aşkar edilməsi üçün isə ovsunçuluq ayini kimi qurd ayağı yandırılardı.

İnama görə qurdun ayağı yanıb büzüşdükcə oğrunun da qolu beləcə büzüşərdi. Göründüy kimi, qurdun özü, ağzı, tükü, dırnaqları, dərisi müqəddəs hesab edilsə də, qolu, yağı zərərverici işlər üçün istifadə edilirdi. Şəki-Zaqatala bölgəsində məlumatçımızın söylədiyinə görə, bunun qarşısını almaq üçün qurdu öldürən adam onun ağzını, ayaqlarını götürdükdən sonra "mundarlayardı" ki, heç kəs qurdun yağından pis niyyətlər üçün- insanları evindən, bir-birindən soyutmaq üçün istifadə etməsin. Xalq arasında yayılmış inama görə, qurd qolu yandıran, qurd yağından istifadə edən adam heç bir zaman xeyir görməzdi. Azərbaycanın dağlıq bölgələrində elçiliyə getdikdə uzaqdan canavarın (qurdun) görünməsi və ya səsinin gəlməsi isə uğur sayılırdı (54, 356).

Göründüyü kimi, Azərbaycan xalq inanclarında qurd (canavar) mühüm yer tutur və ikili xüsusiyyətə malikdir. Qurd xilaskar, əcdad, hami, yol göstərən funksiyalarını daşımaqla bərabər, həm də yalqızlıq, təklik simvoludur.

**Ağac-bitki kultu.** Azərbaycanlıların qədim inancları sistemində bir sıra ağaclara inam xüsusi yer tutur. Azərbaycanda yayılmış xalq inanclarına görə, dağdağan, qoz, zoğal, çinar, əncir pir hesab edilir, onları kəsmək və yandırmaq olmaz (9, 276). Şəki-Zaqatala bölgəsinin evlilik mərasimlərində də qoz, dağdağan, nil ağacları, üzərrik, alma, mixək xüsusi yer tutur. Bölgədə üzərrik, dağdağan, mixək kimi bitkilər, bundan başqa alma ilə, qoz ağacı ilə bağlı bir sıra ayinlər icra edilirdi. Məsələn, udilər toy şaxında nil ağacından istifadə edir. Toy mərasimi zamanı əbədi həyat ağacının simvolu kimi bəzədilən şaxldan mütləq alma asılardı. Saxurlar gəlin paltarına dağdağan ağacından bir parça tikərdilər və ya gəlin atının alnından asılan "*həykəl*" adlı talismanın içərisinə mixək bitkisi qoyardılar. Mixək nişanlı qızların bayram əlbisələrinə də tikilərdi. Bölgənin toy mərasimlərində mixək və alma



xüsusi yer tuturdu. Bölgənin özünəməxsus şaxbəzəmə ənənəsinə görə şaxa bölgənin məhsuldarlıq simvolu olan fındıq da yapışdırılardı. Qədim inanclara görə, ağacın budaqları, yəni şaxları da pis ruhlardan, dəd nəzərdən qorunmağa xidmət edirdi və eyni zamanda mayalandırma güçünə sahib idi (208, 451). Altay türklərinin inamlarında da cavan budaqlar təzə doğulan uşaqlarla eynləşdirilirdi (85, 65). Göründüyü kimi, şaxbəzəmə ənənəsi təzə evlənənlərə yeni həyat, bərəkət, məhsuldarlıq, övlad simvolu kimi təqdim edilirdi.

Bolgədəki müqəddəs pirlərdə bəxtin açılması üçün ağaclara rəngli parçalar bağlayırdılar. İnama görə bu parçalar duaların göylərə çatmasına kömək edirdi. Bir çox türk xalqlarında da müqəddəs ağaclara ağ, qırmızı, göy rəngli parçalar, sap, saç, at quyruğu bağlanar.

**Dağ kultu.** Qədim inanclar sistemində ən geniş yayılmış kultlardan biri də dağ kultu olmuşdur. Azərbaycanın bir çox yerləri kimi, Şəki-Zaqatala bölgəsi də dağların əhatəsində yerləşdiyi üçün Göymurad, Armatay kimi dağlar mifikləşdirilərək müqəddəs hesab edilmişdir. Dağı göylərə ən yaxın yüksəklik kimi qəbul edən qədim Azərbaycan əhalisinin "yüksəkliklərdə, pak və təmiz yerlərdə Tanrı üçün qurban kəsdiklərini Srabon da qeyd edir. Etnoqrafik səfərlər zamanı Şəkidə dağ kultuna, onun qoruyucu qüvvəsinə inamla bağlı olaraq toy günü dağ başında məclis qurulması ənənəsini qeydə almışıq. Qədim türklər dağın qoruyucu ruh olduğuna inanaraq sülh müqavilələrini dağın zirvəsində bağladıqları da mənbələrdə qeyd olunmuşdur (85, 55).

**Su kultu.** Azərbaycanda bir çox bulaqların əksəriyyətinin pir hesab edilməsi, nəzir kimi bulaq çəkdirmək adətləri, suyun qoruyucu, aydınlığa qovuşduran qüvvəsinə inanılması su kultunun izlərini daşımaqdadır. Şəki-Zaqatala bölgəsinin də ailə mərasimlərində, o cümlədən

toy mərasimlərində su ilə bağlı bir sıra ayinlər icra edilmişdir. Bölgədə gəlin gətirərkən su dolu qabın üzərindən keçirilməsi, su bardağının aşırılması, gəlinin əlinə su dolu bardağın verilməsi, gəlinin suya/ayaq açdı mərasimi kimi ənənələr su kultunun izlərini daşıyır və aydınlıq içində olmaq arzusu ilə icra edilir. Bu mərasimlərdəki su bütün şər qüvvələri yuyub aparan qüvvə, paklıq, aydınlıq, uğur simvolu idi. Azərbaycanda "uğur suyu", su ilahəsinə sitayiş olmuşdur (27, 51). Bu gün Azərbaycanda suya sitayişin izləri "And olsun suyun paklığına", "Suyun axarı haqqı", "Suyun kəraməti haqqı", "Suyun mələkəsi haqqı", "Suyun piri haqqı, "Uğuruna pak su çıxsın", "Allah axar suyunu bulandırmasın", "Axar su üzünü ağ eləsin" kimi saysız-hesabsız and və alqışlarımızda, eyni zamanda "Allah odu yaradıb qarlığa, suyu yaradıb qarlığa", " Axar suya dayanma, hər gözələ inanma" kimi deyimlərimizdə də qorunub saxlanmışdır.

Qəbələ rayounda yeni evlənənlərə alaqaranlıqda və ya gün batan zamanı suya getmək məsləhət görülməzdi. İnama görə bu zaman suda görünən Ərdov ruhu ziyan verə bilərdi, sonsuzluğa səbəb ola bilərdi. Burada astral inamlar da özünü göstərir. Bögləd bir sıra nəzir bulaqları (Qəbələ r-nuVardanlı və başqa kəndlər) da mövcuddur.

**Doğum adətlərində xalq inancları.**

Şəki-Zaqatala bölgəsinin doğum adətləri yerli əhalinin qədim dini dünyagörüşlərindən qaynaqlanan və nəsildən-nəslə ötürülən ayinlərlə zəngindir. Bu ayinlərdən biri də ovsundur. XIX–XX əsrin əvvəllərində bölgənin bütövlükdə dini-magik struktura malik doğum adətlərində bir çox ovsun formaları – artım, oxşarlıq, qoruyucu, aldadıcı ovsunlar öz əksini tapmışdır. Məsələn, bölgədə bir neçə qızdan sonra doğulmuş oğlan uşağını bədnəzərdən qorumaq üçün 7 yaşınadək onun başının ortasında kəkil saxlayırdılar. Uşağın başının arxasında kəkil kimi saxlanan bu saç yalnız uşaq yeddi yaşına çatdıqdan sonra Göymurad dağının təpəsinə çıxarılaraq xüsusi ayinlə kəsilir. Burada qoruyucu magiya inancı özünü büruzə verir: Qədim türk inancına görə uzadılan kəkil Tanrının göydən onu görə bilməsinə və qorumasına yardım edir. Bu qədim ayin XIX əsrədək bir çox türk xalqlarında, məsələn, kumıklarda, özbəklərdə də icra edilməkdə idi (164, 136). Türkmənlərin də adətinə görə övladı yaşamayan ailə doğulan körpəsinin-oğlanın saçını heç kəsməz və yalnız 7 ildən sonra uşağın saçı kəsilər. Bu mərasim zamanı qurban da kəsilər. Qədim Türküstan türklərində də yaşamayan oğlan uşağının saçı qırxılarkən arxasında müəyyən bir hissə saxlanaraq uzadılar və hörük hörülər. Uşaq 7 və ya 9 yaşına çatdıqda nəzir deyilmiş pirə gedilib qurban kəsildikdən sonra bu saç kəsilirdi. İndi də bu ayinə rast gəlinir (226, 120). Qeyd etmək lazımdır ki, belə hörük saxlanmasına Quba rayonunun Xınalıq kəndində də etnoqrafik ekspedisiya zamanı rast gəldik. Ayində qoruyucu magiya inancı özünü büruzə verir (75).

Ümumiyyətlə, saç faktoru qədim türk mifoloji təfəkküründə özünəməxsus yer tuturdu. İnsan saçın heç zaman ölmədiyinə, çürümədiyinə görə xüsusi qüvvəsi olduğuna inanırdı. Nəticədə saçın uzadılmasının (məsələn, şamanlar, həmçinin Dədə Qorqud) xüsusi həyat gücü verdiyinə inam formalaşmışdı. Digər tərəfdən də bədxah ruhların saç vasitəsilə insana ziyan gətirəcəyindən, onun həyat qüvvəsini təhlükəyə atmasından qorxan insanlar saç qırxılmasını da xüsusi ayinlərlə müşayət etmişlər. Görünür, uşağın saçının bir yaşından, yəni həyatı üçün təhlükəli zamanları adlatmasından sonra kəsdirilməsi ənənəsi də saçın qoruyucu qüvvəsinə inamın təsiri ilə formalaşmışdır. Yəqin ki, bu inamın təsiri ilə Şəki-Zaqatala bölgəsində də körpə uşağın saçının kəsilməsi xüsusi ayinlərlə

müşayət olunurdu. Məsələn, körpənin ilk saçı kəsilərkən saçın ağırlığı qədər qızıl paylanar, xüsusi bayram keçirilərdi. Cadugərlər və ya bəd ruhlar uşağa xətər toxundurmasın deyə kəsilmiş saçlar çox zaman ağac altında və ya evin döşəməsində basdırılardı. Saçla bağlı bu ayni hər ailə icra etməzdi. Daha çox uşağın həyatını təhlükədən xilas etmək məsədilə öncədən uşağın saçını nəzir deyənlər saçla bağlı belə ayinləri icra edərdilər. Bu adətin bir çox türk xalqlarına məxsusluğu da tədqiqatçılar tərəfindən qeyd olunmaqdadır (226, 120).

Bölgədə doğum adətləri ilə bağlı magiya xarakterli başqa ayinlər də icra edilirdi. Məsələn, qara toyuğun və ya qoyunun qanı ilə dua yazdırmaq, 40 evdən toplanmış əsgilərin tüstüsünün sonsuz qadına verilməsi, 40 qəbirdən götürülmüş torpağın suya qarışdırılaraq 3 çərşənbə sonsuz qadının bu suda çımdirilməsi və s.

Doğum adətləri ilə bağlı bölgədə bir çox oxşarlıq ovsunu icra olunurdu. Keçmişdə Şəki-Zaqatala bölgəsində yayğın olan bir adətə görə xəstə doğulan uşağın ölümünün qarşısını almaq üçün sağlam uşaqla beşikkkərtmə və ya göbəkəsmə edirdilər. İnanca görə bu iki uşağın taleyi birləşdirilərdisə bu zaman sağlam doğulan uşağın bəxti oləcəyindən ehtiyat edilən uçağa da siyarət edəcək və onu ölümdən qoruyacaqdı. Bundan başqa bölgədə doğum adətləri ilə bağlı "məryəm otu" ayini də icra edilirdi. (Bu ayin doğumla bağlı fəsildə təsvir edilmişdir).

**Dağ kultu.** Qədim inanclar sistemində dağlar Tanrıya ən yaxın yüksəklik kimi qəbul edilərək müqəddəs sayılan təbiət ünsürlərindən idi. Sibir türkləri dağı öz ailələrinin, soylarının kökü, başlanğıcı, yardımçısı saymışlar. Qədim azərbaycanlılar da dağı-daşı canlı bir varlıq kimi qəbul edərək təsəvvür etmişlər ki, dağ da insan kimi yaşayır, hətta doğur, balalayır, sevir, insana yardım edir. Mifik baxışlara görə, dağ göydən, günəşdən gəlmiş, elə buna



görə də o, müqəddəs başlanğıcdır, qoruyucudur. Günəş, göy (tanrı) yeri, insanları mayalayr. Göyün-günəşin yanından gələn dağ bu keyfiyyətlərin bir sırasına yiyələndiyindən insanlara uşaq verir (85, 54).

Azərbaycanlılar arasında dağlara pir kimi sitayiş edilməsi ənənəsi Şəki-Zaqatala bölgəsində də geniş yayılmışdır. Bölgədəki Gömrad (Qəbələ r-nu) və ya Kuh Murad, Armatay (Zaqatala r-nu) kimi dağlar daha çox övlad diləyilə ziyarət edilən dağlar idi. Gömrad dağına gələn sonsuz qadınlar övlad sahibi olduqdan sonra uşağın saçını xüsusi ayinlə bu ziyarətgahda kəsərlər. Çox zaman qadın hamilə qalmaq üçün öncədən uşaq hamisi kimi sitayiş edilən bu dağa doğulaçaq körpəsinin saçını nəzir deyirdi. Gömrad-Göymurad dağının adından da məlum olduğu kimi göylərə yaxın olan bu dağ övladsız ailənin murad yeri kimi qəbul edilmişdir. İnama görə müqəddəs hesab edilən bu dağa nəzir deyib qurban kəsməklə sonsuz qadın "murada" çatırdı, yəni övlad sahibi olurdu. Azərbaycanın çox yerlərində pir hesab edilən dağlara böyük inam olduğu kimi Şəki-Zaqatala bölgəsində də dağa inam mövcud olmuş və bu gün də mövcuddur (85, 54).

Gömrad dağının başında xalqın "Göbək daşı" adlandırdıqları müqəddəs bir daş da var ki, bu dağa ziyarətə gələn sonsuz qadınlar qarınlarını bu daşa sürtərdilər. İnama görə bura gələn sonsuz qadınlar məhsuldarlıq simvolu olan bu daşdan döllənərək uşaq sahibi olurdular. Burada daş kultu da özünü büruzə verir. Dağı-daşı animistləşdirən azərbaycanlılar müqəddəs hesab etdikləri dağların onlara yardım edəcəyinə inanaraq ondan murad diləyirdilər.

Bölgədə keçmişdə sonsuz qadınlar Armatay dağına da, xüsusilə də bahar mərasimləri dövründə niyyət edərək ayaqyalın çıxardılar. Ulu dağlara mövsümündə ziyarət üçün gedildiyi zaman bu dağlara yalın ayaqlarla dırmanmaq inancı Türkiyədə də vardır (227, 83).

**Bədnəzər.** Xalq inancına görə ruh insanın gözündə olur və "bəd nəzər" kəlməsinin də buradan meydana gəldiyi ehtimal edilir (56). Bölgədə körpə uşaqlara nəzərə qarşı gözmuncuğu kimi dağdağan, canavar dişi, metal aypara fiquru taxılardı. Qurd dişi və ya tükü uşağın qorxmaması üçün paltarına tikilirdi. Altay türklərində də uşağın paltarına qurd dişi tikilirdi. Məlumdur ki, qurd qədim türklərdə uğur, bolluq rəmzidir, eyni zamanda əcdad-xilaskardır və bəd ruhları qovan, uşaqların hamisidir. Qədim türk tayfaları evlərini və ailələrini yaman ruhlardan qorumaq üçün alaçıqlarının girəcəyindən qurd başı və ya qurd dişi asardılar (18, 42–43). Qaqauzlar indi də "canavar bayramı" keçirir, qurda yalvararaq dua oxuyur, qurddan onları yaman ruhlardan qorumağı istəyirdilər (85, 105).

Azərbaycanda qurdun tükü və dırnaqları, dişi kimi ağzdan da qoruyucu, müalicəvi magiyada istifadə edilirdi. Azərbaycanın bir çox bölgələri kimi Şəki-Zaqatala bölgəsində çilləyə düşmüş uşaqların və qadınların "qurd ağzından" keçirilməsi adəti mövcuddur. Bunun üçün qurdun ağız hissəsi (sümüyü) iki tərəfdən iplə genişlədrilrdi, çilləyə düşmüş uşağı və ya qadını bu uzunsov dairədən keçirirdilər. Qurdun qoruyucu, xilaskar rolunu, müqəddəslik ifadə etməsini Dədə Qorqud boylarındakı "qurd üzü mübarəkdir" ifadəsində də görmək mümkündür. Qurd-canavar da bölgənin doğum inanclarında mühüm yer tuturdu. Qədim türklər qurdda öz əcadlarının ruhunu gördükləri üçün qurdun yalnız özü deyil, caynaqları, dişləri, tükü, ağzı qoruyucu amulet xarakteri daşıyırdı. Buna görə də bölgədə sonsuz qadının canavarın üstündən adlaması, qurd ağzından keçirilməsi, uşaqların paltarına qurd dişi və qurd tükünün tikilməsi kimi inanclar özünəməxsus yer tuturdu.

Bölgədə, xüsusilə də udilər arasında yayılmış bir inanca



görə sonsuz qadının cilləyə düşməsinin səbəbiniu öyrənmək üçün 40 evdən götürülmüş mumu əridərək suya salar, suda yaranan fiqura görə gəlinin kimin nəzərinə gəldiyini müəyyənləşdirmək mümkün olardı (109). Bu türklərdə yayqın olan "Qurğuşun tökmək" ayinini xatırladır.

**Astral inamlar.** Bölgə əhalisinin doğum adətlərində azərbaycanlıların qədim inanclar sistemində mühüm yer tutan Ay kultunun da izlərinə rast gəlinir.

Şəki-Zaqatala bölgəsinin əhalisi çox qədim dövrlərdən bəri təzə ayın simvollarından biri olan aypara nişanına xüsusi əhəmiyyət verirdi. Bölgədə, xüsusilə də Qax və Balakən rayonlarında bir neçə qızdan sonra doğulan oğlan uşaqlarını bəd nəzərdən qorumaq üçün yaxalarına metal aypara taxılardı. Yerli əhali qədim astral dünyagörüşlərinə görə 3 günlük ayın yerə təsirinin daha güclü olduğuna inanaraq onun simvolu kimi aypara fiqurunu qoruyucu qüvvə kimi müqəddəsləşdirmişdilər. Bölgədə aypara medalyonunun düzəldilməsi xüsusi ayinlə müşayət olunardı. Bunun üçün Ay tutulanda metal pul qövsvari formada kəsilər və deşik açılaraq uşağın yaxasına bənd edilərdi. Metal kəsilən zaman mis qab döyəclənməli idi. Məlumdur ki, ay və ya günəş tutulmalarında şər qüvvələri qorxutmaq üçün mis qab döyəclənməsi ənənəsi türk xalqlarında mövcud olmuşdur.

Udilərdə sonsuz qadının ay işığında axar sudan keçirilməsi inamı da aya sitayişlə bağlıdır. Bu inancların izlərinə bir çox türk xalqlarında rast gəlmək mümkündür. Təzə ayın qoruyucu və güc verən özəlliyinə inanan Altay türkləri də ayın ilk günlərində "Arjan Su"ya* (arı, təmiz su) girərək "Kutay, mənə bala ver" deyə dua edirlər (228, 74). Qırğız türklərində də Ay müqəddəsdir. Yeni Ay doğarkən qırğızlar ona baxıb dua edər, "Tanrı, bizə qismət bağışla, bizə sağlıq bağışla, bala bağışla..." deyərlər (228, 74). Doğum adətlərində ayın məhsuldarlıq ilahəsi,

qoruyucu bir qüvvə kimi sitayiş edilməsi ilə bağlı ayinlər başqa formada Türkiyənin Tunceli, Qars və Bingöl vilayətlərində də qeydə alınmışdır. Burada hamilə qadınlar ayın qoruyucu qüvvəsinə inanaraq bətnlərindəki övladlarını qorumaq üçün aya baxardılar. Çünki, inanca görə ay bütün canlıların balasını qoruyur və təbiətdə artımı təmin edir (225, 41). Türkiyənin Ağrı vilayətində isə ay işığında saxlanmış su məhsulun bol olması üçün torpağa səpilir (228, 73). Bu mifik dünyagörüşlərində qədim şümer ideologiyasının izləri də özünü biruzə verir. Şumerlərdə Ay allahı həyat ağacına himayədarlıq edirdi (79).

**Günəş kultu.** Qədim inanclar sistemində günəşin gözdən yaradılması inamı var. Ümumiyyətlə, şərq aləmində göz bəbəyi günəşin simvolu kimi qəbul edilmişdir. Azərbaycanda da hər zaman gözü müqəddəs bilmişlər və "gözdə nur var" inamı geniş yayılmışdır. Tədqiq etdiyimiz bölgədə XIX əsrdə bu inamın izlərini qoruyub saxlamış qədim bir ayin icra edilərdi; göz ağrısı zamanı aydınlıq bir gündə, göy üzündə bir dənə də olsun bulud olmadığı bir zamanda baxıcı qadın başına yeddi qız toplayaraq onları xəstənin ətrafına halqa şəklində düzürdü. Qızlar növbə ilə arpa dənəsini götürərək xəstənin gözünə sürtürdü və bu zaman baxıcı: "göy üzündə bulud yoxdur, gözdə niyə ləkə var" sözlərini söyləyərdi. Bu sözləri qızlar da növbə ilə söyləyərdilər (109, 249). Göründüyü kimi, burada göz günəşlə eyniləşdirilir. Bu ayində eyni zamanda oxşarlıq magiyası da özünü göstərir.

**Su kultu.** Bölgədə sonsuz qadının ay işığında axar sudan keçirilməsi həm də axar suya inamla bağlı idi. Azərbaycanlılar arasında axar suyun uğuruna, paklığına inam "Axar su üzünü ağ eləsin", "Allah axar suyunu bulandırmasın" kimi alqışlarda qorunub qalmışdır.

**Heyvan kultu.** Ulu babalarımızın qurd, tısbağa, göyərşin, ilan kimi heyvanları da müqəddəsləşdirdiyi



məlumdur. XIX-XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsində də qurbağa, tısbağa, göyərçin, maral, canavar, it, dəvə və s. heyvanların qoruyucu, hami ruhuna inam var idi. Məsələn, keçmişdə bölgədə dəvənin tükündən bir ovsun kimi istifadə edirdilər. Əgər uşaq geçə yatmırdısa, onun paltarlarının çiyninə dəvə tükü tikilərdi. Bəzən də arıq və xəstə uşağı dəvə altından keçirərdilər ku, sağlam və güclü olsun (56, 65). Türk xalqlarında dəvə ilə bağlı bir sıra inanclar, məsələn, qadının vaxtında və rahat doğması üçün dəvənin altından keçməsi lazımdır"inamı var (226, 35). Türklər arasında yayılmış inama görə isə hamilə ikən dəvənin ətini yeyən qadının, əksinə, doğuş zamanı çətinlik çəkəcək.

Bölgədə Maral daşı (Oğuz r-nu), Maral yalayan baba piri (Qəbələ r-nu Vəndam kəndi) kimi ziyarətgahların olması marala sitayişinin izlərini daşıyır. "Maral yalayan baba" piri Vəndam kəndinin qədim qəbirstanlığı ərazisində yerləşir (şəkil 36). Kənddə yayılmış rəvayətə görə buradakı köhnə qəbirstanlıqdakı qəbirlərdən birinə hər zaman bir maral gəlir və qəbir daşının üzərindəki oyuğa tökülmüş duzu yalayaraq gedir. Buna görə də bu pirə ziyarətə gələnlər həmin oyuğa duz tökürlər. Rəvayətə görə, guya bir nəfər pusquda durub ki, Maralı vursun, həmin adam özü də yox olub.[1]

---

[1] *Azərbaycanın bir çox bölgələrində xalq arasında maralla bağlı bir çox əfsanələr və rəvayətlər mövcuddur. Söyləyici Mehparə Bayramova tərəfindən qeydə aldığımız "Maral ocağı" adlanan bir ziyarətgahla da bağlı belə rəvayətlərdən birini burada söyləmək yerinə düşər: Kəlbəcərin Kərimli kəndinə yaxın olan və keçmişdə Hacı Gərrəbaş adlı kəndində çoxlu sürüləri, naxırı olan Məşədi Adıgözəl Bayram adlı bir şəxs yaşayırmış. Bir gün Məşədi Adıgözəl görür ki, sürüdə iki maral var. Cobandan bunu soruşduqda, coban söyləyir ki, bu maralların lap kiçik vaxtlarında analarını öldürüblər, bunlar da o vaxtdan sürüdədirlər. Bu söhbətdən sonra axşam naxır gedəndən sonra Məşədi Adıgözəl görür ki, marallar sürü ilə getmir. Gəlib onun əlini yalayaraq həyətdəki ocaq yerində yatırlar. Bundan sonra səhərlər sürü ilə naxıra*

Qeyd etdiyimiz kimi, qurdun qoruyucu qüvvəsinə inamla, onun dişinin, caynaqlarının, ağzının, tükününün sehirli qüvvəsinə inamla da bağlı bölgədə bir çox ayinlər icra olunardı. Məsələn, keçmişdə bölgədə, xüsusilə də, ingiloylar arasında qurdun dişləri və sümüklərindən həmail kimi istifadə edildiyi məlumdur (56, 67). Bölgədə çilləyə düşmüş qadının və uşağın qurd ağzından keçirilməsi ayinləri hazırda da icra edilir.

Qurbağa və tısbağa da bölgə əhalisinin sonsuzluğa qarşı, doğum zamanı qoruyucu qüvvəsinə inandıqları heyvanlardan idi. Qurbağa bölgədə məhsuldarlıq simvolu kimi tanınırdı. Qədim şərq mifologiyasında qurbağa və tısbağa doğum ilahəsi (208, 388) olmaqla bərabər qurbağaya suda üzən aya bənzədildiyi üçün ayın simvolu kimi də sitayiş edilirdi. Şəki-Zaqatala bölgəsində də qurbağa və tısbağanın doğuma kömək edən qüvvə olmasına inanılırdı. Doğum adətlərində ilan ağzından qurtarılmış qurbağanın sonsuz qadının çiyninə tikilməsi, tısbağa çanağından doğum zamanı qadına su içirilməsi kimi ayinlər icra edilirdi. Qeyd etmək lazımdır ki, Qazax bölgəsində də körpənin qorxuluğuna qarşı körpənin köynəyinə dağdağan ağacı ilə bərabər tısbağa sümüyü də tikilirdi. Bölgədə böğazı gəlmiş uşaqların boğazını basmaq üçün ilanın ağzından qurbağanı qurtarmış adamın axtarılması kimi

---

*qatılan marallar axşam həmin bu oçaq yerində yatırlar. Bundan sonra həmin ocaq "Maral oçağı " adlanır.*

*Bir müddətdən sonra sürüdəki dişi maralların birinin balası da olur. Günlərin bir günü Məşədi Adıgözəl görür ki, axşam sürü gələndə marallar yoxdur. 3-4 gün keçir, maralların hələ gəlmədiyini görəndə Məşədi çobandan bunun səbəbini soruşur. Çoban məsələni açıb söyləyir: Sən demə, Məşədi Adıgözəlin əmisi oğlanlarından biri meşədə bu marallardan birini kəsib ətini kabab edir. Bundan sonra marallar bir daha sürüyə qatılmırlar. Bunu eşidən kişi dözməyib oğlu üçün Görüm allah səni yoxa çıxarsın. "-deyir. Səhər durub görürlər ki, maralı kəsən adam doğrudan da yoxdur və o gündən sonra həmin adamı kənddə görən olmur.*



adətlər də qurbağanın qoruyucu qüvvəsinə inamının qalıqları idi. Bögədə gec dil açan uşağa göyərçin yumurtası yedizdirilirdi.

Bölgədə it kultu ilə bağlı inanclar da mövcud idi. Xalq arsında yayılmış inama görə itə nəzər dəyməzdi. Bölgədə bədnəzərə qarşı çəpərə it kəlləsi sancılması, sonsuz qadının it kəlləsi salınmış suda çimizdirilməsi və s. kimi inanclar geniş yayılmışdı. Ümumiyyətlə, ibtidai insanlar kəllə gec cürüdüyü üçün, xüsusilə də it kəlləsinin fövqəltəbii gücə malik olduğuna inanmışlar və bədnəzərdən qoruyan, məhsuldarlığa kömək edən bir qüvvə kimi qəbul etmişlər. Buna görədə bölgədə bostana, çəpərə bədnəzərə qaşı it kəlləsi qoyardılar. İt ilə bağlı inanclar türk mifologiyasında da geniş yayılmışdır. Türklərdə körpənin köynəyinin itə geydirilməsi ilə uşağın pis ruhlardan qorunacağı və gələcəkdə onun başına gələ biləcək bütün bəlaların itə keçəcəyinə inanılır. Azərbaycanda, eləcə də Şəki-Zaqatala bölgəsində də qırxı çıxana qədər uşağa geydirilən və qırx köynəyi, çillə köynəyi adı ilə bilinən köynəyə türklərdə bəzən "it köynəyi" də deyilirdi (226, 149).

Qeyd etmək lazımdır ki, türklər üçün 5 müqəddəs heyvan adından birinin adı itlə bağlı idi. Türk mənbələrində iskit adı ilə tanınan skiflərin də əcdadlarının "it-berik" tayfası olduğu ehtimal edilir (114).

**Hal anası**. Bütün türk xalqlarının doğum adətlərində geniş yer alan "hal anası" adlı ruh və onun ölüm mələyi olması ilə bağlı inanclar Azərbaycanın şimal-qərb bölgəsində də geniş yayılmışdır. Tarixi-etnoqrafik ədəbiyyatlarda XIX əsrdə bölgədə həm azəri türkləri, həm də azsaylı xalqlar arasında hal anası inamının geniş yayılması, udilər, ingiloylar kimi etnik qruplar arasında onun "*hali*", "*ali qoci*" və s. şəklində adlanması ilə bağlı məlumatlar mövcuddur (109; 141, 46) Bölgə əhalisi hamilə qadını hal anasından qorumaq üçün başının altına metal əşyalar

qoyulması, yatağının ətrafına zəncirlə və ya sicimlə* möhrə* (dörd tərəfini əhatə edən) çəkilməsi, sarımsaq, düyü çeynədilməsi, başına kişi papağı qoymaq, çay daşını parçalamaq kimi qoruyucu və aldadıcı magiya xarakterli ayinlər icra edilirdilər.

**Əcdad kultu.** Bütün türk xalqlarında olduğu kimi azərbaycanlılar arasında da əcdad kultu geniş yayılmışdır. Qədim türklərdə əcdad kultu mürəkkəb olmuş, bəzən də müxtəlif, bir-birindən fərqlənən predmetləri və canlıları əhatə etmişdir. Mifoloji təsəvvürlərdə ilk əcdad kainatı yaradan ünsürlərdən biri, məsələn, dağ, ağac və ya ilkin antromorf varlıq-qurd və ən nəhayət ilk insanla eyniləşdirilirdi. Türk mifologiyasında əcdad kultu dedikdə, həm mifik əcdadlar-təbiət cisimləri, boz qurd kimi mifoloji obrazlar, həm də real əcdadlar – adətən tayfa və qəbilənin əsasını qoyan nəsil, insan kultu nəzərdə tutulmuşdur.

Qədim inanclar sisteminin mühüm bir parçası olan əcdad kultuna etiqad tədqiq etdiyimiz bölgənin doğum adətlərində özünü daha çox göstərirdi; sonsuz qadınlar əcdadlarının ruhunun kömək olacağına inanaraq müxtəlif ayinlər icra edərdilər. Görünür, məhz bu inamın təsiri ilə bölgədə sonsuz qadını cənazə taxtasının altından keçirmək, ölü yuyulan sudan qatılmış su ilə çimizdirilməsi, ölü torpağının qatıldığı suyun içirdilməsi, müqəddəslərin qəbirlərinin övlad diləyi ilə ziyarət edilməsi və s. kimi ayinlər icra edilirdi. Qədim türk inanclarına görə ölən əcdad tamamilə yox olmur, onun ruhu daim qohumları ilə birlikdədir və onların qayğısına qalır (85, 48). Buna görə də qadın öz nəslindən ölən birinin ruhunun olduğu yerdən keçərsə hamilə qalar (208, 312).

Xalq arasında geniş yayılmış inama görə qadınların sonsuzluğunun səbəbini çox zaman onun "çilləyə düşməsi", yəni ölmüş insanların ruhu ilə, "ruhun onu tutması" ilə bağlayırdılar. Bu inamın təsiri ilə təzə gəlin, hamilə və



zahı qadınlar, uşaqlar yas yerlərindən uzaq tutulardı. Eyni zamanda "həmzatlı" qadınla üz-üzə gəlməsi də qadının çilləyə düşməsinə səbəb ola bilərdi. Əgər qadının bir-birinin ardınca uşaqları ölü doğulardısa ona "həmzatlı" deyərdilər. Bundan başqa iki zahı qadın da üz-üzə gələrdilərsə çilləyə düşə bilərdilər. Əgər təsadüfən bu baş verərdisə qadınlar yaxalarındakı iynələri dəyiş-düyüş etməli idilər. Bu adət Türkiyədə də də mövcuddur.

Qədim inanclar sistemində qadın əcdadlar çox zaman məhsuldarlıq, nəsil artıran-doğan başlanğıc simvolu kimi çıxış edirdi. Qədim şumerlərin döğum və məhsuldarlıq simvolu Mami ilahəsinə inamın izlərinə bu gün bir çox türk xalqlarında, o cümlədən azərbaycanlılarda rastlanmaqdadır. Orta Asiyanın bir sıra türk xalqlarında da mövcud olan inama görə, "momo" ruhu ölmüş qadın əcdadlarının ruhudur. Hətta özbək dilinin dialektlərindən birində *momo* ulu nənə deməkdir. İnama görə "momo" ruhu mamaçaların – xüsusi olaraq seçilmiş qadınların içinə yerləşərək onların spesifik məşğuliyyətlərində (mamaçalıq) – doğuş zamanı hamilə qadına yardım etməkdə kömək edir. Gözlənilməz, çətin doğuşlarda bu ruhun kömək olaçağına inanılardı (138, 113). Tədqiq etdiyimiz bölgədə də doğuş zamanı mamaçanın doğan qadının kürəyinə yavaşcadan vurub "Körpəyə olacaq xatadan gəlmişəm, sən də gəl" deməsi də, görünür, momo ruhunun kömək olaçağına inamla bağlı idi. Bundan başqa, mamaçanın tez-tez "Ya Məryəm ana kömək et!" və "Ya Həzrəti Fatimənin ruhu kömək ol" deyə müqəddəs qadın əcdadlarını köməyə çağırması da qadın əcdad kultunun qalıqları idi.

Azərbaycanın hər yerində olduğu kimi şimal-qərb bölgəsində də xalqın çox qədim dövrlərdən bəri inanaraq şəfa, murad, övlad dilədikləri pirlər- ziyarətgaha çevrilən müqəddəs insanların qəbirləri mövcuddur. Qədim türklər

əcdadlarına-atalarına dərin hörmət bəsləyərək onların şərəfinə böyük məzarlar-kurqanlar, daş heykəl və abidələr, yazı daş lövhələr düzəldirdilər. Bu abidələrin bəzən kim tərəfindən yaradılması belə məlum olmadığı halda onlara hər zaman hörmətlə yanaşılmışdır və bu qəbir abidələri müqəddəsləşdirilmişdir. XIX əsrədək Azərbaycanın əksər bölgələrində olduğu kimi Şəki-Zaqatala bölgəsində də əcdad kultunun nişanəsi olaraq hər nəsil öz nəsli qəbilə başçısının dəfn olunduqları torpaqları müqəddəsləşdirərək əcdadının yatdığı torpağı pir kimi ziyarət edirdi. Buna görə də hər nəslin öz piri var idi. Şəki-Zaqatala bölgəsində elə təkcə Oğuz rayonunun Kərimli kəndində 30-dan çox müqəddəs ocaq, pir var idi. Bu pirlərin çoxu vaxtilə bu kənddə yaşamış müqəddəs sayılan adamların qəbirləridir və əsasən qoz-fındıq ağaclarının altında yerləşirdi. "Çərşənbə baba", "Hacı Növruz baba", "Məhəmməd Əfəndi", "Şeyx baba" ziyarətgahları bölgədə əcdad kultu ilə bağlı ziyarətgahlardır.

**Ağac kultu.** Ağac yaşıllıq, insan üçün ilkin ərzaq mənbəyi olduğu üçün hər zaman insanlar tərəfindən müqəddəsləşdirilmiş, həyat simvolu kimi qəbul edilmişdir. Umumiyətlə, ağac türk mifologiyasının ən qədim obrazlarındandır (196, 87). Qədim türklər ağaçı yaşıllıq, məhsuldarlıq simvolu olmaqla yanaşı ulu ana kimi də müqəddəsləşdirmışlər. Qədim türk maddi-mədəniyyət nümunələrindən bir neçəsində əlində müqəddəs ağac təsvir olunmuş ilahə təsvir olunmuşdur (139, 50). Göründüyü kimi, əski türkdilli xalqlar ağacı doğum və uşaqların hamisi olan ilahə ilə birgə təsəvvür etmişdir (79, 37). Azərbaycanda da ağaçın çox zaman doğum piri olması, onun həm Dünya ağacı atributluğuna işarədir, həm də bu inamın Umayla mifoloji əlaqəsinin təzahürüdür (79, 37).

Azərbaycanda ağac pirlərinə qurban kəsmək, yanına yemək gətirib qoymaq, dibinə su tökmək, budaqlarından



müxtəlif əşyalar asmaq (rəngli parçalar, iplər, daşlar, kəsilən qurbanın ayaq və başının asılması), gövdəsinə mıx çalmaq, ətrafında dolanaraq ağaca dua ilə müraciət etmək, ağaca and içmək kimi qədim ayinlər icra edilir.

Ağac kultu Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də geniş yayılmışdı. Bölgədə çinar, qovaq, palıd, şümşad, qoz, dağdağan ağacları müqəddəs sayılırdı. Mıxqovaq piri, Dağdağan ağacı piri, Toyuqqıran piri kimi ziyarətgahlarda ağacın gövdəsinə mıx çalmaq, ağacın oyuğundan keçmək, ağaca qurban kəsmək və budağlarından müxtəlif parçalar, qurbanın baş və ayaqlarının asılması kimi ağacla bağlı qədim ayinləri icra olunurdu. Ümumiyyətlə, bölgədə müqəddəs pirlərin əksəriyyəti meşəliklərdə yerləşirdi. Hazırda da Qəbələ, Oğuz meşəliklərində tez-tez müxtəlif rəngli parçlar bağlanmış ağaclara rast gəlmək olur. Qədim türk inancına görə hər bir ailənin öz ağacı var. Görünür, bura parca bağlayan ailələr də bu qədim inancın təsirilə bu ağacların qoruyucu qüvvəsinə inanırlar.

XIX əsrdə Oğuz rayonunun yuxarı hissəsində gövdəsi 32 arşın[1] olan bir şah çinar var idi. Müqəddəs sayılan bu çinarın altında yerli əhali şam yandırar, qurban kəsərdi. Heç kəs ağacın nəinki yaşıl, hətta qurumuş budaqlarını belə qırmağa cəsarət etməzdi. Qurumuş budaqlar ağacın dibinə yığılardı və ancaq qurbankəsmə mərasimlərində istifadə edilərdi. Bölgədə bu çinar ağacı ilə bağlı bir neçə əfsanə də mövcud idi (bax: 109, 256.)

Qəbələ rayonunun Nic kəndində meşəlik bir yerdə "Toyuqqıran piri" adlı qədim ziyarətgah var. Bu pirə gələnlər də ağacla bağlı qədim bir ayin icra edirlər: toyuq və ya qoyun qurban kəsərək onun ayağını və başını ağacdan asırdılırlar. Hazırda bu pir yeri qurbanlıqların asıldığı hündür ağaç quruyuyaraq yıxıldığı üçün artıq unudulmaq

[1] *Təqribən 0, 5m olan uzunluq ölçü vahididir.*

üzrədir. Lakin bu qədim pir yerindəki ağacın budağında qurbanlıq heyvanın baş-ayağınln asıldığı kəndirlərin izi və kəndirlər indi də qalmaqdadır (şəkil 38). Buradakı ağaclara da qırmızı parçalar bağlanmışdır. Bu pirdə kəsilən qurbanın ayaq və başlarının hündür bir ağacın budaqlarından asılması adəti qədim bir türk ayinini xatırladırdı. Yazılı qaynaqlarda deyd olunur ki, hunlar... "ağaca at qurban kəsir, onun qanını yarpaqlarına çiləyir, kəlləsini və dərisini isə budaqlarından asırdılar (46,161). Məlumdur ki, toyuq və qoyun Oğuz qəbilələrinin zoomorfik totemi olmuşdur. Məşhur oğuz qəbilələrindən olan Buzuk və Üçoqlarda hündür bir ağacın başında altun və gümüş toyuğun müqəvvasını hazırlayıb qoyarmışlar. Dibinə isə ağ və qara qoyun bağlarmışlar. Bu toyuq və qoyun qəbilənin mifik görüşləri ilə bağlı idi (79, 32). Bu ağaclar bura parca bağlayan və ya ağacdan heyvan baş-ayağı asan şəxsin ailəsini pis ruhlardan qoruyur. İnama görə ağacın ruhu insanın taleyini himayə edir (79, 24–27). Qəbələ rayonunda ağac kultu ilə bağlı meyvə ağaclarının "zamına götürülməsi" adəti də geniş yayılmışdı (56, 48).

Azərbaycan ərazisində hələ tunc dövrü yaşayış yerlərindən və qəbir abidələrində dini ayin çalalarından dağdağan toxumunun tapılması dağdağanın Azərbaycanda hələ çox qədim zamanlardan etibarən müqəddəslədirildiyini göstərir. Azərbaycanın bir çox bölgələrində, məsələn, Xaldan ərazisində "Qara pir" adı ilə tanınan ziyarətgah, Qazax rayonu yuxarı Əskipara kəndindəki dağdağan ağacı pir kimi ziyarət edilirdi. Lakin dağdağan ağacı ən çox Zaqatala rayonu ərazisində bitir. Qədim xalq inancına görə, uşaqları, hətta heyvanları şər ruhdan qorumaq üçün boyunlarından dağdağan ağacının parçalarından hazırlanmış həmail asar, beşiyə qoyar, körpələrin köynəklərinə tikərdilər. "Bu gözəl, böyük ağacın qəbilənin, so-



yun, xalqın qoruyucusu olduğuna inanardılar (78, 31). Xalq arasında yayılmış inama görə, dağdağan yeganə ağacdır ki, onu kəsəndə adama qarğıyır. İnama görə dağdağan ağacından balaca bir çubuq kəsərkən ağacın dibinə nəzir kimi çörək və pul qoyulmalı idi. Görünür, dağdağan ağaçı qədim dünyagörüşlərindəki həyat ağacının simvollarından biri idi. Həyat ağacını ilə bağlı qədim əfsanədə də onun kəsildiyi zaman qanının axması fikri var (208, 438). Buna görə də xalq arasında "Dağdağan ağacını kəsmək xeyir verməz", "Dağdağan odunu yandıran xəstələnər" kimi inanclar geniş ayılmışdır. Dağdağan əkmək isə savab sayılırdı. Bölgədə yayılmış xalq inanclarına görə dağdağan, andız ağacları uşaqların hamisidir.

Şəki-Zaqatala bölgəsində övlad istəyənlər və ya övladlarını bəladan qorumaq istəyənlər Balakən rayonunun Katex kəndindəki pir sayıln böyük bir dağdağan ağacından murad diləyərdilər. Bu ağacm gövdəsindəki böyük oyuqdan keçirilən xəstə uşaqların şəfa tapacağına inam var idi. Ağac oyuğunun xalq arasında müqəddəsləşdirilməsi qədim türk mifologiyasındakı ağacdan doğulan uşaqlar əfsanəsini xatırladır: ... Ağaclar dağ boyda böyüdükdən sonra... ağacların üzərinə hər gecə nur enirdi... . Bir gün ağacların birinin qarnı böyüdü, şişdi, sonra aradan bir qapı açıldı, içəridə beş ev göründü, hər evdə bir uşaq vardı... (90, 14). Görünür, bölgədəki doğum və xəstə uşaqlara kömək olan bu dağdağan piri də qədim qaynaqlarda təsvir olunan göydən gələn şüanın müqəddəs ağacda açdığı böyük dəlik və bu dəlikdə meydana gələn uşaqlarla bağlı mifoloji təsəvvürlərlə bağlı yaranmışdır. Ümumiyyətlə, Azərbaycan və türk mifologiyasında göyü yarıb gələn şüa ilə bağlı bir çox mifoloji obrazlar, məsələn, Azərbaycan nağıllarında Günəşin oğlu Tapdıq, "Oğuznamə"də Oğuz kağanın evləndiyi qız və b. mövcuddur (9; 209, 27.) Göründüyü kimi, ağac, göydən enən nurla bağlı

bu mifik təsəvvürlərin izləri bölgə əhalisinin Dağdağan piri, buradakı ağacın ortasında açılmış təbii oyuqla bağlı inanmında özünü büruzə verməkdədir. Bu dilək ağacının qədim Çin mifologiyasındakı müqəddəs ağacla oxşarlığı da vardır. Buradakı ağac pirinin də uşaqların hamisi kimi çixiş etdiyini görürük. Bu pir xəstə uşaqların şəfa tapdığı bir ziyarətgahdır. Bölgə əhalisi gec dil açan, gec yeriyən uşaqları niyyət edərək bu ağacın oyuğundan keçirərlər.

Bölgədə andız otu da uşaqların hamisi kimi qəbul edilirdı. Uşaqların qorxuluğunu götürmək, ağlamağını kəsmək, bəd ruhları dağıtmaq üçün andız otunun kökünü yandırardılar. Burada bitki kultu da özünü göstərir.

Azərbaycanda çörək müqəddəs nemət kimi hər zaman əziz tutulmuşdur. Azərbaycan ailə mərasimlərində bərəkət simvolu kimi müqəddəsləşdirilən çörəyin doğum mərasimlərində həm də şər qüvvələrə qarşı qoruyucu özəlliyə malik olduğuna inanılır. Bu inamın təsirilə körpənin başı altına çörək qoyardılar. Pis ruhlara qarşı çörəyin qoruyucu vasitə olması inamı "Avesta"dan gəlir. "Avesta"da deyilir ki, təzə çörəyin ətri xəstəlik və ölüm gətirən pis ruhları qovur (54, 300).

Bölgədə ağac kultu yuxuyozmalarında özünü göstərir. Yerli əhali arasında yayılmış inama görə yuxuda barlı ağac görmək çoxlu uşağı olmaq kimi yozulur. Xüsusilə də, qoz ağacını barlı görmək uşağı olmaq deməkdir.

**Qoz ağacı** da bölgə əhalisinin müqəddəsləşdirdiyi ağaclardan biridir. Bölgədəki ağac pirlərin əksəriyyəti çox vaxt qoz-fındıq ağaclarının altında yerləşirdi. Qoz-fındıq ağacları bölgə əhalisinin əsas həyat, qida mənbəyi olduğu üçün bu ağaçlar yerli əhalinin xalq inanclarında mühüm yer tuturdu. Xalq inamına görə qoz ağacının budaqlarında bəd ruhlar gizləndiyinə görə ildırım ən çox qoz ağacını vurur. Ona görə də bu ruhları qəzəbləndirməmək üçün qoz ağacını kəsməzdilər. Lakin bölgədə qoz ağacı eyni



zamanda məhsuldarlıq rəmzi kimi qəbul edildiyi üçün yeni doğulan körpənin məhz qoz ağacından düzəldilmiş beşikdə yatırdılmasının uğur gətiricəyənə inanardılar. Bölgədə bəzən qoz ağacından hazırlanmış beşiyə dağdağan ağacından bəzəklər də vurulardı (bax şəkil 30). Göründüyü kimi, beşik hazırlanmasında məhsuldarlıq simvolu olan qoz və bədnəzərə qarşı dağdağan ağacından istifadə edilməsi, görünür körpənin həm ruzulu, uğurlu, həm də bədnəzərdən uzaq olması inancı, bir sözlə ağac kultu ilə bağlı idi.

Qədim inanclar sisteminin izlərini daşıyan bu inama görə beşik hansı ağacdan hazırlanardısa həmin ağac uşağın taleyində mühüm rol oynayardı. İnama görə bu ağacın ruhu uşağın taleyini himayə edir. Bir çox qədim türk xalqlarında da "ezzi-ağac ruhu olan ağacdan qayrılmış beşik orada yatan uşağın taleyini həll edir" inamı var. Çünki həmin beşikdə ağac ezzi-ağac ruhunun iradəsi hakimdr. Buna görə də bu ağacın altında qurban kəsilərdi (78, 31).

Gömrad pirində də sonsuz qadınlar burada beşik düzəldərək ağacdan asardılar. Qədim mifoji təfəkkürə görə, ağacdan yaradılmış adama can vermək üçün onu beşikdə yırğalayır və onu həyata qaytarmaq mərasimi keçirərdilər (85, 84). Hal-hazırda da Azərbaycanın bir çox bölgələrində, məsələn, Masallı-Astara bölgəsində də övladı olmayan qadınlar müqəddəs bildikləri ağacdan kibrit qutusunu nənni kimi asarlar və onun yırğalanması ilə övladları olub-olmayacaqlarına inanardılar. Keçmişdə uşaq istəyən qadınlar müqəddəs ağacların budaqlarında öz paltarlarından da kiçik beşik düzəldərdilər (42, 62).

Ağacın insan taleyinə bağlanması inamının izlərini günümüzdə də görmək mümkündür. AMEA-nın müxbir üzvü Azad Nəbiyev yazıçı-tədqiqatçı prof. Əzizə Cəfərzadənin xatirəsinə həsr etdiyi "Uduluda bir ceviz ağacı

vardı... " adlı məqaləsində yazır: " Şamaxının Udulu kəndində yüksək dağ döşündə hər il çoxlu bar gətirən bir ceviz ağacı vardı. Onu Əzizə xanımın atası Məhəmməd kişi qızının dünyaya gəlməsi xəbərini eşidən günü burada əkmişdi. Köklü-budaqlı nəhəng bir ceviz ağacı idi. Əzizə Cəgərzadə torpağa tapşırılan günün axşamı bu nəhəng ceviz ağacı da qəfildən kökündən qoparaq torpağa çevrilmişdi.

Kim deyir ki, ağacın sevgisi, diləyi, istəyi yoxdur?. . Bəlkə, bu da insanın həyatı, taleyi ilə bağlı bir möcüzədir? Hər halda həyat möcüzələrdən də xali deyildir" (40).

**Mıxqovaq piri**. Keçmişdə Azərbaycanın bəzi rayonlarında xəstəliklərin, ağrıların bitməsi üçün pirdəki ağaclara (xalq arasında buna "türbət ağacı" deyilirdi.) və bəzən də adi palıd və çinar ağaclarına da mıx çaldıqları məlumdur. (56, 48). İbtidai inamlara görə ağaca mıx vurmaq Allaha müraciət formalarından biri idi. İnama görə mismar ağaca batdıqca ona insanın diləyini yerinə yetirməli olduğunu yada salırdı (208, 400). Keçmişdə Qəbələnin Mıxqovaq kəndindəki qovaq ağacı belə pir-ağac idi. Mıxqovaq pirini ziyarət edənlər diləklərinin hasil olması üçün ağaca mıx çalardılar. Odur ki, kəndin adı da Mıxqovaq qalıb. Umumiyyətlə, qovaq ağacı Azərbaycanda sehirli gücə sahib olan müqəddəs ağaclardan sayılırdı. Keçmişdə hətta qovaq ağacının budaqları ilə fala baxıb gələcəkdən xəbər verərdilər (Herodot, IV, 65–67).

Bu qədim ziyarətgahdakı mıxvurma ayini həm də xalqın ağacı və ağacla eyniləşdirilən insanı barlı, məhsuldar, yəni övladlı görmək istəyi ilə də bağlı olmuşdr. Bölgədə yayılmış inanca görə ağac bar gətirməyəndə ona mismar vurar, ya da qurban qanı sürtərdilər. Bu inamın izlərini bölgədəki yuxu yozmalarda da görmək mümkündür: İnama görə yuxuda ağacı barlı görmək çoxlu övladın olması deməkdir.



Bölgədə yaşayan avarlar arasında ağaca kiçik çay daşları bağlamaq ayini də geniş yayılmışdı. Xalq inancına görə bu daşlar onu ağaca asan adamı əvəz edirmiş. Qeyd etmək lazımdır ki, ağaca daş bağlanması adəti Sibir türklərində də var idi (208, 380).

**Dəfn və yas mərasimləri ilə bağlı inanclar.**

Xalqın ictimai-fəlsəfi təfəkkürünün, mənəvi dünyagörüşünün formalaşmasının ən erkən və ən zəngin mərhələsini təşkil edən xalq inaçları dəfn və yas mərasimlərində daha çox qorunub saxlanmışdır. Tədqiq etdiyimiz bölgədə arxeoloqların apardığı qazıntılar zamanı əldə edilən zəngin maddi mədəniyyət nümunələri bölgə əhalisinin dəfn adətləri ilə bağlı qədim inanclarının öyrənilməsi üçün xüsusilə qiymətli mənbədir.

**Astral inamlar.** Bölgənin tunc dövrünə aid qəbir abidələridən kömür, kül qalıqlarının, oçaq izlərinin, gil şamdanların aşkar edilməsi, qəbirlərdə ölülərin qırmızı rəngə boyadılması bölgədə çox qədim dövrlərdən bəri günəş simvolu kimi oda, ocağa sitayiş edildiyini göstərir. Türkiyənin Malatya bölgəsində hazırda da ölünün dəfnindən sonra 3 gün məzarı başında od yandırılır və bunun bir dini məcburiyyət olduğuna inanılır (228, 222). Belə adət Azərbaycanda da var. Gədəbəydə ölünün məzarı başında 3 gün lampa yandırılır.

Kudurlu, Daşüz kurqanlarından astral inamları əks etdirən ay, günəş fiqurlu qəbir örtüklərin aşkar edilməsi (93, 89) bölgəin zəngin və qədim mənəvi irsindən xəbər verir. Bu kurqanlardakı nadir tapıntı- ayla günəşin birgə təsviri ideyası azərbaycanlıların günümüzədək gəlib çatmış mifoloji əfsanələrində geniş yer tutur. Azərbaycanlıların qədim dini-mifik təsəvvürlərində də ayla günəşin qarşılaşdırılmasının müxtəlif variantları (ayla günəş bacıqardaş, ana-bala, ata-ana kimi təsvir edilir) mövcuddur.

(5, 178–179). Bu motivlərə eyni zamanda şumer mifologiyasında da rast gəlinir. Qədim şumer ideologiyasında Günəş tanrısı Utu Ay ilahəsi Nanna Sinin oğlu idi. Şumer-azərbaycan mifologiyaları arasında aparılan paralellər bu qədim mədəniyyətlərin sıx genetik bağlara malik olduğunu söyləməyə əsas verir.

Bu ortaq şumer-azərbaycan ideologiyasının ən qədim qatları Şəki-Zaqatala bölgəsinin arxeoloji materiallarında da özünü biruzə verir. Kudurlu kurqanlarından aşkar edilmiş fiqurdakı Ayla Günəş qarşılaşdırılmasında günəşin qürub çağında təsviri ideyası azərbaycanlıların mifik əfsanələr və inanclarında öz əksini tapmışdır. Qədim astral düyagörüşlərində günün qürub çağı çox təhlükəli bir zaman sayılır, çünki bu zaman kəsiyi Saturnun himayəsi altında idi (138, 73). Saturn isə qədim astroloji-mifik təsəvvürlərə görə, ömür yolunda insanın rast gəldiyi bütün çətinliklərin, bədbəxtliklərin simvolu idi, bir sözlə insanın ömür yolunun sonu demək idi. Qədim tale kitablarında da Saturn qaşqabaqlı qoca kişi kimi təsvir edilir. Görünür, qəbir abidələrində günəşin qürub çağının təsviri də bu astroloji təsəvvürlərlə bağlı idi. Bu kurqanlarda açkar edilmiş skeletlərin baş tərəfinin qərb istiqamətində, yəni günəşin batdığı istiqamətdə olması da görünür, günbatan cağı inamı ilə əlaqədar idi. Qədim astroloji inamlara görə günəşin batma və çıxma zamanları kainatda işıqla qaranlığın mübarizəsidir. Xalq işığın axşam, toran qovuşan vaxt qaranlıqla vuruşda uduzmasını şər hesab etmişdir (2, 20). Buna görə də xalq arasında bu vaxt kəsiyinə "şər vaxtı" və ya "şər qarışan zaman" deyilir. Şər vaxtı inancı bütün türk xalqları üçün xarakterikdir. Xalq arasında mövcud olan qədim ənənələrə görə bu zaman qəbiristana gedilməz, dəfn mərasimi icra edilməz, bu saatlarda yatmaq da olmaz. İnama görə "Günəşin dalınca (yəni günbatan çağı) yatanın bəxti də yatar". Göründüyü kimi,



qədim inanclar sistemində günəşin qürub çağı ölümlə eyniləşdirilirdi və xalq arasında bu vaxtın şər vaxtı adlanması da bununla bağlıdır. Bir çox türk xalqlarında günəşin qürub çağı üçün "Günəşinə qovuşur", "Gün yavrusuna qovuşur" deyərlər (228, 70; 226, 61). Görünür, dəfn mərasiminin məhz günorta saatlarında icra edilməsi adəti də bu inamdan qaynaqlanır. Adətə görə ölünü günəş batmamaış basdırılmasına çalışılır. Günbatandan sonra vəfat etmiş adamın dəfni sabaha saxlanır. Çünki şər qarışan vaxt ölünü basdırmaq olmazdı. Xalq inancına görə gün batandan sonra "Yer bağlanır". Azərbaycanda və türk coğrafiyasının digər ərazilərində ölünün dəfn mərasimi müddətinə "dar vaxt" deyirlər. Görünür, bu ifadə ölünün gün batmadan, "yer bağlanmamış", vaxtında dəfninə tələsilməsi ilə bağlı yaranmışdır. Bir çox türk xalqları arasında yayğın olan "dar vaxt", "dar torpaq qurbanı", "darmacal" kimi ifadələr işlənməsi də bu inancın izlərilə bağlıdır.

Qeyd etdiyimiz kimi, bölgə əhalisinin bütün ailə mərasimlərində ay kultu xüsusilə mühüm yer tutmuşdur. Arxeoloji qazıntılar zamanı Qəbələnin Vardanlı kəndində qədim qəbir abidələrindən təzə ayın simvollarından biri olan öküz buynuzu şəkilli kürələrin, Şəki kurqanlarından aypara fiqurlu qəbir örtüklərinin aşkar edilməsi, eyni zamanda kurqanlardakı əşyaların üzərindəki aypara təsvirləri əhalinin dəfn mərsimlərində ay kultunun mühüm yer tutduğunu göstərir.

Qədim astral təsəvvürlərə görə təzə ayın ilk iki gecəsi və köhnə ayın son iki gecəsi Ayın yerə təsir güçü daha çox idi. Ayın torpaq üzərində yerdəyişmə fazalarından xəbərdar olan qədim Azərbaycan sakinləri də ayın bu günlərinə xüsusi əhəmiyyət verirdilər. Azərbaycanlılar aypara nişanını Ay ilahəsinin simvollarından biri kimi müqəddəsləşdirərək mərasim ayinlərində, o cümlədən dəfn mərasim-

lərində istifadə etmişlər. Bunu Azərbaycanın Daşkəsən, Şamxor, eyni zamanda Şəki-Zaqatala bölgəsinin qəbir abidələrindən aşkar edilmiş aypara fiqurlu qədir örtükləri, aypara təsvirli qablar, öküz buynuzunu xatırladan kürələr, həmçinin keçi, öküz sümükləri də təsdiq edir.

Strabon yazırdı ki, Ayın yenidən doğmasını bayam edən qocalar Ay kimi biz də öləcək, yenidən doğulaçağıq deyirdilər (Strabon, III, IV, 16). Bu məlumat qədim Azərbaycan əhalisinin dəfn mərasimlərində özünəməxsus yer tutan aypara nişanının mahiyyətini anlamağa imkan verir. Bu inanc Azərbaycanda yayqın olan "Ay kimi doğdun, gün kimi batdın..." ağısında (235, 11) də öz əksini tapmışdır. Maraqlıdır ki, Altay türklərinin də ölümlə bağlı təsəvvürlərində Ay mühüm yer tutur və öləni "Kutay almışdır, o, nə edəcəyini bilir" inancı var (228, 222–223) Bu qədim inancın qalıqları tədqiq etdiyimiz bölgə əhalisinin də məişətində mövcud idi. Keçmişdə yerli əhali təzə ayı görən zaman çəçələ barmağını ona doğru uzdaraq "barmağım sənə çatana qədər mənə və qohumlarıma ömür ver" deyərdi (109, 255). Bu ayın həyat verici qüvvəsinə inamın qalıqları idi. Göründüyü kimi, bölgəyə aid arxeoloji-etnoqrafik materiallar şimal-qərbi Azərbaycan əhalisinin dəfn mərasimlərində də astral inamların özünəməxsus yer tutduğunu göstərir və bölgə əhalisinin qədim və zəngin kosmoqonik dünyagörüşlərinə sahib olduğunu təsdiq edir.

**Daş kultu.** Daş əbədi olduğu üçün qədim insanlar onu insan ruhu ilə eyniləşdirərək müqəddəsləşdirmişlər. İbtidai inanca görə daş insanın ruhunun yerləşdiyi yerdir və hər bir şəxsin sağlığında öz daşı olur. İnsan ölərkən onun ruhu həmin daşa keçir. Bu inamın təsirilə Azərbaycanın bir çox yerlərində can verən adamın ovcuna daş qoyulması, hamilə qadın ölən zaman onun yanına daş qoyulması adəti mövcuddur. İnama görə doğulmamış



uşağın ruhu həmin daşa keçir. Ölünü dəfn etməyə apararkən onun bir daha geri qayıtmaması üçün arxasınca bir qara daş atılması, qəbir üstünə gedərkən daş çevrilməsi də daşda ruh olması inamı ilə bağlı idi. İnama görə qəbir üstündə daş çevirərkən ölənə kimin onun ziyarətinə gəldiyi agah olur.

Şəki-Zaqatala bölgəsində də dəfn-yas mərasimlərində belə ayinlər icra edilirdi: Zaqatala rayonunda yaşayan avarlar qəbir üstünə gələrkən orada bir ağ çay daşı qoyub gedir, ikinci dəfə gələrkən bu daşı o biri üzünə çevirirdilər. Bundan başqa "müqəddəs" palıd ağacına xırda daşlar bağlayırdılar (56, 30–31).

**Su kultu.** Su ilə bağlı bir çox ibtidai ayinlər hazırda da dəfn-yas mərasimləində icra edilməkdədir. Məsələn, təzə qəbirlərin üstünə su çilənər, bəzən qəbir daşının üstündə su qabı təsvirəri çəkilər. Qədim inanca görə su ruhun gizləndiyi yerdir. Buna görə də evdə ölən olanda su dolu qabların ağzı açıq qalmışsa boşaldılardı. Xalq arasında yayılmış inama görə onun ruhu su qabının içərisinə girə bilərdi və bu suyu bir başqası içərkən xəstələnə bilərdi. Qəbələ və Oğuz rayonlarında dəfndən sonra qəbrin üzərinə çala düzəldib içərisinə su tökürlər ki, "mərhumun sinəsi qurumasın". Bu mərasimlər suyun həyat verici qüvvəsində inamla bağlı idi. "Allah balalarının qabağına dirilik suyu çıxarsın", "Allah suyunu bol eləsin" "Su qədər ömrün olsun" xeyir-duaları da suyun həyatverici gücünə inamla bağlı idi.

Suyun qüvvəsindən ölüm anında da istifadə edilərdi. Adam ölərkən ağzına bir qaşıq su tökərdilər ki, o bu dünyadan arxayın və rahat getsin. Bu adətin izləri Azərbaycanda geniş yayılmış "Ağzına bir qaşıq su tökən tapılmasın" bədduasında da özünü göstərir. Azərbaycan nağıllarındakı "dirilik suyu" ideyası da, görünür, bu inancın izləri idi.

Azərbaycanda nəzir deyib ölən adamın ruhunun xatirəsinə su çəkdirmək ənənəsi vardır. Bölgədə də bu ənənəyə riayət edilir. Belə bulaqlardan biri Oğuz rayonunun Vardanlı kəndində vardır. Xalq arasında yayılmış "Su ehsandır", deyimi də su kultunun izlərini daşıyır. Xalq inancına görə susuz yolçuya su vermək onun ölənləri üçün ehsan verməsinə bərabər idi.

**Ağac və bitki kultu.** Ağaclara sitayişlə bağlı ayinlər də Azərbaycanın dəfn və yas mərasimlərində geniş yayımışdı. İbtidai inanclara görə bu ağaclar, xüsusilə də palıd ruhlar məskənidir və onların altında müqəddəslər basdırılıb. Bölgədə də pirlərin əksəriyyəti meşələrdə, əsasən qoz-fındıq ağaclarının altında yerləşir. İnama görə ağac ruhu insan taleyini himayə edir (78, 25). Xalq arasında mövcud olan inama görə qəbiristana hər ağac əkilməz. Qəbiristanlıqda adətən nil-şümşad, palıd, qoz ağacları əkilərdi. Bu ağaclar bölgədə hər zaman müqəddəs sayılmışdir, xüsusilə də, şümşad ağacı böyük nüfuza malik idi. Buna görə də bölgədə əsasən pir və qəbiristanlıqlarda yetişən belə müqəddəs ağacları nəinki kəsmək, hətta onların qurumuş budaqlarından da istifadə etmək günah sayılrdı. Qurumuş budaqlar səliqə ilə ağaçın altında toplanar və müqqəddəs ayinlərin icrası zamanı istifadə edilərdi.

Qədim inanclara görə ağacın budaqları həm də pis ruhlardan, bədnəzərdən qorunmağa xidmət edir. Bu baxımdan bölgədə avarların müqəddəs palıd ağacına insanı əvəz edəcək daş bağlamaq ayinin mahiyyəti anlaşılır. Görünür, ağaca insan ruhunun yerləşdiyi daşları bağlamaq bədnəzərdən qorunmaq üçün icra olunan qədim bir ayindir.

Ölünün üstünə müqəddəs sayılan bitki qoymaq inancı əbədiliklə, ölümsüzlüklə bağlı olub bir çox türk xalqları arasında mövcuddur. Türkiyənin bəzi bölgələrində can verən adamın üstünə yaşıl yarpaq atılar, Orta Asiyada ölünün üstünə qızılgül və ya reyhan gülü qoyular. Reyhan



gülünün müqəddəsliyi ilə bağlı inanclara Azərbaycanın yas mərasimlərində də rast gəlinir. Xalq inancına görə reyhan gülü cənnətin birinci qatında bitən bir güldür və allah öz sevimli bəndələrinə bu gülü qoxladır. İnama görə ani ölümlə ölənlərə bu reyhan gülü qoxladılır. Şəki-Zaqatala bölgəsinin də dəfn mərasimlərində əbədilik simvolu kimi ölünün üzərinə mixək, alma qoyulması adətlərinin olması məlumdur. Azərbaycanda qədim qəbir abidələrində dini ayin çalalarından dağdağan ağacının toxumlarının aşkar edilməsi də görünür bu qədim inancla bağlıdır. Azərbaycan xalq nağıllarındakı dirilik ağacı, dirilik gülü motivləri də bu inancla əlaqədardır.

**Əcdad ruhuna hörmətlə bağlı inanclar**. Ölülələrə hörmət və onların məzarlarına hörmət qədim türk inancıdır. Hun türkləri ölən atalarını və tayfa başçılarını dəfn edərkən məzarlarının düşmən tərəfindən tapdanmaması və dağıdılmaması üçün xüsusi formada iki otaqlı məzar düzəldirdilər. İki qatlı hun məzarlarında tabut içəriyə doğru olan otaqda yerləşdirilirdi. Bu dəfn adəti ata ruhunun düşmən əlinə keçməsi qorxusu və əcdad ruhuna hörmət və inamdan qaynaqlanırdı. Belə məzar tipləri Türkiyənin Anadolu bölgəsində, Muş, İğdır, Qars tərəflərdə olduğu kimi, Azərbaycanın da Qazax, Şəmkir, eyni zamanda tədqiq etdiyimiz Şəki-Zaqatala bölgəsində də təsbit edilmişdir (212). Ata məzarı ilə bağlı inanclar hun çağından bəri davam etməkdədir. Bu gün də məzarlara hörmətsizlik qəbuledilməz hal sayılır.

Türklər əcdad ruhunun həm də mənsub olduğu ailə üzvlərini, tayfa üzvlərini pisliklərdən qoruduğuna inanardılar. Bölgədə bu inancla bağlı xəstə, qorxmuş adamın məzar torpağı ilə müalicəsi, sonsuz qadınlara cənazə yuyulan su ilə ayinlər icra edilməsi ənənəsi mövcuddur. Əcdadı yad etmə adəti bu gün azərbaycanlıların mərasim ənənələrində geniş yayılmışdır. Bayramlarda ölüləri yad

etmə adətləri, müqqədəs adamların qəbirlərinin ziyarətgaha çevrilməsi ənənəsi də qədim əcdad kultunun izlərini daşıyır. Məlumdur ki, bahar mərasimləri ərəfəsi Azərbaycanda həm də qəbirləri ziyarət günüdür. Bu qədim ənənə bizə şumer dövründən miras qalmışdır. Qədim Babil təqviminə görə il hər biri 30 gündən ibarət 12 aya bölünürdü. Qalan 5 günlük ay ilin sonuna, yəni martın axırına düşür və bu beş günlük ay ölənlərin ruhuna hörmət, ehtiram ayı hesab olunurdu (65, 517–591). Məhz bahar-yeni il bayramı ərəfəsinə təsadüf edən Azərbaycanda "ata-baba günü", "ölü çərşənbəsi" adlandırılan həmin gündə ölülərin qəbri ziyarət olunur, əcdadların ruhları adına qazan asılır, bayram şirniyyatından qəbir üstündə paylanırdı. Bölgədə "Çərşənbə baba", "Hacı Novruz baba", Şeyx baba", "Məhəmməd əfəndi" ziyarətgahı kimi onlarla məzar ziyarətgaha çevrilmişdir.

Göründüyü kimi bölgədə XIX əsrin sonları-XX əsrin əvvələrində azərbaycanlıların dəfn və yas mərasimlərində ölünün sinəsinə daş və güzgü qoyulması və ya mixək səpilməsi, alma qoyulması, mərhumun can veriyi otaqda su qablarının boşaldılması, məzar daşına su tökmək, qara şax bəzədilməsi və s. daş, bitki, su kultu kimi bir çox islamaqədərki inancların qalıqları qorunub saxlanmaqda idi və bu arxaik elementlərin bir çoxuna günümüzdə də rast gəlinməkdədır. Lakin çox zaman dəfn və yas mərasimlərində icra olunan bu kimi bir sıra qədim ayinərin mahiyyətini hətta bu mərasimləri icra edənlər belə izah etməkdə çətinlik çəkirlər.

Şəki-Zaqatala bölgəsində XIX–XX əsrlərə aid mənbələr və etnoqrafik materiallar üzrə təsbit etdiyimiz qədim dəfn-yas mərasimləri ayinləri qarşılıqlı müqayisəli şəkildə araşdırıldıqca ilk baxışdan anlaşılmayan bir çox ayinlərin mahiyyəti ortaya çıxır. Göründüyü kimi, xalqın qədim dünyagörüşlərinin ayrı-ayrı elementləri üzə çıxarıldığı



zaman kökləri çox dərinlərə gedən inancların mahiyyətini və ortaq mənəvi dəyərləri aşkar etmək mümkündür

Beləliklə, Azəbaycan ailə mərasimlərində xalq inanclarının qalıqlarını Şəki-Zaqatala bölgəsinin materialları üzrə təhlil edərək qeydə aldıımız nümunələri doğum, evlilik, dəfn-yas mərasimləri ilə bağlı inanclar adlı başlıqlar altında araşdırmağa çalışdıq. Göründüyü kimi, insan həyatının mühüm mərhələlərini təşkil edən ailə mərasimlərində inancların mühüm yeri var. Qədim mərasim ənənələrimizdə özünəməxsus yeri olan xalq inancları minilliklər sonra Azərbaycanda hələ də varlığını sürdürməkdədir. Gəldiyimiz nəticəyə görə Azərbaycanda bu inancların bəzilərinin qismən və ya tamamən dəyişməsinə baxmayaraq hələ də xalq arasında qorunduğu və yaşadığının şahidi olduq. Hazırda Azərbaycan xalq inanclarının əsl mahiyyəti və funksiyaları bəzən unudulsa da hələ də öz çanlılığmı qorumaqdadır. Bəzi qədim inanclar yeni dini çalar qazanaraq özünə yer edə bilmiş, bəziləri isə, məsələn, toyda bəzidilən şax, gəlinin belinin bağlanması, xına gecələri vəs. müəyyən qədər əyləncə xarakteri almışdır. Lakin Tanrıya inam başlanğıcdan bəri dəyişməmişdir. Göylərə inam, Aya, Günəşin müqəddəsliyinə inam bu gün də öz təsirini saxlamaqdadır. Qədim inanclarda mühüm yer tutan Humay, Momo qadın əcdad ruhunun qoruyucu ruh özəlliyi tədricən Məryəm ana,. Həzrəti Fatimə ana kimi müqəddəslərə keçmişdir. Qam-şaman inancı olan ovsun funksiyasını isə bu gün baxıcılar, cindarlar, falçılar icra etməkdədirlər.

Tədqiq etdiyimz Şəki-Zaqatala bölgəsində istər müsəlman əhali – azərilər, avarlar, ləzgilər, rutullar, saxurlar, istərsə də xristian udilər və ingiloylar öz tarixi keçmişlərinə, ortaq mənəvi dəyərlərinə sadiq qalaraq qədim inanclar sisteminin ən arxaik elementlərini öz məişətlərində qoruyub saxlaya bilmişdilər. Yazılı mənbələrdən və

arxeoloji-etnoqrafik materiallardan məlum olduğu kimi, qədim Azərbaycan tayfaları tarixin ən qədim dövrlərindən Torpağa, Suya, Aya, Günəşə, Göyə etiqad etmişlər. Şəki-Zaqatala bölgəsi əhalisinin inanclarında, xüsusilə Aya sitayişin qalıqları daha güclü şəkildə qorunub saxlanmışdır.

Bölgədəki bir çox pirləri dinindən asılı omayaraq istər xristian, istərsə də müsəlman əhali eyni dərəcədə inanaraq ziyarət edir, burada birgə ayinlər icra edirdilər. Məsələn, bölgənin ən qədim ziyarətgahları olan Armatay piri (Güllük k.), Kürmüx məbədi (Qax r.), Gömrad dağı (Oğuz r.), Şeşpər baba ziyarətgahlarına bütün yerli əhali – həm xristian udulər və ingiloylar, həm də müsəlman azərilər, avarlar, ləzgilər, rutullar, saxurlar gedirlər. Bu da yerli əhalinin ortaq mənəvi dəyərlərə sahib olduğunu göstərir.

Nəticə olaraq deməliyik ki, azərbaycanlıların xalq inancları minilliklərdən boyu xalqın məişətində kök salmış islamaqədərki qədim etiqadların islam ənənələri ilə qaynayıb qarışması nəticəsində formalaşmışdır. Azərbaycanlıların qədim inanclar sisteminin qalıqları, bu inanclarla bağlı ayinlər toplusu bu gün daha çox ailə-məişət mərasimlərində qorunub saxlanmışdır.

Araşdırmalarımızın nəticəsi olaraq Azərbaycan və bütün türk çoğrafiyasının xalq inancları arasında aparılan paralellər də göstərdi ki, bu inanclar vahid bir kökdən qədim şumer-türk inanclar sistemindən qaynaqlanır. Xalq inancları isə etnosun kimliyinin ən güclü təyin edici amillərindən biridir.

Beləliklə, azərbaycanlıların qədim ailə mərasimlərinin araşdırılması, xüsusilə də, azərbaycanlıların ailə mərasimlərində qorunub saxlanmış qədim inancların qalıqlarının üzə çıxarılması bu mərasimlərin mənşəyinin və bununla da Azərbaycanda gedən etnik proseslərin qədim tarixi köklərini araşdırmağa imkan verir. Qeyd etmək lazımdır



ki, Şəki-Zaqatala bölgəsində təsbit etdiyimiz nümunələri Azərbaycanın hər yerində, eyni zamanda türk xalqlarının yaşadığı bütün türk çoğrafiyasında – Orta Asiya, Altay, Anadolu, Sibir, Balkan ölkələrində yaşayan türk xalqlarının ailə mərasimlərində də görmək mümkündür.

Azərbaycanlıların qədim ailə mərasimləri araşdırılarkən azəri türkləri ilə bərabər Azərbaycanda gedən etnik proseslərdə iştirak edən və müasir Azərbaycan xalqının formalaşmasında özünəməxsus yeri olan avarlar, udulər, ingiloylar, saxurlar kimi bir çox Azərbaycanda yaşayan etnosların da qədim mərasim və ayinlərinin müqayisəli təhlili ümumazərbaycan mənəvi irsinin öyrənilməsində daha dolğun məlumat əldə etməyə imkan verir. Bu istiqamət ümumazərbaycan mənəvi mədəniyyətinin fərqli, özünəməxsus xüsusiyyətlərinin ortaya çıxması üçün mühüm əhəmiyyətə malikdir.

Tarix boyu azəri türkləri ilə etnogenetik və etnomədəni ünsiyyətdə olan bu xalqların qədim mərasim ayinləri əsasən azəri türklərinin adət-ənələri ilə qaynayıb qarışsa da bəzən müəyyən dərəcədə öz spesifikliyini də qoruyub saxlaya bilmişdir. Ümumazərbaycan mədəniyyətinə öz töhfəsini vermiş hər bir etnos, tayfa, etnik qrup müasir Azərbaycan xalqının formalaşmasında iştirak edərkən özləri ilə birlikdə öz doğma mədəniyyətlərini də gətirmişlər. Bu mədəniyyətlər yüzilliklər boyu özünəməxsus tarixi proses keçərək formalaşdıqca bir-birinin içərisində əriyərək qaynayıb-qarışmış, onların bəziləri yeni məzmun, yeni keyfiyyət qazanmış, bəziləri isə tarixin qədim qatlarından bu günədək yaşaya bilmişdir.

## MƏLUMATÇILARIN SİYAHISI

1. Fadimət Əzimova 1935. Qax rayonu. İlisu kəndi.
2. Hafizə Ramazanova1935. Qax rayonu. İlisu kəndi.
3. Minəccər Əliyeva 1931. Qax rayonu İlusu kəndi.
4. Xəlilov Rfiq 1938. Qax rayonu. İlisu kəndi
5. Osmanov Cəbrayıl 1933. Qax rayonu . İlisu kəndi.
6. Alışayev Rafiq 1983. Qəbələ rayonu. Vəndam kəndi.
7. Abıgül Səfərova 1955. Qəbələ rayonu.
8. Ayşə Əhmədova 1950. Qəbələ rayonu.
9. Mehparə Bayramova 1939.
10. Safura Əliyeva. 1955. Qəbələ rayonu.
11. Jorik Bəylər oğlu Şukaşev 1930. Qəbələ rayonu. Nic kəndi
12. Orucov Qasım. 1934. Zaqatala rayonu. Əliabad kəndi.
13. Şabanov Əhmədalı. 1932. Zaqatala rayonu. Çobankol kəndi.
14. Nəzirova Zeynəb. 1919. Qax rayonu. Sarıbaş kəndi.
15. Sofuyev Nurullah1925. Qax rayonu.
16. Cəlilov Həşim. 1915. Qax rayonu. Sarıbaş kəndi.
17. Cələbiyeva Gülsüm. 1924. Qax rayonu. Sarıbaş kəndi
18. Nəzirov Kərim. 1914. Qax rayonu, Sarıbaş kəndi.
19. Qabulov Nemət. 1917. Qax rayonu.
20. Bəkirov İlyas. 1925. Qax rayonu.
21. Hacıyev Əkrəm. 1912. Qax rayonu.
22. Manafov Şamil. 1921. Qax rayonu
23. Hacıyev Arif. 1918. Qax rayonu. Güllük kəndi.
24. Qaçayev Allahyar. 1918. Qax rayonu
25. Həşimov Məmməd. 1920. Qax rayonu



26. Ismayılov Abidoy. 1964. Zaqatala rayonu. Əli bayramlı kəndi.
27. Məmmədova Hənsət. 1934. Zaqatala rayonu. Tala kəndi
28. Məmmədov Cəlal. Qax rayonu. 1922. Qaşqaçay kəndi.
29. Muradov Müzəffər. 1905. Qax rayonu. İlisu kəndi.
30. Abdulrzayev Şəfi. 1910. Qax rayonu.
31. Barxalov Rizvan 1940. Zaqatala rayonu. Tala kəndi.
32. İbrahimova Tamilla. 1941. Zaqatala rayonu. Suvagil kəndi
33. Seyidəliyev Hatəm 1929. Qax rayonu.
34. Əliyev Feyzulla. 1948. Qax rayonu. Marsan kəndi.
35. Rəsulov Nazim. 1949. Qax rayonu. Şotavar kəndi.
36. Hacıyev Adəm. 1910. Zaqatala rayonu. Göyəm kəndi.
37. İsayev Ramazan. 1904. Zaqatala rayonu. Car kəndi.
38. Kərimov Nazim. 1915. Qax rayonu. Tasmalı kəndi
39. Ramazanova Hürü. 1926. Qax rayonu. Tasmalı kəndi.
40. Hacıyev Mahmud. 1931. Tasmalı kəndi.
41. Abdulxalıqova Züleyxa. 1938. Zaqatala rayonu. Muxax kəndi.
42. Qədirov İsmayıl. 1941. Zaqatala rayonu. Tüyürbinə kəndi.
43. Ramazanova Şahnigar. 1950. Zaqatala rayonu Tala kəndi.
44. Kamdayev Mamed. 1935. Zaqatala rayonu. Car kəndi.
45. Yoxlayeva Xədicə. 1923. Masex kəndi.
46. Şabanova Gülüm. 1924. Muxax kəndi.
47. Yusubov Zunal. 1938. Muxax kəndi.

48. Çələbiyev Oruc. 1933. Əliabad kəndi.
49. Baqaltova Maysaray. 1930. Göyəm kəndi
50. Burcayev Şamil. 1934. Car kəndi
51. Omarova Kaxay. 1925. Dardoqqaz kəndi.
52. Yumusova Xacay. 1935. Kebeloba kəndi.
53. Aynalov Seyid. 1935. Danacı kəndi
54. Abdullayeva Raxliy. 1942. Tala kəndi.
55. Dibrayev Bəşir. 1940. Makov kəndi
56. Əlixanov Əhməd1930. Yuxarı Çardaxlar kəndi
57. Mamedov Müslüm. 1924. Faldar kəndi.
58. İbrahimova Səlihət. 1921. Tala kəndi
59. Cumalıyev Ömər. 1947. Tala kəndi.
60. Lülüyeva Sübeybət. 1932. Danaçı kəndi.
61. Alıxanova Rahilə. 1925. Yengiyan kəndi.
62. Qazıyev Ramazan. 1928. Tala kəndi.
63. Nəbiyev Füzulla 1922. Sarıbaş kəndi.
64. Arıxova Nüyvər. 1930. Bəhmənli kəndi
65. Qurbanov Əhməd. 1932. Muxax kəndi
66. Osmanov Osman. 1931. Tala kəndi
67. Əliyev Teymur 1939. Qax rayonu.
68. Kaxayeva Xalisat. 1939. Danaçı kəndi
69. Nurayev İsmayıl. 1931. Muxax kəndi
70. Nadirov Sadəddin. 1922. Mosul kəndi
71. Yunusova Dilarə1933. Qax rayonu. Qax-Muğal kəndi.
72. Qocayeva Saidat. 1931. Qax rayonu. Mehdiyev Şərif. Qax rayonu.
73. İbrahimov Abdulla . 1939. Çobankol kəndi.
74. Əfəndiyeva Fəzilət. 1935Zaqatala rayonu. Tüyürbinə kəndi.
75. Kasarayeva Ruqiyyət. 1939. Zaqatala rayonu. Çardaqlar kəndi.
76. Həsənova Zinyət. 1949.
77. Şeyxova Ülzüyyət. 1943. Yuxarı Çardaxlar kəndi.





Şəkil 1. Kudurlu kurqanı. Günəş fiqurlu qəbir örtükləri.

Şəkil 2. Şəki rayonu. Daşüz kurqanı.
Dairəvi formalı günəş fiquru.





Şəkil 3. Kudurlu kurqanı. Aypara formalı örtük.

Şəkil 4. Qadın başlanğıcı sayılan Humayın simvolu.





Şəkil 5. "Düyməcə" və "tac", yaxud keken adlanan baş geyimi.

Sandıq.





Zurna.



Şəkil 6. Pullu kəmər.





Şəkil 7. Boyunbağıları.



Şəkil 8. Ay-ulduzlu qızıl Quranqabı.

Şəkil 9. Pullu və gümüş kəmərlər.





Şəkil 10. Qız toyun (*solda* )və gəlin köçəndə (*sağda*) örtülən şal.

Şəkil 11. Çutqabaq.






Şəkil 12. Qadın başmaqları:
1 - Gəlin başmaqları; 2 - Çarıq; 3 - Uşaqlı qadın başmaqları; 4 - Yaşlı qadın başmaqları; 5 - Qız başmaqları.



Şəkil 13. Gəlin libasları.



Şəkil 14. "Çəpkən".



Şəkil 16. Bəy libasları.






Şəkil 15. Ləbbadələr.



Şəkil 17. Kişi papaqları: *aşağıda* bəy papağı.



Şəkil 18. Tambur.



Şəkil 19. Cehiz avadanlığı.

Şəkil 20. Mətbəx avadanlığı.







Şəkil 21. Mətbəx avadanlığı.








Şəkil 22. "Dumca" baş bəzəyi nmunələri.



Şəkil 23. Üstü muncuqlarla bəzəilmiş tumacdan başlıq.






Şəkil 24.Cehiz avadanlığı.



Şəkil 25.Toy sandığı.

Şəkil 26.Quranqabı.






Şəkil 27. Alafa.

Şəkil 28. Gərdək.





Şəkil 29. Gərdək.

Şəkil 30. Qoz ağacından düzəldilmiş beşik.



Şəkil 31. Bel bağı və ya meyzər bağı nümunələri.






Şəkil 32. Sinəbənd nümunələri: qazayağı.



Şəkil 33.

Şəkil 34.



Şəkil 35. İlgək.





Şəkil 36. "Maralyalayan baba" piri.

Şəkil 37. "Pəriqaya" piri.











Şəkil 38. "Toyuqqıran" piri.

Şəkil 40. Müəllif Qax rayonu İlisu kəndində etnoqrafik məlumat toplarkən.



78. Balayeva Asya. 1930. Tala kəndi.
79. Qurbanova Pəri. 1948. Tala kəndi.
80. Qurbanova Gülöyşə. 1938. Suvagil kəndi.
81. Mollayeva Fatma. 1947. Masex kəndi.
82. Barasova Nəcibə. 1956. Qax rayonu.
83. Sadıxova Ətirnaz. 1963. Göyəm kəndi.
84. Yusifova Mina. 1954. Faldar kəndi.
85. Eminova Aynay. 1963. Suvagil kəndi.
86. Əliyeva Nərgiz. 1970. Tala kəndi.
87. Balayeva Minayə. 1957. Tala kəndi.
88. Axundova Lətifə. 1935. Qax rayonu.
89. Tanrıverdiyeva Mahiz. 1941. Qaxrayonu
90. Osmanov Əlövsət. 1962. Qax rayonu. Marsan kəndi

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*


1. Abdullayeva M. Y. Azərbaycan folklorunun reqional xüsusiyyətləri. Bakı, 2002.
2. BəhlulAbdulla. Azərbaycan mərasim folkloru. Bakı, 2005.
3. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI c. Bakı, 1981.
4. Azərbaycan Sovet Ensiklopediyası. VIIc. Bakı,1983.
5. Azərbaycan mifoloji mətnləri. Tərtib edəni Acalov. Bakı, 1988.
6. Azərbaycan folkloru antologiyası.VI. Şəki folkloru. Bakı, 2002.
7. Azərbycan nağılları. 5cilddə.Ic. Bakı 1960.

7a. Azərbaycan nağılları.5 cilddə. IVc. Bakı.1964.

8. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə.III c. Bakı1984.

8a. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. I c. Bakı, 1982.

9. Azərbaycan folklor antologiyası.Ic. Bakı,1968,
10. Azərbaycan nağılları. Bakı,1962.
11. Azərbaycan tarixi üzrə qaynaqlar.Bakı1989.
12. Acalov A.M. Novruzov M.D. "Al" tapınışı və onun izləri. Azərbaycan filologiyası məsələləri.Bakı.1983.
13. Ağ atlı oğlan. Azərbaycan xalq nağılları.Bakı, 1952
14. Aslanov Ə.M. "Ur formatlı qafqaz hidronomiyası. Azərbaycan onomastikası problemləri. Bakı, 1990.
15. Babayev İ., Əhmədov Q. Qəbələ. Bakı,1981.
16. Bahəddin Ögəl "Böyük hun imperiyası" .I c. Bakı, 1992.
17. Bayat F. Od ruhu.Folklor və etnoqrafiya. 2004. N3.
18. Bayat F. Oğuz etnik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı, 1993.
19. Babayev T. Bal tutan barmaq yalar.Bakı, 1992.
20. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998.
21. Çəmənzəminli Y. Qızlar bulağı. Bakı, 1968.





22. Cavadov Q. Azərbaycanda el köməkliyi adətləri. Bakı, 1993.
23. Cavadov Q.Əkinçilik mədəniyyətimizin sorağı ilə. Bakı, 1990.
24. Cavadov Q., R.Hüseynov. Udilər. Bakı, 1999.
25. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 2000
26. Dünya xalqları.Ensiklopedik lüğət. Bakı, 1998.
27. Dadaşzadə M. Azərbaycanın orta əsrlərdə mənəvi mədəniyyəti. Bakı, 1985.
28. Əfəndiyev R. Şəki şəhərində evlənmək adətləri. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri.1946.N2.
29. Əfəndiyev R.Şəkinin etnoqrafiyasına aid olan material-lar. AMEA Əlyazmalar İnstitutu.i-2191.
30. Əliyeva M.Esen.Türkiyəyə göç edən Ahıska türklərinin evlilik adətlərində görülən kültür gələnəyi. V Ulislararası folklor konfransının materialları. Bakı, 2007
31. Əhmədov Ə.K. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın şimal-qərb əhalsinin toy adətləri haqqında. Az.SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1970. N2.
32. Əliyev K, Əliyeva K. Azərbaycan antik dövrdə. Bakı, 1997.
33. Əfəndiyev Ə. Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu. QƏXTMT (SMOMPK) Bakı, 1999.
34. Əliyev Ş.H. İngiloylar. Avtoreferat. Bakı, 2006.
35. Əjdər Fərzəli. Dədə Qorqud yolu. Bakı, 1995.
36. Əbdürrəşid əl-Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Bakı, 1992.
37. Əliyeva K. Azərbaycanda islamaqədərki dini inamlar və onların ədəbiyyat və incəsənətdəki prototipləri. V Uluslararası folklor konfransının materialları. Bakı 2007.
38. Əliyev V. Baba-Dərvişdə katakomba qəbirləri. Azerb. SSR. EA Xəbərləri tarix, fəlsəfə və hüquq. 1969.N4.
39. Əlibəyzadə E. Azərbayсan xalqının mənəvi mədəniyyət tarixi. Bakı,1998.
40. "Ədəbiyyat" qəzeti.3 sentyabr,2004-cü il.

41. Gəncəvi N. Lirika. Sirlər xəznəsi. Şərəfnamə Bakı, 1988.
42. Hacıyeva M. Pir inacları.Qafqaz jurnalı.2001.N7
43. Hacıyeva M. Türk dünyası və qardaş ölkələr ədəbiyyatı. Ankara.1997.
44. Haqverdiyev Ə.V. Seçilmiş əsərləri. Ic. Bakı, 1957.
45. Xaqani Seçilmiş əsərləri. Bakı, 1987.
46. Kalankatuklu M. Albaniya tarixi. Bakı, 1993.
47. Kafesoğlu İ.Oğuzlar.Folklor və Etnoqrafiya. 2005. N01
48. Kitabi-Dədə Qorqud. Bakı, 1962.
49. Qazıyev S. Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntıların ilk yekunları. Azrbaycanın maddi mədəniyyəti. Bakı, Ic. 1965.
50. QədirzadəQ. Naxçıvanın ailə məişətində adət-ənənlər. Aftoreferat. Bakı 2000.
51. Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, 1994.
52. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü. Bakı, 1994.
53. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah.I hissə. Bakı, 1994.
54. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. II hissə.Bakı1994.
55. Qətran Təbrizi.Divan. Bakı, 1967.
56. Quliyev H.A., Bəxtiyarov S.A. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları.Bakı, 1968.
57. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı1993.
58. Mahmudlu Y. "Kitabi-Dədə Qorqud" tarixi mənbə kimi və ya türkün çağlayan tarix bulağı. "Altay dünyası" (Beynəlxalq jurnal) Bakı. 1997, № 1-2.
58a. Mahmudlu Y. İlusu sultanlığı-tarixi xəzinəmizdən bir inci. Летифова Е.М. Северо-Западный Азербайджан. Илисуйское султанства. Баку,1999.
59. Mustafayev A. İngiloyların maddi mədəniyyəti. Bakı, 2005
60. Məmmədova Z. Zaqatalalı Aşıq Mədətin yaradıcılığında ictimai-siyasi, əxlaq və dini ürfani görüşlər. IV Uluslararası Folklir konfransının materialları. Bakı, 2006.



61. Müseyibli N. Gəmiqaya. Bakı, 2004.
62. Mıkayılova N. Vartaşen toponimi haqqında. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri-konfransın materialları. Bakı, 1990.
63. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. Bakı, 2006.Ic.
64. Nəbiyev A. Nəğmələr, inanclar, alqışlar. Bakı, 1986.
65. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. Bakı, 2002. I hissə.
66. Nəzərli Ş. Vurğun keçib bu yerlərdən. Bakı, 1978.
67. Namazov Q. türk əsilli "ərməni" aşıqları.V Folklor konfransının materialları.Bakı, 2007.
68. Nəcəfov Ş.N. Zəyəmçay nekropolundakı qəbir abidələri və onların bəzi müqayisəli təhlili.Elmi araşdırmalar.VII buraxılış,Bakı, 2004.
69. İzmaylova A. Azərbaycanın qadın baş geyimləri. Azərbaycan etnoqrafik məcmuəsi. IV. Bakı, 1981.
69a. İslam Sadıq, Pərinaz Sadıqlı. "Koroğlu" dastanı və ailə-nikah məsələsi. "Elm və həyat", N3-4\ 2006.
70. Ögəl B. Böyük Hun imperiyası. Bakı, 1992.Ic.
71. Paşayev Q. İraq-Türkman folkloru. Bakı,1992.
72. Paşayev Q. Kərkük folklorunun janrları.Bakı, 2003.
73. Paşayeva M. Qədim türkmənşəli tayfaların izləri Azərbaycan toponimlərində. Yom dərgisi, 2007. N1
74. Paşayeva M. Azərbaycanlıların qədim dini-mifik təsəvvürlərində kosmoqonik inamların yeri. Folklor və Etnoqrafiya. 2006. N1
75. Paşayeva M. Azərbaycanın qədim diyarı Xınalıq. Bakı, 2007.
76. Paşayeva M. Azərbaycanda balla bağlı inanclar. Uluslararası beynəlxalq folklor konfransının materialları. Bakı, 2007.
77. Sarabski H. Köhnə Bakı. Bakı, 1958.
78. Seyidov M.Qızıl döyüşçünün taleyi. Bakı, 1984.
79. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
80. Seyidov M. Yuğ" haqqında bəzi mülahizələr. Qobustan jurnalı. 1978. N1.

81. Rəcəbov Ə. Məmmədov Y.Orxon-Yenisey abidələri. Bakı, 1993.
82. Rzayev N. Əcdadların izi ilə. Bakı, 1992.
83. Süleymanova l. Folklor məclisləri. "Ortaq türk keçmişindən türk gələcəyinə" V folklor konfransının materialları. Bakı, 2007.
84. Süleymanova L. Şəki folklor mühiti.Avtoreferat. Bakı, 2008.
85. Şükürov A. Mifologiya. VI. Bakı, 1997.
86. Şükürlü.Ə.S. Qədim türk yazılı abidələrinin dili. Bakı, 1993.
87. Şəlalə qəzeti. 28 sentyabr, 1989-cu il.
88. Təbrizi Ə. Mehr və Müştəri. Bakı,1986.
89. Türkcə sözlük.IIc. Türk Dil Kurumu Yayınları. Ankara. 1983.
90. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı, 1987.
91. Voroşil Q. Udinər. "Elm və həyat" jurnalı, 1984. N4.

*Rus dilində*

92. Аббасова М. Некоторые особенности брачной обрядности лезгин. Известия АН Азерб. ССР. Серия языка, литературы и исскуства. 1988. №4
93. Axundov.T. Северо-западный Азербайджан в эроху эниолита и бронзы. Баку, 2001.
94. Артаманов М.И. История Хазар. Ленинград, 1962.
95. Артаманов М.И. Очерки древнейщей истории Хазар. Л., 1936.
96. Алиев А.И. Нуриев Э.Б. Топонимия Кахского района Известия АН Азерб. ССР. №3. Баку, 1978.
97. Алиев И. История Мидии. Баку, 1960.
98. Армянское география VII веке по Р.Х. Санкт-Петербург, 1877.
99. 17. Арасханянц А.Н. Экономический быт государственных крестьян Нухинского уезда Елизаветпольской губернии. "Материалы для изучения экономического быта государственных крестьян Закавказкого края". Том 6. Тифлис, 1887.



100. Алекперов Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960.
101. Алекперов С. Азимбеков И. Сысоев В. Евлах-Шуша. "Известия Азербайджанского Комитета охраны памятников старины, исскуство и природы. Вып. 3. Баку, 1927.
102. Алпамыш. Узбекский народный эпос.Москва,1958.
103. Агаширинова С.С. Свадебные обряды лезгин Х!Х-нач. XX веков. Уч.записки НИЯЛ Дагестанского филиала АН ССР. т.XII. Махачкала, 1964.
104. Археологические и этнографические изыскания в Азербайджане (1977). Баку, 1980.
105. Алиев К. Античная Кавказская Албания. Баку, 1992.
106. Бакрадзе Д. Заметки о Закатальском округе. ЗКОИРГО, вып.1, кн. 14.-Тифлис, 1890.
107. Бахышов Ч.А. Изменение этнического состава населения Азербайджанской ССР (по данным преписей 1897-1997 г. Советская Этнография журналы. 1982. №5.
108. Бартольд В.В. Сочинение. Москва,1968.
109. Бежанов М. Краткие сведения о селе Варташен и его жителях. СМОМПК. вып.14. Тифлис, 1892.
110. Брокгауз-Ефрон. Новый Энциклопедический словарь .т. XII, 1894. Закататальский округ. Ингилойцы.
111. Броневский С.М. Новейщие. географические и исторические известия о Кафказе. Москва, 1823. ч.1.
112. Бакыханов А.Гюлистан-и Ирам. Баку. 1991.
113. Булатова А. Традиционные праздники и обряды народов горного Дагестана в XIX–нач. XX века. Москва. 1988.
114. Велиев М.Г. (Бахарлы) Азербайджан. Баку. 1921.
115. Величко В.Л: Кавказ русское дело междуплемянное вопросы. СПб. 1904.

116. Вениаминов Б. Селение Салахлы и татарские сказки записанные в нем.СМОМПК вып. 7.
116а. Византийские историки.СПб.,1860.
117. Ворошил Г. История Кавказской Албании. Баку.1962.
118. Ворошил Гукасян. Вагиф Асланов. Исследования Азербайджанского языка до писменного периода. Баку.1983.
119. М.Везиров. Несколко сведений о татарских поверйах. вып. IX. 1890. СМОМПК.
120. Геродот. История. Москва, 1971.
121. Газета "Кафказ" 1846. №2-3.
122. Газета "Кафказ" 1864. №83, 94, 100.
123. Газета"Кавказ"1854, №5
124. Ган Е.Ф.Путеществие в Кахетию и Дагестан. СМОМПК, вып. 31. II отдел, Тифлис,1902.
125. Гагамейстр Н.А. Хозяйственный очерк Закавказского края. Народонаселения. Обозрение Российских владений за Кавказом. СПб., 1836.
126. ГенкоА.Н. Сахурский (сахский) алфавит. Баку, 1931
127. Гейбуллаев Г. К этногенезу Азербайджанцев. Баку, 1994.
128. Галданова Г.Р. Доисламские верования бурят. Новосибирск, 1987.
129. Гусейнзаде А. О происхождение топонима Загулба. "Ономастика Кавказа", Махачкала, 1976 .
130. Долгих Б.О. Родовой и племенной состав Сибира в XVII в. Москва. 1960.
131. Джафаров Й.Р. Гунны и Азербайджан. Баку, 1985.
132. Дубровин Н.Ф. История войны и владычества русских на Кафказе. О Кафказа и народов его населяющих, т.1, кн.1,2. СПб.,1871.
133. Дирр А.М. Грамматика удинского языка. СМОМПК, Т.33. 1904.
134. Дирр А.М. Рутульский язык, СМОМРК. вып. 41, Тифлис,1910
135. Дирр А.М. Сахурский язык.СМОМРК. вып. 43, Тифлис, 1910.



136. Дубровин И. История войны и владычества русских на Кавказ. т.I, кн.2. СПб.,1871.
137. Древнетюркский словарь. Ленинград, 1969.
138. Древние обряды и верования народов Средней Азии. Историко-этнографические очерки. Москва, 1986.
139. Древнее искусство Алтая. Текст М.Грязнова. Ленинград, 1958.
140. Зубарев Д.Е. Поездка в Джарскую и Белоканскую области. Тифлиские ведемости. №81-82. 1830.
141. Захаров А. Домашный и социальный быт женщин у Закавказских татар. СМОМРК. вып. XX. Тифлис, 1894.
142. СМОМРК вып.31. Тифлис, 1902.
143. СМОМРК вып.9. Тифлис, 1890.
144. Ибрагимова Ф.М.Влияния азербайджанских "баяты" на песенную лирику народов Южного Дагестана (рутулов, агулов, сахуров) V Uluslararası folklor konfransının materialları. Bakı, 2007.
145. Ибрагимов К.М. О традиционных женских головных уборах Шекинской зоны. Археологические и этнографические изыскания в Азербайджане (1977г.). Баку, 1980.
146. Известия АН Азерб.ССР. Литература. Языкаведения. Искуства, 1972. N1.
147. Измайлова Атига. Женские ювелирные украшения Азербайджана. Azərbaycan tarixi muzeyi. -80-. Bakı, 2001.
148. Краткое историческое сведение о султанах Илисуйских. АКАК т. VII. Тифлис 1882. (Акты кафказской Археографической комиссии.
149. Крымски А.Е.Страницы из истории Северного или Кавказского Азербайджана. Кабала. Сборник статей. Ленинград, 1934.
150. Косвен М.О. Этнография и история Кавказа. Москва, 1960

151. Кулиева К.М. Некоторые этнографические сведения о пище населеня Закатальского района. Материалы тезисов. Баку, 1979 г.
152. Кузаев Р.Г. Происхождения башкирского народа. Москва, 1974.
153. Константинов И.О Джаро-Белокаканы до XIX столетие. газета Кафказ. №2-3.1846.
154. Киясбеков А. Свадебные обряды у мусульман Нухинского уезда. СМОМПК, вып.31, Тифлис, 1902.
155. Кисляков Н.А. Очерки по истории семье и брака у народов средней Азии и Казахыстана" Москва, 1969.
156. Казыев С.М. Родовой строй в древном Азербайджане. Очерки по истории Азербайджана. Баку, 1944.
157. Кармышева Б.Х. Архаическая символика в погребально-поминальной обрядности узбеков Ферганы. Древние обряды верования и культы народов Средней Азии. Москва, 1986.
158. Линевич Бывщее Елисуйское султанство. ССКГ вып.7. Тифлис, 1873.
159. Луконин В.Г. Древний и раннесредневековый Иран. Москва, 1987.
160. Летифова. Северо-Западный Азербайджан. Баку.1999.
161. Латыщев В.В. Известия древних писателей, греческих и латинских, о Скифии и Кавказе. т.I. вып.1. СПб.,1893.
162. Лавров Л.И. Рутульцы. "Советсая этнография", 1959, №4.
163. Лавров В.И. Рутульцы в прошлом и настояшем. "Кавказский этнографический сборник", ч.3, Москва-Ленинград, 1962.
164. Murad Аджы. Европа, тюрки, Великая Степ. Москва, 1998.
165. Марр Н.Й. Избранныен работы. т. IV. Москва-Ленинград, 1937.
165a. Материалы тезисов. 1979г. Баку, 1980.
166. Минорский В.Ф. История Дербента и Ширвана X-XIII вв. Москва, 1963.



167. Малов С.Е. Памятники древнетюркской писменности. Москва-Ленинград, 1951.
168. Мусхелешвили Д.Л. Из исторической географии Восточной Грузии (Шаки и Гагарена). Тбилиси. 1982.
169. Народы Кавказа. т.II. Москва. 1960.
170. Народы Средней Азии и Казахыстана. т.I. Москва,1962.
171. Национальный состав населения Азерб.ССР. Баку. 1990.
172. Петрушевский И.Р. Джаро-Белоканские вольные общества в первой половине XIX века. Махачкала, 1993.
173. Пигулевская Н.В.Сирийские источники по истории народов СССР. Москва-Ленинград.1941.
174. Плотто А.И. Природа и люди Закатальского округа. ССКГ. Вып.4. Тифлис, 1890.
175. Пасербский А.Ф. Очерк Закатальского округа. "Кавказский календарь". Тифлис, 1866.
176. Пасербский А.Ф. Исследования по Закатальскому округу как материал для будущего историка. Газета "Кафказ" №83,94,100. 1864.
177. Рашид-ад-дин. Сборник летописей. т.I. кн.I. Москва-Ленинград.1952.
178. Рашид ад-Дин. Джами ат-Таварих. Баку.1956.
179. Религиозная верования народов СССР.под ред. М.Г.Левина, С.А.Токарева и Р.С.Липеса. т.I. Москва-Ленинград, 1982.
180. Сергеев Г.А.Арчинцы. Москва. 1965.
181. Сборник газеты Кавказ. Тифлис, 1847.
182. Сегаль Д.Л. Елизаветпольская губерния. Тифлис. 1902.
183. Степанов И. Закатальский округ. СМОМПК. Вып. 9. Тифлис, 1890.
184. Снесарев Г.И. Обьяснительная записка к "Карте расселения узбеков на территории Хорезмской низменности. "Хозяйственно-культурные традиции народов Средней Азии и Казахстана". Москва, 1973.
185. Снесарев.Г.П. Религии до мусульманских верований и обрядов и узбеков Хорезма. Москва, 1969.

186. Сумбатзаде Этногенез Азербайджанского народа. Баку, 1990.
187. Сведения о количестве народонаселения в г.Закаталах и Закатальском округе ро камеральному орисанию 1873 года. ССКГ, вып.VII. Тифлис, 1873.
188. Сборник сведений о Кавказских горцах. вып. II. Тифлис, 1869.
189. Страбон География в 17 книгах. Москва, 1964.
190. Сведение арабских писателей о Кавказе и Азербайджане. СМОМПК вып. 29. Тифлис, 1901.
191. Сумбат сын Давида. Жизн и известие о Багратидах. СМОМПК вып. 28. Тифлис, 1900.
192. Семья и брак народов Дагестана в XIX – начале XXв. Москва, 1985.
193. Сергеева Г.А. Этнографические наблюдения в Азербайджане. Полевые исследования института этнографии. 1982. Москва, 1986.
194. Соловьева Л.Т.Современная свадба цахуров Азербайджана. Полевые исследования института этнографии.1982. Москва, 1986.
195. Захаров А. Домашний и социальный быт женщин у Закавказских татар. СМОМПК. вып.XX. Тифлис, 1894.
196. Сагалаев А.М. Алтай в зеркале мифа. Новосибирск, 1992.
197. Тахиров Р.А. Современный быт колхозного крестьянства северо- западного Азербайджана. Этнографические исследования по материалам Закатальского, Кахского и Белоканского районов. Автореферат кан. дис. Махачкала, 1970.
198. Тревер К.В Очерки по истории и культуры Кавказской Албании. Москва-Ленинград,1959.
199. Услар. Этнография Кавказа. Тифлис, 1887.
200. Фон-Плотто А. Природа и люди Закатальского округа. ССКГ, вып.4. Тифлис, 1870.
201. Флитнер.Н.Д. Културa и искуства Двуречя. М.-Л,1958.



202. Царевич Вахушти. География Грузии. ZKOİRQO кн. XXIV, вып.5, Тифлис, 1904.
203. Челеби Евлия. Книга путешествия (Извлеченийа из сочиненийа турецкого путешественника XVII века), вып.3. Москва, 1983.
204. Чурсин Т.Ф. Очерки по этнологии Кавказа. Тифлис. 1913.
205. Шопен И.И. Кавказ и его обитатели. Обозрения закавказского края.ЖМГИ. с.1. кн.2. СПб., 1841.
206. Шыхсаидов А.Р.Ислам в средневековом Дагестане VII–XVвв. Москва, 1969.
207. Шаниязов К.К. Этническая история узбекского народа. Москва, 1974.
208. Штернберг Л.К. Первобытная религия в свете этнографии. Москва-Ленинград, 1936.
209. Шербак А.М. Огуз-наме. Москва, 1959.
210. Эсадзе С. Историческая записка об управлении Кафказом, т.1. Тифлис,1907.
211. Эфендиев Р. Несколько сведений о селении Куткашин, Нухинского уезда Елизаветрольской губернии. СМОМПК. вып.IX. Тифлис, 1890.
212. Эфендиева Р. Традиционная погребально-поминальная обрядность Азербайджанцев.(конец X1X-нач. XXвв.) Баку, 2001.
213. Эритцов А.Д.Экономический быт государственых крестян Казахского уезда. Материалы. т.II, вып.2. Тифлис, 1886.
214. Яновский А. О древней Кавказской Албании. ЖМНР ч.II. №11-12.-СПб.,1846.
215. Языки народов СССР,Иберийско-кавказские языки. т.4. Москва, 1967.
216. Яищников. Джары-Балоканы до X1X столетия. Газета "Кафказ" №2-3, 1846.

217. Abdulkadir İnan, Eski Türk Dini Tarihi. Ankara, 1976.
218. Başbuğ H. Yezidilik inancı. İstanbul, 1987.
219. Bahəddin Ögəl. Türk kültürünün gəlişmə çağları. İstanbul, 1988.
220. Ögəl B. Türk kültürünün gəlişmə çağları.İstanbul, 1988.
221. ErözM.Türk Topluluqlarının Ölüm adətləri Üzərinə Bir Dənəmə. İstanbul, 1987.
222. Qaybullah Babayar. Göktürk Kaqanlığı Sikkeleri Kataloqu. Ankara.2007
223. Kaşqari M. Divani lüğat-it türk. Ic . Ankara, 1985.
224. Kırızoğlu.Kars tarihi. Ic. İstanbul, 1953
225. Kafesoğlu I.Eski Türk dini. Ankara, 1980.
226. Kalafat Y. Balkanlarda Uluğ türküstana Türk Xalq İnancları. VII. Ankara, 2007
227. Kalafat Y. Balkanlardan Uluğ Türkistana Türk Halk İnancları. II. Ankara, 2005.
228. Kalafat Y. Doğu Anadoluda Əski Türk İnanclarının izleri. Ankara, 2005.
229. Köprülüzadə M.F. XVI yüzyılın sonlarına kadar türk söz yazarları. İstambul, 1930.
230. Kürşat Öncül. Eskolotoji Mitleri Bağlamında Güzelköy (Denizli) Türk kültürü və Hacı Bektaş Veli. Araşdırma dergisi. Ankara, 2007. sayı 42.
231. Mehmet Yardımçı. "Manas" dastanında Geçen Xalq Kültür Degerlerinin Günümüzdeki izleri. "Erciyez". Eylül. 1996. sayı 225.
232. Örnek S.V. Halkbilimi. Ankara, 1977.
233. Toqan.A.Ümumi Türk Tarihine Giriş. İstanbul, 1951.c.I.
234. Harun Yıldız. Alevi Geleneyinde Ölüm ve Ölüm sonrası Tören ve Ritüeller.Türk kültürü və Hacı Bektaş Veli. Araşdırma dergisi. Ankara, 2007. sayı 42.
235. Haçıyeva M., Göktürk Ş., Paşayeva M. Azərbaycan folklor ve Etnoqrafiya sözlüyü. Ankara, 1999.



# İXTİSARLAR

| | |
|---|---|
| *АКАК* | *- Акты Кавказской Археографической Комиссии* |
| *ЗКОИРГО* | *-Записки Кавказского Отдела Императорского Русского Географического Общества* |
| *СМОМРК* | *- Сборник Материалов для Обследования Местностей и Племен Кавказа* |
| *ССКГ* | *- Сборник Сведений о Кавказских Горцах* |
| *ЖМНП* | *- Журнал Министерства Народного Просвещения* |
| *ЖМГИ* | *- Журнал Министерства Государственных Имуществ* |

Yığılmağa verilmiş 16.11.08.
Çapa imzalanmış 24.09.08.
Kağız formatı 60x90 1/16.
1 №-i mətbəə kağızı.
Hesab n.v. 20,25.
Tirajı 500 nüs.
Qiyməti razılaşima yolu ilə.